


**"Biz gələcək hədəflərimizi bilirik, Azərbaycanı dünyanın inkişaf etmiş ölkəsinə çevirmək istəyirik və Azərbaycan meyarlarını ən yüksək beynəlxalq meyarlara çatdırmaq niyyətindəyik."**

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

# AZƏRBAYCAN PROKURORLUĞU

*Elmi-praktiki jurnal*

*İyul - Sentyabr (2015-ci il)*

**Təsisçi:**
Azərbaycan Respublikasının Baş Prokurorluğu

**REDAKSİYA HEYƏTİ**

**Baş redakor:**
Namiq Əsgərov

**Baş redaktorun müavini:**
Nazir Bayramov
(nazirbayramov@mail.ru)

**Redaksiya heyətinin üzvləri:**
Müqəddəs Sultanov
Nazim Rəcəbov
İlqar Cəfərov
Nazim Abbasov
Natiq Hüseynov

**Məsul katib:**
Günay Əyyubova

**Redaksiyanın ünvanı:**
AZ 1001, Azərbaycan Respublikası,
Bakı şəhəri, N.Rəfibəyli küçəsi, 7.
**Tel.:** 492 25 17 **Faks:** 492 25 17
**www.genprosecutor.gov.az**

"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

Jurnal 2003-cü ildən etibarən, rübdə bir dəfə dövrilikdə dərc edilir.

Materiallardakı faktların doğruluğuna jurnalın redaksiya heyəti məsuliyyət daşımır.

Materiallarımızdan istifadə zamanı jurnala istinad etmək vacibdir.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin mətbəəsində çap edilmişdir.

Çapa imzalanmışdır: 27.07.2015
60x84 1/8 formatda 120 səhifə həcmdə çap olunmuşdur.
Tiraj: 1350 nüsxə

© "Azərbaycan Prokurorluğu", 2015

# MÜNDƏRİCAT


## İCTİMAİ-SİYASİ TƏDBİRLƏR

4 İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib

13 İlham Əliyev ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib

15 İlham Əliyev ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə paytaxtda təşkil olunmuş Gül bayramında iştirak edib

17 İlham Əliyev ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 11 illiyinə həsr olunan təntənəli mərasimdə iştirak edib

22 İlham Əliyev "Bakı-2015" birinci Avropa Oyunlarını açıq elan edib

30 İlham Əliyev "Bakı-2015" birinci Avropa Oyunlarının möhtəşəm bağlanış mərasimində iştirak edib

37 İlham Əliyev Birinci Avropa Oyunları ilə əlaqədar keçirilən mükafatlandırılma mərasimində iştirak edib

44 İlham Əliyev Binəqədi rayonu ərazisində yanğın baş verən çoxmərtəbəli binanın yerləşdiyi ərazidə olub

51 Zakir Bəkir oğlu Qaralov Azərbaycan Respublikasının Baş prokuroru təyin edilmişdir

## RƏSMİ TƏDBİRLƏR

52 Ulu öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü Baş Prokurorluqda qeyd edilmişdir

55 Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 92 illik yubileyinə həsr olunmuş tədbir keçirilmişdir

57 Azərbaycan Respublikasının Beynəlxalq Prokurorlar Assosiasiyasının fəaliyyətinə verdiyi töhfələr və görülən işlər yüksək qiymətləndirilmişdir

59 Prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə baxılması işi daim diqqət mərkəzindədir

61 Bakıda Məhkəmə-Hüquq Şurasının 10 illiyinə həsr olunan beynəlxalq konfrans keçirilib

## İNSAN HÜQUQLARI ÜZRƏ AVROPA MƏHKƏMƏSİNİN PRESEDENT TƏCRÜBƏSİNİ ÖYRƏNİRİK

68 Avropa Şurasının təsis etdiyi Hüquqşünasların insan hüquqları üzrə tədrisinə dair Proqramının (HELP) "e-learning" elektron tədris (məsafəli tədris) kursları

## İCTİMAİYYƏTƏ HESABAT

70 Prokurorluq orqanları əməkdaşları növbəti ağacəkmə kampaniyası keçirmişlər

71 Erməni terrorizmindən bəhs edən daha bir kitabın təqdimatı olub

72 Avropa Şurası ilə əməkdaşlıq uğurla davam etdirilir

73 Baş Prokurorluğun Elm-Tədris Mərkəzində "Prokurorluq orqanlarında kriminoloji təhlil aparılması metodikası" ixtisasartırma kursu təşkil edilmişdir

74 Baş Prokurorluğun Elm-Tədris Mərkəzində "Korrupsiya cinayətlərinin tövsifinin hüquqi (maddi, prosessual) əsasları və qaydaları" ixtisasartırma kursu təşkil edilmişdir

74 Prokurorluq orqanlarına qulluğa qəbulla bağlı elan edilmiş müsabiqənin ilkin mərhələsi olan test imtahanı keçirilmişdir

75 Bakı şəhəri, Nərimanov rayon prokurorluğunda gənc mütəxəssislərlə iş diqqət mərkəzindədir

77 Kürdəmir rayon prokurorluğunda Müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması barədə seminar keçirilmişdir

78 Qusar rayon prokurorluğunda «Müraciətlərə baxılması və vətəndaşların qəbulu işində müasir informasiya texnologiyalarının tətbiqi» mövzusunda seminar keçirilmişdir

79 Zaqatala rayon prokurorluğunda «Arxiv işinin təşkili» mövzusunda seminar keçirilmişdir

80 Baş Prokurorluqda hərbiləşdirilməmiş mülki müdafiə dəstələri üzvlərinin iştirakı ilə məşqlərin keçirilməsi davam edir

81 Tovuz və Bərdə rayon prokurorluqlarında «Təqsirsizlik prezumpsiyası prinsipinə dair Avropa Məhkəməsinin presedent hüququ» mövzusunda seminar-məşğələlər keçirilmişdir.

82 Naxçıvan şəhər prokurorluğunda "Hadisə yerinə baxış zamanı kriminalistika texnikasından istifadə qaydaları" mövzusunda seminar keçirilmişdir

82 Babək prokurorluğunda "Prokurorluq orqanlarında qanunvericiliyin sistemləşdirilməsi işinin aparılması qaydaları" mövzusunda seminar keçirilmişdir

83 Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Milli Qurtuluş Gününə həsr olunmuş tədbir keçirilmişdir

## PROKURORLUĞUN BEYNƏLXALQ ƏLAQƏLƏRİ

85 Baş Prokurorluğun əməkdaşları beynəlxalq təlim seminarında iştirak etmişlər

86 Baş Prokurorluğun nümayəndə heyəti beynəlxalq tədbirdə iştirak etmişdir

87 Baş Prokurorluğun nümayəndə heyəti Xorvatiya prokurorluğunda olmuşlar

88 Beynəlxalq Prokurorlar Assosiasiyası ilə əməkdaşlıq uğurla davam etdirilir

89 Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlıq uğurla davam etdirilir

90 Azərbaycan Prokurorluğu korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığa önəm verir

91 ## NORMATİV HÜQUQİ AKTLAR



# İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib

**Nazirlər Kabinetində 2015-ci ilin birinci rübün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair iclas keçirilib.**

Dövlətimizin başçısı iclasda giriş nitqi söylədi.

**Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi**

- Bu gün biz birinci rübün sosial-iqtisadi yekunlarını müzakirə edəcəyik, gələcək planlar haqqında danışacağıq. Deyə bilərəm ki, birinci rübün yekunları çox müsbətdir. Biz keçən ili də uğurla başa vurmuşduq. Baxmayaraq ki, keçən ilin sonunda bölgədə artıq böhran başlamışdır, Azərbaycan iqtisadiyyatın dinamik inkişafını təmin etmişdir və biz keçən ili də çox gözəl göstəricilərlə başa vurduq.

Bu ilin birinci rübündə də bu müsbət meyillər davam edib. Mən keçən ilin sonunda əmin olduğumu bildirmişdim ki, 2015-ci il də ölkə iqtisadiyyatı üçün uğurlu il olacaq. Birinci rübün yekunları bu sözləri təsdiqləyir. Ümumi daxili məhsul 5 faizdən çox artmışdır. Bu, çox gözəl göstəricidir, həm region, həm dünya üçün. Bu gün dünyada 5,3 faiz, yaxud da ki, 6 faizə yaxın inkişaf edən iqtisadiyyatlar çox azdır.

Azərbaycanda dinamik inkişaf təmin edilir və sevindirici hal ondan ibarətdir ki, qeyri-neft sektorumuz 7 faiz artmışdır. Bu da son illər ərzində aparılan düşünülmüş iqtisadi siyasət nəticəsində mümkün olmuşdur. Çünki

uzun illər Azərbaycan iqtisadiyyatına qoyulan vəsait, şaxələndirmə siyasəti, qeyri-neft sektorunun inkişafı imkan verir ki, iqtisadiyyatımız dayanıqlı surətdə inkişaf etsin, bir sektordan – neft-qaz sektorundan asılı olmasın. Hətta dünyada neftin qiymətinin kəskin şəkildə düşməsi bizim ümumi iqtisadi inkişafımıza təsir etməmişdir. Budur, Azərbaycanın iqtisadi modelinin unikallığı və bu göstəricilər bizim seçdiyimiz yolun nə qədər düzgün olmasını bir daha göstərir.

Qeyri-neft sektoru prioritet olaraq qalacaq. Çünki bundan sonra Azərbaycan iqtisadiyyatı çoxşaxəli surətdə inkişaf edəcəkdir. Şadam, artıq bir müddətdir ki, qeyri-neft sektorumuz ümumi daxili məhsulumuzun əksər hissəsini təşkil edir. Əminəm ki, bu faiz nisbəti getdikcə daha da artacaq və beləliklə, bundan sonra Azərbaycan iqtisadiyyatı neft-qaz amilindən daha da az asılı olacaq.

Bir daha demək istəyirəm ki, neftin qiymətinin iki dəfədən çox düşməsi bizim ümumi dinamik inkişafımıza təsir etməmişdir, qeyri-neft sektoru əsas iqtisadi yükü öz üzərinə götürmüşdür. Bundan sonra məhz qeyri-neft sektorumuzun inkişafı ölkəmizin uğurlu iqtisadi inkişafını təmin edəcəkdir.

Sevindirici haldır ki, sənaye istehsalı birinci rübdə artmışdır. Bildiyiniz kimi, son illər ərzində neftin hasilatının bir qədər düşməsi nəticəsində biz sənaye istehsalında artımı müşahidə etmirdik. Bu ilin birinci rübündə sənaye istehsalı təxminən 4 faiz artmışdır. Bu da görülən işlərin nəticəsidir. Keçən il Azərbaycanda "Sənaye ili" elan edilmişdir, bu sahəyə xüsusi diqqət göstərilmişdir. Ondan əvvəlki illərdə müasir sənaye komplekslərinin, texnoparkların yaradılması, kiçik və orta sahibkarlığın inkişafı sayəsində sənaye potensialımız böyük dərəcədə güclənmişdir. Bunun nəticəsidir ki, Azərbaycanda sənaye istehsalı artır.

Kənd təsərrüfatında da artım var. Kənd təsərrüfatı 3 faizdən çox artmışdır. Hesab edirəm ki, bizi gələcəkdə kənd təsərrüfatının əsas artımı gözləyir. Çünki hazırda aparılan islahatlar, işlərin təkmilləşdirilməsi və düşünülmüş siyasət, əminəm ki, yaxın illərdə daha da sürətli artıma təkan verəcəkdir.

İnflyasiya Azərbaycanda çox aşağı səviyyədədir. Keçən il bir faizdən bir qədər çox idi. Bu il isə 2,8 faizdir. O da çox əlamətdar hadisədir ki, manatın məzənnəsinə bu ilin fevralında dəyişikliklər edilmişdir, buna baxmayaraq, inflyasiya çox aşağı səviyyədədir. Bu, onu göstərir ki, Azərbaycanda istehlak bazarına nəzarət tam təmin edilir, dövlət və hökumət bu məsələləri daim diqqət mərkəzində saxlayır.

İnflyasiyanın aşağı səviyyədə olması, əlbəttə ki, insanların yaşayış səviyyəsinə müsbət təsir göstərir. Eyni zamanda, onu da bilməliyik ki, inflyasiya çox aşağı səviyyədə olanda iqtisadi inkişafı bir qədər əngəlləyir. Ona görə burada əlbəttə ki, düzgün balans seçilməlidir və Azərbaycanda makroiqtisadi vəziyyət daim diqqət mərkəzindədir. İnflyasiya həm sosial funksiyalarını özündə ehtiva etməlidir, eyni zamanda, ölkəmizin inkişafını, xüsusilə ixrac potensialımızın genişləndirilməsini təmin etməlidir. Hər il olduğu kimi, bu il də əhalinin pul gəlirləri inflyasiyanı üstələyir. Əhalinin pul gəlirləri 5,3 faizdir, təxminən iki dəfə inflyasiyadan artıqdır.

Bax, budur bizim əsas iqtisadi göstəricilərimiz. Hesab edirəm ki, 2015-ci ildə istənilən ölkə üçün, xüsusilə neft-qaz sektoru inkişaf etmiş ölkələr üçün bu, həddindən artıq müsbət göstəricidir, deyə bilərəm ki, bizim böyük uğurumuzdur. Bu uğurları biz əldə etmişik, Azərbaycan xalqı əldə edib. Əgər biz vaxtilə ölkəmizin qeyri-neft sektorunun inkişafına bu qədər böyük diqqət göstərməsəydik, bəlkə də bu gün bu nəticələr o qədər də ürəkaçan olmazdı. Əksinə bizi staqnasiya, resessiya gözləyə bilərdi, necə ki, biz indi dünyada, bölgədə bəzi yerlərdə bunu müşahidə edirik.

Azərbaycan iqtisadiyyatının xüsusiyyətləri ondan ibarətdir ki, bu, möhkəm təməl üzərində qurulub, özünü təmin edən iqtisadiyyatdır, xarici maliyyə resurslarından asılı deyil. Əksinə, biz indi özümüz donor kimi, həm başqa ölkələrə, eyni zamanda, beynəlxalq maliyyə qurumlarına maliyyə resurslarımızı təqdim edirik. Bu da bizə əlavə mənfəət gətirir. Azərbaycan iqtisadi müstəqilliyini tam şəkildə əldə etdikdə təbii ki, siyasi müstəqillik daha da güclənir.

Regionlarda birinci rübdə müsbət meyillər müşahidə olunub. İş yerlərinin yaradılması prosesi gedir, 30 minə yaxın iş yeri, - onlardan 25 mini daimi iş yeridir, - açılmışdır. Bu, daimi prosesdir, çünki dəfələrlə qeyd etdiyim kimi, Azərbaycanda müsbət demoqrafik vəziyyət mövcuddur. Əhali artır, belə olan halda iş yerlərinin yaradılması daimi proses olmalıdır. Bizim iqtisadi potensialımız əhalinin artması ilə uzlaşmalıdır. Çünki əhalinin artması çox müsbət prosesdir, bu, ölkəmizi gücləndirir, eyni zamanda, ölkəmizin sürətli inkişafını göstərir. Çünki biz demoqrafik dinamikaya nəzər saldıqda görürük ki, məhz son illər ərzində əhalimiz kəskin şəkildə artmağa başlamışdır. İqtisadiyyat da öz növbəsində bu artım üçün gözəl imkan yaratmalıdır ki, daim iş yerləri açılsın və işsizlik aşağı səviyyədə olsun. Hazırda işsizlik və yoxsulluq ən aşağı səviyyədədir, 5 faiz səviyyəsindədir.

Sosial məsələlər öz həllini tapır. Bu sahə daim diqqət mərkəzindədir və bizim düşünülmüş iqtisadi islahatlarımız bütün dövrlərdə güclü sosial siyasətlə də tamamlanırdı. Bu il bütün sosial öhdəliklər yerinə yetirilir, sosial infrastrukturun yaradılması üçün əlavə vəsait ayrılır, məktəblər, uşaq bağçaları, tibb müəssisələri tikilir.Hazırda 20-dən çox tibb müəssisəsi tikilir və təmir edilir, əhalinin diaqnostikası məsələləri öz həllini tapır, müayinədən keçmə prosesi uğurla gedir. Keçən il 5 milyon, bu il isə təqribən artıq 4 milyona yaxın Azərbaycan vətəndaşı müayinədən keçmişdir. Son illərdə bütün bölgələrdə müasir tibb mərkəzləri yaradılmışdır. Yəni, indi müayinədən keçmək üçün Bakıya gəlməyə ehtiyac yoxdur. Hər bir yerdə müasir tibb ocaqları var ki, insanlara gözəl xidmət göstərməlidir.

Sosial siyasətimizin digər aspektləri də daim diqqət mərkəzindədir. Sosial sahə insanların rifah halını, rahat yaşamasını təmin edən sahədir. Ona görə Azərbaycan dövləti bu sahəni daim diqqət mərkəzində saxlayır. Təbii ki, bizim gəlirlərimiz azalıb. Çünki neftin satışından əldə edilən gəlirlər təbii olaraq azalır. Ancaq əvvəlki illərdə əldə edilmiş maliyyə resursları, eyni zamanda, düşünülmüş siyasət, qeyri-neft sektorunun inkişafı və xarici investisiyaların cəlb edilməsi bizə imkan verir ki, hətta azalan gəlirlərlə bütün sosial öhdəlikləri yerinə yetirək və ölkə üçün vacib olan infrastruktur layihələrini icra edək.

Bu il də dövlət investisiya proqramı kifayət qədər genişdir. Bu proqramda əsas infrastruktur layihələri öz əksini tapıbdır və bu layihələrin icrası nəticəsində ölkəmizin inkişafı üçün daha da yaxşı şərait yaradılacaq, insanların rahatlığı, eyni zamanda, biznes mühitinin yaxşılaşdırılması üçün infrastruktur layihələri əlbəttə ki, önəmli yer tutur.

Bizim islahatlar aparıcı beynəlxalq maliyyə qurumları tərəfindən yüksək qiymətləndirilir. Davos Dünya İqtisadi Forumu ölkələrin iqtisadiyyatlarının rəqabətqabiliyyətliliyinə görə Azərbaycanı 38-ci yerə layiq görübdür. İldən-ilə bizim yerimiz yaxşılaşır. Biz daha bir pillə qalxmışıq və dünya miqyasında rəqabətqabiliyyətliliyə görə 38-ci yeri tutmaq hesab edirəm ki, gənc dövlət üçün böyük nailiyyətdir və bu yeri biz neftə, qaza görə yox, məhz düşünülmüş islahatlara görə qazanmışıq. Bizim iqtisadi siyasətimiz düşünülmüş siyasətdir, milli maraqlar və daxili resurslar üzərində qurulubdur. Ona görə Azərbaycanın xarici dövlət borcu çox aşağı səviyyədədir. Dünya miqyasında biz bu göstəriciyə görə ən qabaqcıl yerdəyik. Bu, bizə iqtisadi müstəqillik verir, eyni zamanda, biz Azərbaycana istənilən məbləğdə xarici bazarlardan maliyyə resursları da cəlb edə bilərik. Sadəcə olaraq, hesab edirəm ki, buna böyük ehtiyac yoxdur. Təbii ki, müəyyən mənada biz bunu edirik. Amma daha çox öz işlərimizi, ölkədə görüləsi olan işləri daxili imkanlar hesabına təmin edirik.

Ölkəmizin beynəlxalq nüfuzu gündən-günə artır. Azərbaycan dünya birliyinin etibarlı, dəyərli üzvüdür. Bütün həmkarlarımla keçirilən görüşlərdə Azərbaycana böyük hörmət müşahidə olunur. Azərbaycanda gedən işlər dünya birliyi tərəfindən izlənilir və böyük təqdirlə qarşılanır. Bizim xarici siyasətimiz çox fəaldır, çevikdir, milli maraqlar üzərində qurulubdur və milli maraqlar bizim üçün ən prioritet məsələdir. Yəqin ki, buna görə Azərbaycan son illər ərzində bütün bölgədə yaşanan böhranlardan, əgər belə demək mümkündürsə, itkisiz çıxıbdır və şərəflə öz siyasətini aparır. Biz heç kimin təhriki ilə addımlar atmırıq, düşünülmüş addımlar atırıq. Əgər o addımlar milli maraqlara uyğundursa biz bunu edirik, deyilsə biz bunu etmirik. Elə bir qüvvə yoxdur ki, bizi nəyəsə məcbur edə bilsin, yaxud da bizi hansısa kampaniyalara cəlb etsin ki, bu da bizim maraqlarımıza uyğun olmasın. Ona görə bu mövqe, eyni zamanda, hər bir məsələ ilə bağlı prinsipial mövqeyimiz təbii olaraq bizə böyük hörmət qazandırdı. Bu gün Azərbaycan dünya miqyasında çox böyük hörmətə, gözəl imicə malik olan ölkədir. Mən dünya birliyi deyəndə bütün ölkələri nəzərdə tuturam. Çünki dünya birliyi hansısa bir təşkilat deyil. Dünya birliyi bütün ölkələrdir. Bütün ölkələr BMT-də təmsil olunur və bilirsiniz ki, bizim BMT-dəki mövqelərimiz çox güclüdür. Əgər belə olmasaydı, bir neçə il bundan əvvəl 155 ölkə bizi BMT Təhlükəsizlik Şurasına üzv seçməzdi.

Biz öz prinsipial beynəlxalq siyasətimizi bu il də davam etdiririk. Bu ilin əvvəlindən baxmayaraq ki, cəmi 3 aydan bir qədər çox vaxt keçib, mənim çoxsaylı səfərlərim bizim beynəlxalq mövqelərimizi daha da möhkəmləndirib. İlin əvvəlindən mən Türkiyəyə iki dəfə səfər etmişəm, Almaniyaya, Bolqarıstana, Vatikana və Səudiyyə Ərəbistanına səfərlər etmişəm. Yəni, 3 ay ərzində edilən bu səfərlər artıq Azərbaycanın çoxşaxəli xarici siyasət apardığını göstərir. Səudiyyə Ərəbistanı müsəlman aləminin mərkəzidir, bizim müqəddəs ocaqlarımız bu ölkədə yerləşir, Vatikan isə xristian aləminin mərkəzidir.

Azərbaycan öz dini, milli, mənəvi dəyərlərinə sadiq olaraq müasirlik yolu ilə uğurla, inamla gedir. Biz bütün ölkələrlə bərabərhüquqlu münasibətləri qarşılıqlı hörmət, bir-birinin işinə qarışmamaq, dostluq və tərəfdaşlıq prinsipləri üzərində qurmuşuq və bizə göstərilən hörmət, əlbəttə ki, bizi sevindirir. Eyni zamanda, bu, bir daha göstərir ki, bizim xarici siyasətimiz qüsursuzdur. Mən bunu açıq bəyan etmək istəyirəm. Biz heç bir ölkə ilə əlaqələrimizi pozmamışıq. Heç bir ölkə ilə bizim aramızda heç bir gərginlik yoxdur. Əksinə, son illər ərzində biz nə qədər dost qazanmışıq, nə qədər çox ölkələr bizimlə əməkdaşlıq etmək istəyir. Dövlət, hökumət başçılarının Azərbaycana səfərləri, beynəlxalq tədbirlərdə mənim iştirakım bunu bir daha göstərir. Azərbaycan bu gün dünya miqyasında öz güclü yerini tutmuş ölkədir. Ölkəmizin dünya miqyasında hörməti getdikcə artır.

Eyni zamanda, mən ilin əvvəlində dünyanın iki aparıcı iqtisadi və siyasi forumlarında iştirak etmişəm – Davosda və Münxendə. Davos Dünya İqtisadi Forumu, Münxen Təhlükəsizlik Konfransı. O da sirr deyil ki, bu tədbirlərə məhdud sayda qonaqlar dəvət edilir. Bu tədbirlərdə dünyanın həm üzləşdiyi problemlər açıq və qapalı şəkildə müzakirə edilir, eyni zamanda, orada imkan yaradılır ki, hər bir iştirakçı öz baxışlarını ifadə etsin, öz fikirlərini bölüşsün. Azərbaycanın mövqeyi bir çox məsələlərlə bağlı çox böyük önəm daşıyır. Təkcə enerji siyasəti deyil, ümumiyyətlə, geosiyasi məsələlər, təhlükəsizlik məsələləri, iqtisadi əməkdaşlıq və sabitlik. Çünki baxın, indi dünyanın hər bir yerində qarşıdurma, müharibə, ziddiyyət, böhran, çevrilişlər və digər xoşagəlməz hallar müşahidə edilir. Bir il deyil, iki il deyil, artıq 10 ilə yaxındır ki, hər tərəf yanır. Azərbaycan sabitlik adasıdır, inkişaf məkanıdır və təbii ki, bu, dünya birliyi tərəfindən yüksək qiymətləndirilir.

Əlbəttə, antiazərbaycan qüvvələri bizə qarşı durmadan fəaliyyət göstərir. Bu barədə mən öz fikirlərimi dəfələrlə bildirmişəm. Azərbaycanın uğurlu inkişafını qəbul etməyən, bizim işimizə kölgə salmaq, bizi ləkələmək istəyən dairələr öz səylərini davam etdirirlər. Ancaq nə Azərbaycanda, nə də ölkəmizdən kənarda onların səyləri heç bir nəticə vermir və verə bilməz. Ölkəmizdən kənarda Azərbaycanın nüfuzu, beynəlxalq imici haqqında indi mən qısa da olsa çox dəqiq dəlillərlə öz fikirlərimi bildirdim. Ölkə daxilində də vəziyyət hamının gözü qabağındadır. Sabitlik, inkişaf, xalqla iqtidar arasındakı birlik bir daha onu göstərir ki, bizə qarşı aparılan kampaniyalar, yaxud da ki, burada hansısa iğtişaş yaratmaq cəhdlərinin heç bir təsiri yoxdur, ola da bilməz. Azərbaycan inamla inkişaf edir.

Ancaq əlbəttə ki, bu səylər davam edəcək. Çünki uğurlarımızı həzm edə bilməyən dairələr əlbəttə ki, bizdən əl çəkməyəcəklər. Biz isə onlara ən yaxşı cavabı öz işlərimizlə veririk və onların nə sözlərinə, nə məqalələrinə, nə bəyanatlarına heç bir əhəmiyyət vermirik və verməyəcəyik.

Bizim əsas problemimiz olan Ermənistan-Azərbaycan,

Dağlıq Qarabağ münaqişəsi əfsuslar ki, həll olunmamış qalır. Bu barədə dəfələrlə öz fikirlərimi bildirmişəm. Bir daha demək istəyirəm, bunun yeganə səbəbi ondan ibarətdir ki, Ermənistan sülh istəmir, status-kvonu saxlamaq istəyir. Baxmayaraq, Minsk qrupuna həmsədrlik edən dövlətlərin başçıları dəfələrlə bildirmişlər ki, status-kvo qəbuledilməzdir. Ermənistan buna məhəl qoymur və bu dövlətlər bu bəyanatlardan başqa heç bir konkret addımlar da atmırlar. Ona görə bu bəyanatlar havada qalır və beləliklə, münaqişə uzanır, öz həllini tapmır. Keçən ilin ortalarından həmsədr ölkələrin başçıları tərəfindən fəallıq göstərilirdi. Avqust, sentyabr, oktyabr aylarında Rusiya, Amerika və Fransa rəhbərləri zirvə görüşləri keçirmişlər ki, biz vəziyyətdən çıxış yollarını tezliklə tapaq və münaqişəyə son qoyaq. Azərbaycan əlbəttə ki, bu fəallığı dəstəkləyir. Çünki həmişə qeyd etdiyim kimi, münaqişənin həll edilməsində ən maraqlı tərəf məhz Azərbaycandır. Ancaq Ermənistan bu görüşlərdə qeyri-səmimi mövqe nümayiş etdirir, hər vəchlə çalışırdı ki, danışıqların mahiyyəti kənarda qalsın və hansısa etimad tədbirləri haqqında daha da çox söhbət aparılsın. Biz buna etiraz etmirdik. Etimad tədbirləri də önəmlidir, ancaq işin mahiyyəti işğala son qoyulmasıdır. Buna baxmayaraq,Paris görüşündən sonra biz şifahi olaraq razılaşdıq ki, hər iki tərəf təmas xəttində gərginliyi azaltmağa çalışacaq və bəlkə bu, danışıqlar prosesinə müsbət təsir göstərə bilər. Ancaq Ermənistanın riyakar siyasəti bir daha özünü büruzə verdi. İki həftə keçməmiş Ağdam rayonunda genişmiqyaslı hərbi təlimlərə başladılar. O təlimlərin bir məqsədi var idi- Azərbaycanı təxribata çəkmək və danışıqlar prosesini pozmaq. Biz bu təxribatlara bir neçə gün dözərək ondan sonra düşmənə layiqli cavab verdik və beləliklə, onlara öz yerini göstərdik. Onlar isə bundan istifadə edərək Azərbaycanı aqressiv davranışda ittiham etməyə başladılar.

Əlbəttə ki, heç kim buna, bu tezisə ciddi yanaşmırdı. Azərbaycan həmişə çox təmkinli mövqe nümayiş etdirir. Danışıqlarda 20 ildən çox iştirakımız onu göstərir ki, biz məsələnin sülh yolu ilə həll olunmasını istəyirik. Məsələnin həll olunmamasını Ermənistan istəyir. Çünki torpaqlarımızdan çıxmaq istəmir. Keçən ilin sonlarından Ermənistan tərəfi daim bizim mövqelərimizə hücumlar çəkir, bu, bu il də davam edir. Bu hücumlar nəticəsində onlarla erməni öz həyatını itirmişdir. Bizdə olan məlumata görə son 3-4 ay ərzində 50-dən çox işğalçı təmas xəttində məhv edilmişdir. Bunun günahkarı kriminal Ermənistan rejimidir, onun başçılarıdır, Ermənistanda hökm sürən diktatura rejimidir. Bu barədə mən artıq öz fikirlərimi bildirmişəm. Əgər ölmək istəmirsinizsə, Azərbaycan torpaqlarından rədd olun.

Azərbaycan öz prinsipial mövqeyindən əl çəkməyəcək. Biz bu mövqeyi müdafiə edəcəyik. Ermənistan isə bu işğalın yüksək qiymətini ödəyir - həm iqtisadi tənəzzül, həm müstəqillik qalıqlarının tamamilə itirilməsi, təmas xəttindəki itkilər, Ermənistan ordusunda artan fərarilik halları. İndi Azərbaycan tərəfinə keçən erməni əsgərləri qeyd edirlər ki, Azərbaycan tərəfinə keçmək istəyənlərin sayı kifayət qədər çoxdur. Sadəcə olaraq qorxurlar, çünki orada əmr verilib ki, əgər kimsə Azərbaycan tərəfinə keçmək istəyərsə, onlar onu arxadan güllələməlidirlər, öldürməlidirlər. Yəni, budur reallıq. Bu, işğalçı dövlətin ödədiyi qiymətdir və nə qədər ki, Ermənistan-Azərbaycan münaqişəsi həll olunmayıb onlar bu qiyməti ödəyəcəklər.

Biz Ermənistana qarşı daha da fəal mübarizə aparmalıyıq, aparırıq, bütün beynəlxalq, regional layihələrdən onları təcrid etmişik. Onların rəsmi statistik məlumatlarına görə əhalinin 30 faizi yoxsulluq, səfalət içində yaşayır. Amma real məlumat 50-60 faizdir. Onların rəsmi məlumatlarına görə hər il ölkədən 60-70 min insan həmişəlik köçür. Amma bizdə olan məlumat onu göstərir ki, bu rəqəm 100 minə yaxındır. Yəni, bir neçə ildən sonra artıq Ermənistan dövlətində, tarixi Azərbaycan torpaqlarında yaradılan bu dövlətdə erməni əhalisi qalmayacaq.

Mən bunu dəfələrlə demişəm, bizim cəmiyyətimiz, xüsusilə gənc nəsil heç vaxt unutmamalıdır ki, Ermənistan dövləti tarixi Azərbaycan torpaqları üzərində qurulub. Bu, bizim tarixi dədə-baba torpaqlarımızdır. Bütün toponimlər Azərbaycan mənşəlidir. Bunu bilmək üçün XX əsrin əvvəllərində çar Rusiyasında tərtib olunan xəritələrə baxmaq kifayətdir. Orada bir dənə də erməni toponimi tapmaq mümkün deyil. İndiki Ermənistanda bütün kəndlərin 80 faizi Azərbaycan mənşəli adlar daşıyır. Yəni, bu, bizim tarixi torpaqlarımızdır və biz mütləq o torpaqlara qayıdacağıq. Başqa cür mümkün deyil. Bu, bizim strateji hədəfimizdir və biz bu hədəfə çatmaq üçün çalışırıq, çalışacağıq. İqtisadi, siyasi, hərbi gücümüz, demoqrafik vəziyyətimiz bunu deməyə əsas verir. Maşallah, Azərbaycan əhalisi yaxın zamanlarda artıq 10 milyonu keçəcəkdir və bu, məsələnin həlli üçün az əhəmiyyət daşımır.

Bir sözlə, biz ərazi bütövlüyümüzün bərpası üçün bundan sonra da fəal səylər göstərəcəyik. Münaqişə beynəlxalq hüquq normaları, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bunun başqa yolu ola bilməz. İkili standartlara son qoyulmalıdır. Ölkəmizin ərazi bütövlüyü başqa ölkələrin ərazi bütövlüyündən az əhəmiyyət daşımır. Əgər Qərb dünyası postsovet məkanında münaqişələrin ərazi bütövlüyü çərçivəsində həll olunmasını tələb edirsə, bizim münaqişə də öz həllini bu prinsiplər üzərində tapmalıdır. Amma bizə gəldikdə görürsünüz ki, münasibət fərqlidir. Bu, riyakarlıqdır, ikili standartlardır, ədalətsizlikdir. Hər bir görüşdə, ən yüksək səviyyədə keçirdiyim görüşlərdə bu sözləri mən bax dediyim ifadələrlə tərəf-müqabillərimə çatdırıram. Bu riyakarlığa, ikili standartlara son qoyulmalıdır. Ermənistan Azərbaycanın tarixi, qanuni torpaqlarını işğal edibdir. Ancaq rəsmi bəyanatlara gəldikdə, çox mücərrəd ifadələr işlədilir. Biz öz sözümüzü deyirik, deyəcəyik. Qeyd etdiyim kimi, bizim beynəlxalq nüfuzumuz artır. Azərbaycanla hesablaşmamaq artıq mümkün deyil və ölkəmizin iştirakı, razılığı olmadan bölgədə heç bir təşəbbüs irəli sürülə və öz həllini tapa bilməz.

Birinci rübdə enerji sektorunda iki önəmli hadisə baş vermişdir. Fevralın 12-də "Cənub" Qaz Dəhlizi Məşvərət Şurasının birinci iclası bizim təşəbbüsümüzlə Bakıda keçirilmişdir. Bildiyiniz kimi, keçən il sentyabrın 20-də "Cənub" qaz dəhlizinin təməli qoyulmuşdur və Məşvərət Şurası iclasının keçirilməsi çox önəmli hadisə idi. Bu toplantıda "Cənub" qaz dəhlizinin bizimlə əməkdaşlıq edən bütün mövcud və gələcək üzvləri iştirak edirdi. Mətbuata verilən yekun bəyanat da çox müsbət

idi, orada Azərbaycanın liderlik rolu qeyd edilib. Mart ayında Türkiyənin Qars şəhərində TANAP layihəsinin təməl daşı qoyulmuşdur. Bu hadisə əlbəttə ki, dünya birliyinin diqqətini cəlb etdi. TANAP layihəsi "Cənub" qaz dəhlizinin tərkib hissəsidir. Bildiyiniz kimi, "Cənub" qaz dəhlizi 4 hissədən ibarətdir, TANAP onun önəmli hissəsidir. Azərbaycan TANAP layihəsinin icrasında əsas, yəni, səhmdar kimi fəaliyyət göstərir. Artıq işlər başlayır və hesab edirəm ki, Azərbaycan qazı -"Şahdəniz-2"dən çıxarılacaq qaz 2018-ci ildə Türkiyəyə çatdırılacaqdır. TAP layihəsi də icra edilməlidir. Hesab edirəm ki, TAP layihəsinin icrası üçün bəzi hallarda yaradılan süni maneələr aradan qaldırılacaq və Avropa ölkələri, bu layihədə iştirak edən ölkələr və Avropa İttifaqı bu məsələləri özləri həll edəcəkdir. Hər halda Azərbaycan və Türkiyə üzərinə düşən vəzifələri, TANAP layihəsinin icrası ilə bağlı bütün vəzifələri vaxtında yerinə yetirəcək.

"Cənub" qaz dəhlizi tamamilə yeni enerji xəritəsini ortaya qoyur və Azərbaycanın rolu getdikcə artır. Bildiyiniz kimi, Avropa İttifaqı indi enerji ittifaqı haqqında bəzi təkliflər irəli sürübdür və Azərbaycan Avropa Komissiyasının sənədlərində artıq önəmli tərəfdaş kimi göstərilir. Biz əlbəttə ki, bütün bu işləri izləyirik. Biz bilirik ki, Azərbaycanın rolu nə qədər əhəmiyyətlidir. Biz bilirik ki, Azərbaycan qazı hazırda Avropa məkanı üçün yeganə yeni mənbədir. Biz öz işimizi görürük və gördüyümüz işlər nəticə verir. Biz 2012-ci ildə Prezident Ərdoğanla İstanbulda TANAP layihəsini imzaladıq və 2015-ci ildə TANAP layihəsinin təməl daşını qoyduq. Görün, qısa müddət ərzində nə qədər iş görülmüşdür. Bundan əvvəl TAP layihəsi seçilmişdir, "Şahdəniz-2" layihəsinə start verilmişdir və Azərbaycanı Gürcüstanla birləşdirən Cənubi Qafqaz kəməri də artıq inşa edilir. Bax, bizim işimiz bunlardan ibarətdir, boşboğazlıq yox, konkret, nəticəyə hesablanmış işlər. Biz heç vaxt populist vədlər verməmişik, konkret nəyi demişiksə onu da etmişik. Ona görə birinci rübdə ümumi iqtisadi inkişafla əlaqədar dediyim bax bu sözlər bizim uğurlu siyasətimizi bir daha göstərir. Eyni zamanda, birinci rübdə enerji siyasətimizi bundan sonra uğurla aparmaq üçün çox önəmli addımlar atılmışdır. Əminəm ki, nəzərdə tutulan bütün vəzifələr ilin sonuna qədər icra ediləcək, dinamik inkişaf təmin olunacaq, iqtisadiyyat, qeyri-neft sektorumuz artacaq və Azərbaycan 2015-ci ildə daha da böyük zirvələrə çatacaqdır.

***

Sonra vergilər naziri Fazil Məmmədov, nəqliyyat naziri Ziya Məmmədov və mədəniyyət və turizm naziri Əbülfəs Qarayev çıxış etdilər.

***

Azərbaycan Prezidenti İlham Əliyev iclasda yekun nitq söylədi.

**Prezident İlham Əliyevin yekun nitqi**

– Qeyd etdiyim kimi, ilin birinci rübünün göstəriciləri bizi çox sevindirir. Çalışmalıyıq ki, ilin sonuna qədər bu templəri saxlayaq və ölkə iqtisadiyyatının inkişafını təmin edək.

Giriş sözümdə qeyd etdiyim kimi, qeyri-neft sektoru prioritet olaraq qalır, bütün lazımi tədbirlər görülür. Hesab edirəm ki, bu il qeyri-neft sektorumuz daha da arta bilər. Birinci aylarda yeddi faiz artım əlbəttə ki, gözəl göstəricidir. Çalışmalıyıq ki, ümumiyyətlə, qeyri-neft sektorumuz ümumi daxili məhsulun çox böyük hissəsini təşkil etsin. Ancaq o da həqiqətdir ki, bir neçə ildən sonra "Cənub" qaz dəhlizi işə düşəndən sonra bizim qaz ixracımız kəskin şəkildə artacaq. Beləliklə, neft-qaz sektorumuz daha da böyüyəcək. Belə olan halda qeyri-neft sektorunun daim neft sektorunu üstələməsi üçün biz əlavə tədbirlər görməliyik. Bu tədbirləri görürük. Onların içərisində, əlbəttə ki, infrastruktur layihələri bölgələrdə iqtisadi inkişafa şərait yaradır. Eyni zamanda, dövlətin sahibkarlara olan münasibəti, diqqəti və dəstəyidir.

Mən sahibkarlarla il ərzində dəfələrlə görüşürəm. Hər il biz regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramını müzakirə edərkən bu görüşlər olur. Ondan sonra mənim bütün bölgələrə, rayonlara səfərlərimdə bölgələrdə hansısa sənaye obyektinin açılışı nəzərdə tutulur. Beləliklə, sahibkarlara göstərilən siyasi dəstək kifayət qədər yüksəkdir. Eyni zamanda, dövlət sahibkarlığın inkişafı üçün digər tədbirlər də görür. Sahibkarlığa Kömək Milli Fondu tərəfindən güzəştli şərtlərlə kreditlər verilir. Bu kreditlər real iqtisadiyyatın inkişafını təmin edir, iş yerlərinin yaradılmasına şərait yaradır. Bu il də kifayət qədər böyük məbləğdə kreditlər ayrılıb. Bu kreditlərin demək olar ki, tam həcmi sonra qaytarılır və yenidən resurs baza kimi sahibkarlara verilir. Həm dövlət büdcəsində sahibkarlığın inkişafı üçün vəsait nəzərdə tutulur, eyni zamanda, əvvəlki illərdə verilmiş və qaytarılmış kreditlər yenidən sahibkarlara verilir. Yəni, o kreditlərin qaytarılması yenə də sahibkarlığın inkişafına şərait yaradır.

Azərbaycanda, deyə bilərəm ki, hazırda çox böyük sahibkarlıq sinfi yaradılmışdır. Ölkəmizin ümumi inkişafı bundan sonra daha çox sahibkarlığın inkişafından asılı olacaq. Əlbəttə, dövlət inhisarında olan strateji sahələr dövlətin əlində qalmalıdır. Bu, strateji nəqliyyat infrastrukturu, neft-qaz sektoru, strateji enerji infrastrukturudur. Çünki bu sahələr dövlət tərəfindən idarə edilməlidir ki, işlər məqsədyönlü şəkildə aparılsın. Əlbəttə ki, əsas infrastruktur qurumları dövlət monopoliyasında olanda tariflərə də dövlət nəzarət edir və imkan vermir ki, tariflər artsın yaxud da insanların yaşayış səviyyəsinə mənfi təsir göstərsin.

Digər sahələr isə artıq sahibkarlıq hesabına formalaşır. Ümumi daxili məhsulumuzun haradasa 80 faizdən yuxarı hissəsi özəl sektorda formalaşır. Keçən il "Sənaye ili" elan edilmişdir və qeyd etdiyim kimi, bu sahəyə böyük diqqət göstərilir. Biz özümüzü bütün tikinti materialları ilə tam şəkildə təmin etməliyik. Artıq biz buna yaxınlaşırıq. Bu rəqəmləri mən artıq müşavirələrdə səsləndirmişdim. İndi biz bir çox pozisiyalar üzrə tikinti materiallarımızı özümüz istehsal edirik və eyni zamanda, ixrac edirik. İxrac üçün də bizə yeni bazarlar lazımdır.

Bazarlara çıxmaq o qədər asan deyil, gərək məhsul rəqabətqabiliyyətli və qiyməti ucuz olsun. Dövlət öz tərəfindən sahibkarlara bu dəstəyi də göstərir. Çünki Azərbaycanda yanacaq kifayət qədər ucuzdur. Özəl sektora və ümumiyyətlə, əhaliyə satılan qazın qiyməti çox aşağıdır, cəmi yüz manatdır. Halbuki dünyada qiymət ondan bir neçə dəfə artıqdır. Elektrik enerjisinin



qiyməti kifayət qədər aşağıdır. Yəni, bütün bunlar sahibkarlığın inkişafı üçün dövlət tərəfindən verilən böyük güzəştlərdir. Azərbaycanda istehsal olunan məhsulların rəqabətqabiliyyətliliyi üçün bu, əlavə bir güzəştdir, üstünlükdür. Sahibkarlar da bundan səmərəli şəkildə istifadə etməlidir. İlk növbədə, daxildə satılan malların qiyməti süni şəkildə qalxmamalıdır. Dövlət bu sahəyə nəzarət edir. Eyni zamanda, xarici bazarlara girmək üçün də əlbəttə ki, qiymət də münasib olmalıdır. Yəni, əgər Azərbaycanda yanacağa qoyulan tariflər bu qədər aşağı səviyyədə olmasaydı, bu, sahibkarlar üçün də böyük problem yaradardı. Sahibkarlar bunu bilməlidir ki, dövlət tərəfindən bu, çox böyük dəstəkdir. Kreditlər də, eyni zamanda, siyasi dəstək və hətta İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən metodik tövsiyələr də sahibkarlara təqdim edilir. Onların qoyduqları investisiyaların həcminə görə müxtəlif tövsiyələr paketi də verilir.

Regionlarda da sənaye inkişafı sürətlə gedir. Artıq biz bir neçə sənaye mərkəzi müəyyən etmişik. İndi növbə gəlib ki, hər bir rayonda sənaye zonası yaradılsın. Birinci zona Neftçalada yaradılır. Mənə verilən məlumata görə, yerli sahibkarlar tərəfindən çox böyük həvəslə, böyük maraqla qarşılanır. Hətta görürük ki, o sənaye zonasında fəaliyyət göstərən sahibkarların sayı nəzərdə tutduğumuzdan daha da çoxdur. Bu, çox sevindirici haldır, bu, birinci pilot layihəsidir. Hesab edirəm ki, biz indi başqa rayonlarda da buna oxşar zonalar yaratmalıyıq. Bu barədə mən bir neçə ay bundan öncə öz fikirlərimi bildirmişdim ki, hər bir rayonda xüsusi yer olmalıdır. Orada infrastruktur, nəqliyyat yolları - bütün lazımi təminat olmalıdır ki, sənaye potensialımız bir yerdə inkişaf etsin.

Bu il “Kənd təsərrüfatı” ili elan edilmişdir. Bu da bu sahəyə göstərilən diqqətin təzahürüdür. Sənaye, kənd təsərrüfatı hər bir ölkənin uğurlu iqtisadi inkişafını təmin edən sahələrdir. Xüsusilə Azərbaycan kimi ölkənin - bizim əhalimizin təxminən yarısı bölgələrdə, kəndlərdə yaşayır. Ərzaq təhlükəsizliyi bizim üçün prioritetdir. Çünki biz hələ tam şəkildə ərzaq təhlükəsizliyimizi təmin edə bilməmişik. Ancaq bu istiqamətdə böyük yol keçmişik. Çünki bu gün Azərbaycan özünü əsas ərzaq məhsulları ilə təmin edir. Düzdür, bəzi hallarda bu məhsulların komponentləri idxal edilir. Bu, əlbəttə, birinci mərhələ üçün hesab edirəm ki, məqbul variantdır. Ancaq çalışmalıyıq ki, Azərbaycanda istehsal olunan bütün ərzaq məhsullarının bütün komponentləri Azərbaycanda istehsal olunsun, toxumdan tutmuş ta hazır məhsullara qədər. Ona görə bütün bu zənciri biz yaradırıq, yaradacağıq. İlk növbədə, əlbəttə ki, biz sənaye, yəni, emal müəssisələrini yaradırdıq. Bəzi hallarda o müəssisələrdə istehsal olunan mallar xaricdən xammal kimi gətirilirdi, burada paketlənirdi, ya süzülürdü. Bu, birinci mərhələ idi. Biz indi əsas mərhələyə keçirik, lokalizasiya 100 faiz olmalıdır. Çünki ərzaq təhlükəsizliyi bundan sonra dünya üçün ən böyük məsələ olacaq, o ölkələr ki, ərzaq təhlükəsizliyini təmin etməyib, onlar böyük problemlərlə üzləşəcəklər.

Əlbəttə ki, bazar iqtisadiyyatı prinsipləri bizim üçün əsasdır. Biz idxal da, ixrac da edirik. Ancaq görürük, bəzi hallarda əgər biz hansısa mənbədən asılıyıqsa, onda müəyyən problemlər yaranır, o cümlədən qiymətlə bağlı olan problemlər. Bizim son illər ərzində gördüyümüz işlər imkan verdi ki, indi inflyasiya çox aşağı səviyyədə olsun. Nəyə görə? Çünki biz xarici bazarlardan, xarici ərzaq bazarlarından o qədər də asılı deyilik. Çünki yerli istehsal artıq kifayət qədər güclüdür. Yerli istehsal əgər yüz faiz yerli xammal üzərində qurulacaqsa, o zaman, ümumiyyətlə, xaricdə gedən proseslər, böhranlı vəziyyət, yaxud da ki, neftin qiymətinin ucuzlaşması bizə təsir etməyəcək.

Ona görə ərzaq təhlükəsizliyi birinci məsələdir. Yerli istehsalın artırılması prosesi gedir. Müxtəlif yerlərdə emal müəssisələri yaradılır və ixrac imkanlarımız da genişlənir. Biz indi ixrac nomenklaturamızı da genişləndirməliyik. Azərbaycandan ənənəvi olaraq meyvə-tərəvəz ixrac edilirdi. İndi isə daha çox hazır məhsul və digər, yəni, süd məhsulları ixrac edilməlidir. Gələcəkdə ət məhsulları və digər məhsullar ixrac edilməlidir.

Kənd təsərrüfatının inkişafı üçün çox ciddi tədbirlər görülür, islahatlar aparılır. Torpaqların elektron uçotu, qeydiyyatı indiki mərhələ üçün çox önəmli məsələdir. Biz buna nail ola bilsək, onda həm şəffaflıq olar, həm də biz dəqiq biləcəyik ki, nəyimiz var. Çünki bəzi hallarda tərtib olunan xəritələr həqiqətlə uzlaşmır. İndi bu məsələ aydınlaşdırılır, təftiş edilir. Verilən pay torpaqları, ayrılan sahələr bunlar həqiqəti əks etdirmir. Peykdən əldə edilən görüntülər xəritədə göstərilən görüntülərlə üst-üstə düşmür. Bu, çox ciddi məsələdir. Vaxtilə bu sahədə böyük səhvlər buraxılmışdır. Ona görə biz indi hər şeyi yenidən tənzimləməliyik. Elektron uçot ona görə lazımdır ki, sahibkarlar hansı torpağın sahibi olduqlarını bilsinlər. Eyni zamanda, dövlət də bilməlidir ki, kimin hansı torpağı var, o torpaqlarda nə yetişdirilir və ya yetişdirilmir. Bəzi hallarda torpaqlar götürülür, ondan sonra təyinatı dəyişdirilir. Yaxud da ki, hasarlanır, sadəcə olaraq mülkiyyət kimi saxlanılır. Buna yol vermək olmaz. Burada vəziyyəti tam şəffaflaşdırmaq üçün torpaqların elektron uçotu məsələsi öz həllini tapmalıdır. Bu, sadəcə olaraq statistika deyil. Bu, məhsuldarlıqdır, bu, aqrar siyasətimizdir. Həmçinin biz tövsiyə də edə bilərik, əlavə güzəştlər də verə bilərik ki, sən bu torpaqda bu məhsulu yetişdirirsən, gəl bu məhsulu yetişdir. Dövlət sənə daha da çox subsidiya verəcək, kömək edəcək. Çünki dövlətə, ölkəyə bu lazımdır. Ona görə bu, çox ciddi məsələdir. Mən bilirəm, indi Kənd Təsərrüfatı Nazirliyi bu işlərlə çox ciddi məşğuldur. Gərək bütün aidiyyəti qurumlar da buna qoşulsunlar ki, biz torpaqların elektron uçotunu tərtib edək. Burada uyğunsuzluq aradan götürülməlidir.

Biz son illər suvarmaya, meliorasiyaya çox böyük diqqət göstərdik. Biz bu sahəyə böyük maliyyə resursları ayırdıq. Hesab edirəm ki, bu, tamamilə düzgün bir siyasət idi. İndi Taxtakörpü və Şəmkirçay su anbarları artıq fəaliyyət göstərir. Bu anbarlar bizə bundan sonra daim xidmət edəcək. Suvarılan torpaqların sahəsi böyük dərəcədə artacaq, artır və meliorasiya tədbirləri bundan sonra da aparılacaqdır. Biz indi daha çox kanalların tikintisi ilə məşğul olmalıyıq. Çünki anbarlar yaradılıb. O anbarlarda elektrik stansiyaları da qurulub, kanallar da var. Amma kanalların şaxələndirilməsi də önəmlidir. Çünki biz nəzərdə tutulan torpaqları maksimum su ilə təmin etməliyik. O rəqəmlər dəfələrlə səsləndirilmişdir. Yüz min hektardan çox yeni əkin sahələri dövriyyəyə veriləcək və mövcud olan torpaqlarda suvarma yaxşılaşdırılacaqdır. Bu işlər əlbəttə ki, böyük əhəmiyyət daşıyır. Mən daim bu sahəni diqqət mərkəzində saxlayıram.

Keçən il Xızı rayonunda olarkən orada boş, yəni, yararsız torpaqlarla tanış oldum. İndi o yerlərə su veriləcək. Bu ilin sonuna qədər Xızı rayonunda üç min hektardan çox torpağa artıq su verilməlidir. Bu, daim diqqət mərkəzindədir. Ümumiyyətlə, Taxtakörpü su anbarının fəaliyyəti nəticəsində on minlərlə hektar torpaq suvarılacaq. Orada hansı məhsul yetişdiriləcək? Bunu Kənd Təsərrüfatı, İqtisadiyyat və Sənaye nazirlikləri müəyyən etməlidir. Sahibkarlara kömək göstəriləcək, kreditlər veriləcək. Ondan sonra sahibkarlara deyiləcək ki, sən burada nəyi əkməlisən. Burada özbaşınalıq, hərcmərclik ola bilməz. Dövlət bu siyasəti aparır və tövsiyə edir, yaxud da ki, göstəriş verir. Çünki biz bilməliyik hansı məhsullar yetişdirilməlidir, hansı məhsullar üçün bazar var. Yoxsa biz burada da müəyyən problemlərlə üzləşə bilərik. Gəlirli, çox gəlir gətirən məhsul var, az gəlir gətirən məhsul var. Vəsaiti tez qaytaran məhsul var, gec qaytaran məhsul var. İndi biz bunun hamısını yaxşı bilirik - dövlət üçün, daxili tələbatı təmin etmək üçün nə lazımdır və biz bunları hansı bazarlara ixrac edəcəyik.

Biz indi yeni bazarlar axtarırıq, tapırıq. İndi ənənəvi bazarlar var. Ənənəvi bazarımız Rusiya bazarıdır və bizim kənd təsərrüfatı məhsullarımızın böyük əksəriyyəti bu bazara ixrac edilir. İndi Qazaxıstanın Aktau şəhərində böyük logistika bazası yaradılır və orada on min ton məhsulu saxlamaq mümkün olacaqdır. O bazar da bizim üçün çox maraqlıdır. Hesab edirəm ki, bu ilin sonuna qədər bu sahədə də artıq biz real nəticəni görəcəyik. Dövriyyəyə buraxılacaq yeni torpaqlarda bazarların tələbatına uyğun məhsul yetişdirilməlidir. Ona görə burada yüz faiz dövlət nəzarəti və dövlətin rəhbərliyi olmalıdır. Biz yüz minlərlə hektar torpağı dövriyyəyə qatırıq, suvarmanı təmin edirik. Buna milyardlarla vəsait xərclənibdir. Taxtakörpü və Şəmkirçay su anbarlarının tikintisinə qoyulan vəsait təqribən 1,5-2 milyard manata yaxındır. Hələ kanalların şaxələndirilməsi, ondan sonra digər tədbirlər var. Nəyə görə? Ona görə ki, imkan yaradaq insanlar daha da yaxşı yaşasınlar, kəndli məhsul yetişdirsin, pul qazansın, biz bu məhsullardan düzgün istifadə edək. Daxili bazarları təmin edək ki, qiymətlər qalxmasın. Xaricə sataq ki, həm sahibkara, həm də dövlətə daha çox pul gəlsin. Ona görə burada mən bir daha demək istəyirəm ki, dövriyyəyə buraxılacaq yeni torpaqlarda heç bir özbaşınalıq ola bilməz. Ancaq bu torpaqlardan dövlətin göstərişi ilə istifadə olunmalıdır. Mən iki nazirliyə göstəriş vermişəm, orada kənar müdaxilə ola bilməz.

Aqroparklar da artıq Azərbaycanda yaradılır. Bu da çox gözəl təşəbbüsdür. Birinci aqroparkın təməli artıq qoyuldu. İri fermer təsərrüfatlarının, taxılçılıqla məşğul olan təsərrüfatların fəaliyyəti genişləndirilir. Pilot layihəsi özünü doğrultdu. Pilot layihəsində məhsuldarlıq 55 sentner idi, - halbuki ölkə üzrə bu rəqəm haradasa 24, bəzi yerlərdə 25-26 sentnerdir, - yəni, iki dəfədən çoxdur. Ona görə də biz bu pilot layihələrini, bu təcrübəni bütün başqa sahələrə də yaymalıyıq ki, məhsuldarlıq artsın. Əgər biz buna nail olsaq, onda mövcud torpaqlarla taxıla, buğdaya olan tələbatımızı özümüz təmin edəcəyik.

Ümumiyyətlə, ixrac - kənd təsərrüfatının ixracı və sənaye məhsullarının ixracı gələcəkdə iqtisadiyyatımızın əsas hərəkətverici qüvvəsi olacaqdır. Çünki ixrac ölkəyə valyuta resurslarını gətirir. Bizim valyuta resurslarının mənbəyi neft-qazdır. Elə etməliyik ki, ərzaq məhsulları, sənaye, tikinti materialları, hazır məhsullar istehsal edək, ixrac edək və biz bu yolla gedəcəyik.

Makroiqtisadi sabitlik daim diqqət mərkəzindədir. İnflyasiya çox aşağı səviyyədədir. Mən keçən il demişdim ki, bu il də inflyasiya birrəqəmli olacaq və birinci rübdə cəmi 2,8 faiz artıb. Bu, çox gözəl göstəricidir. Baxmayaraq ki, fevral ayında manatın məzənnəsində dəyişiklik edilmişdir və bu da istər-istəməz idxal olunan malların qiymətinə təsir edə bilərdi. Ancaq görülən tədbirlər nəticəsində istehlak bazarında vəziyyət tam

sabitdir. Biz qiymətlərin qalxmasına imkan vermədik. Qiymətlər sabitdir, sabit də qalmalıdır.

Ümumiyyətlə, manatın məzənnəsinin dəyişdirilməsi, - mən bu barədə artıq bir dəfə öz fikirlərimi bildirmişəm, bir daha demək istəyirəm, - bu, qaçılmaz bir hal idi. Çünki biz 2005-ci ildə pul islahatını apararkən bir manatı bir dollara bərabərləşdirdik. O vaxta qədər bir dollar beş min manat idi. Bu balans saxlanılmalı idi. Əslində biz imkan verməməli idik ki, manat çox bahalaşsın. Çünki iqtisadçılar yaxşı bilir, bu, yerli istehsalçılara da mənfi təsir göstərir, bizim ixrac imkanlarımıza da əngəllər törədir. Ancaq ölkə iqtisadiyyatının çox sürətli inkişafı və neft gəlirlərinin kütləvi şəkildə xəzinəyə daxil olması əlbəttə ki, manatı çox gücləndirdi. 2005-ci ildə biz pul islahatını apardıq, 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft kəməri işə düşdü və böyük gəlirlər gəlməyə başladı. Nəticə etibarilə biz gördük ki, bir manat artıq 1,3 dollar səviyyəsində idi. Ondan sonra gördük ki, hətta bir manat bir avrodan da qiymətli və bahalıdır. Yəni, bu, tamamilə qeyri-təbii bir məzənnə idi. Buna son qoyulmalı idi və bu gün bütün mötəbər beynəlxalq maliyyə qurumları bizim addımımızı dəstəkləyir, alqışlayır, eyni zamanda, əhali də görür ki, məzənnənin dəyişdirilməsinin gündəlik həyata təsiri olmamışdır. Ona görə ki, ilk növbədə, vaxtilə görülən işlər nəticəsində gündəlik tələbat məhsullarının böyük hissəsini özümüz istehsal edirik. Digər tərəfdən, istehlak bazarına nəzarət gücləndirilmişdir və möhtəkirlərə qarşı çox ciddi mübarizə aparılmışdır.

Bilirsiniz ki, biz istəyirdik məzənnəni tədricən, yavaş-yavaş dəyişdirək. Amma ondan sonra ajiotaj yarandı. Hər gün 500 milyon dollar vəsait bazarlardan yığışdırılırdı, alınırdı və belə getsə idi, bizim Mərkəzi Bankın valyuta ehtiyatları kəskin şəkildə aşağı düşə bilərdi.

Ona görə görülən tədbirlər, iqtisadiyyatımızın şaxələndirilməsi, sosial siyasətimiz nəticəsində və biz imkan vermədik ki, natəmiz insanlar bu vəziyyətdən istifadə etsin. Bax, bütün bu məsələlər vəziyyətin sabit saxlanmasına xidmət göstərmişdir.

Mənim narahatçılığım, eyni zamanda, dərman preparatlarının qiymətləri ilə bağlı idi. Mən xüsusi göstəriş vermişdim ki, bütün apteklərdə ciddi nəzarət təşkil edilsin və qiymətlərin qalxmasına imkan verilməsin. Eyni zamanda, onu da qeyd etməliyəm ki, dərman preparatlarının bazarı əfsuslar olsun ki, Azərbaycanda müəyyən dərəcədə nəzarətdən kənarda qalmışdır. Bu, əslində dözülməz bir hal idi. Bu hadisə deyə bilərəm ki, bizim diqqətimizi bu sahəyə daha da ciddi şəkildə yönəltdi və gördük ki, bu sahədə çox böyük pozuntular, uyğunsuzluqlar var. Bəzi hallarda dərmanların qiyməti bir neçə dəfə, bəzi hallarda on dəfə şişirdilir. Yəni, burada tamamilə özbaşınalıq və anarxiya hökm sürürdü. Kim dərmanı hansı qiymətə istəyirdi, o qiymətə də satırdı. İnsanlar da məcbur olub o dərmanları alırdılar, böyük vəsait xərcləyirdilər, xüsusilə pensiyaçılar ki, onlara daha çox dərman lazımdır.

Eyni zamanda, bəzi hallarda ölkəyə o qədər də böyük keyfiyyətə malik olmayan dərmanlar da gətirilir. Ona görə mən Səhiyyə Nazirliyinə, İqtisadiyyat və Sənaye Nazirliyinə göstəriş vermişəm ki, bu sahədə vəziyyət tamamilə nəzarətə götürülsün. Eyni zamanda, hökumətə tapşırmışam ki, ciddi nəzarət olmalıdır və indi yeni mexanizm işlənilir. Ümid edirəm ki, bir neçə aydan sonra biz bu mexanizmi tətbiq etməyə başlayacağıq və insanlar bunu gündəlik həyatda görməlidirlər. Qiymətlər qalxmamalıdır. Mən hesab edirəm ki, bəzi dərmanların qiymətlərində kəskin azalma da olacaqdır.

Bu mövzu ilə bağlı bir məsələni də qeyd etmək istəyirəm. Bu vəziyyət onu bir də göstərdi ki, yerli istehsalın ölkə iqtisadiyyatı üçün nə qədər böyük əhəmiyyəti var. Ona görə İqtisadiyyat və Sənaye Nazirliyinə tapşırıram ki, yerli istehsalın stimullaşdırılması üçün əlavə tədbirlər hazırlasın, təklif versin və biz lazımi qərarlar, sərəncamlar verəcəyik.

Onu da qeyd etməliyəm ki, Azərbaycan yeganə ölkə deyildi ki, milli valyuta devalvasiyaya uğramışdır. Mənə verilən arayışda bəzi rəqəmlər var. İstəyirəm, sadəcə olaraq Azərbaycan ictimaiyyəti son vaxtlar bizim qonşuluğumuzda hansı hadisələrin baş verdiyini bilsin. Yəni, son vaxtlar bölgədə vəziyyət bundan ibarətdir: Qazaxıstanda milli valyuta 20 faizdən çox aşağı düşdü, Türkmənistanda 20 faizdən çox devalvasiyaya uğradı. Gürcüstanda milli valyuta 30 faizdən çox qiymətdən düşdü. Türkiyədə 2013-2015-ci illərdə türk lirəsi qiymətini 40 faiz itirdi. İranda milli valyuta 2013-2015-ci illərdə 113 faiz aşağı düşdü. Rusiyada son vaxtlar Rusiya rublu 80 faiz aşağı düşdü. Dünyanın aparıcı valyutalarından biri, yəni iki, ya üç aparıcı valyutasından biri avro qiymətini 25 faiz itirdi. Norveç milli valyutası qiymətini 34 faiz itirdi. Yəni, sadəcə olaraq mən bu rəqəmləri müqayisə üçün səsləndirirəm.

Bir daha qeyd etmək istəyirəm ki, Azərbaycanda bu məzənnənin dəyişdirilməsi əslində məzənnənin bərpası deməkdir. Biz 2005-ci ildə müəyyən etdiyimiz məzənnəni bərpa etdik. O vaxt bir manat bir dollar idisə, bu gün də bir manat bir dollardır. Hesab edirəm ki, bundan sonra belə də olmalıdır.

Eyni zamanda, biz inhisarçılığa qarşı mübarizəni daha da gücləndirməliyik, əlavə tədbirlər görülməlidir. Yerli istehsalın stimullaşdırılması ilə bərabər, bu sahəyə də diqqət yetirilməlidir, əgər ya qanunvericilikdə, ya hansısa tənzimləyici qərarlarda hansı əlavə tədbirlər lazımdırsa, biz bunu edəcəyik. Biz azad, ədalətli rəqabəti təmin etməliyik.

Bu il sosial infrastruktur layihələrinin icrasi - məktəblərin, xəstəxanaların, uşaq bağçalarının, peşə məktəblərinin tikintisi davam etdiriləcəkdir. İndi buna böyük ehtiyac var. Bu il əlavə üç “ASAN xidmət” mərkəzi açılmalıdır. “ASAN xidmət” mərkəzlərinin sayı səkkizə çatıbdır - dördü Bakıda, dördü rayonlarda. Üç mərkəz tikilir. Hazırda Bakıda dörd mərkəz fəaliyyət göstərir. Gəncə, Sumqayıt, Sabirabad, Bərdə şəhərlərində “ASAN xidmət” mərkəzləri artıq açılıbdır. Hazırda Bakıda daha bir mərkəz tikilir. Qəbələdə və Masallıda da “ASAN xidmət” mərkəzləri tikilir.

Biz ilin birinci rübündə elektroenergetika sahəsində ciddi islahatlar apardıq. “Azərişıq” qurumu yaradılmışdır. “Azərişıq” “Bakıelektrikşəbəkə” Səhmdar Cəmiyyətinin əsasında qurulubdur və əsas məqsəd rayonlarda elektrik enerjisi ilə təchizatı Bakının səviyyəsinə qaldırmaqdır. Bax, bu idi əsas məqsəd. Çünki son illər ərzində Bakı şəhərində “Bakıelektrikşəbəkə” təşkilatı çox uğurla fəaliyyət göstərirdi. Artıq “Barmek”in dövrü çoxlarının

yadından çıxıb. "Barmek" Azərbaycanı nə günə salmışdı?! "Bakıelektrikşəbəkə" o təsərrüfatı öz üzərinə götürənə qədər "Barmek"in təsərrüfatı nə gündə idi?! O günlər çox yaxşı ki, hamının yadından çıxıb. Amma o qaranlıq gecələr hamımızın yadındadır. Yəni, gənc nəsil yəqin ki, bunu xatırlamır, heç xatırlamasa yaxşıdır.

Rayonlarda isə hələ ki, görüləsi işlər çoxdur. Bilirsiniz ki, mən bölgələrdə tez-tez oluram, demək olar ki, hər ay. Elə rayonlar, şəhərlər var ki, orada 10 dəfədən çox olmuşam. Hər halda Azərbaycanda elə bir yer yoxdur ki, mən orada ən azı iki dəfə olmayım. Hər dəfə olanda həm maraqlanıram, həm başqa məlumat mənbələrim var ki, qaz, içməli su, elektrik enerjisi ilə təchizatla bağlı vəziyyət necədir. Bəzi hallarda mənə yerli icra hakimiyyəti orqanlarının rəhbərləri çox müsbət mənzərə təqdim etməyə çalışırlar. Ancaq reallıq ondan ibarətdir ki, bölgələrdə elektrik enerjisi ilə bağlı vəziyyət istədiyimiz səviyyədə deyil. Düzdür, biz indi böyük enerji gücləri, elektrik stansiyaları yaratdıq. Son illər ərzində yaratdığımız enerji potensialı bütün sovet dövründə yaradılan potensialdan böyükdür, ondan çoxdur. Nə qədər elektrik stansiyaları yaradıldı. Onlar olmasaydı, indi bizim iqtisadi, sənaye inkişafımız mümkün olmazdı. Yəni, biz diqqəti bu sahəyə yönəltdik ki, generasiya güclərini yaradaq. Azərbaycanda həm alternativ su elektrik stansiyaları və əsas qaz elektrik stansiyaları tikilmişdir. Amma ötürücü xətlərdə hələ ki, vəziyyət o qədər də yaxşı deyil. Xüsusilə, rayonlarda, kənd yerlərində bir balaca külək əsən kimi dirəklər aşır, işıq verilməsi dayandırılır. Buna dözmək olmaz. Mən dəfələrlə məsələ qaldırmışdım, demişdim, göstəriş vermişdim ki, gedin bu sahəni düzəldin. Bölgələrdə insanlarla görüşlər əsnasında mən onların xahişlərini, problemlərini eşidirdim. Deyirdilər ki, tez-tez işıqlar sönür, tez-tez işıqsız qalırıq. Azərbaycan kimi ölkədə belə vəziyyət dözülməzdir. Ona görə göründə ki, bu inzibati tədbirlər səmərə vermir, biz struktur islahatlarına keçdik. Əminəm ki, "Azərişıq" yaxın zamanlarda bütün şəhər və rayonlarımızda elektrik enerjisi ilə təminatı Bakının səviyyəsinə qaldıracaqdır. Bu, çox ağır, çətin işdir. İndi böyük səylər göstərilməlidir. Ancaq qarşıya vəzifə qoyulub və mən birinci rübdə bu struktur islahatını xüsusilə vurğulamaq istəyirəm.

Azərbaycanda, o cümlədən Bakıda ekoloji tədbirlər daim aparılır, göllər təmizlənir, ağaclar əkilir, parklar salınır. Bakı indi parklar, bağçalar şəhəridir. Eyni zamanda, bölgələrdə insanları içməli su ilə təmin etmək üçün təmizləyici qurğular yaradılır. Biz içməli su problemini həll etmək üçün üç istiqamətdən istifadə edirik. İlk növbədə, "Azərsu" tərəfindən icra edilən layihələr. Burada da bir neçə şəhərdə artıq içməli su layihəsi başa çatıbdır və bu proses gedir, əhali tərəfindən də çox gözəl qarşılanır. Eyni zamanda, "Meliorasiya və Su Təsərrüfatı" Səhmdar Cəmiyyəti bu işləri görür. Həmçinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyi çaylar boyu yerləşən kəndlərdə təmizləyici qurğular quraşdırır. Bu günə qədər çaylar boyu, xüsusilə Kür, Araz çayları boyu yerləşən kəndlərdə 480 min əhali artıq təmiz içməli su ilə təmin edilmişdir. 292 kənddə müasir təmizləyici qurğular quraşdırılmışdır. Bu vaxta qədər onlar suyu çaydan götürürdülər, duruldurdular, yaxud da ki, kanallardan su içirdilər. Bu, insanların sağlamlığına mənfi təsir göstərirdi. Hazırda 28 kənddə işlər gedir, təmizləyici qurğular quraşdırılır. Bu kəndlərdə 51 min insan yaşayır. Hesab edirəm ki, bu işlər bu ilin sonuna qədər tamamlanmalıdır. Beləliklə, 530 min insan ancaq bu təmizləyici qurğular hesabına içməli su ilə təmin ediləcəkdir.

Avropa Oyunlarının keçirilməsinə az vaxt qalır. Biz Nazirlər Kabinetinin növbəti toplantısını ilin altı ayının yekunlarına həsr edəcəyik. Ona görə Avropa Oyunlarına qalan müddət ərzində bütün müvafiq qurumlar daha da fəal işləməlidir. Əslində, biz bütün hazırlıq işlərini artıq başa çatdırırıq. Nəqliyyat, infrastruktur, təhlükəsizlik, texniki-təşkilati məsələlər öz həllini tapır. Təşkilat Komitəsi çox fəal və səmərəli işləyir. Beynəlxalq Əməliyyat Komitəsi də fəal işləyir. İdman obyektlərimiz demək olar ki, hazırdır. Keçən ay biz Bakı Olimpiya Stadionunun və Bakı Atıcılıq Mərkəzinin açılışını qeyd etdik. Su İdmanı Sarayında son tamamlama işləri gedir. Heydər Əliyev adına İdman-Konsert Kompleksində təmir işləri başa çatır. Bulvarda yerləşən idman sarayında da işlər yekunlaşır. Bildiyiniz kimi, həm yeni idman obyektləri yaradılır, həm əvvəlki illərdə yaradılan obyektlər əsaslı şəkildə təmir olunur, əslində yenidən qurulur.



Avropa Oyunları Parkı yaradılır. Bu, əslində müvəqqəti idman qurğuları kimi nəzərdə tutulurdu. Ancaq nəzərə alsaq ki, 2017-ci ildə İslam Həmrəyliyi Oyunları Bakıda keçiriləcəkdir, hesab edirəm, Avropa Oyunlarından sonra Avropa Oyunları Parkı qalmalıdır. Ola bilər İslam Həmrəyliyi Oyunlarından sonra da qalsın. Çünki indi Bakıda yeni gözəl bir istirahət zonası yaradılır. Bayraq Meydanından ta Bibiheybətə qədər gözəl bir park və istirahət zonası, idman zonası yaxın zamanlarda ictimaiyyətin istifadəsinə veriləcəkdir. Biz tədricən bulvarı genişləndiririk. Yadınızdadır, Bayraq Meydanı yaradılandan bir qədər sonra insanların sərəncamına verildi. İndi Bayraq Meydanından Bibiheybətə tərəf olan hissədə böyük tikinti, abadlıq işləri görülür. Beləliklə, "Ağ Şəhər" bulvarı ilə birlikdə bulvarın uzunluğu 16 kilometrə çatacaqdır.

Tofiq Bəhramov adına Stadionda təmir-bərpa işləri artıq başa çatmışdır. İndi orada da müvafiq qurğular tikilir. "Crystall Hall"da bir neçə idman növü üzrə yarışlar keçiriləcəkdir. Orada da işlər hazırdır. Mingəçevirdəki "Kür" avarçəkmə bazasında müvəqqəti qurğular, tribunalar yaradılır. Atletlər Kəndi demək olar ki, hazırdır, Media Kəndi yaradılıbdır. Media Kəndi - deyə bilərəm ki, ümumiyyətlə, ilk dəfə belə bir yer olacaq. Çünki Yay Olimpiya və Qış Olimpiya oyunlarında heç vaxt Media Kəndi olmamışdı, jurnalistlər hərəsi bir yerdə qalırdı. Biz isə jurnalistlərə də diqqət göstərərək onlar üçün də gözəl yaşayış yerlərini müəyyən etdik, düz Atletlər Kəndinin yanında yerləşir.

Oyunlara dünyada çox böyük maraq var. Altmışa yaxın telekanal artıq müqavilə bağlayıb ki, bu Oyunları yayımlasın və beləliklə, "Bakı-2015" birinci Avropa Oyunları dünya ictimaiyyəti tərəfindən də izlənəcək. Yəni, son mərhələdəyik, ona görə şadam ki, çox qısa bir müddətdə - iki il yarım ərzində biz bu işin öhdəsindən gəldik. Əslində mən şübhə etmirdim, çünki bizim başladığımız bütün işlər uğurla yekunlaşır. Əminəm ki, Avropa Oyunları da böyük idman və dostluq bayramına çevriləcəkdir.

Bir sözlə, vəzifələr aydındır. Biz ilin sonuna qədər fəal işləməliyik ki, bütün vəzifələri uğurla icra edək, ölkəmizi daha da gücləndirək. Sağ olun.

# İlham Əliyev ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib



**Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü günüdür. Qədirbilən Azərbaycan xalqı, bütün dünyada Heydər Əliyevi tanıyanlar və sevənlər on ikinci ildir ki, bu dahi şəxsiyyətin doğum gününü onsuz qeyd edirlər.**

Ümummilli liderimizin doğum günündə - mayın 10-da sübh tezdən respublika ictimaiyyətinin nümayəndələri, ölkəmizin müxtəlif rayon və şəhərlərindən Bakıya gəlmiş insanlar, Azərbaycan paytaxtının qonaqları Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edərək abidəsi önünə tər güllər qoyur, onun əziz xatirəsini dərin ehtiramla yad edirlər.

Azərbaycanın ən yeni tarixinin bütöv bir qərinəsi Heydər Əliyevin adı ilə bağlıdır. Qeyri-adi şəxsiyyəti, siyasət və dövlət xadiminə xas olan böyük istedadı ilə fərqlənən, xarizmatik lider olan Heydər Əliyev hələ sağlığında canlı əfsanəyə çevrilmişdi. 1969-cu ildə respublika rəhbərliyinə gələn Heydər Əliyev, əslində, sosial-iqtisadi böhran keçirən Azərbaycanı 1970-1980-ci illərdə keçmiş İttifaqın ən qabaqcıl respublikalarından biri səviyyəsinə çıxarmışdı. Tədqiqatçılar haqlı olaraq vurğulayırlar ki, müasir mərhələdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi məhz həmin illərdə təməli qoyulmuş potensiala əsaslanır.

1993-cü ilin yayında, müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın taleyinin Tanrının ümidinə qaldığı bir vaxtda xalq özünün və ölkənin gələcəyini Heydər Əliyevə etibar etdi. Bu, böyük Qayıdış idi və ulu öndər özünün müdrikliyi, zəngin siyasi və dövlətçilik təcrübəsi, sarsılmaz qətiyyəti, yenilməz iradəsi sayəsində ölkəni,



xalqı, gənc müstəqil dövləti labüd fəlakətdən qurtardı. Qədirbilən Azərbaycan xalqı dahi oğlunun bu əvəzsiz xidmətlərini heç vaxt unutmur.

Xalqımızın xilaskar oğlunun doğum günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, ailə üzvləri, ulu öndərin doğmaları, yaxınları onun məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəldilər.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, onun xatirəsini ehtiramla andı.

Azərbaycan Respublikasının dövlət himni səsləndi.

Sonra dövlətimizin başçısı və ailə üzvləri oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın, görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim, alim Tamerlan Əliyevin məzarlarını ziyarət edərək üzərinə gül dəstələri qoydular.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, nazirlər, komitə və şirkət rəhbərləri, Milli Məclisin deputatları iştirak edirdilər.





# İlham Əliyev ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə paytaxtda təşkil olunmuş Gül bayramında iştirak edib



**Mayın 10-da Azərbaycan xalqının ümummilli lideri, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə Heydər Əliyev Sarayının qarşısındakı parkda və Şəhər Mərkəzi Parkında Gül bayramı təşkil olunub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Gül bayramında iştirak ediblər.

Paytaxt sakinlərinin və şəhərimizin qonaqlarının sevimli istirahət yeri olan Heydər Əliyev Sarayının qarşısındakı park və Şəhər Mərkəzi Parkı bu gün öz görkəmini tam dəyişib, möcüzəli gül bağına çevrilib.

Hər il təşkil olunan Gül bayramı bu il də ənənəvi təntənəsini yaşadı. Ərazi güllərdən ibarət maraqlı kompozisiyalarla bəzədildi. Bakı Şəhər İcra

Hakimiyyətinin təşkil etdiyi bu bayramda çiçək, yarpaq və bitkilərdən hazırlanan rəngarəng kompozisiyalar görünüşü və ifadəliyi ilə seçilir, gözəlliyin hədsiz imkanlarını nümayiş etdirir, hər kəsdə xoş ovqat yaradır. Müstəqil dövlətimizin qurucusu, xalqımızın dahi oğlu, ulu öndər Heydər Əliyevin parkda ucalan əzəmətli abidəsi diqqəti daha çox çəkir. Abidənin postamenti güllərlə bəzədilib.

rilir. Fəvvarələr də güllərlə əhatə olunub. Minlərlə güldən-çiçəkdən əlvan libas geymiş bu məkanda heç nə bir-birini təkrarlamır. Elə buraya toplaşan uşaqlar da güllər kimi saf və ətirlidir. Onların gülləri xatırladan müxtəlif libasları bayram ovqatını daha da artırır.

Əzəmətli kompozisiyalardan biri də Heydər Əliyev Sarayının qarşısında qurulub. Heydər Əliyev Mərkəzinin




Təxminən bir aydan sonra Bakının ev sahibliyi edəcəyi ilk Avropa Oyunlarına həsr olunan guşələr xüsusi maraq doğurur.

Beynəlxalq ictimai rəydə ölkəmizin davamlı imicinin formalaşdırılması üçün önəmli amil olan "Bakı-2015" Avropa Oyunları dünyanın müxtəlif yerlərindən Azərbaycana səfər edənlərə Vətənimiz, xalqımızın mədəniyyəti, mövcud multikultural mühit ilə daha yaxından tanış olmaq imkanı yaradacaq. Birinci Avropa Oyunları Azərbaycanın mötəbər beynəlxalq tədbirlərin təşkilatçısı kimi mövqelərini daha da möhkəmləndirəcək, bu sahədə dövlətimizin və xalqımızın yüksək potensiala sahib olduğunu bir daha ortaya qoyacaq.

Parkda rəngbərəng güllərdən hörülən, yazın gəlişinə həsr olunan kompozisiyalar nümayiş etdi-

maketi üzərində yaradılan bu kompozisiyanı ulu öndərin portreti bəzəyir.

Dövlətimizin başçısı, xanımı və ailə üzvləri parka toplaşan uşaqlarla səmimi söhbət etdilər, xatirə şəkilləri çəkdirdilər.

Parkda müxtəlif dibçək və kəsilmə güllərindən, qurudulmuş gül və bitki kollarından, göz oxşayan eksponatlardan ibarət sadə və eyni zamanda, orijinal üslublu kompozisiyalar qurulub. Hər tərəf baharın xoş ovqatına bürünüb. Zəriflik nümunəsi olan çiçəklərin orijinal təqdimatı bayrama gələnlərin zövqünü oxşayır.

Artıq ölkəmizdə ənənə halı alan Gül bayramı dünyanın nadir gözəlliklərini təcəssüm etdirməklə ulu öndər Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi, ümummilli liderin doğum gününün bu cür möhtəşəm formada qeyd olunması ilə yadda qalır.

# İlham Əliyev ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 11 illiyinə həsr olunan təntənəli mərasimdə iştirak edib






**Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 11 illiyinə həsr olunan təntənəli mərasim keçirilib.**

Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri mərasimdə iştirak ediblər.

Dövlət başçısı mərasimdə nitq söylədi.

**PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ**

- Hörmətli xanımlar və cənablar.

Əziz dostlar.

Bu gün ulu öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümüdür. Bu gün Azərbaycan xalqı ulu öndərin əziz xatirəsinə bir daha hörmət və ehtiramını bildirir.

Heydər Əliyev tarixi şəxsiyyətdir, müstəqil Azərbaycanın qurucusudur, onun memarıdır. Heydər Əliyev Azərbaycana iki dəfə rəhbərlik etmişdir. Azərbaycan onun rəhbərliyinin hər iki dövründə çox sürətlə inkişaf edib. Birinci dəfə sovet dövründə, 1969-cu ildə rəhbər təyin olunandan sonra Azərbaycanda əsaslı dəyişikliklər baş verdi. O vaxtdan Azərbaycan

onun rəhbərliyi ilə sürətlə inkişaf edərək 13 il ərzində Sovet İttifaqında ən qabaqcıl yerlərdə oldu. O vaxt Sovet İttifaqında cəmi iki respublika özünü tam təmin edirdi və ümumittifaq büdcəsinə öz töhfəsini verirdi. Onlardan biri Azərbaycan idi.

Məhz o illərdə müasir sənaye komplekslərinin yaradılması, kənd təsərrüfatının inkişafı sürətlə gedirdi. Azərbaycan sovet məkanında mədəniyyət, incəsənət sahələrində öz sözünü deyirdi və respublikamızın ovaxtkı tarixi çox uğurlu idi.

Məhz ona görə 1990-cı illərin əvvəllərində Azərbaycan xalqı bir daha ulu öndərə üz tutaraq onu hakimiyyətə dəvət etmişdir. Çünki o, 1970-80-ci illərin əvvəllərində öz işləri, xalqa olan bağlılığı və cəsarətli siyasəti ilə xalqın böyük sevgisini, rəğbətini qazanmışdı.

Bilirsiniz ki, ulu öndərin həyatında bir neçə dövr olmuşdur. Hər dövrün öz böyük mənası var. Hər dövrdə çalışdığı bütün vəzifələrdə o, ləyaqətli siyasi xadim, cəsarətli insan, öz xalqına bağlı olan vətənpərvər kimi hərəkət edirdi. Heydər Əliyevin Azərbaycanda uğurlu fəaliyyəti nəzərə alınaraq 1982-ci ilin sonunda o, Sovet İttifaqının ən ali qurumu olan Siyasi Büroya üzv seçilmiş və Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmişdi. Onun kurasiyasında bir çox sahələr var idi. Bu sahələr çox ciddi diqqət tələb edirdi və o, ona tapşırılan bütün işlərə çox böyük məsuliyyətlə yanaşırdı. Onun gördüyü işlərin çox böyük səmərəsi var idi. Eyni zamanda, Azərbaycana daim diqqət yetirir, öz köməyini göstərməyə çalışırdı ki, burada da işlər yaxşı getsin. Ancaq əfsuslar olsun ki, o, Azərbaycandan gedəndən sonra respublikada vəziyyət tədricən tənəzzülə uğramağa başlamışdır və demək olar ki, Azərbaycanda durğunluq müşahidə olunurdu. Yəni, artıq onun dövründə olan canlanma, fəal iş yox idi.

Onun sonrakı taleyi ilə bağlı kifayət qədər kitablar, məqalələr, elmi əsərlər yazılmışdır. Burada oturanlar əlbəttə ki, o tarixi yaxşı bilirlər, gənc nəsil də bilməlidir, öyrənməlidir. Çünki bu, bizim şanlı tariximizdir və 1987-ci ildə Heydər Əliyev böyük ədalətsizliklə üzləşmişdi. O vaxt sovet dövlətinin başında dayanan insan ona qarşı ədalətsizlik göstərmişdi. Bu ədalətsizliyin də səbəbləri var idi. Ona qarşı paxıllıq, riyakarlıq və digər mənfi hallar Heydər Əliyevin istefasını şərtləndirdi.

Bu, Azərbaycan üçün böyük itki idi. Çünki Heydər Əliyev sovet hakimiyyətində təmsil olunurdu. Təsadüfi deyil ki, o, istefaya gedəndən iki həftə keçməmiş erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək haqqında məsələ qaldırdılar. Əfsuslar oşlun ki, ovaxtkı sovet rəhbərliyi bu məsələ ilə bağlı onlarla həmfikir idi, onların mövqeləri üst-üstə düşürdü. Eyni zamanda, son vaxtlar üzə çıxan faktlar da onun göstərir ki, hətta xarici dövlətlərdən də Sovet İttifaqının rəhbərliyinə Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə verilməsi ilə bağlı müraciətlər göndərilirdi. Bu, ümumiyyətlə, beynəlxalq münasibətlərdə dözülməz bir praktikadır. Ancaq bu, tarixdir, bu, həqiqətdir və ondan sonra Azərbaycanın bütün problemləri başladı.

Azərbaycana o vaxt qəsdən heç bir nüfuzu, heç bir siyasi təcrübəsi, heç bir milli ruhu olmayan fərdlər hakimiyyətə gətirildi. Onların əsas vəzifəsi Azərbaycan xalqını incitmək, Azərbaycanın xalq təsərrüfatını dağıtmaq və Azərbaycanın inkişafını əngəlləmək idi. O vaxt sovet dövləti hələ güclü idi və mərkəzləşdirilmiş idarəetmə sistemi var idi. Ona görə, Azərbaycan xalqı öz haqlı etirazını ifadə edə bilmirdi.

Heydər Əliyev özünü vətənpərvər, cəsarətli insan kimi bir daha 1990-cı ilin yanvar ayında göstərmişdir. O günlər mənim yaxşı xatirimdədir. Azərbaycan xalqına qarşı böyük cinayət törədilmişdi, günahsız insanlar qətlə yetirilmişdi. Sovet ordusu Bakıya müdaxilə edərək kütləvi qırğın törətmişdi. Yüzlərlə insan həlak olmuş, yaralanmış, itkin düşmüşdü. Bu, böyük cinayət idi. Ancaq əfsuslar olsun ki, Azərbaycanın ovaxtkı rəhbərliyi bu barədə öz etiraz səsini qaldırmamışdı. Yenə də xalqın yeganə ümid yeri Heydər Əliyev idi. O vaxt Heydər Əliyev pensiyada idi, fəal işlərlə məşğul olmurdu. O vaxt ona qarşı həm sovet rəhbərliyi, həm də Azərbaycanda vəzifədə olanlar tərəfindən çirkin kampaniya aparılırdı. O vaxt da “beşinci kalon” var idi və onlar anonim məktublar, donoslar yazaraq onun əleyhinə iş aparırdılar. Bu gün donoslar başqa yerlərə ünvanlanır, o vaxt Moskvaya yazılırdı. 1990-cı il yanvar ayının 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək öz etiraz səsini bütün dünyaya çatdırdı. Fəxr edirəm və çox xoşbəxtəm ki, mən də o gün onunla bərabər orada idim. Heç vaxt yadımdan çıxmaz ki, o vaxt orada böyük insan kütləsi toplaşmışdı. Azərbaycanın daimi nümayəndəliyinə minlərlə azərbaycanlı öz həmrəyliyini, etirazını, öz hisslərini ifadə etməyə gəlmişdi.

Biz oraya gələndə insanlar Heydər Əliyevi tanımışdılar və dərhal sükut yarandı. İnsanlar sanki canlı dəhliz yaratdılar ki, o, dəhlizlə binanın içərisinə keçsin. Bax, o vaxt Azərbaycan xalqı Heydər Əliyevə bir daha öz hörmət, etimad, inamını göstərmişdi. O, pensiyada idi və ona qarşı mətbuatda, digər vasitələrlə çox çirkin kampaniya aparılırdı, buralarda mitinqlər təşkil olunurdu, insanları məcbur edirdilər ki, onun əleyhinə danışsınlar və digər çirkin tədbirlər görülürdü. Buna baxmayaraq, Azərbaycan xalqı bu faciəvi gündə bir daha onun ətrafında birləşdi və o, yanvarın 21-də məhz orada Sovet İttifaqı Kommunist Partiyasını, sovet dövlətinin rəhbərini ittiham etdi, onu günahlandırdı, bu cinayəti pislədi və öz haqq səsini ucaltdı.

O vaxt Sovet İttifaqının dağılmasına hələ iki il vaxt var idi və heç kim təsəvvür edə bilməzdi ki, Sovet İttifaqı dağıla bilər. Yəni, bu addım, bu vətənpərvərlik nümunəsi bir daha göstərdi ki, Heydər Əliyev öz xalqına nə qədər bağlıdır və o, nə qədər cəsarətli, ədalətli şəxsiyyətdir. Təbii olaraq, təcrübəli siyasi xadim kimi o, dərk edirdi ki, bundan sonra ona qarşı böyük təzyiqlər başlayacaq, onun həyatına təhlükə ola bilər, belə də oldu. Əgər o, Moskvada bir qədər çox qalsaydı həbs olunacaqdı. O, Azərbaycana üz tutdu, Bakıya gəldi. Ancaq Bakıdakı ovaxtkı rəhbərlik imkan vermədi ki, o, öz doğma vətənində yaşasın və məcbur olub doğulduğu yerə - Naxçıvana üz tutdu. Naxçıvanda insanlar onu çox böyük coşqu ilə qarşılamışdılar. Elə Bakıda da. Yadımdadır, o vaxt Bakıya gələndən sonra şəhərdə gəzməyə çıxmışdı. Minlərlə insan onun ardınca gedirdi. O, hara gedirdisə onlar da onun ardınca gedirdilər. Hətta ovaxtkı rəhbərlik

təşvişə düşmüş və milis göndərmişdi ki, guya siz burada kütləvi aksiya keçirirsiniz. O da demişdi ki, mən heç bir aksiya keçirmirəm. Mən gəzməyə çıxmışam və insanlar mənim ardımca gəlirlər. Yəni, bütün Azərbaycan xalqı Heydər Əliyevi ürəkdən sevirdi və o sevginin əsas səbəbi məhz 1970-1980-ci illərin əvvəllərində gördüyü işlər və xalqımızın faciəvi günlərində haqqın, ədalətin yanında olması idi.

Naxçıvanda Heydər Əliyevi ilk növbədə muxtar respublikanın parlamentinə, sonra isə Azərbaycan parlamentinə deputat seçdilər. Sonra xalq onu Naxçıvan Ali Məclisinin sədri vəzifəsinə seçmişdir. O vaxt artıq Azərbaycan rəhbərliyinin rəyi heç bir məna kəsb etmirdi və xalq Naxçıvanda əsl vətənpərvərlik, cəsarət, müdriklik göstərmişdir.

Naxçıvan dövrü də çox zəngin olmuşdur. Bu dövr çox ağır və eyni zamanda, çox şərəfli bir dövr idi. Çünki məhz Heydər Əliyevin Naxçıvandakı fəaliyyəti müstəqilliyə gedən yolda əsas rol oynamışdır. Məhz onun təşəbbüsü və rəhbərliyi ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvanda rəsmi dövlət bayrağı kimi təsdiq edildi və Azərbaycan Ali Sovetinə müraciət edildi və vəsatət qaldırıldı ki, bu bayraq Azərbaycanın rəsmi bayrağı kimi təsdiq edilsin. Sovet İttifaqının saxlanmasına dair referendumun keçirilməsi məhz Naxçıvanda mümkün olmadı. Çünki Heydər Əliyev buna imkan vermədi. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adı dəyişildi və Naxçıvan Muxtar Respublikası adı təsdiq edildi. Bu, müstəqilliyə gedən yolların müxtəlif istiqamətləri idi və o da təsadüfi deyil ki, məhz o illərdə Azərbaycan dövlətçiliyinin gələcəyi müəyyən edilirdi. Çünki o vaxt Bakıda rəhbərlikdə təmsil olunan insanlar öz şəxsi maraqları haqqında düşünürdülər. Ölkənin, xalqın maraqları onları heç düşündürmürdü. Bunun nəticəsi olaraq 1993-cü ildə Azərbaycanda vətəndaş müharibəsi başlayanda xalq yenə də ulu öndərə üz tutdu, onu siyasi hakimiyyətə dəvət etdi, Prezident vəzifəsinə seçdi və beləliklə, Azərbaycanda quruculuq, sabitlik, inkişaf dövrü başladı. Sabitlik təmin edildi, vətəndaş müharibəsinə son qoyuldu, qeyri-qanuni silahlı birləşmələr tərksilah edildi və Azərbaycan islahatlar yoluna qədəm qoydu. Dövlətçiliyin əsasları məhz o illərdə qoyulmuşdur. Ancaq antimilli qüvvələr öz çirkin niyyətlərindən əl çəkmək istəmirdilər. 1994-cü və 1995-ci illərdə dövlət çevrilişlərinə cəhd göstərilmişdir. Bu cəhdlərin arxasında xarici qüvvələr dayanmışdır. Bu da heç kəs üçün sirr deyil. Ancaq yenə də Azərbaycan xalqı Heydər Əliyevin rəhbərliyi ilə bu cəhdlərə son qoydu və bu cəhdləri törətmək istəyən ünsürlər öz layiqli cəzasını aldılar.

1995-ci ildə artıq vəziyyət tam sabitləşmiş, müstəqil Azərbaycanın Konstitusiyası qəbul edilmiş, hüquqi dövlət quruculuğu prosesi, iqtisadi islahatlar, siyasi islahatlar, Heydər Əliyev neft strategiyası icra edilməyə başlamışdır. Bu da Azərbaycanın indiki uğurlu inkişafının təməlində dayanan məsələdir.

1993-2003-cü illər tarixdə sabitlik və inkişaf dövrü kimi qalacaq. Heydər Əliyevin strateji qərarları ölkəmizin strateji inkişaf istiqamətlərini müəyyən etdi. O vaxt bizim qarşımızda müxtəlif seçimlər var idi, müxtəlif dövlət quruluşu yarana bilərdi.

Heydər Əliyevin xalq arasında nüfuzu o qədər yüksək idi ki, o, Azərbaycanda istənilən dövlət quruluşunu tətbiq edə bilərdi. Ancaq uzun illər Kommunist Partiyasının üzvü olan, Qanlı Yanvar hadisələrindən sonra isə Kommunist Partiyasının sıralarını tərk edən bir insan kimi o, demokratiya, inkişaf, bazar iqtisadiyyatı yolunu seçmişdir. Bu, onun üçün çox ciddi bir seçim idi. Çünki o, tamamilə fərqli bir ictimai-siyasi mühitdə formalaşmışdır. Gənc yaşlarından o dövrün nümayəndəsi kimi Sovet İttifaqına, öz xalqına, Kommunist Partiyasına qulluq edirdi. Ona görə, bu, onun üçün çox ciddi bir seçim idi. Onun müdrikliyi, gələcəyə strateji baxışları o seçimi şərtləndirdi və bu gün Azərbaycan azad, demokratik, hüquqi dövlətdir.

Azərbaycanda bütün azadlıqlar var, siyasi islahatlar aparılır, demokratik inkişaf sürətlə gedir. Azərbaycan bu gün dünya miqyasında demokratiyanın inkişafı baxımından seçilən ölkələrdəndir. Məhz bu strateji seçim 1990-cı illərin ortalarında qəbul edilmişdir və bu gün biz ulu öndərin siyasi xəttinə sadiq qalaraq müsbət meyilləri daha da gücləndiririk.

2003-cü ildən sonra isə yeni dövr başlayır. Əslində bu, əvvəlki dövrün məntiqi davamıdır. O vaxt da Azərbaycan xalqı bir daha həlledici məqamda öz müdrik sözünü demişdir. O vaxt xalq Heydər Əliyev siyasətinə, onun davamçılarına səs vermişdir. Çünki istəyirdi ki, bu siyasət davam etsin. İstəmirdi ki, yenə də hərc-mərclik, xaos, anarxiya, özbaşınalıq, mədəniyyətsizlik, talançılıq hökm sürsün. Azərbaycan xalqı xoşbəxt həyata layiq idi. Azərbaycan xalqı 1991-1992-ci illəri, 1993-cü ilin əvvəllərini yaxşı xatırlayırdı. Azərbaycanı kimlər idarə edirdi? Hansı səviyyəsiz qüvvələr hakimiyyət başına gəlmişdilər? Əslində hakimiyyəti zorla zəbt etmişdilər. O, tariximizin qara səhifələridir. Səriştəsizlik, bacarıqsızlıq, mədəniyyətsizlik, cəsarətsizlik, qorxaqlıq, riyakarlıq - bu idi o vaxt Azərbaycan rəhbərliyini əks etdirən epitetlər.

Azərbaycan xalqı istəmirdi ki, yenə o qara günlər qayıtsın. İstəyirdi ki, insanlar rahat yaşasınlar, ölkəmiz inkişaf etsin, sabitlik pozulmasın. Düzgün seçim edərək bir daha Heydər Əliyev siyasətinə səs verdi və əminəm, bu gün bütün Azərbaycan xalqı bir daha görür ki, nə qədər düzgün bir seçim edib.

Bu gün Azərbaycan inkişafdadır. Bu gün müstəqil dövlətimiz özünün ən uğurlu dövrünü yaşayır. Çoxəsrlik tarixində Azərbaycan heç vaxt indiki qədər güclü olmamışdır. Bu gün Azərbaycanda aparılan islahatlar xalqımızın gələcək inkişafını təmin edir. Azərbaycan dövləti çox möhkəm dayaqlar üzərində qurulubdur. Milli mənəvi dəyərlər birinci şərtdir.

Biz öz milli mənəvi dəyərlərimizə sadiqik və onları hər şeydən üstün tuturuq. Bu, möhkəm təməldir. Bizim milli ideologiyamız ulu öndər Heydər Əliyev tərəfindən formalaşıbdır. Biz bunu, bu ideologiyanı inkişaf etdiririk, zənginləşdiririk. Azərbaycançılıq ideologiyası bu gün artıq bir nümunə kimi mövcuddur.

Azərbaycanda dinlərarası, mədəniyyətlərarası münasibətlərin nə qədər düzgün tənzim olunması bu gün dünya üçün artıq bəllidir. Bizim nümunəmiz öyrənilir. Təsadüfi deyil ki, bu gün məhz Azərbaycan bu mövzu ilə bağlı dünyada mərkəzlərdən birinə çevrilmişdir.



Bizim beynəlxalq nüfuzumuz çox yüksək səviyyədədir. Azərbaycan dünyada çox böyük hörmətə, rəğbətə, inama malik olan bir ölkədir. Belə olmasaydı, beynəlxalq aləmin mütləq əksəriyyəti bizi dəstəkləməzdi.

Bu gün Azərbaycanda keçirilən beynəlxalq tədbirlər bunu əyani şəkildə sübut edir. Baxın, son iki həftə ərzində Nizami Gəncəvi Beynəlxalq Forumu və Asiya İnkişaf Bankı Rəhbərlər Şurasının illik toplantısı Bakıda keçirilmişdir. Birinci tədbirdə 60-dan çox ölkədən nümayəndələr iştirak edirdilər. Onların arasında çoxlu sayda fəaliyyətdə olan və keçmiş dövlət, hökumət başçısı iştirak edirdi, əsasən də Avropa qitəsindən. Ondan bir neçə gün sonra Bakıda Asiya İnkişaf Bankı Rəhbərlər Şurasının illik toplantısı keçirilmişdir. Orada da 70-ə yaxın ölkənin ən yüksək səviyyəli vəzifəli şəxsləri təmsil olunurdu. Yəni, iki həftə ərzində təxminən 130 ölkədən ən qabaqcıl, ən tanınmış, nüfuzlu simalar Azərbaycanda idilər.

Mənim o tədbirlər əsnasında çoxsaylı görüşlərim zamanı onların hər biri böyük heyranlıqla və eyni zamanda, təəccüblə deyirdilər ki, biz Azərbaycanın bu qədər inkişaf etmiş ölkə olduğunu təsəvvür etmirdik. Azərbaycan bu qədər zəngin ölkədir, Bakı bu qədər gözəl şəhərdir. Onların hər biri bunu qeyd edirdi. Yəni, budur bugünkü Azərbaycan.

Azərbaycan bu gün dünya miqyasında öz nüfuzunu daha da artırır. Çünki hər bir mövzu ilə bağlı prinsipial mövqe ortaya qoyulur. Hər bir məsələ ilə bağlı müstəqil siyasət kursumuz var. Bizim siyasətimizə təsir etmək mümkün deyil. Məncə artıq bunu bilməyən yoxdur. Cəhdlər var və yəqin ki, olacaq. Ancaq o cəhdlərin səmərəsi sıfıra bərabərdir. Nəyə görə? Çünki Azərbaycan dövləti möhkəm təməl üzərində qurulubdur. Çünki xalqla iqtidar arasında birlik var. Bizim gücümüzün əsas mənbəyi Azərbaycan xalqıdır. Azərbaycana gələn qonaqlar bir çox hallarda soruşurlar ki, bu sürətli inkişafın sirri nədir? Ölkədə bu qədər inkişaf gedir, təhlükəsizlik hökm sürür, insanların üzü gülür, gözəl ab-hava var. Nədir bunun sirri? Bilirsiniz ki, bunu bir görüş zamanı izah etmək mümkün deyil. Bunun bir çox səbəbləri var. Amma əsas səbəb xalqla iqtidar arasındakı birlikdir. Əgər bu varsa, deməli, hər şey olacaq, əgər yoxdursa, heç nə kömək etməyəcək. Nə enerji resursları, nə valyuta ehtiyatları, nə ordu, heç nə. Bax, indi müxtəlif regionlarda baş verən hadisələrə nəzər salaraq görürük, harada ki, bu yoxdur, sabitliyi süni şəkildə saxlamaq mümkün deyil. Ancaq xalqla iqtidar arasındakı birliyi əldə etmək, bunu möhkəmləndirmək üçün xalqa xidmət etmək lazımdır. Bax, mən bunu, necə deyərlər, yığcam formada bu cür izah edərdim: Xalqa ulu öndər kimi xidmət etmək lazımdır. O, bütün dövrlərdə öz xalqına xidmət edib. Biz də çalışırıq onun yolu ilə gedək. Bugünkü Azərbaycan reallıqları onu göstərir ki, biz onun yolu ilə uğurla gedirik.

Beynəlxalq nüfuzumuz bundan sonra da artacaq. Azərbaycan beynəlxalq aləmin dəyərli üzvüdür. Bundan sonra görüləcək işlər nəticəsində bizim təsir imkanlarımız daha da genişlənəcək. Bizim təsir imkanlarımız bizə ona görə lazımdır ki, Azərbaycanın maraqlarını təmin edək. Eyni zamanda, regional əməkdaşlıq məsələlərində də istədiyimizə nail olaq. Bizim istədiyimiz əməkdaşlıqdır, qarşılıqlı mənfəətdir, qarşılıqlı dəstəkdir. Bizim başqa fikrimiz yoxdur. Ona görə, regional inkişaf, regional təhlükəsizlik, enerji

təhlükəsizliyi məsələlərində Azərbaycan çox önəmli bir ölkəyə çevrilibdir.

Beynəlxalq nüfuz, iqtisadi inkişaf, enerji təhlükəsizliyi, infrastruktur layihələrinin icrası - bütün bunlar Azərbaycan reallıqlarıdır. Azərbaycan rəhbərliyinin hər bir məsələ ilə bağlı çox dəqiq, düşünülmüş proqramı və inkişaf strategiyası var. Biz ölkəmizi gələcəkdə necə inkişaf etdirəcəyik?! Bu barədə bizim bütün proqramlarımız var, bu barədə vaxtaşırı məlumatlar verilir və xalq tərəfindən dəstəklənir.

Azərbaycan bir neçə gündən sonra tarixdə ilk dəfə keçiriləcək Avropa Oyunlarını qəbul edəcək. 2017-ci ildə isə İslam Həmrəylik Oyunlarını qəbul edəcək. Bu da ölkəmizin nadirliyini əks etdirən ən gözəl göstəricidir.

Azərbaycan Asiya ilə Avropa arasında yerləşən ölkədir. Bu coğrafi yerləşmə əlbəttə ki, bizim tariximizə də, bugünkü vəziyyətimizə də təsir edir. Biz isə çalışırıq ki, bu coğrafi mövqeyimizdən maksimum səmərə ilə istifadə edək. Bu coğrafi mövqe bizə bəlalar da, faciələr də gətirə bilərdi. Ancaq bu gün düşünülmüş, cəsarətli və dürüst xarici siyasətimiz nəticəsində biz bu əlverişli mövqeyi artıq müsbət amil kimi görürük. Bunu müsbət amilə çevirən məhz bizik. Bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayı getdikcə artır. Bu isə bizim nüfuzumuzu qaldırır, önəmimizi artırır. İki il ərzində həm Avropa, həm İslam Oyunlarının keçirilməsi nadir bir göstəricidir, bunun analoqu yoxdur, bəlkə də heç vaxt olmayacaq.

O da aydındır ki, bu dərəcədə sürətli inkişaf heç də hamının xoşuna gəlmir. Azərbaycan xalqının mütləq əksəriyyəti bizim bütün təşəbbüslərimizi dəstəkləyir. Biz xarici və daxili siyasətlə bağlı bu dəstəyi tam görürük. Ancaq bizim uğurumuzu istəməyən, inkişafımıza paxıllıqla yanaşan dairələr də var. Biz bu barədə həm o dairələrin nümayəndələri ilə açıq danışırıq, həm də öz xalqımıza bu barədə məlumat veririk. Çünki Azərbaycan xalqı bilməlidir ki, nələr baş verir. Ölkə daxilində Azərbaycanın xarici siyasəti ilə bağlı biz heç nəyi gizlətmirik. Azərbaycan xalqı hər şeyi bilməlidir. Bilirəm, bu gün Azərbaycan xalqını incidən odur ki, bizə qarşı əsassız iddialar, ittihamlar səslənir. Bu ittihamların heç bir əsası yoxdur. Onlar süni şəkildə yaradılan ittihamlardır. Bir çox hallarda bu ittihamları bizə ünvanlayan dairələr sanki səhər durub güzgüyə baxmırlar. Amma baxsalar pis olmazdı. Kimisə ittiham etməkdənsə, elə öz daxili həyatına nəzər salmaq daha xeyirli ola bilər.

Ona görə, bu kampaniyalar əslində heç vaxt dayanmayıb. Sadəcə olaraq, önəmli hadisələr ərəfəsində özünü daha da qabarıq şəkildə büruzə verir. Üç il bundan əvvəl “Eurovision” mahnı müsabiqəsi ərəfəsində Azərbaycana qarşı nə qədər çirkin qarayaxma, şantaj, böhtan kampaniyaları aparılmışdı. Bütün bunları biz yaxşı xatırlayırıq. İndi də təxminən eyni mənzərə ilə üzləşirik. Ancaq o vaxt da bunun heç bir təsiri, əhəmiyyəti yox idi, bu gün də yoxdur. Çünki Bakıya gələcək minlərlə idmançı, onların nümayəndə heyətləri öz gözləri ilə görəcəklər ki, Azərbaycan dövləti nəyə qadirdir, müstəqillik dövründə biz nələr yaratmışıq, Azərbaycan xalqı necə yaşayır. Azərbaycan xalqı azad, qürurlu, öz milli dəyərlərinə sadiq xalq kimi yaşayır. Azərbaycan ictimaiyyəti bütün bu müsbət dəyişiklikləri görür, onları təqdirlə qarşılayır.

Ona görə, bu yüksək kürsüdən mənim üçün çox əziz bir gündə bir daha demək istəyirəm ki, bütün bunlara fikir vermək lazım deyil. Bizim siyasətimizə bunun heç bir təsiri olmayacaq. Bizim siyasətimizə ancaq Azərbaycan xalqı, onun iradəsi təsir edə bilər. Biz ölkəmizi Azərbaycan xalqının iradəsi ilə idarə edirik. Milli maraqlarımız bizim üçün hər şeydən üstündür. Bundan sonra da biz öz prinsipial mövqeyimizdən kənara çıxmayacağıq. Biz ölkəmizin inkişafı, xalqımızın rifahı üçün bundan sonra da səmərəli işləyəcəyik, ulu Öndərin siyasi xəttinə sadiq qalacağıq. Azərbaycanın dövlət müstəqilliyi bizim ən böyük sərvətimizdir, ən böyük xoşbəxtliyimizdir. Mən dəfələrlə demişəm və bir daha demək istəyirəm ki, bizdən əvvəlki nəsillər müstəqillik həsrəti ilə yaşamışlar. Ancaq müstəqilliyi görə bilməmişlər. Bu xoşbəxtlik bizə nəsib oldu. Eyni zamanda, bu gün müstəqil dövləti inkişaf etdirmək, irəliyə aparmaq da bizə nəsib oldu. Bu, böyük xoşbəxtlikdir, böyük məsuliyyətdir.

Mən əminəm ki, Azərbaycan xalqı bundan sonra da ulu öndərin siyasi xəttinə sadiq qalaraq sürətlə inkişaf edəcək. Azərbaycan öz dövlət müstəqilliyini möhkəmləndirəcək. Bizim yolumuz haqq, inkişaf, tərəqqi yoludur. Bu yolda bütün Azərbaycan xalqına qələbələr arzulayıram. Sağ olun.

***

Sonra Heydər Əliyev Mükafatının təqdimetmə mərasimi oldu.

Əvvəlcə Azərbaycanın xalq rəssamı Tahir Salahovun Heydər Əliyev Mükafatı ilə təltif olunması haqqında Azərbaycan Prezidentinin Sərəncamı oxundu.

Prezident İlham Əliyev mükafatı Tahir Salahova təqdim etdi. Xalq rəssamı Tahir Salahov çıxış edərək ürək sözlərini bildirdi.

Sonra ulu öndər Heydər Əliyevin fəaliyyətinə həsr olunan videofilm nümayiş etdirildi.

Daha sonra Heydər Əliyev Fondu tərəfindən 2009-cu ildə təsis edilən “Qızıl çinar” beynəlxalq mükafatının 2015-ci il üzrə qalibləri elan olundu.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Fondun mədəniyyət sahəsində həyata keçirdiyi layihələrə dəstəyinə və Azərbaycan mədəniyyətinin təbliğində fəal iştirakına görə tanınmış incəsənət eksperti Erve Mikaelofa “Qızıl çinar” beynəlxalq mükafatını təqdim etdi. Erve Mikaelof mükafata layiq görüldüyü üçün minnətdarlığını bildirdi.

Mehriban Əliyeva qədim muğam irsinin qorunmasına, muğam ifaçılıq məktəbinin inkişafına, yeni ifaçılar nəslinin yetişdirilməsinə, Azərbaycan mədəniyyətinin inkişafına verdiyi töhfələrə görə xalq artisti, muğam sənətinin görkəmli nümayəndəsi Ağaxan Abdullayevə də “Qızıl çinar” beynəlxalq mükafatını təqdim etdi. Xalq artisti Ağaxan Abdullayev də təşəkkürünü bildirdi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 11 illiyinə həsr olunan təntənəli mərasim bədii hissə ilə davam etdi.

# İlham Əliyev "Bakı-2015" birinci Avropa Oyunlarını açıq elan edib



**Azərbaycan və onun paytaxtı Bakı səbirsizliklə gözlənilən anın – birinci Avropa Oyunlarının açılışının həyəcan və sevincini yaşadı.**

Tamaşaçılar açılış mərasiminin keçirildiyi Bakı Olimpiya Stadionuna daxil olaraq yerlərini tutdular. "Bakı-2015" birinci Avropa Oyunları Əməliyyat Komitəsinin məlumatına görə, açılış mərasimi üçün nəzərdə tutulan bütün biletlər satılıb.

Nüfuzlu idman xadimləri, ekspertlər Azərbaycan paytaxtında keçirilən ilk Avropa Oyunlarını tarixi hadisə adlandırırlar. Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki iyunun 11-də AZƏRTAC-a müsahibəsində əminliklə vurğulayıb ki, Bakıda hər kəs gözəl, möhtəşəm və inanılmaz idman bayramının şahidi olacaq. Onun sözlərinə görə, "Bakı-2015" ilk Avropa Oyunları təkcə qitədə deyil, dünya miqyasında mötəbər idman tədbiri olacaq və 6 min atletin 20 idman növündə mübarizəyə qatılması həqiqətən böyük göstəricidir.

Bakı Olimpiya Stadionuna toplaşmış 68 min tamaşaçı, eləcə də dünyada yüz milyonlarla televiziya tamaşaçısı unudulmaz tarixi anın şahidi oldular.





Paytaxtın xəritəsinə yeni daxil olmuş Bakı Olimpiya Stadionu öz möhtəşəmliyi, əsrarəngiz gözəlliyi ilə hər kəsin diqqətini çəkir. Burada dünyanın aparıcı bədii, yaradıcı və texniki heyətlərinin iştirakı ilə ərsəyə gələn kreativ şou nümayiş olundu. Stadion ən mürəkkəb tərtibata malik möhtəşəm səhnə mexanizmindən ibarət məkana çevrilmişdi. O, təbiətin dörd ünsüründən - su, od, torpaq və yel obrazlarından istifadə etməklə heyrətamiz bir mənzərə yaratdı. Səhnənin quraşdırılması üç aya başa gəlib.

Mərasimin təşkilinə 28 ölkədən 300-dən çox yaradıcı heyət və 34 ölkədən 1000 nəfər mütəxəssis cəlb olunub.

Açılış mərasimini hazırlayan bədii heyətin siyahısına qısa nəzər yetirək: Bədii rəhbər 2004-cü ildə Afina Olimpiya Oyunlarında mərasimlərin qurucusu kimi dünyada böyük şöhrət qazanan Dimitris Papaioannoudur. Musiqi rəhbəri Teodor Currentzis 2014-cü ildə "Operaların lentə alınması üzrə ECHO mükafatı" laureatıdır. Quruluşçu rəssamlar isə Thanassis və Eva memarlıq, dizayn və səhnə quruculuğunun kreativ məkanı olan "Flux Ofis" şirkətinin memar və yaradıcıları – Tanassis Demiris və Eva Manikadakidir. Onların memarlıq, teatr, opera, rəqs və kino sahəsindəki işləri Venesiya Memarlıq Biennalesi (2014), Venesiya Film Festivalı (Miss Violence, 2013) və digər beynəlxalq səviyyəli tədbirlərdə nümayiş etdirilib, mükafatlar qazanıb.

Beləliklə, çoxdan bəri səbirsizliklə gözlənilən, həyəcan və qürur doğuran tarixi an - Bakı Olimpiya Stadionunda ilk Avropa Oyunlarının açılış mərasimi başladı.

Mərasim "Bakı-2015" birinci Avropa Oyunları Əməliyyat Komitəsinin əməliyyatlar üzrə baş direktoru Saymon Kleqin dediyi kimi, bir sıra maraqlı məqamlar və sürprizlərlə yadda qaldı.

Tamaşaçıların sürəkli alqışlarından sonra stadiona bir anlıq sükut çökdü. Bu sükutu dünya şöhrətli xanəndə Alim Qasımovun ifa etdiyi muğamın avazı pozdu. Sonra ritmik nağara sədaları altında 24-dən sıfıra doğru geriyə sayım başladı. Bu, 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 24 ilini əks etdirirdi.

Rəqəmlər sıfıra yaxınlaşdıqca nağaraların səsi zilə qalxırdı. Stadion gur işığa qərq olur və minədək rəqqasə səhnənin əsas hissəsini ətəkləri ilə örtürdü. Onların ətəkləri Azərbaycanın dünyaca məşhur xalılarındakı həndəsi fiqurlarla, dekorativ naxışlarla işlənmişdi. Rəqqasələrin paltarlarının ətəkləri 16 min kvadratmetr parçadan tikilib. Bu, 13 Olimpiya üzgüçülük hovuzu böyüklükdə parça deməkdir. Hər ətək məxsusi olaraq səhnədəki yerinə görə işlənib.

Rəqqasələrin ətəklərinin son yellənişində Azərbaycanın dövlət bayrağının obrazı yarandı. Səhnədən səmaya fişənglər atıldı. Şeypurçular Dmitri Şostakoviçin "Bayram uvertürası"ndan bir parça səsləndirdilər. Diqqət VİP-lojalara yönəldi və salamlama başladı. Mərasim iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi, birinci xanım, "Bakı-2015" ilk Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanı və Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkini hərarətlə salamladılar.

Stadionun VİP tribunasında Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım, "Bakı-2015" ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva, Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki əyləşmişdilər. Oyunların açılış mərasimində iştirak



etmək üçün Bakıya gəlmiş mötəbər qonaqlar arasında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Rusiya Prezidenti Vladimir Putin, Belarus Prezidenti Aleksandr Lukaşenko, Serbiya Prezidenti Tomislav Nikoliç, Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov, Tacikistan Prezidenti Emoməli Rəhmon, Monteneqro Prezidenti Filip Vuyanoviç, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Mladen İvaniç, Monako Şahzadəsi II Albert, Lüksemburqun Böyük Hersoqu Anri, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, Qazaxıstanın Baş naziri Kərim Məsimov, Rumıniyanın Baş naziri Viktor Ponta, Bolqarıstanın Baş naziri Boyko Borisov, Səudiyyə Ərəbistanı Krallığının şahzadəsi Abdullah Bin Musaad Bin Əbdüləziz, Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax, Milli Olimpiya Komitələri Assosiasiyasının prezidenti şeyx Əhməd əl-Fahad Əl-Sabah, ISESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri, eləcə də San-Marino, İsveçrə, Böyük Britaniya, Slovakiya, Çexiya, İran, Ukrayna, Oman, Küveyt, Qətər və digər ölkələrin yüksək səviyyəli rəsmi şəxsləri, tanınmış ictimai-siyasi xadimlər, dünya idman ictimaiyyətinin görkəmli nümayəndələri vardı.

Simfonik orkestrin ifasında Azərbaycanın dövlət himni səsləndirildi.

Azərbaycan Respublikasının dövlət bayrağı stadiona gətirildi.

Stadionda quraşdırılan elektron tablolarda Azərbaycanı qarış-qarış dolaşmış məşəlin səyahət marşrutu nümayiş etdirildi. Uzunluğu 700 metr olan, arena boyu dövrələnən paneldə LED lampaları vasitəsilə alovun səyahət etdiyi məkanların adları bir-bir yazıldı.

Son məşəlçi - iki dəfə paralimpiya oyunları çempionu, ikiqat dünya çempionu, beşqat Avropa çempionu İlham Zəkiyev Jan Sibeliusun “5-ci Simfoniya”sının sədaları altında birinci Avropa Oyunlarının məşəlini stadiona gətirdi. Gənclərin Olimpiya Oyunlarında taekvondo üzrə qızıl medala layiq görülmüş Səid Quliyev onunla yanaşı addımlayırdı. Onlar mərkəzə doğru hərəkət etdikləri zaman ayaqları altında cadar-cadar olan torpaq görünürdü. Bu mənzərə palçıq vulkanları ətrafında Azərbaycan təbiətini göz önündə canlandırırdı.

Səid Quliyev stadionun mərkəzində qaya parçasını götürdü və onun yerində çökək yarandı. İlham Zəkiyev tərəfindən ora yaxınlaşdırılan məşəl söndü, çökək doldu. Torpaq üzərindəki çatlardan çıxan alov qığılcımlarının axını lavanı xatırladırdı.

Stadionun ortasından qaya parçası götürüldü və birinci məşəl gələcəkdə görüləcək işlərə işıq salmaq üçün torpağa basdırıldı.

Torpağın çatlarından çıxan alov səhnənin kənarında dayanmış adama tərəf irəlilədi, ruh və ya holoqram kimi onu bürüyüb cana gətirib oyatdı. Həmin adam şair Nizamidir. Şairin əlində tutduğu tərəzinin bir gözündə qadın, digər gözündə kişi fiquru vardı. Nizami poeziyasının ruhundan doğan musiqi parçası tamaşaçıları şairin xəyal dünyasına apardı. Nəzərlər stadionun mərkəzində havadan asılmış iri tərəziyə yönəldi. Nizami əlindəki tərəzini fırlatdıqca iri tərəzi də fırlanırdı. Havadan asılmış iri tərəzinin gümüşü rəngli gözündə qadın (Ay), qızılı rəngli gözündə isə kişi (Günəş) rəqs edirdi. Nizaminin qəhrəmanları Leyli və Məcnunun rəmzləri olan kişi və qadın dövrə vura-vura rəqs edir, qovuşmağa çalışır, lakin birləşə bilmirdilər.

Səhnə ətrafındakı halqada üç yüzədək ifaçı



göründü. Qədim tarixə malik miniatür sənətinin yaratdığı obrazlar səhnədə göründükcə halqanın ətrafı rənglə dolurdu. Halqa fırlandıqca adamlar sanki miniatür rəsmlərdə təsvir olunan obrazları canlandırırdılar. Nizami tamaşaçını yaradıcılığının doqquz mövzusu ətrafında səhnədən-səhnəyə aparırdı. Evlər, saray və məktəblər, şahzadələr, əjdahalar, atlar, digər real və əfsanəvi varlıqlar görünürdü.

Halqa tam dövrə vurduqdan sonra yerdən nar ağacı boy verib qalxdı. Nizami ağacdan bir nar dərdi. Qəfildən hər şey dondu.

Nizaminin ətrafındakı miniatürlər dünyası torpağa bataraq yoxa çıxdı, tərəzi uzaqlaşdı və ifaçılar səhnəni tərk etdilər.

Stadionun mərkəzinə doğru uçan, bolluq, oyanış, sevgi, uğur mücəssəməsi olan və Azərbaycanı rəmzləşdirən nəhəng bir nar göründü. Nar paralandı və onun dənələri – qırmızı rəngli yüzlərlə şar tribunaların üzərində uçmağa başlayaraq ecazkar mənzərə yaratdı.

Sonra komandaların paradı başladı. Bu mərasim 50 təbilçinin çaldığı gurultulu təbil sədaları ilə müşayiət olunurdu. İlk olaraq Olimpiya Oyunlarını dünyaya bəxş etmiş ölkənin – Yunanıstanın idmançıları səhnəyə daxil oldular. Digər ölkələrin komandaları onun arxasınca əlifba sırası ilə gəlirdilər.

İdmançıların keçidini Albaniya, Andorra, Ermənistan, Avstriya, Belarus, Belçika, Bosniya və Herseqovina idmançıları davam etdirdilər.

Tribunaların önündən Bolqarıstan, Xorvatiya, Kipr, Çexiya, Danimarka, Estoniya, Finlandiya, Makedoniya komandaları keçdilər.

Növbə Fransa, Gürcüstan, Almaniya, Böyük Britaniya, Macarıstan komandalarına çatdı. Oyunlarda ən böyük nümayəndə heyəti ilə təmsil olunan ölkələrdən biri Almaniyadır. Bu ölkədən Bakıya 266 idmançı gəlib.

Onların ardınca İslandiya, İrlandiya, İsrail, İtaliya, Kosovo, Latviya, Lixtenşteyn, Litva, Lüksemburq, Malta komandaları gəlib keçdilər. Əslən irlandiyalı olan Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki ölkəsinin komandasını sevinclə salamladı.

Mərasim Moldova, Monako, Monteneqro, Hollandiya, Norveç, Polşa, Portuqaliya, Rumıniya komandalarının keçidi ilə davam etdi.

Rusiya, San-Marino, Serbiya, Slovakiya, Sloveniya, İspaniya, İsveç, İsveçrə, Türkiyə, Ukrayna komandaları tribunaların önündən keçdilər. Rusiya bu Oyunlarda ən böyük nümayəndə heyəti - 359 idmançı ilə təmsil olunur. Rusiya Prezidenti Vladimir Putin ayağa qalxaraq ölkəsinin nümayəndə heyətini salamladı.

Tamaşaçılar qardaş Türkiyə idmançılarını xüsusi coşqu ilə qarşıladılar. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan Bakıya gəlmiş 190 idmançını salamladılar.

İdmançıların keçidini ev sahibi - Azərbaycan atletləri tamamladılar. Ölkəmiz Oyunlarda 291 idmançı ilə təmsil olunur. Onların keçidi Mənsum İbrahimovun ifasında "Qarabağ şikəstəsi" muğamı ilə müşayiət olunurdu. Üçrəngli bayrağımızı cüdo üzrə Avropa çempionu Elmar Qasımov aparırdı. Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva idmançılarımızı hərarətlə salamladılar.

İdmançılar mərkəzi səhnə ətrafında təntənəli şəkildə addımlayaraq parad zamanı 50 bayrağın yerləşdirildiyi platformaya aparan pillələrdə toplaşaraq tribunalarda yerlərini tutdular.

Daha sonra bayraqların rəqsi başladı. Aaron Koplendin "Adi adam üçün şeypur" əsərindən musiqi parçası ilə başlanan 50 bayrağın rəqsi Natiq Şirinovla 50 nağaraçının ifasında zərb alətlərinin sədası altında davam etdi.

Dünya şöhrətli müğənni Ledi Qaqanın ifası açılış mərasiminin vəd edilən sürprizlərindən biri oldu. O, piano arxasında əyləşərək "Imagine" ("Xəyal et") mahnısını ifa etdi. Müğənninin ifası hərarətlə qarşılandı və dəfələrlə alqışlandı.

Stadiona Avropa Olimpiya Komitəsinin (AOK) bayrağı gətirildi. Onu səhnəyə Avropanın müxtəlif ölkələrindən olan səkkiz Olimpiya çempionu - Namiq Abdullayev (Azərbaycan), Lüsi Dekosse (Fransa), Servet Tazegül (Türkiyə), Nikkolo Kampriani (İtaliya), Keti Teylor (İrlandiya), Tomas Bimis (Yunanıstan), Kristina Fazekas Zur (Macarıstan), Yelena Zamolodçikova (Rusiya) gətirdilər.

Stadionda Uilyam Uoltonun "İmperiya tacı" marşı səsləndi.

AOK-un bayrağı Azərbaycan bayrağı ilə yanaşı ucaldıldı.

Stadiondakı tablolarda Avropa Nüvə Tədqiqatları Təşkilatının və orada çalışmış alimlərin videogörüntüsü, həmçinin ixtiraları yayımlandı. Onların arasında məşhur həmyerlimiz, Nobel mükafatı laureatı Lev Landau da vardı.

Avropa Nüvə Tədqiqatları Təşkilatı 60 ildən çoxdur ki, xalqları elm ətrafında birləşdirərək, sülhə çağırır. Avropa Oyunları beynəlxalq birliyin idmandan od alan yeni məşəlidir.

Böyük adron sürətləndiricisi 100-dən çox xalqı təmsil edən 10 mindən artıq fizik və mühəndisin cəmləşdiyi qurumun – Avropa Nüvə Tədqiqatları Təşkilatının əsas məhsuludur. O, dünyanın ən böyük maşınıdır və Avropanın mərkəzində, yerin dərinliklərində saxlanılır.

Yanıb-sönən LED lampalar stadion boyu zərrəciklərin sürətlə dövrə vurması böyük adron sürətləndiricisi effektini yaratdı.

Stadionun üzərində iri ağ buğa və qız, onların arxasınca sayrışan ulduzlar kəhkəşanı göründü. Bu, Avropa qitəsinin gecə vaxtı kosmosdan görünən siluetidir. Uçub-keçən ulduzlar Bakı səmasında parlayır. Avropa qitəsinin xəritəsinin hazırlanması üçün 16 lazerdən istifadə olunub. İlk dəfə idi ki, bir səhnədə irimiqyaslı animasiya yaratmaq üçün bu qədər lazerdən istifadə edilirdi.

Əfsanəyə görə, Avropa Finikiya şahzadəsi idi. Avropanın gözəlliyinə məftun olmuş yunan tanrısı Zevs çimərlikdə onun qarşısında əzəmətli ağ buğa cildində peyda olur. Heyran qalmış Avropa buğanın tərkinə minir. Zevs dərhal onu oğurlayır və dənizdən keçirib Avropanın cənub sahillərində yerləşən yunan adası Kritə gətirir. Burada Avropanın Zevsdən üç oğlu dünyaya gəlir. Oğullardan biri Avropanın ilk maarifçi sivilizasiyasının əfsanəvi banisi Minos idi.



Avropa bu əfsanəvi Şərq şahzadəsinin şərəfinə adlandırılıb və onun buğanın belindəki təsviri qitənin rəmzidir.

Avropa və buğa stadionun üzərində uçduqda Leoş Yanaçekin "Ot basmış cığırlarla" əsəri Hokon Eustbönün ifasında səsləndi. Bu bölmə birinci Avropa Oyunlarının rəsmi açılışını ifadə etdi.

Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki və Azərbaycanın birinci xanımı, "Bakı-2015" Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva səhnəyə gəldilər.

İlk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva çıxış etdi.

## MEHRİBAN ƏLİYEVANIN ÇIXIŞI

-Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyev.

Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki.

Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax.

Zati-aliləri.

Avropa Oyunlarının atletləri.

Xanımlar və cənablar.

Hörmətli qonaqlar.

Azərbaycana xoş gəlmisiniz. İlk Avropa Oyunlarına xoş gəlmisiniz.

Əziz həmvətənlər.

Birinci Avropa Oyunlarının açılışı münasibətilə bütün Azərbaycan xalqını səmimi qəlbdən təbrik edirəm.

Bu möhtəşəm bayram müstəqil Azərbaycanın, hər bir Azərbaycan vətəndaşının qələbəsidir.

Müstəqillik illərində əldə etdiyimiz uğurlar və nailiyyətlər nəticəsində bu gün burada, gözəl Bakıda Avropa Olimpiya hərəkatının tarixində yeni səhifə yazılır.

Bu səhifəni biz yazırıq, Azərbaycan xalqı yazır.

Qoy, Tanrı Azərbaycanı hər zaman qorusun!

Əziz dostlar, bu axşam biz Avropanın idman tarixində yeni fasilə başlayırıq.

Azərbaycan fəxr edir ki, ilk Avropa Oyunları Bakıda keçirilir.

Avropa Oyunlarının məşəli müqəddəs Atəşgah məbədində alovlandırıldı və yol boyunca hər bir azərbaycanlının qəlbini iftixar hissi ilə döyündürərək ölkəmizi dolaşdı.

Məşəl bayram, ruhlandırma və birlik mesajını daşıdı.

Məhz alovlanan ruh hamımızı bir araya gətirir.

Mən Avropa Olimpiya Komitəsinə və onun prezidenti Patrik Hikkiyə minnətdarlığımı bildirmək istəyirəm.

Bu minnətdarlıq onun həm ilk Avropa Oyunlarının keçirilməsi üçün Bakının seçilməsinə, həm də yadda qalacaq belə bir tədbirin təşkilinə verdiyi dəstək və göstərdiyi yardım ilə bağlıdır.

Mən, həmçinin Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Baxı və Olimpiya ailəsinin üzvlərini salamlamaq istəyirəm. Azərbaycanda Olimpiya hərəkatına verdikləri davamlı dəstəyə görə onlara minnətdaram.

Azərbaycan zəngin tarixə, mədəniyyətə və adət-ənənələrə malik olan ölkədir. Multikulturalizm və to-



lerantlıq, dostluq və qonaqpərvərlik, ahəngdarlıq və həmrəylik Azərbaycanın həyat tərzinin ayrılmaz hissəsidir.

Bu il biz Avropa Oyunlarını qəbul edirik.

2017-ci ildə biz İslam Həmrəylik Oyunlarını qəbul edəcəyik.

Bu, Azərbaycanın mədəniyyətlərarası dialoqun inkişafında oynadığı rolu nümayiş etdirir.

Müstəqil dövlət kimi biz gəncik. Cəmi 24 yaşımız var. Yaşımız bu axşamkı mərasimdə geriyə saymağın məhz həmin rəqəmdən başlanılması ilə üst-üstə düşür.

Son 24 il ərzində ölkəmizdə sürətli inkişaf, irəliləyiş və müasirləşmə müşahidə olunub.

Azərbaycanın iqtisadi sabitliyi və davamlı inkişafı bizə bu cür böyük idman tədbirini keçirmək imkanı yaradır.

İşə sadiqliyimiz və yorulmaz fəaliyyət sayəsində vaxtın məhdud olduğunu dəf edərək, bu Oyunları cəmi iki il yarım ərzində hazırladıq.

Mən Oyunları reallığa çevirmək üçün böyük səylə, sadiqliklə və istəklə çalışan şəxslərin hamısına təşəkkürümü bildirmək istəyirəm.

Mən, həmçinin bütün beynəlxalq tərəfdaşlarımıza, bir çox yerli və xarici könüllülərə minnətdarlığımı bildirmək istəyirəm.

Komandamız qarşılıqlı əməkdaşlığın, anlaşma və dostluğun bariz nümunəsidir. Bu axşam biz Avropanın 6 min ən yaxşı atletini ölkəmizdə salamlayırıq.

Hörmətli atletlər, bu Oyunlar sizin üçündür. Siz ilk iştirakçısınız. Siz Avropa Oyunlarının ilk çempionları olacaqsınız. Bütün Azərbaycan xalqı Sizə dəstək vermək üçün bir araya gəlib.

Bakı 17 gün ərzində sizin evinizdən uzaqda ikinci doğma eviniz olacaq. Bu axşam mən xalqımızdan, əldə etdiyimiz bütün nailiyyətlərdən fərəh və iftixar hissi duyuram. Mən bu Oyunlara qəlbən bağlandığınıza görə Sizin hamınıza təşəkkürümü bildirirəm.

Onu da bildirirəm ki, gələn illərdə Avropa Oyunlarının məşəli nə qədər uzaqlarda alovlansa da, Azərbaycanın və "Bakı–2015"-in parlaq ruhunun atəşi orada olacaq.

Avropa Oyunlarının atletləri.

Xanımlar və cənablar.

Əziz qonaqlar.

Sülhü, dostluğu və həmrəyliyi qeyd etmək üçün Bakıya, Azərbaycana xoş gəlmisiniz!

***

Sonra Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki çıxış etdi.

**PATRİK HİKKİNİN ÇIXIŞI**

-Axşamın xeyir Bakı!

Axşamın xeyir Azərbaycan!

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyev.

"Bakı-2015"-in Təşkilat Komitəsinin sədri, birinci xanım Mehriban Əliyeva.

Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax.

Milli Olimpiya Komitələri Assosiasiyasının prezidenti şeyx Əhməd əl-Fahad Əl-Sabah.

Zati-aliləri dünya liderləri.

Beynəlxalq Olimpiya Komitəsinin üzvləri.

Avropa Olimpiya ailəsinin üzvləri.

Çox hörmətli qonaqlar.

Bakıdan və bütün Azərbaycandan olan əziz dostlar.

Qarşıdan gələn 17 günü canlandıracaq 12.500 könüllü.

Sağ olun.

Çox sağ olun.

Bu, Avropa Olimpiya Komitəsinin tarixində ən fərəhləndirici məqamdır.






Bu axşam burada Bakının yeni möhtəşəm Olimpiya Stadionunda biz Avropa idmanında tarixi məqamın şahidiyik, onu yaradırıq: İlk Avropa Oyunlarının açılışındayıq.

Bu axşam biz dünyanın Qitə Oyunlarına çatışmayan beşinci halqanı əlavə edirik.

Avropanın ilk Oyunları sayəsində biz Olimpiya hərəkatının beş qitəsini bir-birinə daha sıx bağlayacağıq.

Prezident Əliyev, sağ olun, birinci xanım, Əliyeva sağ olun! Azərbaycan, sağ ol! Avropa Olimpiya ailəsini səmimi qəbul etdiyinizə görə sağ olun!

Birinci xanım Əliyeva, Sizin "Bakı-2015"-in Təşkilat Komitəsinin sədri kimi Avropa Oyunlarında oynadığınız rola sözlə qiymət vermək çox çətindir.

Bu sahədə yorulmaz fəaliyyətinizə, Avropada idmanın parlaq gələcəyinə verdiyiniz töhfəyə görə Sizə minnətdaram. Siz bir dövlət kimi qürur doğuran yoldasınız. Bu yolda Sizinlə addımlamaqdan şərəf duyduq. Beynəlxalq ictimaiyyətin üzvü, cəmiyyət və Avropanın yeni idman paytaxtı kimi məqsədlərinizin həyata keçməsində iştirak etməkdən fərəh hissi duyduq.

İdman müsbət dəyişikliklər üçün nadir qüvvədir. Baxın, idmanın universal qanunu hesab etdiyi dəyişikliyi qaçılmaz edən dəyərlərin yayılmasına çalışdıq. Qlobal etika, ədalət, hörmət və dostluq dəyərlərini yaydıq.

"Bakı-2015" uzun yolun ən vacib nöqtəsidir və çılğın arzudur. O, AOK-ın alovlanan iddiasıdır. Bu, Sizin üçün, Bakı üçün, Azərbaycan xalqı üçün indiki nəslə bir dəfə nəsib olan fürsətdir və sizlər onilliklər ərzində bu məkanların, bu sərmayənin və qlobal diqqətin bəhrəsini görəcəksiniz.

İdman və Olimpiya hərəkatının gənc dövlətinizin sürətli inkişafının mərkəzində durmasına daim səy göstərən Prezident Əliyevin və birinci xanım Əliyevanın qətiyyətli mövqeyi hazırlıq işlərimizin aparıcı qüvvəsi oldu.

Bu, sizə - nazir Azad Rəhimovun rəhbərlik etdiyi "Bakı-2015" Avropa Oyunlarının Əməliyyat Komitəsindəki 2000 əməkdaşa göstərilən etimaddır. Çünki onlar Oyunları cəmi 30 ay ərzində həyata keçirmək məqsədilə bu cür qətiyyət və peşəkarlıqla çalışdılar.\

Səylərinizə görə çox sağ olun.

İndi isə mən şərəf hissi ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi "Bakı-2015" ilk Avropa Oyunlarını açıq elan etməyə dəvət edirəm.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev birinci Avropa Oyunlarını açıq elan etdi.

Stadionun ətrafında atəşfəşanlıq başlandı.

Stadionun işıqları söndürüldü. Qaranlıqda muğam avazı üstündə tənha bir səs eşidildi. Bu, mərasimin əvvəlində dinlədiyimiz xalq artisti Alim Qasımovun səsi idi. Bu dəfə o, uçan xalça üzərində oxuyurdu.

Çat-çat olmuş torpaq üzərində bir qadın dolaşırdı. Onun əlində yazın gəlişini bildirən, Novruzun rəmzi olan səməni vardı. Ayaqları altında isə ot və bu yerlərdə bitən gül-çiçəklər cücərirdi. Xəfif meh qadının uzun, şəffaf duvağını yelləidirdi. O, səhnənin ortasına çatdıqda qabı birinci Avropa Oyunlarının məşəlinin basdırıldığı yerə qoydu. Yerdən su çıxmağa başladı, qadının qarşısında nəhəng su hövzəsi – Xəzər dənizinin rəmzi canlandı. O, suda ahəstə addımladı, sonra çevrilib arxasında yaranmış mənzərəyə baxdı.

Bu vaxt yerdən üst-başı toz-torpağa, palçığa batmış 100 kişi çıxdı. Onlar 50 nağaraçının səsləndirdiyi ahənglə ayaqlarını yerə vuraraq ritualı xatırladan Azərbaycan milli rəqsini ifa etdilər. Rəqsin ən qızğın anında sanki zəlzələ baş verirmiş kimi yer yarılmağa və qabarmağa başladı. Yerdən iri qaya parçaları çıxdı və birləşərək nəhəng dağa çevrildi. Onun kənarlarında alovla yazılmış sadə insan və heyvan fiqurları, qayıqlar göründü. Bunlar Qobustanın qədim qayaüstü təsvirləri idi.



Torpağın yarığından çıxan kişi dağın zirvəsində göründü. Stadiona çökmüş sükutu balabanda ifa olunan Azərbaycan xalq mahnısı “Sarı gəlin”in sədaları pozdu. Kişi ayağı altında yanan daşı götürdü. Bu səhnələr Fikrət Əmirovun “Min bir gecə” baletinin uvertürası ilə müşayiət olunurdu. Kişi qarşıda – Xəzər dənizinin sahilində dayanmış qadına baxır və ona tərəf gedirdi. Qadının arxasındakı parıldayan dairəvi qara lövhə yavaş-yavaş suyun üzərindən qalxaraq, Ay kimi göyə ucaldı. Dağ yavaş-yavaş yerə endi və yerə batıb yoxa çıxdı. Onlar açılış mərasiminin əvvəlində təsvir olunan Leyli və Məcnunu xatırladırdı. Kişi yolda daşı daha iki dəfə yerə qoydu. Onun arxasınca çatlardan çıxaraq yayılan alov dilimləri yerdə nəhəng insan fiqurunun təsvirinə çevrildi. Bu, nəhəng petroqlif formasına düşmüş lava axınlarına, Yanardağın heç vaxt sönməyən alovlarına bənzəyirdi. Petroqlif get-gedə daha dolğun insan forması aldı.

Kişi yaratdığı alov mənzərəsinə baxdı. Qadın ona yetişmək üçün sulardan üzüb keçdi. Yanan daşı qaldırdı, alov axınları nəhəng qan-damar sistemi təsvirindəki əl-ayaqlardan başa doğru sürətlə sovrulub yox oldu. Kişi və qadın yanan daşı əllərində birlikdə tutub göyə qalxan dairəvi lövhəyə tərəf qaçmağa başladılar. Onlar dayaz sulara atıldılar və daşı parıldayan qara dairəvi lövhəyə tərəf tulladılar. Yanan daş lövhənin ortasına dəyib, onu parçaladı. Lövhə alışaraq alov dairəsinə çevrildi. Bu, ilk Avropa Oyunlarının məşəli idi.

Beləliklə, ən həyəcanlı an gəlib yetişdi və birinci Avropa Oyunlarının məşəli alovlandı.

Yanan lövhə Yer, Günəş və Ayın bir araya gəldiyi möhtəşəm kosmik mənzərəni – tam Günəş tutulmasını xatırladırdı. Birlik və sülh rəmzi olan ilk Avropa Oyunlarının məşəli stadiondan səmaya ucaldı.

Bundan sonra səhnədəki mənzərə tamaşaçını Bakı sahilinə apardı, qarşıda Xəzər dənizi üzərində tədricən yaranan şaquli alov dairəsi canlandı və atəşfəşanlıq başladı.

Rəngbərəng fişənglər Xəzərin və Bakı Olimpiya Stadionunun üzərində səmanı bəzədi və möhtəşəm bayram mənzərəsi yaratdı.

Məşəl Oyunlar bitənədək yanacaq, şəhərimizin mayakı olacaq.

Atəşfəşanlığın qızğın vaxtında ifaçılar səhnə boyunca düzüldülər. Onlar əl-ələ verib Azərbaycan milli rəqsi “Yallı” oynadılar. Nar dənəsi rəngində 20 min şar tamaşaçıların üzərinə səpələndi. Bu “nar dənələri” sevgi nişanəsi, uğurun mücəssəməsi və Azərbaycanın rəmzidir.

Birinci Avropa Oyunlarının möhtəşəm açılış mərasimi başa çatdı.

Azərbaycan orijinallığı ilə diqqəti cəlb edən, tamaşaçıları vəcdə gətirən bir mərasimlə Avropa Oyunlarının tarixə çevriləcək ilk parlaq səhifəsini yazdı.

# İlham Əliyev "Bakı-2015" birinci Avropa Oyunlarının möhtəşəm bağlanış mərasimində iştirak edib



**Son 17 gün ərzində dünya idman ictimaiyyətinin gözü Azərbaycanda idi. Bakı bu 17 gündə tarixdə ilk dəfə keçirilən Avropa Oyunlarına layiqincə ev sahibliyi etdi. Burada gördükləri yüksək təşkilatçılıq, xalqımızın səmimi qonaqpərvərliyi, mədəni dəyərləri minlərlə idmançını, nümayəndə heyətlərinin üzvlərini, bu Oyunları televiziya ekranlarından izləyən milyonlarla tamaşaçının qəlbini riqqətə gətirdi.**

Möhtəşəm idman bayramı təntənəli bağlanış mərasimi ilə sona çatdı. Mərasimin keçirildiyi, birinci Avropa Oyunlarının yadigarı olan Bakı Olimpiya Stadionu yenə də izdihamlı idi. Bağlanış mərasiminə olan hədsiz maraq Oyunların böyük uğurundan xəbər verirdi. İdman mütəxəssisləri, analitiklər hesab edirlər ki, "Bakı-2015" gözlənildiyindən, təsəvvür edildiyindən də möhtəşəm alındı. "Bir çox ev sahibi şəhərlər bu cür tədbirlərə hazırlıq üçün beş-yeddi il sərf edir. Bakı isə cəmi otuz aylıq qısa zaman kəsiyində bu cür möhtəşəm qitə miqyaslı Oyunlara yüksək səviyyədə ev sahibliyi etməklə Avropa Olimpiya hərəkatını şərəfləndirdi" - Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkinin bu sözləri həqiqətən qürurvericidir. Onun qeyd etdiyi kimi, iyunun 17 günü möhtəşəm idman bayramı və birinci Avropa Oyunlarına layiq tədbir kimi yadda qaldı.

Stadionda hamı öz yerini tutub: mərasimin



təşkilatçıları və iştirakçıları da, idmançılar və tamaşaçılar da. Sonuncuların simasından, əhval-ruhiyyəsindən belə məlum olurdu ki, 17 oyun günü, maraqlı və gərgin keçən yarışlar, idmançılarımızın parlaq çıxışı onların ürəyincə olub.

Azərbaycan ötən 17 gündə 21 qızıl medal sevinci yaşayıb. Biz bu göstəriciyə görə yalnız Rusiyadan geri qalaraq ikinci yerə çıxmışıq. Avropanın 49 ölkəsindən 48-ni geridə qoyaraq qitə ikincisi olmaq doğrudan da böyük şərəfdir. İdman həvəskarlarını, Bakı sakinlərini bağlanış mərasiminə gətirən əsas amillərdən biri də bu idi: qələbədən doğan sevinc və iftixar hissləri. Bu hissləri stadiona toplaşan on minlərlə insanın hər birinin simasından oxumaq olardı.

Bakı Olimpiya Stadionunda qurulan əsas səhnə açılış mərasimində olduğu kimi, bu dəfə də bənzərsizliyi, genişliyi ilə diqqəti çəkirdi. Əsas və yardımçı səhnələr buta formasında işlənib və LED diodları ilə işıqlandırılıb. Stadion üzərində ümumi uzunluğu 250 metr, yükgötürmə qabiliyyəti 7,5 ton olan xətlər çəkilib. Mərasimin təşkili üçün 20 ölkədən avadanlıq gətirilib, stadionda 800 səsgücləndirici quraşdırılıb. Bir sözlə, təşkilatçılar maraqlı və yadda qalan bağlanış şousu hazırlayıblar.

Bədii rəhbər Ceyms Hedli bağlanış mərasiminin ideya və məzmununu belə ifadə edib: Mərasim ənənəvi və müasir Azərbaycan mədəniyyətinin vəhdətini nümayiş etdirərək diqqəti gələcəyə yönəldir. Biz keçmişin müasir dövrü necə formalaşdırdığının və gələcəyə necə təsir göstərdiyinin şahidi oluruq. Müasir dövrün musiqisi, rəqsi, memarlığı milli ənənələrdən qaynaqlanır və yaranan ahəngdarlıq bizi ilhamlandırır. İlk dəfə olaraq Avropa Oyunları 50 ölkəni yarış meydanlarında bir araya gətirdi. Bu axşam Oyunların uğurunu və idmançıların zəfərini qeyd edirik. Odlar Yurdu Azərbaycan öz alovunu dünya ilə bölüşdü. Onun işığı hamımızın qəlbində yaşayır.

Şounun təşkilində iştirak edən 1600-dən çox könüllünün əksəriyyəti azərbaycanlıdır. Həmçinin 17 müxtəlif ölkədən də könüllülər cəlb olunub. Onlar 400 dəfədən çox məşq ediblər. Mərasimin təşkilinə 28 ölkədən 300 nəfərdən çox yaradıcı heyət və 34 ölkədən müxtəlif sahələrdə ixtisaslaşmış minədək mütəxəssis cəlb olunub.

Bağlanış mərasimi stadionda şeypurların səsləndirilməsi ilə başladı. Nəzərlər Prezident lojasına yönəldi. Tamaşaçılar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi, xanımı, "Bakı-2015" ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanı, Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkini, Bolqarıstan Prezidenti Rosen Plevneliyevi və digər rəsmi şəxsləri hərarətli alqışlarla salamladılar.

Azərbaycan müxtəlif rənglərin, insanların, ənənələrin vəhdətindən ibarət zəngin xalça təsiri bağışlayır. Xalçanın ilmələri və naxışları kimi onların da hər biri fərqlidir. Buna baxmayaraq, fərqlilik onları gözəl bir əsər yaratmaq məramı ətrafında birləşdirir.

Yaradıcı heyət "Oyanış" adlandırılan mərasimi məhz bu ideya əsasında qurub. Stadiondakı ekranlarda rəngbərəng xalça ilmələri canlanır. Görkəmli rəssam Faiq Əhmədin bənzərsiz xalçalarının naxışı 10-dan 0-dək rəqəmlərə çevrilir və geriyə sayım başlayır. Sıfır göründüyü an işıq əsas səhnədəki iki müğənninin üzərinə düşür. Xor onlara qoşularaq Azərbaycanın dövlət himnini yeni simfonik aranjemanda ifa edir.

Azərbaycanın dövlət bayrağı stadiona gətirilir və Avropa Olimpiya Komitəsinin bayrağının yanında ucaldılır. Bu məqamda idmançılarımızın ilk Avropa Oyunlarında qazandıqları qələbələrin şərəfinə dövlət bayrağımızın 21 dəfə yüksəyə ucaldığını, dövlət himnimizin səsləndiyini bir daha qürur hissi ilə xatırlayırıq.

Mərasimin "Transformasiya" adlanan başlanğıc hissəsi Azərbaycan musiqisi, rəqsi və memarlığının müasirliyin enerjisi və gücü ilə zənginləşdirilmiş ənənələrini tərənnüm edir. Ətrafa xalq musiqisinin sədaları yayılır və ona müasir müğənnilər səs verir. Xalq rəqslərinin və müasir rəqslərin ifaçıları bir-birilərinin ritm və enerjisinə cavab verirlər. Rəqqasələr əsas səhnədə dövrə vurduqca paltarları ətrafa şəfəq saçaraq gözəl naxışlar yaradır.

Səhnədəki üç nəhəng heykəl fırlandıqca musiqinin ritmi dəyişir. Açılan hər bir ətəyin uclarından 24 ifaçı tutur. Musiqi rok sintezinə çevrildikdə isə ənənəvi ətəklər müasir parlaq naxışlara dönür. Bunun ardınca heykəlləri hərəkətə gətirən 128 ifaçı görünür. Səhnədə dövrə vuran yüzlərlə rəqqasə mozaika formasında naxışlar yaradır. Stadionda qurulan "Qız qalası"nın divarları aralanır və tamaşaçının gözü qarşısında Bakının yeni rəmzi olan "Alov qüllələri" canlanır. Bu səhnə müasirliyin keçmişdən qaynaqlandığını əyani şəkildə təcəssüm etdirir.

Stadionun ekranlarında qısa film nümayiş olunur. Bu film öz enerjisi, ruh yüksəkliyi və fədakarlıqları ilə ilk Avropa Oyunlarının uğurla keçməsinə töhfə verən 12.500 alovqoruyan könüllüyə minnətdarlığın ifadəsidir.

Arenada "Çal-oyna" xalq mahnısının melodiyası eşidilir. Azərbaycan Dövlət Uşaq Filarmoniyası xorunun ifa etdiyi bu mahnı 17 gün ərzində qəlbimizi idman ustalığı və cəsarəti ilə fəth edən 6 min atletin şərəfinə səslənən bayram havası təsiri bağışlayır. Mahnının sədaları altında stadiona bayraqdaşıyanlar daxil olurlar. Onlar iki cərgədə qarşı-qarşıya hərəkət edirlər. Bir cərgənin önündə Olimpiya Oyunlarının vətəni Yunanıstanın, digərinin önündə ilk Avropa Oyunlarının ev sahibi Azərbaycanın bayraqları dalğalanır. Uşaq xorunun üzvləri sülh və birlik rəmzi olan su zanbaqlarını komandaların bayraqdarlarına verirlər.

İdmançılar tribunaların önündən keçirlər. Tamaşaçılar "Bakı-2015"in iştirakçı ölkələrinin nümayəndələrini alqışlayırlar.

Təbii ki, Azərbaycan idmançılarının payına daha çox alqış düşür. Bu da təsadüfi deyil. İdmançılarımız birinci Avropa Oyunlarında sözün əsl mənasında tarix yazmağa nail oldular. Onlar yarışların 21 qızıl, 15 gümüş və 20 bürünc medalını qazandılar. Bununla da Azərbaycan qitə üzrə ikinci yeri tutmaqla, idman ölkəsi olduğunu bir daha sübuta yetirdi.

İdmançıların birlik və dostluq rəmzinə çevrilən paradı başa çatdı. Onlar stadionda dövrə vurub tribunalarda yerlərini tutdular.

Azərbaycanın birinci xanımı, "Bakı-2015" ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva mərasimdə çıxış etdi.



**BİRİNCİ XANIM MEHRİBAN ƏLİYEVANIN ÇIXIŞI**

- Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyev.

Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki.

Zati-aliləri.

Avropa Oyunlarının atletləri.

Xanımlar və cənablar.

İlk Avropa Oyunlarının bağlanış mərasiminə xoş gəlmisiniz.

Hörmətli həmvətənlər,

Birinci Avropa Oyunlarının uğurla başa çatması münasibətilə sizi ürəkdən təbrik edirəm. Oyunlar zamanı Azərbaycan yığma komandasına, Avropa atletlərinə və çoxsaylı qonaqlarımıza göstərdiyiniz dostluq, qonaqpərvərlik və dəstəyə görə sizə dərin minnətdarlığımı bildirirəm.

Müstəqil Azərbaycana yeni qələbələr, Azərbaycan xalqına xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

Əziz dostlar,

İlk Avropa Oyunları başa çatır. Ötən 17 gün Azərbaycanın tarixində əlamətdar və yaddan çıxmaz günlər oldu.

Biz ilk Avropa Oyunlarının ölkəmizdə keçirilməsindən fərəhlənirik. Qürur hissi duyuruq ki, Azərbaycan öz üzərinə götürdüyü öhdəliyi cəmi iki il yarım ərzində reallığa çevirdi və ən yüksək standartlara uyğun idman tədbirini keçirdi.

Son 17 gün ərzində biz Avropa dövlətləri arasında birliyin, həmrəyliyin və dostluğun şahidi olduq.

Mən Oyunlara və atletlərə verdiyi böyük dəstəyə görə Azərbaycan xalqına və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Bütün xalq öz atletləri ilə qürur duyur. Onlar bütövlükdə 56 medal, o cümlədən 21 qızıl medal qazanmış, ümumi medallar cədvəlində isə ikinci yeri tutmuşlar. Azərbaycan atletləri, Sizin uğurunuz gələcək nəsillər üçün bariz nümunədir.

Mən bu Oyunlarda iştirak etmiş bütün atletlərə təşəkkürümü bildirmək istəyirəm. İlk Avropa Oyunlarını belə bir yadda qalan idman festivalına çevirdiyinizə görə minnətdaram. Siz möhtəşəm çıxışlarınızı həvəslə, cəsarətlə və incəliklə bizə bəxş etdiniz. Bu Oyunlar Sizin Oyunlardır və nailiyyətləriniz bizi həqiqətən ilhamlandırır.

Hamınızı təbrik edirəm.

Mən mövqeyi və qətiyyəti sayəsində Avropa Oyunları ideyasını reallığa çevirən Avropa Olimpiya Komitəsinə və onun prezidenti cənab Patrik Hikkiyə dərin təşəkkürümü və minnətdarlığımı bildirmək istəyirəm.

Mən, həmçinin hazırlıq zamanı dəyərli tövsiyələrinə görə Əlaqələndirmə Komissiyasının sədri Spiros Kapralosa təşəkkürümü bildirmək istəyirəm.

Oyunların Təşkilat Komitəsinin üzvlərinə və bütün beynəlxalq tərəfdaşlarımıza nümayiş etdirdikləri sadiqliyə və fəaliyyətə görə minnətdaram.

Avropadan öz komandalarına dəstək vermək məqsədilə gəlmiş çoxsaylı sədaqətli azarkeşlərə təşəkkür edirəm. Siz qələbələri qeyd etdiniz. Siz məğlubiyyət zamanı təsəlli




verdiniz. Siz Oyunlar üçün istək, coşqu və dostluq mühitini yaratdınız.

Mən gözəl könüllülərimizə minnətdarlığımı bildirmək istəyirəm. Siz olmadan biz bu tədbiri keçirə bilməzdik. Sizin həvəsiniz və peşəkarlığınız "Bakı-2015" ruhunu canlandırmaqda bizə yardımçı oldu. Ölkəmizin böyük gələcəyi olan bu cür istedadlı gəncləri var.

Xarici könüllülərimizə də çox sağ ol deyirik. Siz bütün Avropadan Azərbaycana gəldiniz ki, bu tarixi tədbiri təşkil etməkdə bizə kömək edəsiniz və idman, dostluq festivalının bir hissəsi olasınız. Biz sizsiz darıxacağıq və ümid edirəm ki, yenidən gələcəksiniz.

Azərbaycan öz qollarını və ürəyini Avropaya açdı. Biz köhnə dostlarımızı salamladıq və yenilərini qazandıq.

Bu axşam biz hamınızla sağollaşırıq. Lakin Sizi Azərbaycanda gələcək tədbirlərdə yenidən görməyə ümid edirik.

Gələn il Bakıda 42-ci Şahmat Olimpiadası və "Formula-1" Avropa Qran-pri yarışları keçiriləcək. 2017-ci ildə biz dördüncü İslam Həmrəylik Oyunlarını qəbul edəcəyik. Nəhayət, 2020-ci ildə futbol üzrə Avropa çempionatının matçları şəhərimizdə təşkil olunacaq.

Bu axşam biz məşəli söndürəcəyik və ilk Avropa Oyunları başa çatacaq. Belə bir idman və dostluq bayramı başa çatdığı zaman mən ölkəmizdən və xalqımızdan böyük qürur duyduğumu bəyan edirəm.

Son 17 gün hər zaman xatirimizdə qalacaq. O, nəsillərə qalacaq, tariximizin yaddaqalan məqamı olacaq.

Atletlər, sağ olun!
Dostlar, sağ olun!
Azərbaycan, sağ ol!





(Birinci xanım, "Bakı-2015" Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın çıxışı dəfələrlə sürəkli alqışlarla qarşılandı).

***

Sonra Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki çıxış etdi.

## PATRİK HİKKİNİN ÇIXIŞI

- Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyev.

Birinci xanım, "Bakı-2015"in Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva.

Hörmətli qonaqlar.

Xanımlar və cənablar.

Nəhayət, 17 günlük möhtəşəm idman bayramını bizimlə bölüşən hər bir insan. Sağ olun!

Avropa Oyunlarını alovlandıran qığılcım məhz Odlar Yurdundan gəldi.

Azərbaycan, sən bizim səmimi və qonaqpərvər ev sahibimiz oldun.

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın rəhbərliyi ilə "Bakı-2015" ilk Avropa Oyunlarının Əməliyyat Komitəsi Avropada ən yaxşı kişi və qadın idmançılar üçün çox gözəl arenaları hazırladı.

İş fəaliyyətinin dəqiqliyi qızıl medallar standartına uyğun oldu.

Yeni gənc qəhrəmanlardan ibarət komandanı Sizin gözəl könüllüləriniz formalaşdırdı.

Bütün bunlar cəmi 30 ay ərzində təmin edildi.

Burada yaratdığınız idman obyektləri gələcək illərdə atletlərinizə, xalqınıza və gənclərə xidmət edəcək.

Belə bir böyük layihənin reallaşdırılmasında nümayiş etdirdiyiniz yekdilliyə görə hamınıza minnətdarıq. Siz komandalarınızı idman arenalarında ən yüksək nəticələri əldə etmək üçün ilhamlandırdınız.

Beynəlxalq və Avropa federasiyalarına minnətdarıq. Siz bu Oyunlara, innovasiyaya açıq fikirlə yanaşdınız. Biz birlikdə nümayiş etdirdik ki, müasir dövrün bu çoxnövlü idman tədbirləri hər bir şəhərin tələbat və istəklərinə cavab verə bilər.

Avropa atletlərinə minnətdarlığımızı bildiririk. Siz ölkələrinizi və qitənizi şərəf və ləyaqətlə təmsil etdiniz. Oyunların böyüklüyünü yüksək idman nəticələri müəyyən edir.

Siz bizə möhtəşəm idman bayramı bəxş etdiniz.

Ümid edirəm ki, siz bu Oyunları həmişə xatırlayacaqsınız. Qələbəyə sevindiniz. Məğlubiyyətdən dərs götürdünüz. Siz Avropanın ən yaxşı idmançıları ilə yaşadıqdan, məşq etdikdən və yarışdıqdan sonra artıq "Rio-2016" Olimpiya Oyunlarında bütün dünya qarşısında çıxışa hazırsınız.

Avropa fərqliliklər və böyük rəqabət, müxtəliflik, idman və yarışma qitəsidir. Lakin burada, Avropa Oyunlarında biz ümumi inamla, ümumi bayraq altında toplaşdıq: idman və Olimpiya ideallarına doğru addımlamaq bizi ayıran yox, daha çox birləşdirən məkana aparır. Bu inam ondan ibarətdir ki, biz - Avropanın 50 ölkəsi hər dörd ildən bir iki möhtəşəm həftə ərzində birgə ola bilərik.

Bu, bütün gələcək Avropa Oyunlarının əsaslanacağı Oyunlar oldu. Bu cür tədbirin sarsılmaz və ilhamlandırıcı əsası qoyuldu.

Avropa Olimpiya ailəsinə və dünyadakı dostlarımıza tam əminliklə deyirəm:

Azərbaycanın gələcəyi parlaqdır.

Avropa Oyunlarının gələcəyi parlaqdır.



Avropanın gözəl atletləri üçün gələcək parlaqdır.

Beləliklə, indi mən minnətdarlıq, qürur və böyük nikbinlik hissi ilə "Bakı-2015" ilk Avropa Oyunlarını bağlı elan edirəm.

Sağ ol, Bakı!

Sağ ol, Azərbaycan!

***

Çıxışlar zamanı fonda gözəl musiqi səslənir. Onu Avropanın istedadlı musiqiçilərindən biri olan Kristian Ştaynhauzer bağlanış mərasimi üçün məxsusi bəstələyib.

Stadionun monitorlarında daha bir qısa film nümayiş olunur. Film Azərbaycanın yaxın illərdə ev sahibliyi edəcəyi böyük tədbirlərdən - 2016-cı il "Formula-1" Avropa Qran-pri yarışlarından, 2017-ci il İslam Həmrəylik Oyunlarından, 2020-ci il futbol üzrə Avropa çempionatının final mərhələsi matçlarından və Bakının görməli yerlərindən bəhs edir.

Biz hər gün yeniləşən texnologiyalar əsrində yaşayırıq. Bu texnologiyalar sayəsində ölkələr və ayrı-ayrı fərdlər - onların ideyaları, mənsub olduqları xalqın mədəniyyəti və daşıdıqları enerjini bir-birinə ötürmək baxımından əvəzolunmaz mübadilə imkanları yaranır.

Səhnədə dünyamızın gələcəyi təsvir olunur. Bu, gəncliyin enerjisidir. Rəqqas səhnədə bir enerji qığılcımı yaradır. Güclü enerji bədənindən keçərək onu hərəkətə gətirir. Rəqqas bu enerjini rəqqasəyə, daha sonra isə





başqalarına ötürür. Onların urban və atletik tərzdə hərəkətləri yüksək enerjili hip-hop rəqsinə çevrilir. Beş yüzdən çox ifaçı diod lampalarla bəzədilmiş altıbucaqlı lövhələri başları üzərində tutaraq səhnəyə daxil olur. Onlar hərəkət etdikcə lövhələr əvvəlcə qrafik ekvalayzer, daha sonra şanagülü formasına düşərək müxtəlif heyrətamiz obrazlar yaradır.

Musiqi getdikcə həzinləşir və tamaşaçıların diqqəti səmaya yönəlir. İfaçılar üzərində altıbucaq formalı işıq zolaqları olan sirk halqalarında akrobatik hərəkətlər edirlər. Onlar tədricən yerə enir və bu zaman səhnədə çıxış edən ifaçılar şouya qoşulurlar. Əllərində əlvan rəngli bayraqlar olan 75 ifaçı səhnə boyunca hərəkət edir. Ahəngdar şəkildə hərəkət edən altıbucaqlı lövhələr birləşərək buta formalı üç səhnəni təcəssüm etdirən obraza çevrilir. Sonda "Bakı-2015" birinci Avropa Oyunlarının rəmzi olan nar ağacının qrafik obrazı yaranır.

Stadionun monitorlarında 17 günlük yarışların əsas məqamları nümayiş etdirilir. Tamaşaçılar ruh yüksəkliyi və sevincin, qələbə və məğlubiyyətin doğurduğu hisslərin, idman arenalarında yaranmış dostluğun şahidi olurlar.

Stadiona Azərbaycan muğamını tərənnüm edən həzin kamança səsi yayılır. Əsas səhnədə Atəşgah məbədi ucalmağa başlayır. Məbədin damında dayanmış qum rəssamı Simurq quşu əfsanəsindəki "həyat ağacı"nı çəkir. Onun çəkdikləri səhnədə heyrətamiz şəkildə canlanır. Yetmiş altı rəqqas qum üzərində çəkilən təsvirlərə mütənasib xoreoqrafik hərəkətlər nümayiş etdirir. Rəssam yaxınlaşan tufanı təsvir etdikdə rəqqaslar külək və dalğaları canlandırırlar. Daha sonra o, qum üzərində quş fiqurları çəkir və səhnədə Oyunların iştirakçısı olmuş 50 ölkəni təcəssüm etdirən 50 quş görünür. Quşlar bir yerə toplaşaraq əfsanəvi Simurq quşuna çevrilir.

Musiqi getdikcə daha təntənəli xarakter alır. Qum rəssamı indi alov rəsmləri çəkir və səhnəyə alov dilimlərinə bənzər qanadları olan rəqqaslar çıxır. Musiqi güclənir, rəqqaslar daha çevik hərəkətlər edir və səhnə sanki od-alova bürünür. İfa kulminasiya məqamına çatdıqda Simurq quşu heyrətamiz şəkildə alovlanır və stadionun mərkəzində şölə saçaraq yanmağa başlayır.

Bu möhtəşəm səhnə məşhur əfsanənin motivləri əsasında qurulub. Əfsanəyə görə, bir dəstə quş xoşbəxtliyin, sağlamlığın və müdrikliyin müjdəçisi olan sehrli Simurq quşunun axtarışına çıxır. Bir araya gəldikdə Simurq quşunun ruhunun qəlblərində yaşadığını və birləşəcəkləri təqdirdə vahid sirli varlığa çevriləcəklərini anlayırlar. Belə də olur. Onların birliyindən yaranan Simurq quşu alovların əhatəsində pərvazlanıb səmaya qalxır və qanad çaldıqca yanaraq minlərlə işıq zərrəciyi arasında görünməz olur. Onun közü yerə yeni həyat toxumları kimi səpələnir, torpağa düşdükcə oyanış, dirçəliş baş verir.

Mərasim üçün yaradılan Simurq quşunun çəkisi 2 tona yaxın, ölçüləri 18x18 metrdir. Onun 50 qanadının hər birinin uzunluğu gərildikdə 1-3,4 metrə çatır.

Səmadan tamaşaçıların üzərinə Simurq quşu əfsanəsindəki oyanış və dirçəliş toxumlarını əks etdirən yanar köz - işıq diodları səpələnir. Beləliklə, 17 günün kulminasiya nöqtəsi yaxınlaşır, birinci Avropa Oyunlarının alovu sönməyə başlayır. Yavaş-yavaş sönməkdə olan bu alovun ətrafında 50 iştirakçı dövləti təmsil edən 50 uşaq dayanır. Onlardan biri Oyunların alovu ilə çırağını yandıraraq onu digər uşaqlarla bölüşür. Çıraqlar bir-bir yanır.

Sonra səhnənin mərkəzinə yaxınlaşan alov ifaçıların yanından keçir və onların da çıraqları yanmağa başlayır. Bu çıraqların asıldığı nəhəng çilçıraq səmaya yüksəlir. Stadion möhtəşəm işıq selinə qərq olur. Buradan belə bir məna çıxır: Avropa Oyunları alovunun zərrəciklərini qəlbimizdə daşıyıb dünya ilə paylaşsaq, o da Simurq quşu kimi ölməz olacaq.

Bu təsirli səhnələr Martin Rozenqarten və Kristian Ştaynhauzerin Azərbaycan xalq mahnısı "Sarı gəlin"in motivləri əsasında aranjeman etdikləri "Lanterns" musiqisi ilə müşayiət olunur. Musiqi Şirzad Fətəliyevin ifasında balabanda səslənir.

Stadionda müasir rəqslər və mahnılar, ecazkar görüntülər bir-birini əvəz edir. Məşhur musiqi qruplarının və xarici estrada ulduzlarının ifaları əsl bayram ovqatı yaradır.

İdmançılar tribunalardan meydançaya axışır, rəqs edənlərə qoşulurlar. Bu səhnə birlik və dostluğun daha bir parlaq nümayişinə çevrilir.

Möhtəşəm atəşfəşanlıq başlayır. Bakı səmasını nura boyayan al-əlvan fişənglər ilk Avropa Oyunlarının başa çatmasından xəbər verir. Beləliklə, "Bakı-2015" Azərbaycana başucalığı gətirən tarixə çevrilir.

# İlham Əliyev Birinci Avropa Oyunları ilə əlaqədar keçirilən mükafatlandırılma mərasimində iştirak edib




**Birinci Avropa Oyunlarında qalib gəlmiş idmançılarımız, onların məşqçiləri, Azərbaycan idman ictimaiyyətinin nümayəndələri və Oyunların təşkilində xidmətləri olan xarici tərəfdaşlarla görüş keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı, "Bakı-2015" birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri mərasimdə iştirak ediblər.

Əvvəlcə birinci Avropa Oyunlarının möhtəşəm açılış və bağlanış mərasimlərini, yarışlarda ən yaddaqalan məqamları, o cümlədən Azərbaycan idmançılarının çıxışlarını əks etdirən videoçarx nümayiş olundu.

Dövlətimizin başçısı mərasimdə nitq söylədi.

**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ**




-Hörmətli Avropa Olimpiya Komitələrinin prezidenti cənab Patrik Hikki.

Hörmətli xanımlar və cənablar.

Əziz idmançılar.

Bakıda birinci Avropa Oyunları uğurla başa çatıb. Bu münasibətlə mən sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Birinci Avropa Oyunları ölkəmiz və Avropa üçün tarixi hadisədir. Ölkəmiz üçün ona görə tarixi hadisədir ki, bu günə qədər Azərbaycanda bu səviyyədə beynəlxalq idman yarışı keçirilməmişdir. Avropa üçün isə ona görə ki, Avropada başqa qitələrdən fərqli olaraq heç vaxt qitə oyunları keçirilməmişdir.

2012-ci ilin dekabrında Avropa Olimpiya Komitələrinin qərarı ilə birinci Oyunların keçirilməsi qərarı qəbul edilmişdir və bu şərəfli missiya bizim üzərimizə düşmüşdür. Bu qərara görə, bu qərarın qəbul edilməsində iştirak etmiş bütün insanlara və ilk növbədə Avropa Olimpiya Komitələrinin prezidenti cənab Patrik Hikkiyə öz adımdan və bütün Azərbaycan xalqı adından bir daha minnətdarlığımı bildirmək istəyirəm. Məhz cənab Patrik Hikkinin təşəbbüsü ilə bu Oyunlar baş tutdu. Bu Oyunların keçirilməsində iştirak etmiş bütün insanlara bir daha öz dərin minnətdarlığımı bildirmək istəyirəm.

Bu qərardan sonra Azərbaycanda gərgin iş başlamışdır. Təşkilat Komitəsi, Beynəlxalq Əməliyyat Komitəsi yaradılmışdır. Hamımız yaxşı dərk edirdik ki, bu Oyunları yüksək səviyyədə keçirmək üçün gərək bütün ictimaiyyət, bütün Azərbaycan vətəndaşları buna fəal dəstək olsunlar. Belə də oldu. Məşəlin qarşılanması mərasimlərində iki milyona yaxın Azərbaycan vətəndaşı iştirak etmişdir. Bu böyük ictimai dəstək bizə güc və inam verdi ki, biz bu Oyunları ən yüksək səviyyədə keçirək.

Yadımdadır, qərar qəbul olunandan sonra mən xalqa müraciət etdim və xalqı təbrik etdim. Eyni zamanda, dedim ki, biz çalışacağıq bu Oyunları ən yüksək səviyyədə keçirək. Şadam ki, bu, belə də oldu. Doğrudan da birinci Avropa Oyunları tarixdə həm də ona görə qalacaq ki, bu Oyunlar ən yüksək dünya səviyyəsində keçirilmişdir.

Bu Oyunların keçirilməsi üçün cəmi iki il yarım vaxtımız var idi. Təsəvvür etmək çətin deyil ki, biz nə qədər gərgin iş gördük. Gərgin şəraitdə, vaxt azlığı. Əlbəttə ki, bu böyük məsuliyyət bizim üzərimizdə idi. Avropa Oyunlarının standartları o vaxt mövcud deyildi. Əslində, Oyunların standartlarını biz birlikdə Azərbaycanda yaratdıq və bu, ən yüksək standartlardır.

Məşəlin alovlandırılması mərasimi də çox yaddaqalan oldu. Mən bir daha Avropa Olimpiya Komitələrinin prezidenti cənab Hikkiyə minnətdaram ki, onun və Avropa Olimpiya Komitələrinin qərarı ilə gələcək Oyunların məşəli məhz Azərbaycanda, Bakıda Atəşgah məbədində yandırılacaqdır.

Oyunların hazırlanmasında Beynəlxalq Əməliyyat Komitəsinin - BEGOC-un rolunu yüksək qiymətləndirirəm. Orada işləyən peşəkar insanlar əlbəttə ki, öz təcrübələrini, biliklərini Azərbaycana gətirmişlər, bizimlə bölüşmüşlər. Onlarsız bu Oyunları bu səviyyədə keçirmək mümkün olmayacaqdı.

Bilirəm ki, onlar da bu aylar, illər ərzində Azərbaycanı ürəkdən sevmişlər. Azərbaycanın bütün imkanlarını, xalqın əhval-ruhiyyəsini və ölkəmizdə gedən müsbət prosesləri görərək onlar bizim xalqımıza, dövlətimizə çox bağlı oldular. Əminəm ki, bu xatirələr onların qəlbindən heç vaxt silinməyəcək. Çünki onların həyatlarının bir hissəsi Azərbaycanda keçibdir. Əminəm ki, biz gələcəkdə də onlarla tez-tez görüşəcəyik.

Könüllülərin fəaliyyətini xüsusilə qeyd etmək istəyirəm. Oyunların keçirilməsinin yükünün böyük hissəsi onların üzərinə düşmüşdür. Könüllülər bir daha onu göstərdi ki, ölkəmizin çox böyük potensialı, insan kapitalı var. Mən 2003-cü ildə Prezident kimi fəaliyyətə təzə başlayanda demişdim ki, bizim əsas vəzifəmiz iqtisadi kapitalı, daha doğrusu, “qara qızıl”ı insan kapitalına çevirməkdir. Bugünkü gənclər müstəqillik dövründə böyümüş, tərbiyə almış gənclər bizim üçün qürur mənbəyidir. İyirmi minə yaxın könüllü, onların böyük əksəriyyəti yerli uşaqlardır, insanlardır, gənclərdir, - gecə-gündüz çalışmışdır. Onlar gecə-gündüz peşəkarlıqla, ustalıqla, məharətlə çalışaraq idmançılara, qonaqlara böyük mədəniyyət, hörmət, Azərbaycan xalqına xas olan qonaqpərvərlik və mehribanlıq göstərmişlər. Bu günlər ərzində xarici qonaqlarla təmaslar əsnasında könüllülər haqqında daim bu xoş sözləri eşidirəm. Doğrudan da, bizim gələcəyimiz etibarlı əllərdədir. Könüllülər bu Oyunlardan sonra əminəm ki, cəmiyyətdə öz layiqli yerlərini tutacaqlar. Onlar bizim gələcəyimizdir. Azərbaycanın gələcək inkişafı gənclərin əlində olmalıdır. Gənclər bilikli, savadlı, peşəkar və vətənpərvər olmalıdırlar. Necə ki, bizim könüllülərimiz peşəkar, bilikli və vətənpərvərdirlər.

Mən bu gün Təşkilat Komitəsinin fəaliyyətini xüsusi qeyd etmək istəyirəm. Çünki Təşkilat Komitəsinin çox böyük və gərgin fəaliyyəti olmuşdur. Təbii ki, ictimaiyyət tam şəkildə bu fəaliyyətin nədən ibarət olduğunu bilə bilməz. Çünki Təşkilat Komitəsinin tədbirləri mütəmadi qaydada keçirilirdi. Ancaq ictimaiyyətə o qədər də geniş məlumatlar verilmirdi. Hər bir xırda məsələ üzrə bütün işlər ən yüksək səviyyədə görülmüşdü və məhz buna görə Oyunların keçirilməsində heç bir problem yaşanmadı.

Təşkilat Komitəsinə rəhbərlik etmiş Mehriban Əliyevanın böyük fəaliyyətini xüsusilə yüksək qiymətləndirirəm. O, bu Oyunların keçirilməsinə çox böyük töhfə vermişdir. Deyə bilərəm ki, bu Oyunların bu səviyyədə keçirilməsinə öz canını qoymuşdur. Mən Təşkilat Komitəsinin tərkibini müəyyən edərkən tam əmin idim ki, bu tərkibdə bu Komitə ən yüksək nəticə göstərə bilər. Çünki burada həm təcrübə, həm peşəkarlıq və ən önəmlisi xalqa, dövlətə sevgi, məhəbbət var idi və var. Bu, ümumiyyətlə ölkəmizin əldə etdiyi uğurların əsas şərtidir. Bəzən məndən soruşurlar ki, Azərbaycan sürətlə inkişaf edir, - baxmayaraq bölgədə, dünyada, bizim qitədə yaşanan proseslər o qədər də ürəkaçan deyil, - nədir bunun sirri?

Bu barədə çox danışmaq olar. Ancaq mən hesab edirəm əsas məsələ ondan ibarətdir ki, biz dövlətimizi, xalqımızı hər şeydən çox sevirik. Bu məhəbbət, bu vətənpərvərlik, bu peşəkarlıq və işimizə sədaqət əlbəttə, imkan verir ki, Azərbaycan sürətlə inkişaf etsin və bizim gələcəkdə də çox böyük qələbələrimiz olacaqdır.

Əlbəttə, bu gün mən idmançıların uğurlarını, qələbələrini xüsusilə qeyd etmək istəyirəm. Təbii ki, biz bu Oyunları yüksək səviyyədə keçirməli idik və keçirdik. Bu, bir daha ölkəmizin potensialını, gücünü göstərdi. Biz bu potensialı əlbəttə ki, bilirdik. Bu potensialı biz yaratmışıq. Cəmi 24 il ərzində Azərbaycan elə zirvələrə qalxıb ki, bəzi ölkələrə bu səviyyəyə qalxmaq üçün bəlkə yüzilliklər lazımdır. Bu Oyunlar sadəcə olaraq bizə imkan verdi ki, bu potensialı dünyaya, Avropaya, eləcə də öz ictimaiyyətimizə nümayiş etdirək. Həm insani potensial, həm dövlətimizin iqtisadi potensialı, həm cəmiyyətdə hökm sürən xoş əhval-ruhiyyə, xalqla iqtidar arasındakı birlik, milli ideyalar ətrafında birləşməyimiz, milli həmrəylik – məhz budur bizim uğurlarımızın əsas şərtləri.

Bu Oyunlar imkan verdi ki, biz özümüzü göstərək. Bizi istəməyən qüvvələr bəzi hallarda bunu bizə irad tuturdular ki, Azərbaycan Oyunları keçirməklə özünü göstərmək istəyir. Bu, təbiidir. Əlbəttə, hər bir ölkə özünü göstərmək istəyir. İnkişaf etmiş ölkələr, hansılar ki, dəfələrlə bu səviyyəli tədbirləri keçirmişlər. Onlar da özlərini göstərmək istəmişlər. Yəni, burada heç bir qəbahət yoxdur. Bəli, bizim göstərə biləcəyimiz nümunələr həddindən artıq çoxdur. Biz Azərbaycanı dünyaya müasir, dinamik, demokratik, inkişaf edən, öz mədəniyyətinə, tarixinə bağlı olan xalq kimi, dövlət kimi göstərmişik. Bu Oyunlar cəmiyyətdə nadir bir əhval-ruhiyyə yaratdı. Bu, əvvəllər də var idi. Yəni, cəmiyyətimiz milli ideyalar, milli maraqlar uğrunda çox fəal hərəkət edir. Ancaq bu Oyunlar xalqımızı bir daha birləşdirdi. Bir daha bizi qürurlandırdı ki, görün, biz nəyə qadirik.

İdmançıların uğurlarına qayıdarkən bu, xüsusilə böyük əhəmiyyət daşıyır. Çünki onların qələbələri bu Oyunları daha da böyük zirvəyə qaldırdı. Mən tam əminəm ki, bəlkə burada oturanlar və ümumiyyətlə ictimaiyyət arasında yəqin müxtəlif fərziyyələr var idi ki, bizim komandamız neçənci yeri tutacaq. Amma bəlkə heç kim inanmırdı ki, bu, ikinci yer olacaqdır. Bu, tarixi qələbədir. Azərbaycan idmanının, Azərbaycan dövlətinin qələbəsidir. Əziz idmançılar, mən sizi öpürəm, bağrıma basıram. Sağ olun.

Bu günlər ərzində hamımız yəqin ki, bir neçə dəfə kövrəldik. Hamımızın elə unudulmaz anları olmuşdur ki, bunu sözlə təsvir etmək çətindir. Qələbə sevinci, qürur hissi, idmançılarımızın rəşadəti, gücü, xalqımızın birliyi, bütün bunlar heç vaxt yadımızdan çıxmayacaq.

Azərbaycan bu gün zirvədədir. Azərbaycan bu gün müstəqil, inkişafda olan güclü dövlət kimi uğurla irəli gedir. Bizim siyasi, iqtisadi sahələrdə, diplomatik arenalarda, idman yarışlarında böyük qələbələrimiz var. Biz haqlı olaraq, bununla fəxr edirik. Fəxr edirik ki, biz Azərbaycan vətəndaşıyıq. Biz fəxr edirik ki, cəmi 24 il ərzində Azərbaycan xalqının istedadı, zəhməti hesabına, düşünülmüş siyasət hesabına güclü dövlət qurmuşuq.

İdman hər bir ölkənin ümumi inkişafını göstərir. Əgər idmanda böyük nəticələri əldə edən ölkələrin siyahısına baxsanız,- bu Oyunlar da bunun bariz nümunəsidir,- görərsiniz ki, birinci sıralarda ancaq hərtərəfli cəhətdən inkişaf etmiş ölkələrdir. Çünki kasıb, inkişaf etməyən, geridə qalmış ölkələrdə çox nadir hallarda böyük idman nəticələri olur.

İdmanda əldə edilən uğurlar müəyyən bir baza əsasında yaranır. Bu bazanı biz yaratmışıq. Artıq neçə ildir ki, biz idmanın inkişafı ilə çox ciddi məşğul oluruq. İdmançılar, klublar, federasiyalar, idman cəmiyyətləri, Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, biz hamımız birlikdə idmanı inkişaf etdiririk. Təsadüfi deyil ki, dünya, Avropa çempionatlarında, Olimpiya Oyunlarında bizim idmançılarımız ən yüksək kürsüyə qalxırlar. Bu dəfə isə bu Oyunlar Azərbaycan idmanının, Azərbaycan dövlətinin təntənəsidir.

Biz gələcəkdə də uğurla inkişaf edəcəyik. Məndə bu məsələ ilə bağlı heç bir şübhə yoxdur. Azərbaycan inkişaf yolu ilə gedəcək. Gələcəkdə bizim böyük uğurlarımız və qələbələrimiz olacaqdır. Bu yolda bütün Azərbaycan xalqına yeni uğurlar, yeni qələbələr arzulayıram.

***

Sonra mükafatlandırma mərasimi keçirildi.

"Bakı-2015" birinci Avropa Oyunlarının keçirilməsində xüsusi xidmətləri olan şəxslərin, həmçinin Avropa Oyunlarında uğurla çıxış edən idmançıların, onların məşqçilərinin, idman federasiyaları sədrlərinin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu", "Şöhrət", "Dostluq", 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordenləri və "Tərəqqi" medalı ilə təltif edilmələri barədə dövlətimizin başçısının 2015-ci il 29 iyun tarixli sərəncamları oxundu.

Azərbaycan Prezidenti İlham Əliyev mükafatları təqdim etdi.

"Dostluq" ordeni ilə təltif olunan birinci Avropa Oyunları Əməliyyat Komitəsinin əməliyyatlar üzrə baş direktoru Saymon KLEQ mükafatlandırılanlar adından çıxış edərək dedi:

- Cənab Prezident.

Birinci xanım Mehriban Əliyeva.

Avropa Olimpiya Komitələrinin prezidenti.

Nazirlər, hörmətli qonaqlar, idmançılar.

Xanımlar və cənablar.

İcazə verin, iştirakçılar adından ilk növbədə, cənab Prezident, Sizə bir neçə kəlmə ilə təşəkkürümü bildirim.

Uzaqgörənliyinizə, Avropa Olimpiya Komitələrinin uzun illər arzusu olan Avropa Oyunlarının reallığa çevrilməsini təmin etmək üçün üzərinizə götürdüyünüz maddi və siyasi öhdəliyə görə Sizə təşəkkür edirəm. Bu, bizim hamımız üçün heyrətamiz təcrübə oldu. Mən bunu zarafatla "ömrü qısaldan təcrübə" adlandırıram və həyatımın bu çağında özümə daha çox ömür qısaldan təcrübə imkanı verə bilmərəm. Bütün bunların 30 aya həyata keçirilməsi təkcə BEGOC-un deyil, Sizin bütün nazirlikləriniz və qurumlarınızın böyük nailiyyətidir.

Bu salondakı hər kəs "Bakı-2015" ilk Avropa Oyunlarının bir parçası oldu. Bu salondakı hər kəs Oyunların uğuruna öz fərdi və kollektiv töhfəsini verdi. Mən xüsusilə Azərbaycan xalqını Oyunların təkcə birinci günü deyil, bütün 17 günü ərzində ruhlandıran atletlərinizi təbrik edirəm. Biz gündən-günə daha çox adamın Sizin atletləri dəstəkləməyə gəlməsinin və onların uğurundan zövq almasının şahidi olduq.




Mən beynəlxalq həmkarlarım adından bizə bu möhtəşəm təcrübəni yaşatdığınıza görə Sizə təşəkkürümü bildirirəm. Bu, həqiqətən də bizim hamımız üçün zəngin həyat təcrübəsi oldu. Biz Sizin ölkənizin bir parçası olmaq və inkişafına töhfə vermək imkanı əldə etdik. Biz buradan xoş xatirələrlə ayrılırıq. Mən ümid edirəm ki, gələcəkdə yolumuzun haraya düşməsindən asılı olmayaraq, Azərbaycanın bir parçası bizim ürəyimizdə qalacaq və inanıram ki, bizim yollarımız kəsişəcək.

***

"Şöhrət" ordeni ilə təltif olunduğuna görə dövlətimizin başçısına minnətdarlığını bildirən gənclər və idman naziri Azad RƏHİMOV dedi:

- Möhtərəm cənab Prezident.

Hörmətli Mehriban xanım.

Cənab prezident Patrik Hikki.





Mərasim iştirakçıları.

İcazə verin, ilk növbədə burada, səhnədə dayanan idmançılarımızın adından Sizə ürəkdən gələn minnətdarlığımı bildirim. Siz 17 gün ərzində onlarla bir yerdə olmusunuz, 17 gün Siz onlara dəstək vermişiniz. İlk dəfə olaraq Azərbaycanın tarixində qazanılan bu yüksək nailiyyət məhz Sizin diqqətinizin, qayğınızın, idmançılarla daim bir yerdə olmağınızın nəticəsidir. Biz bütün idmançıların adından Sizə bir daha dərin minnətdarlığımızı bildiririk.

Mən xüsusilə qeyd etmək istəyirəm ki, bu yüksək mükafat təkcə mənim mükafatım deyil. Bu, bizimlə birgə işləyən bütün insanların əməyinə verilən mükafatdır. Sizə on yeddi min könüllünün adından da dərin minnətdarlığımızı bildiririk ki, bu fürsəti onlara Siz yaratdınız. Onlar dövlətimiz, ölkəmiz, əziz Prezidentimiz üçün bu yüksək idman yarışını təşkil edə bildilər, bizimlə bərabər işlədilər. Sizə bütün idmansevərlərin adından bir daha dərin minnətdarlığımı bildirirəm. Çox sağ olun.






***

Mərasimdə Azərbaycan Respublikasında mədəniyyətin, təhsilin, səhiyyənin və idmanın inkişafında səmərəli fəaliyyətinə, Azərbaycan xalqının mədəni irsinin beynəlxalq miqyasda geniş təbliğinə və birinci Avropa Oyunlarının təşkilində böyük xidmətlərinə görə Mehriban Əliyevanın "Heydər Əliyev" ordeni ilə təltif edilməsi barədə Prezident İlham Əliyevin 2015-ci il 29 iyun tarixli Sərəncamı oxundu.

Dövlətimizin başçısı "Heydər Əliyev" ordenini Mehriban Əliyevaya təqdim etdi.

Əməyinə verilən yüksək qiymətə görə minnətdarlığını bildirən "Bakı-2015" ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva mərasimdə çıxış etdi.

## BİRİNCİ XANIM MEHRİBAN ƏLİYEVANIN ÇIXIŞI

- Hörmətli cənab Prezident.
Hörmətli prezident Patrik Hikki.
Əziz idmançılar.
Əziz dostlar.
Xanımlar və cənablar.

İlk Avropa Oyunlarının uğurla başa çatması və idmançılarımızın nailiyyətləri münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm. Azərbaycan öz qüdrətini, əzəmətini və birliyini dünyaya bir daha nümayiş etdirdi.

Əziz idmançılar, bizə qələbə sevincini bəxş etdiyinizə görə sizə öz dərin hörmətimi və məhəbbətimi ifadə edirəm.






Hörmətli cənab Prezident, bizim əməyimizi belə yüksək qiymətləndirib Azərbaycanın ali orden və medalları ilə təltif etdiyinizə görə hər birimizin adından Sizə öz dərin minnətdarlığımı bildirirəm. Müstəqil Azərbaycanın hər bir qələbəsinin arxasında Sizin əməyiniz, biliyiniz, iradəniz durur. Çox sağ olun ki, biz bu gün qüdrətli, sabit, öz sözünü deyən və öz maraqlarını qoruyan dövlətin vətəndaşıyıq. Çox sağ olun ki, Sizin və Azərbaycan xalqının birliyi nəticəsində ölkəmiz belə inanılmaz nailiyyətlərə imza atıb. Oyunlara hazırlıq zamanı bizə göstərdiyiniz dəstəyə görə çox sağ olun. Ən çətin məqamlarda, ən dramatik anlarda Siz bizə arxa oldunuz. Sizin ölkəmizə, xalqımıza olan inamınız heç bir şübhə qoymurdu ki, hər şey əla olacaq və biz yenə də qələbə çalacağıq. Siz bir daha bütün dünyaya sübut etdiniz ki, heç bir qara qüvvə bizi hədəf seçib qorxuda bilməz və ədalət, xoş niyyət, xalqla birlik hər zaman zəfər çalacaq.

Bu 17 gün ərzində yaşadığımız xoş anlar üçün Sizə dərin minnətdarlığımızı bildiririk. Mən idman leksikasından istifadə etsəm deyə bilərəm ki, bu 17 gün ərzində Azərbaycan xalqı bir komanda idi və Siz bu komandanın şərəfli kapitanı idiniz. Belə olan halda, əlbəttə, qalib gəlməmək mümkün deyildi. Vətənimizə, doğma Azərbaycanımıza xidmət etmək ən böyük şərəfdir və xidmətimizin nəticələrini görüb yaşamaq ən böyük xoşbəxtlikdir.

Cənab Prezident, biz hər birimiz ölkəmizin əsgəriyik və Azərbaycanın gələcəyi naminə daha da tam gücümüzlə xidmət etməyə hazırıq.

Çox sağ olun, bir daha çox sağ olun ki, Azərbaycanı belə yüksək zirvələrə qaldırmısınız. Qoy Tanrı Sizi və Azərbaycanı hər zaman qorusun! Çox sağ olun.

***

Nazir Azad RƏHİMOV: Cənab Prezident, Siz daim bizi sevindirirsiniz, bizim nailiyyətlərimizi yüksək qiymətləndirirsiniz. Biz də, idmançılar da, bu salonda əyləşənlər də düşündük ki, Sizi nə ilə sevindirə bilərik. Qərara gəldik ki, Sizin də qeyd etdiyiniz kimi, Oyunlarda bizi sevindirən, kövrəldən gözəl anları bir videoçarx şəklində hazırlayıb burada nümayiş etdirək. Bu, bizim hamımızın adından Sizə hədiyyəmizdir. Çox sağ olun.

Sonra videoçarx nümayiş olundu.

# İlham Əliyev Binəqədi rayonu ərazisində yanğın baş verən çoxmərtəbəli binanın yerləşdiyi ərazidə olub



**Mayın 19-da paytaxtın Binəqədi rayonu, Azadlıq prospekti 200/36 ünvanda yerləşən çoxmərtəbəli yaşayış binasında yanğın baş verib.**

Mayın 20-də səhər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hadisə yerində olub.

Dövlətimizin başçısı binaya baxış zamanı hadisənin səbəblərinin araşdırılması və nəticələrinin aradan qaldırılması ilə bağlı təxirəsalınmaz tədbirlərin görülməsi, hadisə vaxtı zərər çəkənlərə və həlak olanların ailə üzvlərinə yardımların göstərilməsi və digər məsələlərlə əlaqədar Dövlət Komissiyasının üzvlərinə yerindəcə tapşırıqlarını verdi.

Daha sonra baş verən yanğınla əlaqədar yaradılan Dövlət Komissiyasının Azərbaycan Prezidentinin rəhbərliyi ilə ilk iclası keçirilib.





**İCLASDA ÇIXIŞ EDƏN AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DEDİ:**

- Dünən Binəqədi rayonunun ərazisində yerləşən çoxmərtəbəli yaşayış binasında baş vermiş yanğın nəticəsində 15 nəfər həlak olmuş, onlarla insan yaralanmışdır.

Həlak olanların ailələrinə, onların yaxınlarına, qohumlarına bir daha başsağlığı verirəm. Təklif edirəm ki, həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilsin (hadisə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olundu).

Allah rəhmət eləsin.

Mənə verilən məlumata görə, hazırda xəstəxanalarda 20-yə yaxın insan var. Onların müalicəsi təmin edilir. Səhiyyə Nazirliyi hər şeyi edir ki, onlar tezliklə sağalıb evə qayıtsınlar.

Qeyd etməliyəm ki, hadisə zamanı bizim bütün dövlət qurumlarımız çox böyük fədakarlıq göstərmişlər. Səhiyyə işçiləri, təcili tibbi yardım işçiləri, xilasedicilər, polis əməkdaşları böyük peşəkarlıq və fədakarlıq, qəhrəmanlıq göstərmişlər. Onlarla insan binadan təxliyyə edildi, xilas olundu. Bu xilasetmə əməliyyatlarında iştirak etmiş bütün insanlara dərin minnətdarlığımı bildirmək istəyirəm.

Hadisə ilə bağlı dünən mənim Sərəncamımla Dövlət Komissiyası yaradılmışdır. Bu gün biz Komissiyanın birinci iclasını keçiririk. Komissiyanın birinci iclasına şəxsən mən özüm rəhbərlik edirəm.

Komissiya bütün məsələləri araşdırıb rəy verməlidir. İlk növbədə, yanğının nəticələri araşdırılmalıdır. Hüquq mühafizə orqanlarına göstəriş verilmişdir. Onlar bu işlərlə məşğuldurlar. Dünən cinayət işi açılmışdır. Cinayət törətmiş insanlar məsuliyyətə cəlb olunmalıdırlar.

Hazırda komissiya işləyir. Əsas məsələ ondan ibarətdir ki, zərərçəkmiş insanlara qayğı, diqqət göstərilsin. Onlar indi müvəqqəti olaraq mənzil şəraiti ilə təmin edilirlər. Göstəriş verilmişdir ki, onların müvəqqəti məskunlaşması ilə bağlı bütün müvafiq tədbirlər görülsün. Onlara maddi kömək də göstərilibdir ki, bina təmir olunanadək onlar müvəqqəti olaraq kirayədə qalsınlar. Bu məsələlər öz həllini tapır.

Eyni zamanda, əlbəttə ki, yanğının səbəbləri ciddi şəkildə araşdırılmalıdır. Qeyd etdiyim kimi, hüquq mühafizə orqanları artıq işə başlamışlar. Binanın təmiri ilə məşğul olan şirkətin rəhbərləri saxlanılıb və məsələ ciddi araşdırılmalıdır.

Bu, birinci hadisə deyil. Bundan bir qədər əvvəl Xətai rayonunda da oxşar hadisə baş vermişdir. Xoşbəxtlikdən orada heç kim həlak olmamışdır. Ancaq o məsələ də ciddi araşdırılmalıdır. Onu da qeyd etməliyəm ki, Xətai rayonundakı yaşayış binasında baş vermiş yanğının nəticəsi ilə bağlı araşdırmalar aparılır. Qeyd etməliyəm ki, o binanın təmiri ilə məşğul olan şirkət başqa şirkət idi.

Yəni, bu, onu göstərir ki, hər iki hadisədə bi-



nanın təmiri ilə məşğul olan şirkətlər böyük məsuliyyətsizlik göstərmişlər. İndi əlbəttə ki, hüquq mühafizə orqanları bu məsələni araşdıracaq. Hələ ki, bir şey demək istəmirəm. Amma ilkin versiya ondan ibarətdir ki, təmirdə istifadə olunan üzlük materialları keyfiyyətsiz idi və odadavamlı materiallar deyildi. Mən Bakıda aparılan təmirlə bağlı dəfələrlə məsələ qaldırdım ki, ilk növbədə, təmir keyfiyyətlə aparılmalıdır və təhlükəli maddələrdən istifadə olunmamalıdır.

Müvafiq dövlət qurumlarının nümayəndələri məni də dəfələrlə inandırırdılar ki, istifadə olunan bütün materiallar keyfiyyətlidir və odadavamlıdır. Ancaq hadisə onu göstərir ki, bu, yalan məlumatdır. Bu məsələ də araşdırılmalıdır ki, bu binaların təmirində istifadə olunan materiallar harada istehsal edilib, və ya haradan idxal olunub! Onlara kim sertifikat verib? Hansı ekspertizadan keçib? Əgər ekspertizadan keçibsə, o rəyi kim verib? Əgər ekspertizadan keçməyibsə, deməli, bu binalar qanunsuz şəkildə təmir olunub. Yəni, bütün bu məsələlər ciddi şəkildə araşdırılmalıdır.

Dünən artıq müvafiq göstərişlər verilib. Mənə verilən məlumatlar hələ ki, məni qane etmir. Çünki görürəm ki, burada bəzi qurumlar bu məsuliyyəti bir-birinin üstünə atmaq istəyirlər. Ona görə hüquq mühafizə orqanları, ilk növbədə, prokurorluq məsələni ciddi araşdırmalıdır və konkret nəticə hasil edilməlidir ki, günahkarlar kimlərdir.

Bir daha demək istəyirəm, ilkin versiya ondan ibarətdir ki, keyfiyyətsiz materiallardan istifadə olunub. Ancaq bu materiallardan artıq neçə ildir ki, Bakıda istifadə olunur və buna oxşar hadisələr baş verməyib. Mənə verilən bəzi məlumatlara görə, ilkin mərhələdə istifadə edilən materialların keyfiyyəti yüksək olub. Ancaq sonrakı mərhələdə artıq bu materialların tərkibində təhlükəli maddələr aşkar olunub. Əgər bu, belədirsə, onda bu barədə də rəsmi rəy bildirilməlidir və bu işlərdə, günahsız vətəndaşların ölümündə təqsiri olan bütün qurumlar, bütün insanlar cəzalandırılacaq. Cəza da çox ciddi olacaq. Çünki günahsız insanlar həlak olub. Onların heç bir günahı yox idi.

Bir daha demək istəyirəm ki, xilasedicilər, səhiyyə işçiləri, polis əməkdaşları çox fəal və qəhrəmancasına çalışmışlar. Əgər belə olmasa idi, qurbanların sayı daha da çox ola bilərdi. Ancaq, eyni zamanda, insanlar həlak olub və əlbəttə ki, bu, bütün xalqımızı sarsıdıb.

Onu da qeyd etməliyəm ki, hazırda Bakı şəhərində oxşar üzlük materialları ilə üzlənmiş binalar kifayət qədər çoxdur. Bəzi məlumatlara görə, 200-dən çoxdur. Artıq dünəndən, Bakı Şəhər İcra Hakimiyyətinə, Fövqəladə Hallar Nazirliyinə göstəriş vermişəm ki, buna oxşar materiallarla üzlənmiş bütün binalarda dərhal ekspertiza keçirilsin, o materialların tərkibi dəqiq öyrənilsin və əgər hər hansı bir təhlükə varsa,



tezliklə bu üzlük materialları sökülsün və beləliklə, heç bir təhlükə olmasın.

Ancaq qeyd etməliyəm ki, bu işlər bundan əvvəl görülməli idi. Əgər bütün işlər düzgün şəkildə qurulsa idi, bu hadisə baş verməzdi. Bir daha demək istəyirəm ki, indi mənə müxtəlif məlumatlar gəlir və bəzi hallarda bu məlumatlar ziddiyyət təşkil edir. Ona görə burada aydınlıq olmalıdır. Azərbaycan vətəndaşları bilməlidirlər ki, günahkarlar kimlərdir və bu hadisəyə görə kimlər məsuliyyət daşıyacaq.

Bir daha qeyd etmək istəyirəm ki, hazırda birinci dərəcəli məsələ yanğına məruz qalmış evin sakinlərinin yerləşdirilməsidir. Onlara dövlət tərəfindən maddi yardım göstəriləcək. Dünən imzaladığım Sərəncamda bu da nəzərdə tutulur. Nazirlər Kabinetinə göstəriş verilmişdir ki, onlara göstəriləcək maddi dəstəyin həcmi qısa müddət ərzində müəyyən edilsin.

Eyni zamanda, yanğına məruz qalmış bina dövlət hesabına tezliklə təmir edilməlidir. Bütün mənzillər dövlət hesabına təmir olunmalıdır. İnsanlara lazımi əşyalar veriləcək, mebel alınacaq. Yəni, bütün bunları dövlət öz üzərinə götürür. Bu, bir daha Azərbaycan dövlətinin öz vətəndaşlarına olan qayğısının təzahürüdür.

Bina tezliklə təmir olunmalıdır. Çünki insanlar binaya qayıtmalıdırlar. Əlbəttə ki, binanın yanğından sonra dayanıqlılığı müəyyən edilməlidir və bütün bu işlər maksimum qısa müddət ərzində görülməlidir.

Bir daha qeyd etməliyəm ki, bu, birinci hal deyil. Əslində birinci yanğın baş verəndən sonra bu tədbirlər görülməli idi. Mən müvafiq göstərişlər vermişdim. Çünki Xətai rayonundakı birinci bina da çox qısa bir müddət ərzində alovlanıb yanmışdı. Bu dəfə də oxşar hadisə baş vermişdir. Baxmayaraq ki, xilasedicilər, yanğınsöndürən maşınlar, təcili tibbi yardım briqadaları dərhal hadisə yerinə gəlmişlər, görüntülər var, ancaq bina çox qısa müddət ərzində yanmışdır.

Hər kəs nəticə çıxarmalıdır. Hər bir dövlət məmuru öz məsuliyyətini dərk etməlidir. Bir daha qeyd etməliyəm ki, heç kim cəzasız qalmayacaq. Günahkar insanlar dövlət tərəfindən cəzalandırılacaq və ədalət bərpa ediləcəkdir.

***

Sonra Komissiyanın sədri Abid ŞƏRİFOV hadisə ilə bağlı məlumat verərək dedi:

- Cənab Prezident, dünən verdiyiniz tapşırığa uyğun olaraq komissiya hadisə yerində araşdırma aparıb. Sizin tapşırığınızla ilk növbədə, insanların yerləşdirilməsi ilə məşğul olduq. Bakı Şəhər İcra Hakimiyyəti və rayon icra hakimiyyəti ilə birlikdə dünən gün ərzində bu məsələni həll etdik. Hamı yerləşdirilib. Sizə məruzə edirəm ki, əlavə olaraq Sərhəd Qoşunlarından 10 üçotaqlı mənzil ehtiyatımız var. Həmçinin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Buzovnada 36 mənzilli pansionatı var, lazım gələrsə sakinləri orada da yerləşdirə bilərik.

Dünyasını dəyişən insanların dəfn məsələsi ilə əlaqədar Sizin tapşırığınıza uyğun olaraq şəhər icra hakimiyyəti tərəfindən yerlərdə qərargahlar yaradılıb, lazımi tədbirlər görülüb. Rəhmətə gedənlərin nəşi yaxınlarının və doğmalarının istədikləri məzarlıqlarda dəfn edilib. Bu məsələ bu gün öz həllini tapıb. Sizin tapşırığınıza uyğun olaraq bütün xərclər dövlət hesabına çəkilir.

Xəstəxanalarda müalicə alanlar Səhiyyə Nazirliyinin ciddi nəzarəti altındadır. Səhiyyə Nazirliyinin rəhbər işçilərindən müalicə ocaqlarında növbələr təşkil edilib ki, heç bir problem yaranmasın.

Komissiya iki gün ərzində binanın durumu ilə əlaqədar araşdırma aparacaq və dəqiq nəticələr barədə Sizə məruzə edəcəyik ki, gələcəkdə nə etmək olar.

Eyni zamanda, cənab Prezident, təklif edirik ki, yanğına qarşı tədbirlər çərçivəsində şəhərdə bu qəbildən olan binaların fasad işıqlandırılması dayandırılsın. Siz dediniz ki, şəhərdə 200-dən çox bu cür bina var. Biz Sizin tapşırığınıza uyğun olaraq dəqiqləşdirməliyik ki, bu binaların ən təhlükəliləri hansılardır. Təklif edirəm ki, Bakı Şəhər İcra Hakimiyyətinin, Fövqəladə Hallar, Daxili İşlər nazirliklərinin, “Azərişıq” Səhmdar Cəmiyyətinin və digər əlaqədar qurumların mütəxəssisləri ilə birlikdə evin sahiblərinin iştirakı ilə binalarda yoxlamalar aparaq. Əgər razılıq olarsa, binaların fasadlarının üzlüyünü Avropa Oyunlarına qədər sökməyə başlamayaq. Yəni, araşdırma aparaq, vəziyyəti öyrənək ki, nə etməliyik?!

Prezident İlham ƏLİYEV: Bunun Avropa Oyunlarına heç bir aidiyyəti yoxdur.

Abid ŞƏRİFOV: Mən işin həcminə görə deyirəm, cənab Prezident. Əlbəttə, Sizin razılığınız olduğu təqdirdə. Söhbət çoxmərtəbəli binaların fasad üzlüklərinin 20-25 gün ərzində sökülüb bərpa edilməsindən gedir. Əlbəttə, Siz necə desəniz o cür də edəcəyik.

Prezident İlham ƏLİYEV: Sökub bərpa etməmək də olar. Bilirsiniz, indi Avropa Oyunları, başqa tədbirlər bu faciə qarşısında heçə bərabərdir.

Abid ŞƏRİFOV: Bəli, heç nədir.

Prezident İlham ƏLİYEV: Heç nədir. Ona görə, ilk növbədə, bir daha demək istəyirəm, bütün buna oxşar materiallarla üzlənmiş binalardan dərhal nümunə götürülməlidir. Hər bir binadan. O materiallar təhlil edilməlidir, əgər orada təhlükə varsa, odadavamlı deyilsə, dərhal bütün binaların üzlükləri sökülməlidir. Dərhal! Bunu tez bir zamanda etmək olar. Bir həftə, maksimum iki həftə ərzində bütün binaların fasad üzlükləri sökülməlidir, Oyunlardan sonra təmir olunar. Əsas məsələ budur. Yəni, biz burada heç bir başqa amili nəzərə almamalıyıq.

Səhiyyə naziri Oqtay ŞİRƏLİYEV məlumat verərək dedi:

- Cənab Prezident, dünən 56 adama tibbi yardım göstərilib, onların bir qisminə yerlərdə təcili tibbi yardım göstərilib, 41 nəfər isə xəstəxanalarda yerləşdirilib. Onlardan 26 nəfərinə lazımi xidmət edilərək, axşam buraxılıb. Hazırda xəstəxanalarda 14 xəstə var. Onların vəziyyəti kafidir, yəni, aralarında çox ağır xəstə yoxdur. On dörd nəfər hadisə yerində dünyasını dəyişib. 68 yaşında bir qadın isə gecə xəstəxanada vəfat edib.

Prezident İlham ƏLİYEV: Bakı Şəhər İcra Hakimiyyəti, mən dünən göstəriş vermişəm, sakinlərin bütün problemləri həll edilməlidir, maddi təminat, yerləşmə, dəfn mərasimi – hər şey təşkil edilməlidir.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala ABUTALIBOV məlumat verərək dedi: Sizin göstərişinizə əsasən orada olan zərərçəkmiş sakinlərlə bir-bir görüşdüm, hamısına yerlər göstərildi, avtobuslar da hazır idi. Təklif etdik ki, kim harada istəyirsə yerləşə bilər. Çoxu qohumlarının evinə köçmək istədi, biz etiraz etmədik. Amma dedik ki, kim harada yaşayacaqsa, bina əgər doğrudan da sağlam binadırsa və təmir olunacaqsa, təmir olunana qədər onlara kirayə haqqı veriləcək. İkincisi, onlara deyildi ki, burada mənzillərin hamısı yanıbsa onların hamısı dövlət tərəfindən təmir olunacaq, həm də mebellərlə təmin ediləcək. Onlar razılıqlarını bildirdilər.

Möhtərəm Prezident, hadisə zamanı 14 nəfər həlak olmuşdu. Axşam bir nəfər də dünyasını dəyişib – 15 nəfər. Qubaya, Sabirabada, Lökbatana aparılanlar da var. Bu işlərin hamısını dövlət tərəfindən həll etdik. Dəfn mərasimləri ilə bağlı bütün işlər dövlət tərəfindən görüldü.

Prezident İlham ƏLİYEV: Bir daha deyirəm ki, Nazirlər Kabineti həm həlak olanların ailələrinə, həm də yaralananlara veriləcək maddi köməyin həcmini tezliklə müəyyən etsin. Təklif versin ki, burada yubanma olmasın, bu işlər çox vaxt aparmasın. O vaxta qədər şəhər icra hakimiyyəti qalan bütün məsələləri öz üzərinə götürür.

Hacıbala ABUTALIBOV: Baş üstə.

Abid ŞƏRİFOV: Yəqin ki, ailənin tərkibindən, evin sahəsindən asılı olaraq ailəbaşına 30-35 min manat vermək təklif olunur.

Prezident İlham ƏLİYEV: Burada məsələ belə olmalıdır. Birincisi, həlak olanların ailələrinə maddi təminat verilməlidir. Bu, evin, mənzilin sahəsinə görə olmamalıdır. İkincisi, mənzillərin təmiri dövlət tərəfindən aparılmalıdır. Üçüncüsü, yaralananlara dövlət tərəfindən maddi təminat verilməlidir, onun məbləği müəyyən edilməlidir. Yanmış bütün mənzillərin ev əşyaları – mebeldən tutmuş qab-qacağa qədər dövlət tərəfindən yüksək səviyyədə təmin edilməlidir. Bütün siyahılar yəqin ki, var. Eyni zamanda, evlərdə insanların sənədləri də yanıb. O da bərpa edilməlidir. Yəni, Daxili İşlər Nazirliyi, "ASAN xidmət", digər müvafiq qurumlar tezliklə bütün sənədləri bərpa etməlidirlər.

Abid ŞƏRİFOV: Sənədlərlə əlaqədar göstəriş verilib. Uşaqların təhsili, attestat almaları və s. ilə bağlı bu gün yerində araşdırma aparılıb ki, heç bir problem yaranmasın. Mən dediyim 30-35 min manat, sadəcə, yardımdır.

Prezident İlham ƏLİYEV: Siz təklif verin. Tezliklə mən müvafiq Sərəncam imzalayacağam.

Fövqəladə hallar naziri Kəmaləddin HEYDƏROV məlumat verərək dedi:

– Cənab Prezident, dünən saat 10.57-də bizə məlumat daxil olmuşdur. Əməliyyat 16:27-də başa çatmışdır. Buraya həm 150 nəfərdən çox canlı qüvvə və həm də 40 texnika cəlb olunmuşdur. Binadan 27 nəfər təxliyyə edilmişdir. 37 nəfər xilas olunmuşdur. 14 cəsəd çıxarılmışdır. Təəssüflər olsun ki, bir nəfər də gecə xəstəxanada vəfat etmişdir.

Cənab Prezident, Xətai rayonunda baş vermiş hadisə zamanı mənə verdiyiniz tapşırıqdan sonra biz bu materialla üzlənmiş bütün binaları, – ona qədər də əlimizdə məlumatlar var idi, – araşdırmışıq. Bəzi yerlərdə, demək olar ki, şəhərin bir çox yerində vaxtın azlığını nəzərə alaraq, biz növbətçilik qurmuşuq. Gecə-gündüz- 24 saatlıq həm bizim Mülki Müdafiə Qoşunlarının, Xüsusi Riskli Xilasetmə Xidmətinin, həm də Dövlət Yanğın Nəzarəti Xidmətinin əməkdaşlarının və yanğınsöndürənlərin iştirakı ilə təxminən 150 binanı mühafizə etmişik. Siz rəva bilirsinizsə, biz növbətçiliyi,- bu qəbildən olan 263 bina var, – onların fasadlarının üzlüyü sökülməmişdən qabaq təmin edək və bütün yanğınsöndürən maşınları bir dəqiqəlik məsafələrdə yerləşdirək. Bu yolla biz Sizin tapşırığınızı qısa müddətdə icra edə bilərik.

Prezident İlham ƏLİYEV: Baş prokuror, məlumat verin. Nə iş görmüsünüz?

Baş prokuror Zakir QARALOV: Möhtərəm cənab Prezident, Sizin göstərişinizə əsasən dərhal istintaq-əməliyyat qrupu hadisə yerinə çıxıb. Baş vermiş bu ağır faciənin səbəblərinin araşdırılması üçün istintaq-əməliyyat qrupuna Milli Təhlükəsizlik, Fövqəladə Hallar, Daxili İşlər nazirliklərinin və Baş Prokurorluğun ixtisaslı mütəxəssisləri cəlb ediliblər.

Möhtərəm cənab Prezident, ilk növbədə müəyyən edilib ki, üzlükləri "Global Construction" şirkəti quraşdırır, istehsalı ilə isə "Global Stone" şirkəti məşğul olur. Bunun da sahibi və faktiki rəhbəri hazırda şübhəli şəxs qismində saxlanılmış Miryusif Mahmudov adlı şəxsdir. O, bu işlərə 2010-cu ildə başlayıb. Ona ilk uyğunluq sertifikatı 2010-cu ildə verilib. Sertifikatı S.Ə.Dadaşov adına Elmi-Tədqiqat və Layihə-Konstruktor İnşaat Materialları İnstitutu verib. Bu sertifikatlar hər il yenidən verilib. Yəni, bunlar birillik olubdur. Bu sənədlər, eyni zamanda, Standartlaşdırma Komitəsinə və Səhiyyə Nazirliyinə təqdim olunub. Sənədləri məsul əməkdaşlar imzalayıblar. Araşdırılan sənədlərdə göstərilir ki, müxtəlif tədqiqatlar da aparılıb. Bilavasitə yazılıb ki, inşaat sektorunda bina və tikililərin üzlənməsində istifadə edilə bilər.

Prezident İlham ƏLİYEV: Bəs odadavamlılığını kim müəyyən edir?

Zakir QARALOV: Odadavamlılığını da sözsüz ki, bunlar müəyyən edir

Prezident İlham ƏLİYEV: Yox, Səhiyyə Nazirliyi onu edə bilməz.

Kəmaləddin HEYDƏROV: Onu bizim Dövlət Yanğın Nəzarəti Xidmətinin laboratoriyası və yanğın nəzarəti bölməsi verib. Orada da bunun sənədləri var. Onların təklif etdikləri sertifikatlarda, bizim onlara verdiyimiz rəylərdə yazılıb ki, bunlar çətin yanan materiallardır. Bu zavod ilkin olaraq işə başlayarkən onlar materiallara xüsusi maddə qatırdılar və Rusiyadan, Türkiyədən bütün sertifikatlar da o tərkiblə gəlib. Amma sonradan istehsal zamanı materiallara bu maddə qatılmayıb.

Cənab Prezident, bütün bu işləri aparan sifarişçi təşkilatlara, icra hakimiyyətlərinə məktublarda dəfələrlə deyilib ki, bunlar ekspertizasız və heç bir müraciətsiz olub. Təəssüf ki, heç bir cavab alınmayıb.





Bir dəfə deyil, dəfələrlə məktub göndərilib, konkret binalar göstərilib.

Zakir QARALOV: Yalan yazılsa da, burada konkret icazə verilir ki, üzlük materialı kimi istifadə olunsun. Müxtəlif yerlərə məktublar var.

Cənab Prezident, ümumiyyətlə, həmin şirkətlə icra hakimiyyəti arasında bu işlərin görülməsi ilə bağlı müqavilə bağlanmayıb.

Prezident İlham ƏLİYEV: Müqaviləsiz necə iş görülüb?

Zakir QARALOV: Müqaviləsiz 14 binanın üzlənməsi həyata keçirilib. Yəni, bu işlərə başlamazdan əvvəl hər bina üzrə layihələndirmə aparılmalıdır. Layihələndirmə Fövqəladə Hallar Nazirliyinə təqdim olunmalıdır. Layihələndirilməyə razılıq veriləndən sonra bu işlər davam etdirilməlidir. Eyni zamanda, burada ilkin baxışdan müəyyən edilib ki, yəni, təkcə bu materiallar istifadə olunmamalıdır. Bunların arasında, eyni zamanda, izolyasiya materialları da qoyulmalıdır. İzolyasiya materialları olmadığına görə də havanın tam işləməsi baş verməyişdir.

Cənab Prezident, bu şirkət tərəfindən görülmüş işlər üzrə əlavə daha iki hadisə olub. Bir hadisə 2012-ci ilin dekabr ayında Sumqayıt şəhərində olub. Düzdür, orada tələfat olmayıb. Birinci siqnal o vaxt olub ki, bu materiallar keyfiyyətsizdir. İkinci hadisə 2015-ci il fevralın 27-də baş verib. Bu, Xəzər rayonunun Buzovna qəsəbəsində, Rasif Nərimanov küçəsi, 26 ünvanında olub. Orada da bu material yanıb. Yəni, Xətai rayonuna qədər bizdə artıq iki siqnal var idi ki, bu materiallar keyfiyyətsizdir və bunların istifadəsi tam yararsızdır.

Şirkətin rəhbərinin ifadəsinə görə, qatqı materialları Türkiyədən alınıb. Guya Hollandiyanın məhsulu olan bir şirkətin materiallarıdır. Biz dünən axtarış keçirdik. Şirkətin bütün sənədlərini götürmüşük və Ədliyyə Nazirliyinin Ekspertiza İnstitutunun, eyni zamanda, Elmlər Akademiyasının Kimya İnstitutunun da mütəxəssislərini cəlb etmişik ki, burada hansı kimyəvi materialların mövcudluğu araşdırılsın. İlkin əməliyyat məlumatlarına görə, hansısa məhlulu qatmırlar. Bütün hallarda ən başlısı məsuliyyətsizlik bu işlərin qeyri-rəsmi aparılmasıdır. Ona görə, biz indi icra hakimiyyətində də günahkar şəxsləri müəyyənləşdiririk, onların haqqında da tədbirlər görüləcək.

İstintaq-əməliyyat qrupu tərəfindən artıq 100-dən çox şahid dindirilib. Müxtəlif məhkəmə ekspertizaları, həmçinin yanğın-texniki, təhlükəsizlik-texniki və fiziki-kimyəvi ekspertizalar təyin edilib. Bu rəyləri almaq üçün sözsüz ki, vaxt lazımdır. Ancaq eyni zamanda, Milli Təhlükəsizlik Nazirliyi ilə birlikdə binanın qəsdən, kiminsə tərəfindən yandırılması fərziyyələri də araşdırılır. Sizi tam əmin edirik ki, bütün günahkar şəxslərin qısa zamanda müəyyənləşdirilməsi və məsuliyyətə cəlb edilməsi təmin olunacaq.

Prezident İlham ƏLİYEV: Əlbəttə, bütün versiyalar təhlil edilməlidir. Bir daha demək istəyirəm ki, istintaq təzə başlayır. İstintaqın nəticələri, əlbəttə, həm mənə, həm də ki,

Azərbaycan ictimaiyyətinə təqdim ediləcək. Qarşıya bütün vəzifələr qoyulub, məsələ ciddi araşdırılacaq. Bir daha demək istəyirəm ki, ilk növbədə, hazırda xəstəxanalarda müalicə alan yaralı insanlara qayğı, diqqət göstərilir, göstərilməlidir. Qalan bütün məsələlər də öz həllini tapmalıdır. Bütün günahkar şəxslər məsuliyyətə cəlb ediləcək və onları çox ciddi cəza gözləyir. Belə hadisələrin gələcəkdə təkrarlanmaması üçün tələb edirəm ki, mənə konkret təkliflər paketi təqdim edilsin. Çünki görürəm ki, bu sahədə ciddi tənzimləmə sistemi yoxdur. Bu tənzimləmə məsələləri qanunvericilikdə, qaydalarda təsbit edilir, ancaq həyatda buna riayət olunmur. Binalar təmir edilir, müqavilə bağlanmır. Bu, ümumiyyətlə qəbuledilməzdir. Yaxud da sertifikat verilir ki, bir maddəyə orada hansısa qatqılar əlavə edilsin, odadavamlılıq artsın, ya da yüksək səviyyədə olsun. Amma ondan sonra, yəni, tikinti, istehsalat zamanı o qatqı əlavə edilmir və beləliklə, keyfiyyət itirilir. Ona görə, istifadə edilən bütün tikinti materiallarına hər bir mərhələdə ciddi nəzarət olunmalıdır. Bir dənə də olsun bina olmamalıdır ki, orada müqaviləsiz hansısa iş görülür, yaxud da bunun ekspertizası yoxdur. Əgər ekspertiza varsa və ekspertiza həqiqətə uyğun deyilsə, o zaman o ekspertiza rəyini verən insanlar da məsuliyyətə cəlb edilməlidir. Ona görə, burada hüquq mühafizə orqanlarının çox geniş fəaliyyəti nəzərdə tutulur ki, biz bu məsələyə, bu hərc-mərcliyə birdəfəlik son qoyaq. Çünki bu, bizə yaraşmaz.

Azərbaycanda bu qədər işlər görülür, bu qədər abadlıq-quruculuq, təmir-bərpa işləri görülür. Bütün işlər ən yüksək keyfiyyətlə görülməlidir. Mənim birinci tələbim bundan ibarətdir- təhlükəsizlik və keyfiyyət. Ancaq həyatda biz onu görürük ki, bu qaydalar pozulur, qanunsuz evlər tikilir. İndi Bakıda, Azərbaycanda nə qədər qanunsuz evlər tikilir?! Mən soruşanda sanki heç kimin xəbəri yoxdur. Yerli icra başçılarının, şəhər icra başçılarının xəbəri yoxdur, heç kimin xəbəri yoxdur. Bu yaxınlarda istifadəyə verilən yeni idman obyektləri ilə tanış olarkən gördüm ki, vaxtılə ulu öndər Heydər Əliyevin şəxsi iştirakı ilə salınmış "Dostluq" parkının bir hissəsini yenə də zəbt edirlər. Mən təxminən 7-8 il bundan əvvəl oraya getmişdim. Görmüşdüm ki, orada "Dostluq" parkındakı ağacları qırırlar, villalar tikilir. Hacıbala Abutalıbova göstəriş verdim ki, gedin aydınlaşdırın, bütün tikilən binalar qanunsuzdur. Dedim ki, gedin dağıdın onları. Qoy, bu binaları tikənlərə dərs olsun. O gün gəlib, görürəm ki, yenə də düz "Dostluq" parkının yanında, yamacda villalar tikilir. Dedim öyrənin bunu kimlər tikir? Heç bir adam çıxmadı. Dedim ki, gedin bir villanı sökün, görək kim çıxacaq bunun arxasından. Heç kim çıxmadı. Dedim belədirsə, əgər heç kimə məxsus deyilsə, bunları söküb, dağıdın, başqalarına da dərs olsun. Gedirlər qanunsuz yollarla özəlləşdirirlər, zəbt edirlər, hasarlayırlar. Burada elə istinad divarları tikilib ki, bəlkə də o divarların inşasına bir neçə milyon manat sərf olunub.

Bu qədər özbaşınalıq olmaz. Mən dəfələrlə demişəm ki, qayda-qanun olmalıdır. İlk növbədə, bütün vəzifəli şəxslər nümunə göstərməlidirlər. Yerlər zəbt edilir, qanunsuz tikintilər aparılır. Ondan sonra gedib bunu qanunsuz yolla sənədləşdirirlər.

Yüksək gərginlikli xətlərin altında nə qədər binalar tikilib. İnsanlar bəlkə də bunu başa düşmür ki, bu, onların özləri üçün nə qədər böyük təhlükəlidir. Ancaq o icazəni kim verib? Elə bil ki, özbaşına tikiblər. Axı biz hamımız Azərbaycanda yaşayırıq. Əgər yerli icra orqanları, bələdiyyə icazə verməsə, özbaşına kim nə edə bilər? Bələdiyyə bir növ necə deyərlər, icra başçılarının filialına çevrilib. Bələdiyyənin öz səlahiyyəti var. İndi mən o fəaliyyəti görmürəm. Bütün bölgələrdə, kəndlərdə, şəhərlərdə işlər dövlət büdcəsi hesabına görülür. Bələdiyyə bir kənd yolunu tikibmi? Halbuki bu, bilavasitə onun işidir. Bütün kənd yollarını dövlət büdcəsi hesabına, ya da Prezidentin ehtiyat fondunun hesabına biz tikirik. Bələdiyyə, sadəcə olaraq, bir möhür idarəsidir, yəni, qanunsuz əməllərə ştamp qoyur. Bu məsələ də prokurorluq tərəfindən araşdırılmalıdır, buna son qoyulmalıdır.

Soruşuram bu qanunsuz binalar haradan meydana gəlib? Heç kim bilmir. Bu, mümkün deyil. Bu da, necə deyərlər, mənbədən qaynaqlanan hadisədir. Qanunsuzluğa, özbaşınalığa son qoyulmalıdır.

Ona görə, gələcəkdə belə bədbəxt hadisələrin təkrarlanmaması üçün, komissiya üzvləri, mənə konkret təklif verin. Bir balaca bina da icazəsiz tikilə bilməz. Bundan sonra əgər bu, olacaqsa nəinki işdən çıxaracağam, onlar cinayət məsuliyyətinə də cəlb ediləcəklər. İndi Azərbaycan ictimaiyyəti görür ki, ölkədə toxunulmaz insan yoxdur. Cinayət törədibsə, vəzifədən asılı olmayaraq məsuliyyətə cəlb edilməlidir.

Mən dəfələrlə demişəm ki, vəzifəli şəxslər özlərini normal aparsınlar, insanlarla ünsiyyət qursunlar, insanları incitməsinlər. Onlar özləri, ailə üzvləri qanunu pozmasınlar. Dəfələrlə demişəm, amma nə görürəm, yenə də mənim göstərişlərimi icra etməyənlər var və nəticə nə olur? Onlar özləri bədbəxt olurlar. Azərbaycan ictimaiyyəti hər şeyi bilir. Heç kim qanundan kənarda qala bilməz. Bir nəfər də toxunulmaz deyil. Bax, son vaxtlar bir neçə iş adamı böyük pozuntularla bağlı məsuliyyətə cəlb edilib. Vaxt gələcək ictimaiyyət bu məsələlərlə bağlı məlumatlandırılacaq. Nəyə görə? Ona görə ki, öz məsuliyyətlərini dərk etməmişlər, dövlət əmlakını talamışlar, dövlət vəsaitini oğurlamışlar.

Vəzifəli şəxslərin ailə üzvləri cinayət törədirlər. Ondan sonra məsuliyyətdən yayınmaq istəyirlər. Əfsuslar olsun, belələrinə himayədarlıq edən dövlət məmurları da var ki, onları məsuliyyətdən yayındırmaq üçün min cür əməllərdən çıxırlar. Mən demişəm, burada oturanlar mənim mövqeyimi bilirlər. Bir adam da məsuliyyətdən qaça bilməz, xüsusilə dövlət məmuru. Böyük vəzifə sahibi məsuliyyətli olmalıdır. Biz hüquqi dövlətdə yaşayırıq. Cinayət törətmisənsə get cəzasını çək, vəssalam. Ona görə, bir daha demək istəyirəm ki, bu hadisə ilə bağlı konkret təkliflər verilməlidir. Bu gün bütün dövlət məmurlarına, bütün dövlət qurumlarında çalışanlara bir daha xəbərdarlıq edirəm ki, hər kəs qanuna əməl etməlidir, heç kim məsuliyyətdən qaça bilməyəcək. O cümlədən, bax, bu bədbəxt hadisənin səbəbkarları da mütləq məsuliyyətə cəlb ediləcəklər. Ədalət bərpa olunacaqdır.

# Zakir Bəkir oğlu Qaralov Azərbaycan Respublikasının Baş prokuroru təyin edilmişdir

**Azərbaycan Respublikası Milli Məclisinin Qərarı**

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Zakir Bəkir oğlu Qaralovun Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin 11-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Baş prokuroru vəzifəsinə təyin edilməsinə razılıq verilsin.

Oqtay Əsədov
Azərbaycan Respublikası Milli Məclisinin Sədri

Bakı şəhəri, 28 aprel 2015-ci il

**Z.B.Qaralovun Azərbaycan Respublikasının Baş prokuroru təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu bəndini rəhbər tutaraq qərara alıram:

Zakir Bəkir oğlu Qaralov Azərbaycan Respublikasının Baş prokuroru təyin edilsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 aprel 2015-ci il.

# Ulu öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü Baş Prokurorluqda qeyd edilmişdir

**Mayın 7-də Azərbaycan Respublikasının Baş Prokurorluğunda Azərbaycan dövlətinin qurucusu və memarı, xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş konfrans keçirilmişdir.**



Tədbir iştirakçıları əvvəlcə Baş Prokurorluğun inzibati binasının foyesində müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyevin büstü önünə əklil və gül dəstələri düzərək onun unudulmaz xatirəsini dərin ehtiramla yad etmişlər. Sonra dahi rəhbərin həyat və fəaliyyətini özündə əks etdirən fotoguşə nümayiş etdirilmişdir.

Mərasimdə ümummilli liderin şərəfli və mənalı ömür yolundan, zəngin dövlətçilik təcrübəsindən və misilsiz xidmətlərindən söz açılmış, dahi öndərin müəyyən etdiyi dövlət inkişafı kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə əldə edilmiş yüksək nailiyyətlər vurğulanmışdır.

Konfransda məruzə ilə çıxış edən Baş prokuror Zakir Qaralov diqqətə çatdırdı ki, müasir Azərbaycan tarixinin 30 ildən artıq bir dövründə respublikamıza rəhbərlik etmiş Heydər Əliyev dövlətçilik salnaməsində elə bir irs yaratmışdır ki, onun öyrənilməsinə, təbliğinə və tətbiqinə hələ uzun illər böyük ehtiyac olacaqdır və bu irs heç zaman tükənməyəcəkdir. Ulu öndərin müdrik dövlətçilik fəaliyyətinə xalqımız tərəfindən verilən yüksək qiymətin nəticəsidir ki, 1969-cu ildən başlayaraq 2003-cü ilə qədər davam edən zaman kəsiyi



“Azərbaycan tarixinin Heydər Əliyev dövrü” kimi səciyyələndirilir, ulu öndərimizin Azərbaycanda siyasi hakimiyyətə xilasedici qayıdışı – 1993-cü ilin 15 iyun günü “Azərbaycan xalqının Milli Qurtuluş günü” kimi hər il təntənə ilə qeyd edilir.

Bütün dünyada nüfuzlu siyasi xadim kimi tanınan Heydər Əliyev Sovetlər Birliyi kimi nəhəng dövlətin rəhbərliyində təmsil olunmaqla öz fitri istedadı və şəxsi nüfuzu ilə fərqlənmişdi. Heydər Əliyev görkəmli dövlət xadimi və müdrik siyasətçi kimi ən yüksək vəzifəyə çəkilməyə layiq bilinirdi. O, ilk azərbaycanlı idi ki, belə zirvəyə gəlib çıxmış, xalqına möhtəşəm xidmətləri ilə Azərbaycanın güvənc yerinə və bütün türk dünyasının fəxrinə çevrilmişdi. Hər zaman Azərbaycan xalqının mənafeyini düşünən Heydər Əliyev azərbaycanlı olması ilə fəxr edirdi. Dahi rəhbərin “Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam” müdrik kəlamı hər bir azərbaycanlının iftixarla səsləndirdiyi şüara çevrilmişdir.

Xüsusi qeyd edildi ki, müstəqilliyin ilk illərində ölkənin məruz qaldığı hərbi təcavüz, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ağır nəticələri, habelə ölkə daxilində vətəndaş müharibəsinin reallığa çevrildiyi bir şəraitdə xalqımızın yeganə ümidi dəmir iradəyə, yüksək idarəçilik keyfiyyətlərinə, geniş siyasi dünyagörüşünə malik xarizmatik lider olan Heydər Əliyevlə bağlı olmuşdur.

Xalqımız 20 Yanvar faciəsini yaşayarkən ümummilli liderimiz çoxlarının cürət etmədiyi qətiyyət göstərib Moskvada Sovetlər Birliyi rəhbərliyini ifşa etdi, imperiya siyasəti əleyhinə çıxdı, doğma xalqı ilə bir yerdə olduğunu bir daha nümayiş etdirdi.

Məhz belə bir mürəkkəb vəziyyətdə, 1993-cü ilin yayında ulu öndər xalqın çağırışı ilə respublika rəhbərliyinə qayıtdı. Xalqımızı və dövlətimizi böyük təhlükələrdən xilas etmək, müstəqil Azərbaycan dövlətini qurmaq missiyasına “ömrümün qalan hissəsini də xalqıma bağışlayıram” söyləməklə başlayan Heydər Əliyev nadir və iti dövlətçilik zəkası, cəsarəti və sarsılmaz iradəsi ilə Azərbaycanda keçmiş Sovetlər Birliyindən miras qalmış rejim əvəzinə demokratik-hüquqi dövlət yaratmağa müvəffəq oldu.

Bildirildi ki, müstəqilliyin qorunmasının onun əldə edilməsindən qat-qat çətin olduğunu deyən dahi rəhbər Heydər Əliyev bu ağır vəzifənin öhdəsindən layiqincə gəldi. Heydər Əliyev dövlət müstəqilliyimizi əbədi və dönməz etdi, ölkəmizə sabitlik, sülh və əmin-amanlıq, siyasi islahatlar, demokratikləşmə, iqtisadi yüksəliş, sosial inkişaf gətirdi. Ataşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, Azərbaycanı tənəzzül etmiş dövlətdən inkişaf edən ölkəyə çevirdi. Respublikamızın beynəlxalq əlaqələrini möhkəmləndirərək gələcək inkişafa hesablanmış neçə-neçə layihələrin, xüsusilə uğurlu neft strategiyasının təməlini qoydu. Düşünülmüş xarici siyasət kursu ölkəmiz üçün təkcə siyasi dəstək deyil, həm də iqtisadi əməkdaşlıq və investisiya imkanları yaratdı. Azərbaycanın günbəgün beynəlxalq nüfuzu artmağa, iqtisadiyyatın müxtəlif sahələrinə külli miqdarda xarici sərmayələr yatırılmağa başlanıldı.

Demokratik-hüquqi dövlət quruculuğu prosesi də tam ictimai-siyasi sabitlik bərqərar olunduqdan sonra həyata keçirildi. Ölkədə hüquqi dövləti qurmaq üçün ilk növbədə hakimiyyətlər bölgüsünə əsaslanan mükəmməl hüquq sistemi yaradıldı.

Zəngin dövlətçilik təcrübəsinə malik olan böyük strateq Heydər Əliyev isə hüquqi dövlətin Azərbaycan modelini ilk milli Konstitusiyanı yaratmaqla gerçəkləşdirdi.

Baş prokuror xüsusi vurğuladı ki, respublikada həyata keçirilən quruculuq fəaliyyəti sahəsində bütün məsələlərə önəm verən Heydər Əliyev Azərbaycan Prokurorluğunun inkişafında da müstəsna rolu olmaqla prokurorluq orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi, əməkdaşlarının sosial vəziyyətinin yaxşılaşdırılması məsələlərinə xüsusi qayğı ilə yanaşmışdır. Ulu öndər Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli Sərəncamına əsasən hər il oktyabr ayının 1-nin prokurorluq işçilərinin peşə bayramı günü kimi qeyd edilməsi prokurorluq işçilərinin fəaliyyətinin yüksək dəyərləndirilməsinin təzahürü olmuşdur.

Heydər Əliyevin 26 aprel 2000-ci il tarixdə prokurorluq orqanlarının rəhbər vəzifəli şəxsləri ilə keçirdiyi müşavirədə prokurorluğun fəaliyyətində əvvəllər mövcud olmuş nöqsanların aradan qaldırılmasına yönəlmiş göstərişlərin yerinə yetirilməsi ilə əlaqədar aparılmış hərtərəfli islahatlar nəticəsində bu gün Azərbaycan Prokurorluğu struktur və mahiyyət baxımından tam yenidən qurularaq beynəlxalq standartlara cavab verən, müasir tələblər səviyyəsində fəaliyyət göstərən mühüm dövlət təsisatına çevrilmişdir.

Azərbaycan Prokurorluğu dövlət səviyyəsində qayğı ilə əhatə olunmaqla, bu gün fəaliyyətinin hərtərəfli müasirləşməsi və təkmilləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi və əməkdaşların sosial müdafiəsinin gücləndirilməsi, yeni informasiya texnologiyalarının tətbiqi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. İxtisaslaşdırılmış qurum kimi Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin strukturunun təkmilləşdirilməsi və işçilərinin sayı artırılmaqla onların maddi təminatının yaxşılaşdırılması, bu quruma ilk dəfə olaraq əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyətlərinin verilməsi və digər əhəmiyyətli təşkilati tədbirlər prokurorluq orqanlarının fəaliyyətinin daha çevik qurulmasına zəmin yaratmışdır.

Azərbaycan Respublikası Prokurorluğunun müasir tələblər səviyyəsində təkmilləşdirilməsi istiqamətində görülən işlər sırasında Dövlət başçısı cənab İlham Əliyevin 27 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı”nın əhəmiyyəti xüsusi qeyd edilməlidir. Bu mühüm sənədin icrası üzrə prokurorluq orqanlarının fəaliyyətinin bütün sahələrini əhatə edən çoxsaylı və vacib əhəmiyyətli tədbirlər görülməklə müasirləşməyə nail olunmuşdur. Xüsusi olaraq qeyd edilməlidir ki, prokurorluğun strukturunun təkmilləşdirilməsi, normativ-hüquqi bazanın yeniləşdirilməsi və yeni informasiya texnologiyalarının hərtərəfli tətbiqi ilə yanaşı, ölkəmizdə uğurla davam etdirilən dövlət gənclər siyasətinin prokurorluq orqanlarında tətbiqinin real nəticəsi olaraq 2002-ci ildən etibarən işə qəbulla əlaqədar keçirilən müsabiqələr



nəticəsində prokurorluğun kadr korpusunun 54 faizinin gənclər hesabına komplektləşdirilməsi kimi böyük uğur əldə edilmişdir.

Qeyd edildi ki, möhkəm bünövrə üzərində formalaşmış Azərbaycan dövləti bu gün sürətli inkişaf dövrünü yaşayır. Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən düşünülmüş iqtisadi siyasət nəticəsində Azərbaycan bölgənin aparıcı dövlətinə çevrilmişdir. Azərbaycanın gələcək milli inkişaf siyasətinin əsas və uzunmüddətli perspektivlərini müəyyən edən "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası dahi rəhbərimizin milli inkişaf təliminin məntiqi davamı olaraq Azərbaycandakı bütün proseslərin uğurla həyata keçirilməsinə, makroiqtisadi sabitliyə, dinamik iqtisadi artıma, əhalinin sosial rifahının daha da yüksəldilməsinə hesablanmışdır.

Azərbaycan dünyada yüksək imicə malik olan ölkə kimi tanınır, dövlətimiz nüfuzlu beynəlxalq təşkilatlarda təmsil olunur, bu gün paytaxt Bakı və respublikamızın digər şəhərləri mötəbər beynəlxalq tədbirlərin keçirildiyi ideal məkandır.

Bildirildi ki, Heydər Əliyev idarəçiliyi məktəbinin bütün incəliklərini dərindən bilən cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti kimi ötən illər ərzində möhtəşəm fəaliyyəti, onun rəhbərliyi ilə Azərbaycan xalqının nail olduğu mühüm qələbələr, sürətli sosial-iqtisadi inkişaf, böyük quruculuq işləri, vətəndaşların sosial rifahının ilbəil daha da yaxşılaşması, insan hüquq və azadlıqlarının yüksək təminatla qorunması, beynəlxalq standartlara uyğun vətəndaş cəmiyyətinin qurulması, qanunun aliliyini təmin edən hüquqi dövlət quruculuğu prosesinin uğurla həyata keçirilməsi - bütün bunlar Azərbaycan dövlətinin bugünkü reallığı olmaqla ümumilli liderin xatirəsinə ən böyük hədiyyədir.

Əksər dünya ölkələrinin maliyyə böhranı vəziyyətinə düşməsi Azərbaycanın ümumi iqtisadi inkişafına təsir etməmiş, ölkənin dinamik inkişafı yüksək templərlə davam etmişdir ki, bu da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində qeyd olunduğu kimi, Azərbaycanın iqtisadi modelinin unikallığını və ölkənin seçdiyi inkişaf yolunun nə qədər düzgün olduğunu bir daha təsdiq etmişdir.

Azərbaycan bu gün dünya birliyinin etibarlı və dəyərli üzvü olmaqla ölkənin beynəlxalq mövqeyi güclənmiş, qlobal layihələrin həyata keçirilməsində əsas tərəfdaşlardan biri kimi çıxış edən respublikamız beynəlxalq iqtisadi-siyasi arenada aparıcı qüvvələrdən birinə, dünya miqyasında yüksək imicə malik olan dövlətə çevrilmişdir.

Qeyd edilənlərin məntiqi nəticəsidir ki, Avropanın tarixində ilk dəfə baş tutacaq möhtəşəm idman tədbiri olan "Bakı-2015" birinci Avropa Oyunları ölkəmizə həvalə edilmişdir. Belə bir beynəlxalq idman tədbirinin keçirilməsi üçün Azərbaycan Respublikasının seçilməsi onun öz inkişaf və sabitlik göstəricilərinə görə qitə ölkələri içərisində əlverişli yerlərdən birini tutmasından irəli gəlir. Bu da ölkəyə olan etibar və inamın təsdiqidir. Hərtərəfli düşünülmüş və uzaqgörən dövlət siyasətinin həyata keçirilməsi nəticəsində qazanılmış bu böyük etimad ölkənin davamlı və ardıcıl inkişafına, beynəlxalq standartlara cavab verən infrastruktura malik olmasına və stabilliyin mövcudluğu şəraitində hərtərəfli təhlükəsizliyin təmin olunmasına əsaslanır.

Çıxışının sonunda Baş prokuror Azərbaycan Prokurorluğunun kollektivi adından Prezident cənab İlham Əliyevi əmin etmişdir ki, xalqımızın ümummilli liderinin etimad və qayğısı sayəsində demokratik məzmunda yenidən formalaşmış milli prokurorluq orqanları bundan sonra da dövlət müstəqilliyimizin, ictimai-siyasi sabitlik və əmin-amanlığın hər cür cinayətkar qəsdlərdən qorunması işində həmişə ön sıralarda olacaqdır.

Sonda ulu öndərin xatirəsinə həsr olunmuş Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyəti tərəfindən hazırlanmış "Liderlik missiyası" sənədli filmi nümayiş etdirilmişdir.

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 92 illik yubileyinə həsr olunmuş tədbir keçirilmişdir

**Mayın 8-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 92 illik yubileyi münasibətilə tədbir keçirilmişdir. Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etmiş, sonra Heydər Əliyev Muzeyində olmuşlar.**

Tədbirdə Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev məruzə ilə çıxış edərək qeyd etdi ki, liderlik institutu hər zaman siyasətşünas və filosofların əsas müzakirə mövzularından biri olmuşdur. Bu fenomeni dərindən öyrənməyə çalışmış böyük mütəfəkkirlər bir-birindən maraqlı, dəyərli nəzəriyyələr yaratmışlar. Geniş fikir müxtəlifliyinə baxmayaraq, ümumi qənaət bundan ibarətdir ki, iqtisadi potensialından asılı olmayaraq, hər bir dövlətin hərtərəfli inkişafı milli lider amili ilə bilavasitə bağlıdır. Böyük mütəfəkkirlərin dediyi kimi hər bir xalqın gerçək potensialı yalnız fenomenal liderlik keyfiyyətlərini öz parlaq şəxsiyyətində yaşadan insanların dövlətçilik fəaliyyətində açıla bilər. Bu günün özündə də dünyanın bir çox nüfuzlu dövlətləri məhz fenomen liderlərinin müəyyənləşdirdiyi yolla irəliləyir, davamlı və sabit inkişafı bu uğur prizmasında təsəvvür edirlər. Azərbaycan xalqı tarixən arzularında yaşatdığı güclü, müdrik və ədalətli rəhbər idealını ötən əsrin ortalarında ümummilli lider Heydər Əliyevin parlaq şəxsiyyətində tapmışdır.

Qeyd olundu ki, 10 may günü Azərbaycan xalqının və dövlətinin taleyində hər zaman fəxrlə yad edilən bir gündür. Ona görə ki, xalqımızın ümummilli lideri, böyük dövlət xadimi, dahi siyasətçi, müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Heydər Əliyev 1923-cü ilin bu günündə dünyaya gəlmişdir. Bu gün müstəqil Azərbaycan dövlətinin memarı, bütün həyat və fəaliyyətini Azərbaycan dövlətinin inkişafına, xalqımızın xoşbəxt gələcəyinə həsr etmiş ümummilli lider Heydər Əliyevin dünyaya gəlişindən 92 il ötür.

XX əsr tariximizin ən böyük şəxsiyyəti kimi şərəfli ömür yolunu xalqının nicatına həsr etmiş ulu öndər Heydər Əliyev müasir Azərbaycan dövlətçiliyinin ideoloji-siyasi əsaslarını yaratmış, xalqı həqiqi müstəqilliyə qovuşduraraq ictimai şüurda əbədiyaşarlıq hüququ qazanmışdır. Tarixin ən çətin sınaqlarından keçməklə milli dövlətçilik ənənələrini məhz ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında qazanmış xalqımız eyni zamanda özünün davamlı inkişaf yolunu da müəyyənləşdirmişdir. Cəmiyyətin ən müxtəlif sahələrində nizam-intizamın, haqq-ədalətin təminatına çalışan ulu öndər Heydər Əliyev yalnız bu yolla dövlətlə xalq arasında möhkəm mənəvi, siyasi və hüquqi bağlantıya, qarşılıqlı etimada nail olmağı mümkün saymışdır. Dərin zəkası, liderlik qabiliyyəti, milli ideallara sıx bağlılığı, məharətli idarəçilik qabiliyyəti, zəngin mənaviyyatı ilə hər zaman xalqının sevimli şəxsiyyəti olmuş ulu öndər bu zirvəyə siyasi hakimiyyətə gəldiyi ilk gündən qanunsuzluğa, ədalətsizliyə qarşı apardığı prinsipial mübarizə ilə yüksələ bilmişdir.

Heydər Əliyevin ümummilli lider obrazı ilk növbədə, onun şəxsi keyfiyyətlərində özünü təcəssüm etdirir. Ümummilli liderin şəxsi keyfiyyətlərinin əsasını isə prinsipiallıq və siyasi iradə təşkil edir. Ulu öndərin dövlətçilik fəlsəfəsinin qayəsini təşkil edən mühüm məqamlardan biri də qanunun aliliyinin idarəetmə sisteminin əsas prinsiplərindən biri kimi təsbit edilməsi idi. Heydər Əliyev müdrik rəhbər olaraq hər bir fərdin azad, təhlükəsiz şəraitdə yaşaması naminə, ilk növbədə, respublikada qanunçuluğun və hüquq qaydalarının bərpasına nail oldu. Azərbaycanın

müstəqil dövlətə çevrilməsi və mükəmməl hüquqi bazaya söykənən idarəetmə sisteminin formalaşdırılması zəruri idi. Bu baxımdan 1993-cü ildən sonra Azərbaycanda aparılmış hüquqi islahatlar respublikada sabitliyin və inkişafın təməl prinsiplərinin müəyyənləşdirilməsini, ölkədə milli qanunçuluğun qəbul olunmasını təmin etdi.

Qeyd olundu ki, 1995-ci ilin 12 noyabrında Konstitusiyanın qəbulundan sonrakı mərhələdə ümummilli lider Heydər Əliyevin iradəsi ilə qəbul olunan saysız-hesabsız qanunların da kökündə məhz insan şəxsiyyətinə hörmət amili dayanır. Respublikada əfvetmə institutunun bərpası, ölüm cəzası üzərində moratoriumun qoyulması, 1998-ci ildə bu cəzanın birdəfəlik ləğvi, insan hüquqları üzrə müvəkkil (ombudsman) institutunun yaradılması, hüquq-mühafizə orqanlarında dövrün tələblərinə cavab verən mütərəqqi islahatların aparılması, bütün bunlar məhz ulu öndər Heydər Əliyevin qətiyyətli addımları sayəsində gerçəkliyə çevrildi. Ölkəmizdə aparılan məqsədyönlü hüquqi islahatlar sahəsində ulu öndər Heydər Əliyevin 1996-cı ilin iyun ayında imzaladığı "Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi haqqında" Sərəncamı mühüm əhəmiyyətə malikdir. Həmin sərəncama əsasən insan hüquqlarının müdafiəsi ilə əlaqədar Beynəlxalq standartlara tam cavab verən konstitusiya qanunları, cinayət, cinayət-prosessual, mülki, mülki-prosessual və digər məcəllələr, "Konstitusiya Məhkəməsi haqqında", "Prokurorluq haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Polis haqqında" və digər qanunlar qəbul edilmişdir.

Muxtar Respublika prokuroru qeyd etdi ki, yalnız 1993-cü ilin iyununda ulu öndər Heydər Əliyevin müstəqil dövlətimizin ali rəhbərliyinə qayıdışından sonra respublikamızda ictimai-siyasi sabitliyin, qanunçuluğun bərqərar edilməsi, milli dövlətçiliyin və ictimai təhlükəsizliyin qorunması istiqamətində atılan məqsədyönlü addımlar cəmiyyətdə qanunçuluğa hörmət prinsipinin bərpasına, cəmiyyətin cinayətkar ünsürlərdən təmizlənməsinə, güclü və səmərəli hüquq–mühafizə sisteminin formalaşmasına şərait yaratmşdır. Ulu öndər Heydər Əliyevin şəxsi iradəsi və siyasi uzaqgörənliyi nəticəsində Azərbaycan parçalanıb dağılmaq, müstəqilliyini itirmək və vətəndaş müharibəsi təhlükəsindən xilas olmuş, qısa müddət ərzində dövlət və hakimiyyət böhranına, xaos və anarxiyaya son qoyulmuş, torpaqlarımızın işğalı prosesinin qarşısını alan atəşkəs barədə razılaşma əldə edilmişdir. Çoxsaylı dövlət çevrilişi cəhdlərinin və terror aktlarının qarşısı qətiyyətlə alınmaqla sabitliyə nail olunmuş, insanların dinc yaşaması üçün təhlükə yaradan cinayətkarların hakimiyyətə meydan oxuması, qanunsuz silahlı birləşmələrin mövcudluğu kimi mənfi təzahürlər aradan qaldırılmaqla kriminogen durum stabilləşdirilmişdir.

Qanunçuluğun qorunmasını özünün başlıca fəaliyyət prinsiplərindən biri elan etmiş Heydər Əliyev hər bir fərdin maraq və mənafelərini təmin etmədən, ədalət meyarını qorumadan güclü dövlət yaratmağın mümkünsüzlüyünü çıxışlarında hər zaman vurğulamış, vətəndaşlara göstərilən hüquqi yardımın səviyyəsinin yaxşılaşdırılması təşəbbüsü ilə çıxış etmişdir. Onun qətiyyətli rəhbərliyi altında dövlət–vətəndaş münasibətlərinin hüquq müstəvisində tənzimləndiyi, insan hüquq və azadlıqlarının yüksək səviyyədə qorunduğu, humanizm ideyalarının möhkəm təmələ çevrildiyi sivil cəmiyyət formalaşdırılmış, dövlət idarəçiliyi demokratikləşdirilmişdir. Özünəməxsus şərəfli tarixi keçmişi, qanunların icrasına ümumi nəzarət, cinayətkarlığa qarşı mübarizə, vətəndaşların hüquq və azadlıqlarının qorunması sahəsində zəngin ənənələri olan Azərbaycan prokurorluğunun fəaliyyəti də siyasi hakimiyyətdə olduğu bütün dövrlərdə ulu öndərimizin diqqət və qayğısı ilə əhatə olunmuşdur. Məhz onun məqsədyönlü fəaliyyəti və həyata keçirdiyi islahatlar nəticəsində Azərbaycanda milli prokurorluq orqanları qanunçuluğun aliliyini təmin edən mükəmməl bir dövlət təsisatı kimi demokratik məzmunda yenidən formalaşmış və inkişaf etmişdir.

Bu gün Azərbaycan xalqı ona görə xoşbəxtdir ki, ulu öndərimizin milli maraqlara əsaslanmaqla həyata keçirdiyi çoxşaxəli siyasət strategiyası onun layiqli varisi-Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev tərəfindən uğur və inamla davam etdirilir. Mütərəqqi idarəçilik prinsipləri, demokratik, dünyəvi və hüquqi dövlət quruculuğunun davam etdirilməsi sahəsində qlobal işlər görmüş cənab İlham Əliyev cəmiyyətdə böyük nüfuz sahibinə çevrilmişdir. Azərbaycanın bu günkü və gələcək nəsillərinin ulu öndər Heydər Əliyevin şərəfli adı və ölməz ruhu qarşısında müqəddəs borcu onun şah əsəri olan müstəqil Azərbaycan dövlətinin daha da çiçəklənməsi və qüdrətlənməsi, xalqımızın rifahı naminə fədakarlıqla çalışmaq və milli birliyimizə sədaqətlə xidmət göstərməkdir.

Muxtar respublika prokuroru sonda əminliklə ifadə etdi ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin etimad və qayğısı nəticəsində demokratik məzmunda tamamilə yenidən formalaşmış Azərbaycan Prokurorluğunun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollektivi ulu öndər Heydər Əliyev siyasi kursunun davam etdirilməsində, onun əbədiliyi və daimiliyi üçün bütün təminatlar yaratdığı dövlət müstəqilliyimizin, ictimai-siyasi sabitlik və əmin-amanlığın hər cür cinayətkar qəsdlərdən qorunmasınada bu kursun ən layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən dövlətçilik tədbirlərində həmişə yaxından iştirak edəcəkdir.

Tədbirdə çıxış edənlər ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasının tərəqqisi naminə gördüyü möhtəşəm işlərdən danışdılar.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun**
**Hüquqi təminat və informasiya şöbəsi**

# Azərbaycan Respublikasının Beynəlxalq Prokurorlar Assosiasiyasının fəaliyyətinə verdiyi töhfələr və görülən işlər yüksək qiymətləndirilmişdir

**Aprelin 30-da Baş prokuror Zakir Qaralov ölkəmizdə səfərdə olan Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) icraçı direktoru xanım Yanne Holst Hübner və Britaniya Kral Prokurorluq Xidmətinin rəis müavini, Beynəlxalq Prokurorlar Assosiasiyasının üzvü Gari Balçla görüşmüşdür.**



Tədbirdə Baş prokuror Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurla həyata keçirilən demokratik islahatlar və əldə olunan nailiyyətlərin müstəqil respublikamı-

zın nüfuzunun ciddi şəkildə artması, beynəlxalq təşkilatların dövlətimizlə əməkdaşlığa marağının daha da güclənməsi, həmçinin ölkəmizin bir çox mötəbər qurumların, o cümlədən BMT-nin İqtisadi və Sosial Şurasında məşvərətçi statusa malik olan və 100-dən çox dövləti özündə birləşdirən Beynəlxalq Prokurorlar Assosiasiyası ilə səmərəli əməkdaşlıq edərək bu əməkdaşlığın dinamik inkişaf etdiyini xüsusi qeyd etmiş və uzun illər təşkilatın rəhbər orqanı olan İcraiyyə Komitəsində təmsil olunmalarını qurumun Azərbaycan Respublikası ilə əməkdaşlığına verilən yüksək qiymət kimi dəyərləndirmişdir.

Məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluğun fəaliyyəti üçün zəruri normativ-hüquqi bazanın yaradılması, prokurorluq orqanlarının fəaliyyətinin hərtərəfli müasirləşdirilməsi, kadr korpusunun tamamilə yenidən formalaşdırılması istiqamətində aparılan köklü islahatlar, informasiya-kommunikasiya texnologiyalarının son nailiyyətlərinin prokurorluq orqanlarında tətbiqi, korrupsiya ilə mübarizə sahəsində həyata keçirilən konkret tədbirlər barədə ətraflı məlumat verən Baş prokuror ölkəmizin BPA-nın yarandığı vaxtdan fəal əməkdaşlıq etdiyini, cinayətkarlığa qarşı mübarizədə və cinayət işləri üzrə hüquqi yardımın göstərilməsində Assosiasiyanın əhəmiyyətli rolunu xüsusi vurğulamış, ikitərəfli əlaqələrin inkişafından məmnunluğunu bildirmişdir.

Təmsil olunduqları qurumla Azərbaycan Prokurorluğu arasında sıx əməkdaşlıqdan məmnunluğunu ifadə edən qonaqlar Azərbaycanın Beynəlxalq Prokurorlar Assosiasiyasında təmsilçiliyinin fəallığı və təşəbbüskarlığı, qurumun fəaliyyətinə verdiyi mühüm töhfələr və görülən digər səmərəli tədbirləri yüksək qiymətləndirmişlər.

Ölkə həyatının bütün sahələrində, o cümlədən korrupsiyaya qarşı mübarizə sahəsində respublikamızda həyata keçirilən tədbirlərin əhəmiyyəti nəzərə alınaraq quruma üzv dövlətlərin ədliyyə, prokurorluq və digər hüquq mühafizə orqanlarının rəhbərləri ilə işgüzar görüşlərin keçirilməsi və təcrübə mübadiləsinin davam etdirilməsinin vacibliyi xüsusi vurğulanmışdır. Görüşdə hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılmış, qarşılıqlı səmərəli fəaliyyətin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə olunmuşdur.

Ölkəmizə səfəri çərçivəsində qonaqlar Bakının görməli yerləri ilə tanış oldular. Paytaxtın müasir görünüşü onlarda xoş təəssürat və böyük maraq doğurdu.

Məhkəmə və prokurorluq orqanlarının infrastrukturunun müasirləşdirilməsi istiqamətində aparılan işlərlə tanışlıq çərçivəsində qonaqlar Quba rayon məhkəməsi və prokurorluğunun inzibati binaları ilə tanış olmuş, məhkəmə fəaliyyətinin təkmilləşdilməsi üzrə aparılan genişmiqyaslı islahatları, hüquq mühafizə orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində görülmüş işləri və əməkdaşlar üçün yaradılmış şəraiti yüksək qiymətləndirərək ölkə rəhbərliyi tərəfindən bu istiqamətdə aparılan tədbirlərdən məmnunluqlarını ifadə etmişlər.

Səfərin sonunda qonaqlar 4 saylı Bakı "ASAN xidmət" mərkəzinə gələrək mərkəzin fəaliyyəti və vətəndaşlara göstərilən xidmət növləri ilə ətraflı tanış olmuşdur. Dövlət orqanlarının hüquqi xidmətlər göstərməsində vətəndaşların razı salınmasına, şəffaflığın təmin edilməsinə, korrupsiya hallarının istisna olunmasına, müasir texnologiyaların tətbiqinə, dövlət məmuru-vətəndaş təmas nöqtələrinin minimuma endirilməsinə istiqamətlənmiş mərkəzlərin fəaliyyəti təqdirəlayiq hesab edilmişdir.

**Baş Prokurorluğun**
**Mətbuat Xidməti**

# Prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə baxılması işi daim diqqət mərkəzindədir



**Baş prokuror Ağdaşda vətəndaşları qəbul etmişdir**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşların qəbulu davam etdirilir.

Baş prokuror Zakir Qaralov aprelin 24-də Ağdaş rayon prokurorluğunun inzibati binasında Mingəçevir şəhəri, Yevlax, Bərdə, Ağdaş, Ucar və Zərdab rayonlarından olan vətəndaşları qəbul etmişdir.

Qəbuldan əvvəl Baş prokuror və Ağdaş rayon İcra Hakimiyyətinin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad etmişlər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Baş prokuror bölgədə yaşayan 20 vətəndaşın müraciətlərində qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər vermişdir.

Vətəndaşların ərizə və şikayətlərində qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapmış, eyni zamanda prokurorluğun fəaliyyətinə aid olmayan digər məsələlərlə bağlı müraciətlərin araşdırılması üçün aidiyyəti üzrə göndərilməsi təmin olunmuşdur.

Vətəndaşlar bölgə sakinlərinin yerlərdə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident cənab İlham Əliyevə minnətdarlıqlarını ifadə etmişlər.

## Baş prokuror vətəndaşları on-line rejimində qəbul etmişdir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstəriş və tövsiyələrinə müvafiq olaraq vətəndaşların qəbulu, onların müraciətlərinə vaxtında baxılması və haqlı tələblərinin təmin edilməsi dövlət qurumlarının əsas vəzifələrindən biri kimi müəyyənləşdirilmişdir.

Mayın 15-də Baş prokuror Zakir Qaralov Baş Prokurorluğun inzibati binasında Quba rayon prokurorluğu ilə canlı bağlantı vasitəsilə Quba, Qusar və Xaçmaz rayon sakinlərinin müvafiq tabe rayon prokurorlarının iştirakı ilə qəbulunu keçirmişdir.

Baş Prokurorluğun məsul əməkdaşlarının iştirakı ilə keçirilən qəbulda 20-yə yaxın vətəndaşın şikayəti dinlənilmişdir. Müraciətlərdə qaldırılan məsələlər nəzarətə götürülməklə, həmin şikayətlər üzrə qəbul olunmuş qərarların qanuniliyinin yoxlanılması, bu məqsədlə yoxlama materialları və cinayət işlərinin Baş Prokurorluqda öyrənilməsi, habelə bəzi şikayətlərin müraciət müəlliflərinin iştirakı ilə müzakirə edilərək qanunauyğun və operativ şəkildə həlli üçün müvafiq struktur qurumların rəhbərlərinə və tabe rayon prokurorlarına konkret göstərişlər verilmişdir.

## Baş prokuror Masallı şəhərində vətəndaşları qəbul etmişdir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması, bu zaman ədalət prinsipinin tam təmin olunması ilə bağlı tapşırıqları Baş Prokurorluq tərəfindən daim diqqətdə saxlanılır və bu məqsədlə vətəndaşların bölgələrdə qəbulu davam etdirilir.

Baş prokuror Zakir Qaralov iyunun 19-da Masallı rayon prokurorluğunun inzibati binasında Masallı, Lənkəran, Lerik, Astara və Yardımlı rayonlarından olan vətəndaşları qəbul etmişdir.

Qəbuldan əvvəl Baş prokuror və Masallı rayon İcra Hakimiyyətinin başçısı ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək, ulu öndərin əziz xatirəsini dərin ehtiramla yad etmişlər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Baş prokuror bölgədə yaşayan 50-yə yaxın vətəndaşın müraciətlərində qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlər üzrə onların qanunauyğun və operativ şəkildə həlli üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verilmişdir.

Gün ərzində Baş prokuror tərəfindən qəbul edilən vətəndaşların müraciətlərinin böyük əksəriyyəti elə yerindəcə öz həllini tapmışdır.

Vətəndaşların ərizə və şikayətlərində qaldırılan məsələlərin, o cümlədən konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları ilə əlaqədar və sosial problemlərə aid müraciətlərin bilavasitə prokurorluqda və ya aidiyyəti üzrə müvafiq icra orqanlarında operativ həlli üçün təxirəsalınmaz zəruri tədbirlərin görülməsi təmin edilmişdir.

Bölgə sakinlərinin yerlərdə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edən vətəndaşlar göstərilən diqqət və qayğıya görə Prezident cənab İlham Əliyevə minnətdarlıqlarını ifadə etmişlər.

**Baş Prokurorluğun**
**Mətbuat Xidməti**



# Bakıda Məhkəmə-Hüquq Şurasının 10 illiyinə həsr olunan beynəlxalq konfrans keçirilib






Mayın 22-də Bakıda Məhkəmə-Hüquq Şurasının fəaliyyətinin 10 illiyinə həsr olunan “Demokratik cəmiyyətdə məhkəmə hakimiyyətinin rolu” mövzusunda beynəlxalq konfrans keçirilib.

Konfrans iştirakçıları əvvəlcə Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin xatirəsini yad edərək məzarı önünə gül dəstələri qoyublar. Akademik Zərifə xanım Əliyevanın da məzarı önünə tər çiçəklər düzülüb.



Sonra Şəhidlər xiyabanında Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsi anılıb.







İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin hakimlərinin, Avropa Şurasının Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) rəhbərliyinin, Türkiyə Hakimlər və Prokurorlar Ali Şurasının, Ali Məhkəməsinin, Ali Baş Prokurorluğunun və Ədliyyə Akademiyasının yüksək səviyyəli nümayəndələrinin iştirak etdikləri tədbirdə Məhkəmə-Hüquq Şurasının fəaliyyəti ilə bağlı qısametrajlı sənədli film nümayiş etdirilib.





Konfransı açan Məhkəmə-Hüquq Şurasının sədri, ədliyyə naziri Fikrət Məmmədov "Məhkəmə-Hüquq Şurasının yaradılması Azərbaycanda hüquqi islahatların bəhrəsidir" mövzusunda məruzə ilə çıxış edib.

Fikrət Məmmədov deyib ki, Azərbaycan üçün demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunu seçmiş ümummilli lider Heydər Əliyev ölkəmizdə müstəqil məhkəmə hakimiyyətinin formalaşmasına mühüm əhəmiyyət verib. Ulu Öndərin müəllifliyi ilə 1995-ci ildə qəbul edilmiş ilk Konstitusiyamız islahatların başlanmasına əsas olub. Keçmiş Sovet İttifaqından miras qalmış məhkəmə və hüquq sistemi qısa müddət ərzində demokratik prinsiplər əsasında tamamilə yenidən qurulub.

Ölkəmizdə hakimlərin seçiminin təşkili üçün yeni qurumun təsisi bugünkü Məhkəmə-Hüquq Şurasının əsasını qoyub və ulu öndər həm də məhkəmə hakimiyyətinin gələcək inkişaf strategiyasını müəyyən edib.

Qeyd edilib ki, Ümummilli Liderin dövlətçilik kursunu əzmlə davam etdirən Prezident İlham Əliyevin məhkəmə sisteminin müasirləşdirilməsi ilə bağlı tapşırıqlarına əsasən 2004-cü ildə Avropa Şurası ilə birgə işçi qrupları yaradılaraq qanunvericilik ətraflı tədqiq edilib və onun Avropa standartlarına tam uyğunlaşdırılması işinə başlanılıb. Aparılmış təhlillər nəticəsində Azərbaycanda yeni qurum - məhkəmə hakimiyyətinin müstəqil özünüidarə orqanının yaradılması qənaətinə gəlinib. Bu barədə Avropa Şurasında ekspertizadan keçirilmiş qanunvericilik layihələri Prezident tərəfindən dəstəklənib və qanunvericilik təşəbbüsü əsasında qəbul olunub. Bununla da Avropada ən mütərəqqi təcrübələrə əsaslanan, hakimiyyətin heç bir qoluna tabeliyi olmayan, tam müstəqil bir orqan kimi Məhkəmə-Hüquq Şurası yaradılıb.

Diqqətə çatdırılıb ki, 2005-ci ildən fəaliyyətə başlamış Məhkəmə-Hüquq Şurasının 15 nəfər üzvündən 9-nun bütün məhkəmə instansiyalarını təmsil edən hakimlər olması, Şurada bərabər səs hüququ ilə Prezidentin, Milli Məclisin, prokurorluğun, Ədliyyə Nazirliyinin, Vəkillər Kollegiyasının nümayəndələrinin təmsil olunması onun fəaliyyətinin və qərarlarının hərtərəfli və dolğun olmasını şərtləndirib. Ötən 10 il ərzində Şura tərəfindən məhkəmə sisteminin müasirləşdirilməsi, hakimlərin fəaliyyətinin qiymətləndirilməsi və tədrisinin müasir tələblər səviyyəsində təşkili, qanun pozuntusu, süründürməçilik və digər mənfi halların aradan qaldırılması üzrə ardıcıl tədbirlər görülüb, 100-dək iclasda 400-dən artıq təşkilati məsələyə baxılıb, hakimlərin təyinatı, iş yerinin dəyişdirilməsi və səlahiyyətlərinə xitam verilməsi ilə əlaqədar 1200-dək məsələ həllini tapıb. İşini şəffaf prinsiplər əsasında quran Şuranın iclaslarına media təmsilçilərinin və ictimaiyyətin nümayəndələrinin dəvət olunması təcrübəsi yaradılıb.

İnsanlara məhkəməyə müraciət üçün əlverişli şərait yaradılmasının ədalət mühakiməsinin səmərəliliyinin artırılması istiqamətində ən mühüm addımlardan biri olduğunu söyləyən Fikrət Məmmədov bu mənada Prezidentin 2006-cı ildə imzaladığı Fərmanla ölkəmizdə yeni regional məhkəmələrin yaradılmasını xüsusi qeyd edib. Bildirib ki, Bakı şəhərində yerləşən və respublika üzrə vahid olan apelyasiya və iqtisad məhkəmələrinə müraciətlərin çətinliklər yaratması nəzərə alınaraq, ölkənin bütün bölgələrini əhatə edən 6 regional apelyasiya, habelə regionlarda əlavə olaraq 3 yerli iqtisad məhkəməsi təşkil edilib. Dövlətimizin başçısının fərmanlarına əsasən 2010-cu ildə vahid ağır cinayətlər məhkəməsinin əvəzində yeni regional ağır cinayət məhkəmələri yaradılaraq onların sayı 5-ə çatdırılıb. Heç şübhəsiz, məhkəmə-hüquq sisteminin inkişafında ən mühüm hadisələrdən biri ölkəmizdə ilk dəfə olaraq inzibati ədliyyə institutunun yaradılmasıdır. 2011-ci ildən respublikanın 7 bölgəsində insan haqlarının müdafiəsində mühüm rolu olan yeni inzibati məhkəmələr fəaliyyətə başlayıb. Görülən bütün tədbirlər insanların məhkəmələrə müraciət imkanlarının genişlənməsinə, hakimlərin iş yükünün, süründürməçilik və s. pozuntuların azalmasına şərait yaradıb, bölgələrdə digər hüquq institutlarının inkişafına təkan verib.

"Məhkəmə hakimiyyətinin nüfuzu və etibarı hakimlərin insanlarla rəftarından, etik davranışından çox asılıdır", - deyən nazir buna görə də Məhkəmə-Hüquq Şurasının Hakimlərin Etik Davranış Kodeksinin hazırlanmasına xüsusi əhəmiyyət verdiyini deyib. Əlavə edib ki, bu məqsədlə Azərbaycan-Avropa Şurası birgə ekspert qrupu yaradılıb, qabaqcıl təcrübəyə,

o cümlədən BMT-nin “Hakimlərin davranışı üzrə Banqalor Prinsipləri”nə əsasən Hakimlərin Etik Davranış Kodeksi hazırlanaraq Şura tərəfindən qəbul edilib.

Diqqətə çatdırılıb ki, ötən dövr ərzində Şura tərəfindən hakimlər barədə 192 intizam icraatı başlanılıb, kobud pozuntulara yol verdiklərinə və fəaliyyətlərinin qiymətləndirilməsi nəticələrinə görə 70-dən çox hakim məhkəmə sistemindən kənarlaşdırılıb. Həmçinin dövlətimizin başçısının korrupsiya ilə qəti mübarizənin aparılmasına dair tapşırıqları daim diqqət mərkəzində saxlanaraq, Şurada Korrupsiyaya qarşı mübarizə sektoru yaradılıb. Aşkar edilmiş korrupsiya hüquqpozmalarına görə 25 hakim intizam məsuliyyətinə cəlb edilib, o cümlədən onlardan 6 nəfərinin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilib, 4 nəfər aşağı vəzifəyə keçirilib. Məhkəmə sisteminin hakim adına layiq olmayan şəxslərdən təmizlənməsi onları əvəzləyəcək yüksək biliyə və mənəvi keyfiyyətlərə malik gənc hüquqşünasların seçimi prosesi ilə paralel həyata keçirilib. Çoxmərhələli imtahan və müsahibələrdən, habelə uzunmüddətli kurs və təcrübədən ibarət olan seçim proseduru müstəqil qurum - Hakimlərin Seçki Komitəsi tərəfindən həyata keçirilir. Komitə üzvlərinin yarıdan çoxunun yüksək məhkəmələrin hakimi olması, habelə Şuranın Aparatının, prokurorluğun, Ədliyyə Nazirliyinin, vəkilliyin və hüquqşünas-alimin bu qurumda təmsil olunması peşəkar hakim seçimini şərtləndirib. İmtahanlarda yüksək şəffaflıq və obyektivlik, o cümlədən prosesin bütün mərhələlərinin KİV nümayəndələrinin qarşısında keçirilməsi və internetdə canlı yayımlanması nüfuzlu beynəlxalq təsisatların da diqqətini cəlb edib. Avropa Şurasının Ədalət mühakiməsinin səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ), Avropa İttifaqının və digər beynəlxalq qurumların Azərbaycanda hakimliyə namizədlərin seçimini örnək kimi qiymətləndirməsi ölkəmizin böyük uğurudur. Bu qaydalar əsasında keçirilən müsabiqələrdə iştirak etmiş 2600-dən çox hüquqşünasdan 307 nəfər seçilərək hakim vəzifəsinə təyin edilib. Faktiki olaraq, Ali Məhkəmə hakimlərinin sayı 2005-ci illə müqayisədə 50 faiz, apellyasiya instansiyası və Bakı şəhərinin rayon məhkəməsi hakimlərinin sayı isə iki dəfədən çox artırılıb. Hazırda hakim korpusunun 60 faizə qədərini, o cümlədən Bakı şəhəri üzrə 90 faizini yeni qaydalarla seçilmiş gənc nəsil hakimlər təşkil edir. CEPEJ, həmçinin ölkəmizdə məhkəmə sisteminin inkişafına və müasirləşdirilməsinə qoyulan sərmayələrə və qabaqcıl təcrübələrin tətbiqinə görə Azərbaycanı öncül ölkə kimi qiymətləndirib. Görülən ardıcıl tədbirlərin və insanların etimadının nəticəsidir ki, məhkəmələrə daxil olan iddiaların sayı ilbəil, o cümlədən 2000-ci illə müqayisədə 10 dəfəyədək artıb. Təkcə 2014-cü ildə isə mülki xarakterli işlərin sayı 40 faiz artaraq 250 mini ötüb.

Şuranın sədri bildirib ki, ötən dövrdə məhkəmə fəaliyyətinin təkmilləşdirilməsində hakimlərlə tədris prosesinə, xüsusilə insan hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsinə mühüm əhəmiyyət verilib. Avropa Şurası ilə əməkdaşlıq çərçivəsində ayrıca təlimlər, Ali Məhkəmədə hər həftə xüsusi seminarlar keçirilir. Hakimlərimizin Avropa Məhkəməsinə mütəmadi səfəri təşkil olunur, onlar məhkəmənin fəaliyyəti ilə tanış olaraq dinləmələrdə bilavasitə iştirak edirlər. Həmçinin Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi və tətbiqinə xüsusi önəm verən Azərbaycan Prezidentinin təşəbbüsü ilə ölkəmizin hakiminin məhkəmədə 1 il müddətinə staj keçməsi təşkil edilib.

Şuranın iclaslarında müxtəlif qanunvericilik layihələri dəfələrlə müzakirə edilib, məhkəmə fəaliyyətini tənzimləyən qanunvericiliyə 50-dək, o cümlədən “Məhkəmə-Hüquq Şurası haqqında” Qanuna 11 dəfə mütərəqqi dəyişikliklər edilib. Məhkəmə-Hüquq Şurasının məhkəmə hakimiyyətinin özünüidarə orqanı kimi səlahiyyətləri genişləndirilib, o cümlədən hakimlərin müstəqilliyinin təmini və fəaliyyətinə kənar müdaxilələrin qarşısının alınması, hakim ştatlarının məhkəmələr üzrə bölüşdürülməsi Şuraya həvalə edilib.

Qarşıda duran vəzifələrdən danışan nazir deyib ki, ən mühüm vəzifələrdən biri məhkəmə fəaliyyətində texnoloji yeniliklərin tətbiqidir. Dövlətimizin başçısının “Elektron məhkəmə” informasiya sisteminin yaradılması haqqında” 2014-cü il 13 fevral tarixli Sərəncamı bu sahədə strateji prioritetləri müəyyən edib. Bu sistemin yaradılması məhkəməyə müraciət imkanlarının daha da genişlənməsinə, süründürməçilik və sui-istifadə hallarının qarşısının alınmasına, şəffaflıq və operativliyin, elektron kargüzarlığın və sənəd dövriyyəsinin təmin olunmasına xidmət edəcək.

Məhkəmə sisteminin fəaliyyətinin təkmilləşdirilməsi üzrə görülən tədbirlərin Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən hərtərəfli islahatların, iqtisadi, sosial və digər sahələrdə müşahidə olunan sürətli inkişafın məntiqi davamı olduğunu deyən Fikrət Məmmədov vurğulayıb ki, ölkə başçısının Məhkəmə-Hüquq Şurası və Hakimlərin Seçki Komitəsinin fəaliyyətində fərqlənən bir qrup şəxsləri yüksək dövlət təltiflərinə və fəxri adlara layiq bilməsi hər birimizi daha məsuliyyətlə və əzmlə çalışmağa sövq edir.

Şuranın on illik yubileyi münasibətilə dövlətimizin başçısı İlham Əliyevin konfrans iştirakçılarına təbriklərini çatdıran Prezident Administrasiyasının hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri, Məhkəmə-Hüquq Şurasının üzvü Fuad Ələsgərov “Məhkəmə-Hüquq Şurasının məhkəmə sisteminin fəaliyyətinin təmin edilməsində rolu” mövzusunda məruzə ilə çıxış edib.




Fuad Ələsgərov dövlətimizin başçısının Azərbaycanda ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə başlanmış məhkəmə-hüquq islahatlarının davam etdirilməsinə, məhkəmə sisteminin təkmilləşdirilməsinə və müasirləşməsinə böyük önəm verdiyini vurğulayıb. Diqqətə çatdırıb ki, bu islahatların həyata keçirilməsi prosesində inkişaf etmiş dövlətlərin təcrübəsi, ümumbəşəri demokratik prinsiplər, eyni zamanda, xalqımızın dövlətçilik tarixi, ənənələri rəhbər tutulur. Məhz bunun nəticəsində biz hüquqi dövlət quruculuğu işində böyük uğurlar əldə etmişik.

Prezident Administrasiyasının rəsmisi on il bundan əvvəl Məhkəmə-Hüquq Şurasının yaradılmasının ölkəmizdə həyata keçirilən hüquq islahatlarının tərkib

hissəsi olmaqla məhkəmə sisteminin inkişafına böyük töhfə verdiyini bildirib. Qeyd edib ki, ötən illər ərzində Məhkəmə-Hüquq Şurası məhkəmələrin fəaliyyətinin təmin olunmasında böyük rol oynayıb. Bu rol bu gün də artmaqdadır. Məhkəmə-Hüquq Şurası haqqında qanunvericiliyə son illər ərzində edilmiş dəyişikliklər bu qurumun məhkəmə hakimiyyətinin özünüidarəetmə funksiyalarının həyata keçirilməsi ilə bağlı səlahiyyətlərini daha da genişləndirib. Nəticədə Şura məhkəmələr və hakimlərlə bağlı məsələlərin səmərəli həlli üçün əlavə hüquqi vasitələr əldə edib.

Fuad Ələsgərov Məhkəmə-Hüquq Şurasının öz fəaliyyətini ilk növbədə müstəqillik, qanunçuluq, şəffaflıq, yaxşı idarəçilik, qərəzsizlik və obyektivlik prinsipləri əsasında qurduğunu və bunun nəticəsində cəmiyyətimizdə nüfuz qazandığını bildirib. Vurğulayıb ki, Şuranın müxtəlif hakim vəzifələrinə təyin edilməsi üçün Azərbaycan Prezidentinə təklif etdiyi namizədlərin təsdiq olunması dövlətimizin başçısının Hakimlərin Seçki Komitəsinin və Məhkəmə-Hüquq Şurasının işinə etimadının göstəricisidir.

Şöbə müdiri bildirib ki, görülmüş işləri yüksək dəyərləndirən Prezident İlham Əliyev 2015-ci il 19 may tarixli sərəncamları ilə Məhkəmə-Hüquq Şurası və Hakimlərin Seçki Komitəsinin fəaliyyətdə olan və sabiq üzvlərinin bir qrupunu "Vətənə xidmətə görə" ordeni, "Tərəqqi" medalı ilə təltif edib. Məhkəmə-Hüquq Şurasının və Hakimlərin Seçki Komitəsinin iki üzvünə isə "Əməkdar hüquqşünas" fəxri adı verib.

Fuad Ələsgərov deyib ki, Azərbaycan Prezidentinin Məhkəmə-Hüquq Şurasına göstərdiyi dəstək səmərəli və ədalətli məhkəmə sisteminin bu günün ən mühüm tələblərindən biri olması ilə bağlıdır. Məhkəmələrin qəbul etdiyi qərarlar cəmiyyətimizin həyatının bir çox sahələrinə təsir göstərir. Bu baxımdan hakim korpusunun formalaşmasında, hakimlərin yüksək peşə hazırlığının və intizamının təmin edilməsində əsas rol oynayan Məhkəmə-Hüquq Şurasının üzvləri üzərinə düşən böyük məsuliyyəti hiss etməli və vəzifələrinin icrasına prinsipial yanaşmalıdırlar.

Prezident Administrasiyasının rəsmisi Məhkəmə-Hüquq Şurası üzvlərinin bu işin öhdəsindən layiqincə gələcəklərinə və Azərbaycanda məhkəmə sisteminin təkmilləşdirilməsi üzrə fəaliyyətlərində yeni nailiyyətlər əldə edəcəklərinə əminliyini vurğulayıb.



Ali Məhkəmənin sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Ramiz Rzayev "Azərbaycanda məhkəmə fəaliyyətinin təkmilləşdirilməsinin perspektivləri" mövzusunda məruzə ilə çıxış edərək bildirib ki, məhkəmə-hüquq islahatlarının həyata keçirilməsi zamanı görülmüş ən önəmli işlərdən biri də heç şübhəsiz ki, Məhkəmə-Hüquq Şurasının yaradılması olub. Əminliklə qeyd etmək olar ki, son 10 il ərzində məhkəmə sahəsində köklü islahatların həyata keçirilməsinə Məhkəmə-Hüquq Şurası bir qurum olaraq mühüm töhfələr verib.

Ədalət mühakiməsinin düzgün həyata keçirilməsinə nail olmaq üçün bir-biri ilə sıx bağlı olan kompleks işlərin görülməsinin tələb edildiyini deyən Ali Məhkəmənin sədri vurğulayıb ki, buraya ilk növbədə qanunvericiliyin təkmilləşdirilməsinə yönəlmiş tədbirlər aiddir. Prezident İlham Əliyev tərəfindən keçən il "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında müvafiq Sərəncamın imzalandığını xatırladan Ramiz Rzayev Ali Məhkəmədə artıq müasir İT sistemindən asılı olan daxili şəbəkənin yaradıldığını və bunun vasitəsilə sənədlərin sürətli dövriyyəsinin həyata keçirildiyini söyləyib. O vurğulayıb ki, "Elektron məhkəmə" Azərbaycan məhkəmələrinin gələcəyidir.

Ramiz Rzayev deyib: "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasının müddəalarının və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun tətbiqi bizim üçün həmişə prioritet məsələ olub. Ali Məhkəmə tərəfindən konvensiyanın və Avropa Məhkəməsinin presedent hüququnun milli məhkəmələr tərəfindən tətbiqi təcrübəsinə dair xüsusi plenum qərarı qəbul edilib. Həmin qərar milli məhkəmələrdə presedent hüququnun öyrədilməsi və baxılan işlərin tətbiqi sahəsində mühüm rol oynayıb. Müsbət haldır ki, son zamanlar məhkəmə qərarlarının tərtibat keyfiyyəti yüksəlib, qərarların əsaslandırılması zamanı daxili qanunvericiliklə yanaşı, beynəlxalq konvensiyaların normalarına, insan hüquqları üzrə Avropa Məhkəməsinin presedentinə istinad halları çoxalıb. Ona görə də konvensiyanın və presedent hüququnun tətbiqinin öyrənilməsi daim diqqət mərkəzində saxlanılmalı, bu sahədə təlimlər davam etdirilməlidir".

Diqqətə çatdırılıb ki, məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi davamlı bir proses olduğuna görə müasir inkişaf meyilləri nəzərə alınmaqla bu sahədə daim çalışmaq tələb olunur. Görəcəyimiz işlər məhkəmə hakimiyyətinə olan inamı, etimadı da möhkəmləndirməlidir. Əsas məqsəd isə ədalət mühakiməsinin hakimiyyətlər bölgüsü və hüquqi dövlət prinsiplərinə uyğun olaraq Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş insan hüquqlarının qanuni və ədalətli müdafiəsi naminə həyata keçirilməsini bundan sonra da təmin etməkdir.

"Mükəmməl qanunvericilik bazası məhkəmə sisteminin inkişafının əsasıdır" mövzusunda məruzə ilə çıxış edən Milli Məclisin sədr müavini Bahar Muradova bildirib ki, Azərbaycanda məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi və onun əlçatımlığının artırılması, fəaliyyətinin qanunlar çərçivəsində vətəndaşların hüquqlarının qorunması səviyyəsində həyata keçirilməsi işində mühüm uğurlar ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıtmasından sonrakı dövrə təsadüf edir. Müstəqilliyini yeni bərpa etmiş ölkənin bütün istiqamətlərdə inkişafının təmin edilməsi istiqamətində qanunların, eləcə də məhkəmə sisteminin müasir tələblərə cavab verməsi ilə bağlı ciddi qanunvericilik aktlarının qəbul olunmasına ehtiyac var idi. Əlbəttə ki, bunun əsasını Azərbaycan Respublikasının Konstitusiyası, onun VII fəslində məhkəmə hakimiyyətinin səlahiyyətlərinə və vəzifələrinə həsr olunan bölmə təşkil edir. Azərbaycan Konstitusiyasına, qoşulduğumuz beynəlxalq konvensiyalara, üzv olduğumuz beynəlxalq təşkilatlar qarşısında üzərimizə götürdüyümüz

öhdəliklərə uyğun olaraq ötən illərdə qanunverici orqanda bu sahəni tənzimləyən qanunlar üzərində ciddi fəaliyyət göstərilib və həmin qanunları zamanın tələbinə uyğunlaşdırmaq üçün addımlar atılıb.




Bahar Muradova qeyd edib ki, 2005-ci ildə hakimlərin və məhkəmə sisteminin müstəqil özünüidarə qurumunun – Məhkəmə-Hüquq Şurasının yaradılması üçün çox ciddi əsaslar var idi. Onu daha ciddi və daha etibarlı quruma çevirən dəyişikliklər isə 2006-cı ilin yanvarından edilməyə başlanılıb. Məhkəmələr və hakimlər, eləcə də Məhkəmə-Hüquq Şurası haqqında qanunlara edilən dəyişikliklər məhkəmə fəaliyyətinin səmərəliliyinin artırılması, müasirləşdirilməsi, hakimlərin maddi təminatının yaxşılaşdırılması, onların müstəqilliyinin, eləcə də məhkəmə fəaliyyətinin şəffaflığının təmin edilməsi, inzibati icraat zamanı vətəndaşların hüquqlarının etibarlı şəkildə qorunması istiqamətindəki məsələləri özündə ehtiva edir. Son dövrlərdə məhkəmə sistemində aparılan ciddi islahatların və onun qanunverici əsaslarının möhkəmlənməsinin nəticəsidir ki, vətəndaşlar arasında məhkəmə orqanlarına inamın artmasının şahidi oluruq. Bu gün Azərbaycan vətəndaşları öz hüquqlarının qorunması üçün məhz məhkəmələrə üz tuturlar və məhkəmələrin qəbul etdiyi qərarlara inanırlar.




Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev “Konstitusiya nəzarətinin məhkəmə hakimiyyətinin təkmilləşdirilməsinə təsiri” mövzusunda məruzəsində deyib ki, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə məhkəmə hakimiyyətinin dövlət idarəçilik sisteminin müstəqil qolu kimi təşəkkül tapması, eləcə də Məhkəmə-Hüquq Şurası kimi kollegial orqanın yaradılması bir çox ölkələr üçün nümunədir. Məhkəmə-Hüquq Şurasının mövcudluğu və fəaliyyəti böyük əhəmiyyət kəsb edir. Hakimlərin seçilməsi, onların fəaliyyətinin qiymətləndirilməsi prosesi ölkəmizdə ədalət mühakiməsinin səmərəliliyinin artmasına, məhkəmə sisteminin müstəqilliyinin, hakimlərin obyektivliyinin və qərəzsizliyinin təmin edilməsinə yönələn ən vacib vasitələrdən biridir.

Məhkəmə-Hüquq Şurasının öz fəaliyyətində daim müasir yanaşmalara diqqət yetirdiyini deyən sədr vurğulayıb ki, keçmiş sovet məhkəmə sistemində mövcud olmuş hakimlərin intizam kollegiyasından tam fərqli olaraq, müstəqil Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurası cəza mexanizmi kimi deyil, məhkəmələrin fəaliyyətinin təkmilləşdirilməsinə, qəbul edilən məhkəmə aktlarının keyfiyyətinin artmasına, hakimlərin öz vəzifəsinə daha məsuliyyətlə yanaşmasına təkan verən mühüm kollegial təsisat kimi fəaliyyət göstərir. Şuranın qəbul etdiyi qərarlar isə hüquqi dövlətin mühüm atributlarından biri olan məhkəmələrin öz funksiyalarını səmərəli və şəffaf şəkildə həyata keçirməsinə böyük töhfə verib.

Qeyd edilib ki, hüquqi islahatlar çərçivəsində müəllifi ulu öndər Heydər Əliyev olan Konstitusiyanın gətirdiyi əhəmiyyətli yeniliklərdən biri də həmin dövrə qədər dövlətçilik tariximiz üçün səciyyəvi olmayan yeni institut – Konstitusiya nəzarəti orqanının yaradılması olub. Müasir cəmiyyətdə konstitusiya ədalət mühakiməsi hüququn aliliyinin təmin olunmasının əvəzedilməz mexanizmlərindən biridir. Demokratik, hüquqi dövlət quruculuğunun ayrılmaz atributlarından birinə çevrilmiş konstitusiya ədalət mühakiməsi bütövlükdə cəmiyyətə və onun inkişafı prosesinə keyfiyyət baxımından əhəmiyyətli təsir göstərir. Bu gün Azərbaycanın Konstitusiya Məhkəməsi müvafiq səlahiyyətlər dairəsinə malik müasir konstitusiya nəzarəti orqanıdır. Bu nəzarətin yurisdiksiyasına normativ-hüquqi aktların geniş spektri daxildir. Bu da bütün qanunvericilik sisteminə konstitusiya nəzarətinin həyata keçirilməsi, konstitusiya və qanunların normalarının şərhi vasitəsilə hüququn inkişafı və hüquq tətbiqetmə təcrübəsinin istiqaməti baxımından olduqca əhəmiyyətli funksiyaların həyata keçirilməsi deməkdir.

Fərhad Abdullayev diqqətə çatdırıb ki, son illərdə Konstitusiya Məhkəməsinə daxil olan müraciət və sorğuların sayı artıb. Həmin müraciətlərdə digər məhkəmələr hüquq mühafizə orqanları və cəmiyyət üçün mühüm problemlərin aradan qaldırılmasına kömək edən ayrı-ayrı hüquq sahələri üzrə əhəmiyyətli məsələlərə toxunulur. Bu, onu göstərir ki, ümumi məhkəmələrin hakimləri dövlətin adından qərar qəbul edilməsinin məsuliyyətini dərindən dərk edirlər.



Sədr əmin olduğunu bildirib ki, məhkəmə hakimiyyəti, eyni zamanda, Məhkəmə-Hüquq Şurası Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə hüquqi dövlət quruculuğu prosesində bundan sonra da fəal iştirak etməklə Konstitusiyanın aliliyinin təmin olunması, insan hüquqları və azadlıqlarının daha səmərəli müdafiəsi işində üzərinə düşən vəzifələri yerinə yetirəcək.

“Hüquq sisteminin inkişafında Məhkəmə-Hüquq Şurası ilə prokurorluğun əməkdaşlığının rolu” mövzusunda məruzə ilə çıxış edən Baş prokuror Zakir Qaralov Məhkəmə-Hüquq Şurasının fəaliyyətə başladığı ilk gündən prokurorluğun da həmin qurumda təmsil olunduğunu söyləyib.

Baş prokuror bildirib ki, ötən 10 il ərzində Məhkəmə-Hüquq Şurası tərəfindən ədalət mühakiməsinin səmərəliliyinin artırılması, məhkəmə sisteminin müasirləşdirilməsi, hakimlərin fəaliyyətinin qiymətləndirilməsi və tədrisinin

müasir tələblər səviyyəsində təşkili, icra intizamının möhkəmləndirilməsi, qanun pozuntusu, süründürməçilik və digər mənfi halların aradan qaldırılması üzrə genişmiqyaslı tədbirlər görülüb. Həmçinin aparılmış məhkəmə-hüquq islahatları nəticəsində ölkəmizdə hakimliyə namizədlərin Avropada ən mütərəqqi və şəffaf üsullarla seçilməsi qaydası tətbiq olunub.

Qeyd edilib ki, Məhkəmə-Hüquq Şurası və Hakimlərin Seçki Komitəsinin səmərəli fəaliyyəti prokurorluq orqanlarında da öyrənilir və həmin qurumların qabaqcıl təcrübəsi nəzərə alınır. Bu isə Məhkəmə-Hüquq Şurası və Hakimlərin Seçki Komitəsi ilə prokurorluq orqanlarının səmərəli fəaliyyəti, sıx əməkdaşlığı, qarşılıqlı təcrübə mübadiləsi nəticəsində mümkün olub. Məsələn, Hakimlərin Seçki Komitəsinin uğurlu təcrübəsindən Baş Prokurorluğun işə qəbul üzrə Müsabiqə Komissiyasında istifadə edilib.

Zakir Qaralov deyib ki, hazırda məhkəmə hakimiyyətinin müstəqilliyinin daha da artırılması, "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi, hakimlər arasında ixtisaslaşmanın aparılması, yuvenal ədliyyənin inkişafı və digər mühüm istiqamətlərdə işlər müsbət beynəlxalq təcrübəyə əsaslanmaqla davam etməkdədir. Yaradılmasının 10 illiyini qeyd edən Məhkəmə-Hüquq Şurası da ölkəmizin hərtərəfli tərəqqisi, müstəqil məhkəmə hakimiyyətinin inkişafı naminə fəaliyyət göstərməkdədir.

Sonra Avropa Şurası İnsan Hüquqları və Qanunun Aliliyi üzrə Baş Direktorluğunun rəhbəri Filip Buayanın təbrik məktubu oxunub.

Məktubda müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın hüquqi baza və ədliyyə sisteminin institusional təşkilinin təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atdığı bildirilmiş, Avropa Şurasının son illər bu sahədə həyata keçirilən əhəmiyyətli inkişaf proseslərini etiraf etməkdən məmnunluq duyduğu ifadə olunmuşdur. Xüsusilə vurğulanmışdır ki, 2005-ci ildə Məhkəmə-Hüquq Şurasının yaradılması, onun rolunun və institusional imkanlarının davamlı şəkildə artırılması məhkəmə hakimiyyətinin müstəqilliyinin möhkəmləndirilməsini, İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Avropa Konvensiyasının tələblərinə uyğun olaraq ədalət mühakiməsinə çatımlığı təmin etmək üçün mühüm mərhələ təşkil eir.

F.Buaya məktubunda həmçinin, Avropa Şurasının özünüidarə orqanları olaraq Yüksək Məhkəmə Şuralarının roluna və statusuna böyük əhəmiyyət verdiyini qeyd etmiş, Məhkəmə-Hüquq Şurasının ildönümü ilə bağlı xoş arzularını çatdırmış, Məhkəmə-Hüquq Şurası sədrinin və üzvlərinin məhkəmə hakimiyyətinin müstəqilliyinə dair Avropa Şurasının prinsiplərini və dəyərlərini bölüşmələrini alqışlamışdır. O, Avropa Şurası ilə əməkdaşlığın bundan sonra da uğurla davam etdiriləcəyinə əminliyini ifadə etmişdir.

Konfransda Avropa Şurasının Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Komissiyasının (CEPEJ) vitse-prezidenti İrakli Adeişvili, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin hakimləri Ganna Yudkivska, Dmitri Dedov, Xanlar Hacıyev, Türkiyə Ədliyyə Akademiyasının prorektoru Mustafa Artuç, Hakimlərin Seçki Komitəsinin sədri, Bakı Apelyasiya Məhkəməsinin sədri İman Nağıyev məruzələrlə çıxışlar ediblər.





Məruzələrdə məhkəmə islahatlarının həyata keçirilməsində və insan haqlarının etibarlı qorunmasında beynəlxalq mexanizmlər, CEPEJ-in milli təsisatlara dəstəyi, Avropa Məhkəməsinin presedentlərinin milli məhkəmə təcrübəsinin inkişafında rolu, ədalət mühakiməsinin səmərəliliyinin artırılması vasitələri, o cümlədən hakimlərin şəffaf seçimi və qabaqcıl







metodikalarla tədrisi, bu sahədə müsbət təcrübələr barədə məlumatlar iştirakçılar tərəfindən böyük maraqla dinlənilib, səmərəli müzakirə və fikir mübadiləsi aparılıb. Konfransdan sonra qonaqlar Məhkəmə-Hüquq Şurasının binasında Şuranın və Hakimlərin Seçki Komitəsinin üzvləri üçün yaradılan iş şəraiti ilə tanış olublar.

Daha sonra ədalət mühakiməsinin tarixinə və ümummilli lider Heydər Əliyevin müasir məhkəmə sistemimizin yaradılmasında roluna həsr edilən Muzeyin açılışı olub. Burada konfrans iştirakçılarının bir qrupuna fəxri fərmanlar təqdim edilib.

Səfər çərçivəsində qonaqlar respublikamızda aparılan məhkəmə-hüquq islahatlarına böyük maraq göstərərək Ali Məhkəmənin, Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin müasir binaları ilə tanış olaraq yaradılmış yüksək şəraitdən və qabaqcıl İKT-lərin geniş tətbiqindən heyranlıqlarını ifadə edib, ölkə Prezidentinin Sərəncamı ilə yaradılan "elektron məhkəmə" informasiya sisteminin Yasamal Rayon Məhkəməsində sınaq rejimində tətbiq olunan komponentleri - elektron sənəd dövriyyəsi, məhkəmə işlərinin elektron idarəetmə sistemləri, "elektron-bildiriş" informasiya proqramı, habelə proseslərin elektron qeydiyyatını izləyərək ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına xidmət edən bu texnoloji yenilikləri təqdir ediblər.

Qonaqlar həmçinin, regionlarda yeni istifadəyə verilmiş müasir məhkəmə binaları, eləcə də Azərbaycan brendi olan ASAN xidmətin vətəndaş məmnunluğuna yönələn fəaliyyəti, habelə paytaxtımızın tarixi və mədəni abidələri, o cümlədən dünyanın nadir memarlıq incilərindən olan Heydər Əliyev Mərkəzi ilə tanışlıqdan xoş təəssüratlarla ayrılıblar.



# Avropa Şurasının təsis etdiyi Hüquqşünasların insan hüquqları üzrə tədrisinə dair Proqramının (HELP) "e-learning" elektron tədris (məsafəli tədris) kursları

2010-cu ildə İnterlaken Deklarasiyası, 2012-ci ildə Brayton Bəyannaməsi və Avropa Şurası Parlament Assambleyasının 1982 (2014) saylı qətnaməsinə əsasən, Hüquqşünasların insan hüquqları üzrə tədrisinə dair (HELP) Proqramı Avropa Şurasına üzv dövlətlərə milli səviyyədə "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın (bundan sonra – Avropa Konvensiyası) implementasiyasına yardım edilməsi üçün yaradılmışdır.

Hüquqşünasların insan hüquqları üzrə tədrisinə dair Proqram (HELP) Avropa Şurasına (AŞ) üzv olan 47 dövlətin hakim, prokuror və vəkil assosiasiyaları üçün təlim keçən milli institutları Avropa Konvensiyasının milli səviyyədə tətbiqində dəstəkləməyə yönəlib. Proqram çərçivəsində Avropa Konvensiyası və insan hüquqlarına dair digər məsələlərlə bağlı tədris proqramlarının və təlim materiallarının hazırlanması milli təsisatlarla əməkdaşlıq şəraitində həyata keçirilir.

Milli ekspertlər milli təlim institutları ilə birlikdə xüsusi meyarlar (o cümlədən Avropa Konvensiyası barədə bilgilər, hüquqşünaslara təlim keçmə təcrübəsi, həm milli məhkəmələrin, həm də Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnu bilmə və s.) əsasında təyin olunurlar. HELP "həmkardan həmkara" yanaşmasını dəstəkləyir, bu o deməkdir ki, prokuror digər prokurorlar üçün kursun moderatoru olur. Eyni yanaşma hakim və vəkillərə də aiddir.

HELP-in milli təlimçilərinin əsas rolu nümunəvi (model) tədris proqramını milli hüquq qaydasına və öz ölkəsinin hüquqşünaslarının konkret tələbatlarına uyğunlaşdırmaqdan ibarətdir. Milli təlimçi konkret kursun tədris məqsədlərini konkret ölkənin hüquqşünaslarının tələbatlarına və gözləntilərinə uyğun olmasını təmin etməlidir.

Müəyyən keyfiyyət tələblərinin təmin edilməsi üçün HELP təlimçiləri Strasburqda AŞ-ın mənzilqərargahında HELP-in "Təlimçilər üçün təlim" sessiyasında iştirak ediblər. Hazırda "Təlimçilər üçün təlim"in yeni formatı mövcuddur və o, substantiv hissəni (Avropa Konvensiyası ilə bağlı məhkəmə işləri, təlim çərçivəsində HUDOC axtarış sistemindən necə istifadə etməli və s.) və müəyyən texniki hissəni əhatə edir ki, həmin hissə təlimçilərin öz kurslarında yeni elektron tədris tex-


Quick reference guide

Welcome to the new Human Rights Education for Legal Professionals (HELP) website of the Council of Europe. After entering the URL (http://help.ppa.coe.int) you have arrived at the home page. Please note that the home page may contain different content elements compared to the screen capture you see below.

On the homepage you will find all public information related to the HELP website. The site also contains a number of courses.

First time visitor: create your account

Before you can enter any of these courses it is mandatory to create a user account first. Click on the (Login) link in the top right of the screen

You will now go to the login page


Click on the [Create new account] button.

You will now enter a webform which needs to be filled in to create your account:

All information details that are mandatory are marked with an asterisk*.

Please note the secure password policy which is applied to this environment. It is strongly recommended to click the [Unmask] checkbox, next to the password entry field. This way you have visual feedback about the password you are entering.

IMPORTANT NOTICE: it is important to enter a personal, valid e-mail address, you will need it for confirmation of your account. Moreover, this e-mail address will be used in case you need to reset a lost password. Council of Europe reserves the right to check the validity of e-mail accounts. Any kind of misuse may lead to suspension of a user account.


The last part of the form is related to some personal information: Nationality, Profession, City of profession, Organisation name, Type of organisation, Specialisation and Function. You can choose your **profession** and **type of organisation** from a dropdown menu. The picture below shows an example:

All other information in this part of the form can be entered as free text. The Council of Europe would like to stress the importance of entering real data. The Council of Europe reserves the right to check the validity of the data and to delete false identities.

Once the form is completed click on the [Create my new account] button, which is located in the bottom of the registration form.

You will now see a message which announces that an e-mail has been sent to the e-mail address you entered. Check your mailbox for this e-mail and follow the instructions to complete your registration.

Below you see an example of a confirmation e-mail.




Click the link to confirm your new account.

You will now be automatically logged in:







All course categories and courses will be displayed

Select a course you which to enrol to.







You will now see the contents of the selected course.

To look for other courses or get an overview of the courses you are enrolled in click [My home] in the navigation pane:




nologiyalarından istifadə etmələrinə imkan verir. HELP qarışıq tipli (ənənəvi və elektron) tədris yanaşmasını dəstəkləyir və HELP-ın təlimçiləri HELP-ın təlim metodları ilə tanış olmuşlar. “Təlimçilər üçün təlim”in sonunda uğur əldə etmiş təlimçilərə AŞ-ın sertifikatı verilmiş və milli səviyyədə bütün təlim təşəbbüslərində onlardan istifadə edilməsi tövsiyə olunub.

Proqramın məqsədlərini həyata keçirmək üçün http://www.coe.int/help ünvanda HELP saytı yaradılıb. Sayt marağı olan istənilən istifadəçi üçün Avropa Konvensiyası standartlarının öyrənilməsinə yönələn material və alətləri əldə etməyə pulsuz onlayn daxil olma imkanı yaradır. Sadəcə ilk əvvəl həmin saytda qeydiyyatdan keçmək lazımdır. Həmçinin Sayt məsafəli tədris üçün bir platformadır. “HELP” Moodle Platformasında Avropa Konvensiyasının müxtəlif maddələri və mövzular üzrə “e-learning” elektron tədris (məsafəli tədris) kursları vardır. Istənilən şəxs həmin tədris kurslarınının iştirakıçı ola bilər. HELP-ın təlimçiləri isə bu platformada elektron tədris (məsafəli tədris) kursları təşkil edə bilərlər. “HELP” Moodle Platformasının xüsusi elektron səhifəsində kursun proqramının hazırlanması, mövzu üzrə materialların, videoların, linklərin yerləşdirilməsi, diskussiya üçün forum yaradılması, müzakirə üçün foruma mövzuların daxil edilməsi, müxtəlif formalarda (multiple choice, true/false, short answer) testlər və sorğu anketlərinin hazırlanması, iştirakçı qismində konkret şəxslərin cəlb edilməsinə imkan yaradır.

Platformada Avropa Konvensiyası üzrə geniş tədris resursları toplanılaraq üzv dövlətlərin dillərinə tərcümə olunub və yerləşdirilib. Bu materiallar özündə Avropa Konvensiyasının müxtəlif maddə və mövzularına aid əsas konsepsiyaları və metodologiyaları üzrə dərs vəsaitlərini, bələdçiləri, tipik dərs proqramlarını, kurs nümunələrini, prezentasiyaları, kazuslarla iş, məsafəli tədris kurslarını əks etdirir. Saytda hüquqşünasların iştirakı ilə insan hüquqları ilə əlaqədar yaranan suallar ətrafında diskusiya və müzakirələrin aparılması üçün forum da vardır.

Avropa Şurası “e-learning” elektron tədris (məsafəli tədris) kurslarının təşkilinə daha önəm verir. Bu tədris forması çeviklik, modulluluq, iqtisadi səmərəlilik, müəllimin yeni rolu, təhsilin keyfiyyətinə xüsusi nəzarət, təlimin xüsusiləşdirilmiş vasitə və texnologiyalarından istifadəsinə, iştirak vaxtının qənaət edilməsinə yönəlib. Elektron təhsil resurslarının mühüm üstünlüyü dinləyicinin fərdi öyrənməsini təmin etməsindədir. Multimedia sistemindən istifadə edərək, müəllimlər dinləyicilər üçün öz təlim kursları və müəllif hüquqları olan fərdi təhsil proqramlarını yarada bilir. Elektron təhsil resurslarının iştirakçıya faydısı ilk növbədə onun həqiqətən öyrənmək imkanını yaratmaqdır. Elektron təhsil resurslarının müəllimlərə faydası isə davamiyyətə nəzarət etməyə zərurətin olmaması, geniş dinləyici auditoriyasına tədrisin birdəfəlik həyata keçirilməsinə imkan verməsi, mövzuların təkrar-təkrar tədris edilməsinin qarşısının alınması, müəllimin məzuniyyətdə, ezamiyyətdə, xəstə olması və hər hansı digər üzrlü səbəbdən iştirakının mümkün olmadığı hallarda mövzusunun tədris olunmasına imkan yaradır, müəllim digər işləri ilə məşğul olmağa vaxt qazanır, maliyyəyə qənaət olunur və s.

**Günay Əyyubova**
**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**
**İnsan hüquq və azadlıqlarının müdafiəsi**
**problemləri kafedrasının rəisi**
**kiçik ədliyyə müşaviri**

# Prokurorluq orqanları əməkdaşları növbəti ağacəkmə kampaniyası keçirmişlər

Aprelin 25-də Baş Prokurorluğun, Bakı şəhər və paytaxtın tabe rayon prokurorluqlarının əməkdaşları xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə növbəti ağacəkmə kampaniyası keçirmişdir.

Ulu öndər Heydər Əliyev Azərbaycan Respublikasına rəhbərlik etdiyi dövrlərdə ictimai həyatın bütün sahələri ilə yanaşı, ölkəmizdə ekoloji mühitin mühafizəsinə, yeni yaşıllıq sahələrinin salınmasına xüsusi diqqət yetirilərək genişmiqyaslı tədbirlər həyata keçirilmişdir. Bu gün müstəqil Azərbaycanın qurucusu və memarı Heydər Əliyev tərəfindən əsası qoyulmuş ekoloji siyasət Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Həmin tədbirlərin davamı olaraq IDEA İctimai Birliyinin "Yaşıl marafon" layihəsi çərçivəsində birliyin təsis edildiyi dövrdən etibarən həyata keçirilən genişmiqyaslı ağacəkmə aksiyaları çərçivəsində ölkə ərazisində 4 milyondan artıq ağac əkilmişdir.

Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında cənab İlham Əliyevin ekoloji mühitin, xüsusilə yaşıllıqların mühafizəsi ilə bağlı tapşırıq və tövsiyələrinə, həmçinin mövcud ənənəyə uyğun olaraq prokurorluq orqanlarının əməkdaşları ulu öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaxından dəstəyi ilə ağacəkmə kampaniyası keçirmişdir.

Əməkdaşların fəallığı ilə müşayiət olunan tədbirdə Bakı - Heydər Əliyev Beynəlxalq Aeroportu avtomagistralının Suraxanı rayonu ərazisindən keçən hissəsində 3 hektar ərazidə beş yüzdən artıq Eldar şamı və zeytun ağacları əkilmiş, eyni zamanda həmin ərazidə ötən illərdə əkilmiş ağaclara aqrotexniki qulluq göstərilmiş və təmizlik-abadlıq işləri aparılmışdır.

Əkilən ağacların inkişafı üçün münbit torpaq və mineral gübrələrdən istifadə olunmuş, həmçinin onların küləkdən qorunması və mühafizəsi məqsədilə zəruri tədbirlər görülmüşdür. Aksiyanın gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur.

**Baş Prokurorluğun Mətbuat Xidməti**



# Erməni terrorizmindən bəhs edən daha bir kitabın təqdimatı olub




Aprelin 22-də Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzində tanınmış rusiyalı tarixçi və hüquqşünas Oleq Kuznetsovun yeni çapdan çıxmış "XX əsrdə transmilli erməni terrorizmi. Tarixi-kriminoloji tədqiqat" kitabının təqdimatı olub.

Tədbirdə çıxış edən Oleq Kuznetsov təhlil və araşdırmaları haqqında məlumat verib. O bildirib ki, Qarabağ müharibəsi erməni millətçilərinin Azərbaycan xalqına qarşı terror müharibəsidir. Dağlıq Qarabağa gəlmiş döyüşçülər muzdlu hərbçilər, terrorçular olub. Onlar azərbaycanlı qadınları, uşaqları, qocaları pul müqabilində qətlə yetiriblər. Keçmiş SSRİ məkanında azərbaycanlılara qarşı müharibəyə Yaxın Şərq ölkələrindən, eləcə də Cənub-Şərqi, Qərbi Avropadan və ABŞ-dan erməni millətindən olan altı minə yaxın xarici muzdlu hərbçi cəlb edilib.

Tədbirdə çıxış edən Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov getdikcə daha çox qloballaşan erməni terrorunun artıq dünyada təkcə tarixçilərin, siyasətçilərin, hüquqşünasların deyil, digər sahədən olan insanların da diqqətini cəlb etdiyini bildirib. O deyib ki, tarixən Azərbaycana məxsus olan torpaqları işğal etməyə çalışan Ermənistan bunun üçün terror aktları törətməkdən çəkinməyib.

Dünyada ikili standartların hökm sürdüyünü deyən Ziyafət Əsgərov təəssüflə bildirib ki, beynəlxalq təşkilatlar Ermənistana təzyiq göstərmir. Beynəlxalq qurumlar və Avropa dövlətləri Ukrayna hadisələri ilə bağlı dərhal hərəkətə keçsələr də, Dağlıq Qarabağ münaqişəsinin həllinə münasibətdə bu addımı atmırlar. İyirmi ildən artıqdır ki, Azərbaycan ərazisinin bir hissəsi Ermənistanın işğalı altındadır, BMT-nin həmin ərazilərin işğaldan azad edilməsi ilə bağlı qətnamələri yerinə yetirilməyib. Ermənilərin bu biganəliyinə, indiyə qədər terror aktları törətmələrinə səbəb onların cinayətlərinə görə cəzalandırılmamasıdır.

Baş prokurorun birinci müavini Rüstəm Usubov təqdim olunan kitabın bu qədər terror aktı törətmiş ermənilərin cinayətlərinin dünya ictimaiyyətinə çatdırılması baxımından önəmini qeyd edib. O deyib ki, kitabda da qeyd edildiyi kimi, erməni terrorizmi yarandığı gündən transmilli xarakter alıb. Prezident İlham Əliyevin 2007-ci il 23 may tarixli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasında terror aktları milli təhlükəsizliyə təhdid kimin qəbul edilib.

Ermənilərin Azərbaycanda törətdiyi cinayətlərin araşdırılmasında şəxsən iştirak etdiyini deyən Rüstəm Usubov qeyd edib ki, Azərbaycan ötən əsrin 80-ci illərindən başlayaraq hiyləgər erməni terrorizmi ilə üz-üzə qalıb. Ermənilərin Azərbaycan ərazisində törətdiyi terror aktlarının miqyası çox genişdir. Ermənistan hərbi təcavüzlə yanaşı, Azərbaycanın mülki əhalisinə qarşı da geniş terror aktları törədib. Həmin vəhşilik aktları 1992-ci ilin fevral ayında Xocalı sakinlərinin amansızlıqla qətlə yetirilməsi ilə kulminasiya nöqtəsinə çatıb.

Diqqətə çatdırılıb ki, bütün bu terror hadisələri ilə bağlı cinayət işlərinin istintaqı fəal şəkildə davam etdirilir.

# Avropa Şurası ilə əməkdaşlıq uğurla davam etdirilir

Mayın 12-si Bakıda Hüquqşünaslar üçün insan hüquqları üzrə Avropa təhsil Proqramı (HELP) çərçivəsində Avropa Şurasının 2014-2016 illər üzrə Azərbaycan üçün Fəaliyyət Planının hissəsi olan ""İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyası və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun Azərbaycanda tətbiqi" layihəsinin icrası ilə əlaqədar işçi qrupunun birinci görüşü keçirilmişdir.

Görüşdə beynəlxalq və yerli ekspertlər, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası, Ali Məhkəmə, Vəkillər Kollegiyasının nümayəndələri iştirak etmişlər. Prokurorluq orqanlarından Baş Prokurorluğun Elm-Tədris Mərkəzi, İnsan hüquq və azadlıqlarının müdafiəsi problemləri kafedrasının rəisi Günay Əyyubova təmsil olunmuşdur.

Bu Proqram Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın inkişafına və insan hüquqlarının müdafiəsində yüksək standartların müəyyən və tətbiq edilməsinə yönəlib.

Tədbirdə HELP Proqramının və metodologiyasının təqdimatı həyata keçirilmiş, məsafəli tədris kursu və tədrisin məqsədləri açıqlanmış, "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 5-ci maddəsinə dair mövcud təlim təşəbbüslərinə və materiallarına baxılmış, ekspert qruplarının hər biri üçün tədris planın əhatə dairəsi müəyyənləşdirilmiş, hər bir modul üçün tədris məqsədləri hazırlanmış, yerli ekspertlər arasında iş bölgüsü aparılaraq vəzifələr konkretləşdirilmişdir.

Sonda Avropa Şurasının nümayəndələri tərəfindən Günay Əyyubova yerli ekspertlər üçün təlim materiallarının hazırlanmasının əlaqələndirilməsinə məsul seçilmiş, ona məsafəli tədris kursu üçün nümunəvi təlim modulunun hazırlanıb nümayiş etdirilməsi həvalə olunmuşdur.

İşçi qrupunun növbəti görüşünün keçirilməsi cari ilin sentyabr ayına təyin edilmişdir.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**



# Baş Prokurorluğun Elm-Tədris Mərkəzində "Prokurorluq orqanlarında kriminoloji təhlil aparılması metodikası" ixtisasartırma kursu təşkil edilmişdir





Baş Prokurorluğun Elm-Tədris Mərkəzində rayon (şəhər) prokurorlarının müavin və köməkçiləri üçün aprelın 27-dən mayın 1-dək "Prokurorluq orqanlarında kriminoloji təhlil aparılması metodikası" ixtisasartırma kursu təşkil olunmuşdur.

Tədris məşğələləri qabaqcıl metodlardan və müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə keçirilmişdir. Kurs zamanı dinləyicilərə "Prokurorluq orqanlarında kriminoloji təhlilin əsasları", "Rayon (şəhər) prokurorluqlarının fəaliyyəti barədə arayışların hazırlanması təcrübəsi", "Cinayətkarlığın vəziyyətinin, strukturunun və dinamikasının təhlili, nəticələrin əhəmiyyəti", "Rayon (şəhər) prokurorluqlarında müraciətlərlə işin təhlili metodikası", "Rayon (şəhər) prokurorluqlarında istintaq fəaliyyətinin təhlilinin xüsusiyyətləri", "Təhqiqat orqanlarının fəaliyyətində qanunların icra və tətbiq olunmasına prokuror nəzarətinin təhlili xüsusiyyətləri", "Rayon (şəhər) prokurorluqlarında ibtidai araşdırmaya prosessual rəhbərliyin təhlili metodikası", "Rayon (şəhər) prokurorluqlarında əməliyyat-axtarış fəaliyyətinə prokuror nəzarətin təhlili məsələləri", "Prokurorluğun təminedici sahələri üzrə fəaliyyətin təhlili", "Rayon (şəhər) prokurorluqlarının fəaliyyətinin təhlilində kriminoloji statistikanın tətbiqi məsələləri" mövzularda mühazirələr oxunulub, bu mühazirələrə uyğun praktiki məşğələlər keçirilmişdir.

Mayın 1-də kursun yekunu üzrə yazılı imtahan keçirilmişdir. İmtahan xüsusi kompüter avadanlığı və proqram təminatı ilə təchiz edilmiş auditoriyada təşkil olunmuş, daxili şəbəkə sxemi üzrə quraşdırılmış kompüterin hər birinə əvvəlcədən hazırlanmış müxtəlif tapşırıqlar yerləşdirilmiş, cavabların faylın xüsusi ayrılmış sahəsinə yazılması təklif olunmuşdur. Kompüterdə yazılmış cavablar şəbəkənin printerində çap olunaraq dinləyici tərəfindən imzalanmış və komissiyaya təqdim edilmişdir. İmtahanın təşkili ilə bağlı yaradılmış İmtahan komissiyası



tərəfindən dinləyicilərin cavabları təhlil olunmuş və hər bir cavab üzrə müvafiq rəy tərtib edilmişdir. Rəylər informasiya-kommunikasiya texnologiyası vasitələri ilə dinləyicilərin iş yerlərinə göndərilməklə, dinləyicilərin rəylərlə tanış olunmasına şərait yaradılmışdır. Dinləyicilərin cavabları İmtahan Komissiyası tərəfindən müvafiq qaydada qiymətləndirilmişdir.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

# Baş Prokurorluğun Elm-Tədris Mərkəzində "Korrupsiya cinayətlərinin tövsifinin hüquqi (maddi, prosessual) əsasları və qaydaları" ixtisasartırma kursu təşkil edilmişdir

Aprelin 20-24-də Baş Prokurorluğun Elm-Tədris Mərkəzində prokurorluq işçiləri üçün "Korrupsiya cinayətlərinin tövsifinin hüquqi (maddi, prosessual) əsasları və qaydaları" ixtisasartırma kursu təşkil olunmuşdur.

Kurs zamanı dinləyicilərə "Cinayət qanunvericiliyində vəzifəli şəxsin anlayışı", "Qulluq mövqeyindən istifadə edilməklə törədilən mənimsəmə və israf etmə cinayətlərinin tövsifi", "Rüşvət vermə (aktiv rüşvətxorluq) cinayətinin tövsifi", "Rüşvət alma (passiv rüşvətxorluq) cinayətinin tövsifi", "Korrupsiya cinayətlərinin tövsifinin dəyişməsi təcrübəsinin təhlili", "Vəzifə səlahiyyətlərindən sui-istifadə cinayətlərinin tövsifi", "Korrupsiya cinayətləri üzrə işlərin məhkəmə baxışı mərhələsində prokurora göndərilməsi təcrübəsinin təhlili", "Vəzifə saxtakarlığı cinayətlərinin tövsifi", "Məhkəmə baxışı mərhələsində korrupsiya cinayətlərinin tövsifi məsələləri", "Təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərarlarda korrupsiya cinayətlərinin tövsifi tələblərinin nəzərə alınması metodikası", "Korrupsiya cinayətlərinin səhv tövsifinin səbəblərinin təhlili", "Qulluq mövqeyindən istifadə edilməklə törədilən dələduzluq cinayətlərinin tövsifi" mövzularında mühazirələr oxunmuş, onlara uyğun praktiki məşğələlər keçirilmişdir.

Aprelin 25-də kursun yekunu üzrə yazılı imtahan keçirilmişdir. İmtahan xüsusi kompüter avadanlığı və proqram təminatı ilə təchiz edilmiş auditoriyada təşkil olunmuş, daxili şəbəkə sxemi üzrə quraşdırılmış kompüterin hər birinə əvvəlcədən hazırlanmış müxtəlif tapşırıqlar yerləşdirilmiş, cavabların faylın xüsusi ayrılmış sahəsinə yazılması təklif olunmuşdur. İmtahan zamanı dinləyicilərə qanunlardan, sahəvi normativ aktlardan və hüquqi ədəbiyyatdan sərbəst istifadə etməyə icazə verilmişdir. Kompüterlərdə yazılmış cavablar şəbəkənin printerində çap olunaraq, dinləyicilər tərəfindən imzalanmış və imtahanın təşkili ilə bağlı yaradılmış İmtahan komissiyasına təqdim edilmişdir.

İmtahan komissiyası tərəfindən cavablar təhlil olunmuş, hər bir cavab üzrə müvafiq rəy tərtib edilmiş, elektron poçtla dinləyicilərin iş yerlərinə göndərilmiş, onlara rəylərlə tanış olmaq və mülahizələrini göstərmək təklif edilmiş, həmin mülahizələr də nəzərə alınmaqla dinləyicilərin cavabları İmtahan Komissiyası tərəfindən müvafiq qaydada qiymətləndirilmişdir.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

# Prokurorluq orqanlarına qulluğa qəbulla bağlı elan edilmiş müsabiqənin ilkin mərhələsi olan test imtahanı keçirilmişdir

Xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən təməli qoyulmaqla Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla reallaşdırılan dövlət gənclər siyasətinə uyğun olaraq prokurorluq orqanlarında müsabiqə yolu ilə işə qəbulun həyata keçirilməsi kadr korpusunun şəffaf prosedurlar əsasında formalaşmasının ən sivil və demokratik yoludur. Bu yolla həyata keçirilən işə qəbul prokurorluğun kadr tərkibinin hərtərəfli biliyə və yüksək mənəvi keyfiyyətlərə malik, dövlətçilik ideyalarına sədaqətləri ilə seçilən gənc mütəxəssislər hesabına komplektləşdirilməsi üçün geniş imkanlar yaratmış, ölkə həyatının bütün sahələrində gənclərin əməyindən hərtərəfli istifadə olunması barədə Dövlət başçısının verdiyi tapşırıqların icrası yolunda mühüm vasitə olmuşdur.

Mayın 8-də Baş Prokurorluq tərəfindən Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli Fərmanı ilə təsdiq olunmuş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnaməyə müvafiq olaraq elan edilmiş sayca 15-ci müsabiqənin ilkin mərhələsi olan test imtahanı keçirilmişdir.

Baş Prokurorluğun Müsabiqə Komissiyası Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) ilə birlikdə imtahanın aşkarlıq şəraitində, şəffaf üsullarla və beynəlxalq tələblərə uyğun keçirilməsi üçün bütün zəruri tədbirləri təmin etmişdir.

Prokurorluq orqanlarında işləmək arzusunda olan gənc hüquqşünasların iştirakı ilə saat 10:00-dan başlayaraq 3 saat ərzində vahid auditoriyada - Azərbaycan Texniki Universitetinin İdman Sarayında keçirilən imtahanı dövlət qurumlarının nümayəndələri ilə yanaşı, qeyri-hökumət və beynəlxalq təşkilatların, habelə kütləvi informasiya vasitələrinin nümayəndələri müşahidə etmişlər.

İmtahan başa çatdıqdan sonra namizədlərin cavab kartları TQDK-da yoxlanılmış və müsabiqənin ikinci mərhələsi - yazılı imtahanda 38 namizədin iştirak etmək hüququ qazandığı müəyyən edilmişdir.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Bakı şəhəri, Nərimanov rayon prokurorluğunda gənc mütəxəssislərlə iş diqqət mərkəzindədir

Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnaməyə uyğun olaraq Baş Prokurorluq tərəfindən prokurorluq orqanlarına qulluğa qəbulla əlaqədar elan edilmiş müsabiqənin nəticələri üzrə seçilmiş layiqli namizədlər arasından 2 gənc əməkdaş Məhəmməd Hacıyev və Elfanə Bayramova Bakı şəhəri, Nərimanov rayon prokurorluğunda stajorluq keçir. Stajorluq müddətində daha çox təcrübə əldə etmələri məqsədilə növbətçilərə baş vermiş cinayətlərlə bağlı daxil olmuş məlumatlar üzrə bütün hadisə yerlərinə gedərkən stajorların aparılaraq onların hadisə yerinə baxış istintaq hərəkətlərində iştiraklarının təmin olunması barədə göstəriş verilmiş, onlar mürəkkəb cinayət hadisələri üzrə istintaq olunan cinayət işlərində istintaq qruplarına daxil edilmişlər. Eyni zamanda



bir sıra mürəkkəb olmayan cinayət işlərinin istintaqı stajorlara həvalə edilmişdir.

Gənc əməkdaşlar Məhəmməd Hacıyev və Elfanə Bayramova Beynəlxalq Prokurorlar Assosiasiyasının üzvlüyünə qəbul olunma barədə müraciət etmiş, bu qurumun icraçı direktoru xanım Yanne Holst Hübner cari ilin aprelin 30-da ölkəmizdə səfərdə olarkən üzvlük vəsiqələrini onlara təntənəli şəkildə təqdim etmişdir. Stajorlar prokurorluğun fəaliyyətinin digər istiqamətləri üzrə də işlərə cəlb edilirlər. Bunların sırasında əhali arasında hüquqi biliklərin təbliği xüsusi yer tutur. Məktəblilər arasında sağlam həyat tərzinin təbliği, onların həyat üçün zərərli olan adətlərdən uzaqlaşdırılması, narkomaniyaya qarşı aparılan mübarizənin səmərəliliyinin artırılması məqsədi ilə nəzərdə tutulmuş işlər çərçivəsində Nərimanov rayon icra hakimiyyəti və rayon prokurorluğunun birgə təşkilatçılığı ilə 200 saylı orta məktəbdə pedaqoji kollektivin nümayəndələri və şagirdlərin iştirakı ilə keçirilmiş tədbirdə

Bakı şəhəri, Nərimanov rayon prokurorunun köməkçisi Niyazi Qəzənfərzadə ilə yanaşı stajor Məhəmməd Hacıyev də iştirak etmişdir. O, tədbirdə çıxış edərək rayonda yeniyetmə və gənclərin narkomanlıq və digər zərərli vərdişlərdən qorunması üçün aparılan işlər barədə ətraflı məlumat vermiş, gənclərin vətənpərvər ruhda böyümələri, sağlam inkişaf etmələri, zərərli vərdişlərdən uzaq olmaları üçün görülməli olan işlərdən danışmış, yeniyetmələri mənəvi və fiziki sağlam həyat tərzi sürməyə çağırmış, onun üstünlüklərini göstərmişdir.

Tədbirdə narkomaniyanın fəsadları ilə bağlı slaydlar nümayiş olunmuş, şagirdlərə bukletlər paylanmış və onları maraqlandıran suallar cavablandırılmışdır.

**Bakı şəhəri,**
**Nərimanov rayon prokurorluğu**



# Kürdəmir rayon prokurorluğunda Müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması barədə seminar keçirilmişdir



Aprelin 3-də Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi tərəfindən Kürdəmir rayon prokurorluğunda Baş Prokurorluq üzrə «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında» 01.11.2010-cu il tarixli 10/100 №-li əmrin tələblərinin öyrənilib təmin olunması məqsədilə seminar keçirilmişdir.

Seminarda Hacıqabul, Ucar, Sabirabad, Saatlı, İmişli, Zərdab, Ağsu, Göyçay və Kürdəmir rayon prokurorluqlarının əməkdaşları iştirak etmişlər.

Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin prokuroru Elşad Eyvazov əmrin tələblərindən irəli gələn vəzifələr və bu tələblərin dürüst icrasını təmin edən konkret tədbirlər haqqında danışaraq tabe prokurorluqlarda bu sahədə mövcud olan çatışmazlıqların aradan qaldırılması ilə bağlı tövsiyələr vermiş, əmrin tətbiqi ilə bağlı yaranmış müsbət təcrübə təhlil edilmişdir.

Vətəndaşların yaşayış yerləri üzrə qəbulunun mühümlüyü qeyd edilərək, qəbulların mütəmadi olaraq keçirilməsinin vacibliyi, rayon prokurorlarının bu sahəyə şəxsən cavabdeh olmaları qeyd edilmişdir.

Seminar iştirakçılarına müraciətlərə baxılması və vətəndaşların qəbulu işində müasir informasiya texnologiyalarının tətbiqi sahəsində ardıcıl həyata keçirilən tədbirlər barədə məlumat verilmiş, Baş Prokurorluq üzrə 06.01.2012-ci il tarixli 10/2 № li əmrə əsasən tətbiqinə başlanılmış «Elektron sənəd dövriyyəsi» proqramının vacibliyi barədə danışılmışdır.

Tabe prokurorluqların nümayəndələrinin sualları cavablandırılmaqla əmrin yerlərdə tətbiqi ilə əlaqədar konkret tövsiyələr verilmişdir.

**Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi**

# Qusar rayon prokurorluğunda «Müraciətlərə baxılması və vətəndaşların qəbulu işində müasir informasiya texnologiyalarının tətbiqi» mövzusunda seminar keçirilmişdir




Mayın 22-də Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi tərəfindən Qusar rayon prokurorluğunda «Müraciətlərə baxılması və vətəndaşların qəbulu işində müasir informasiya texnologiyalarının tətbiqi» mövzusunda seminar keçirilmişdir.

Tədbirdə Qusar, Quba, Xaçmaz, Xızı, Siyəzən və Şabran rayon prokurorluqlarının əməkdaşları iştirak etmişlər.

Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin prokuroru Yaqut Əliyeva prokurorluq orqanlarında yeni informasiya texnologiyalarının tətbiqi sahəsində ardıcıl həyata keçirilən tədbirlər barədə məlumat verərək Baş Prokurorluq üzrə «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında» 01.11.2010-cu il tarixli 10/100 №-li əmrin müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin təşkili zamanı müasir informasiya texnologiyalarından geniş istifadə edilməsi məsələlərinə aid müddəaları şərh etmiş, prokurorluqda müraciətlərlə iş üzrə fəaliyyətin elektron formada həyata keçirilməsinin vacibliyi vurğulanmışdır.

Daha sonra «Elektron Sənəd Dövriyyəsi» Proqramının 09 avqust 2011-ci il tarixdə Baş Prokurorluqda təqdimat mərasiminin keçirilməsi, həmin Proqramın tətbiqinə Baş Prokurorluq üzrə 10/2 № li əmrə əsasən, 06.01.2012-ci il tarixdən başlanması barədə danışılaraq, Proqramın vacibliyi, onun mahiyyəti və işləmə mexanizmi haqqında ətraflı məlumat verilmişdir.

Bildirilmişdir ki, prokurorluğun müraciətlərə baxılması və vətəndaşların qəbulu ilə bağlı fəaliyyətində son illərdə tətbiq olunmuş yeni iş metodlarının davamı olaraq, Baş Prokurorluğun veb-saytında "online müraciət" adlı yeni funksiya yaradılmışdır. Bunun nəticəsində, Baş Prokurorluğa müraciət etmiş hər bir şəxs, Baş Prokurorluğun inzibati binasına gəlmədən, internet vasitəsilə veb-saytımıza daxil olaraq, Müraciətlərə baxılması idarəsi tərəfindən ona göndərilmiş bildirişdə əks olunmuş istifadəçi kodu və parolunu "online müraciət" bölməsində yığmaqla öz müraciətinə baxılmasının nəticəsi barədə məlumat ala, ona ünvanlanmış cavabı oxuya və həmin cavabı printer vasitəsilə çap edib əldə edə bilər.

Prokurorluq orqanlarında qəbul olunmuş vətəndaşlara dair məlumatların müvafiq elektron məlumat bazalarına operativ daxil edilməsinin vacibliyi qeyd olunaraq, həmin bazaların daim işlək vəziyyətdə saxlanılması, onlardan səmərəli istifadə edilməsi barədə tövsiyələr verilmişdir.

Tədbirin sonunda maraq doğuran məsələlər üzrə suallar cavablandırılmışdır.

**Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi**

# Zaqatala rayon prokurorluğunda «Arxiv işinin təşkili» mövzusunda seminar keçirilmişdir





Mayın 15-də Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi tərəfindən Zaqatala rayon prokurorluğunda bölgə prokurorluqları əməkdaşlarının iştirakı ilə «Arxiv işinin təşkili» mövzusunda seminar keçirilmişdir.

Seminarda Zaqatala, Şəki, Balakən, Qax, Oğuz, Qəbələ, İsmayıllı, Göyçay, Ağdaş rayon və Mingəçevir şəhər prokurorluqlarının müvafiq ekspert komissiyalarının sədrləri və dəftərxana müdirləri iştirak etmişlər.

Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin böyük prokuroru-arxiv müdiri Zöhrə Məmmədova prokurorluq orqanlarında arxiv fondunun formalaşdırılması, mühafizəsi, istifadəsi və arxivlərin fəaliyyəti barədə məlumat vermiş, Azərbaycan Respublikası Baş prokurorunun 04.12.2001-ci il tarixli 08/160 №-li əmri ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının prokurorluq orqanlarında kargüzarlığın aparılması Qaydaları haqqında» Təlimatın və Azərbaycan Respublikası Baş prokurorunun 25.06.2002-ci il tarixli 08/61 №-li əmri ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında sənədlərin saxlanılması müddətlərinə dair Siyahı»nın müddəalarını şərh etməklə arxiv işinin təkmilləşdirməsinə dair tövsiyələr vermişdir.

Seminarda tabe prokurorluqların ekspert komissiyaları tərəfindən tərtib edilən sənədlərin məhv edilməsinə dair aktlarda daha çox rast gəlinən nöqsanlar təhlil edilərək seminar iştirakçılarına müvafiq izahlar verilmişdir.

Tədbirin sonunda maraq doğuran məsələlər üzrə suallar cavablandırılmışdır.

**Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi**

# Baş Prokurorluqda hərbiləşdirilməmiş mülki müdafiə dəstələri üzvlərinin iştirakı ilə məşqlərin keçirilməsi davam edir

Mayın 19-da Baş Prokurorluğun Tarix muzeyində Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi və FHN-in Mülki müdafiə idarəsinin təşkilatçılığı ilə Baş Prokurorluğun rəhbər heyəti üçün mülki müdafiə üzrə məşğələ keçirilmişdir.

Məşğələnin keçirilməsində məqsəd fövqəladə hadisələr zamanı Baş Prokurorluğun rəhbər heyətinin funksional vəzifələrinin öyrənilməsi, mülki müdafiə planlarının dəqiqləşdirilməsi, əməkdaşların təhlükəsizliyini təmin edən tədbirlərin həyata keçirilməsi üzrə hazırlıq səviyyəsinin yüksəldilməsi, fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılması zamanı mülki müdafiə orqan və qüvvələrinin idarə olunmasının təşkilində praktiki vərdişlərin artırılması olmuşdur.

Tədbirdə çıxış etmiş Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin prokuroru Yadigar Aslanov mülki müdafiənin təşkili məsələsinin əhəmiyyətini vurğulayaraq, Baş Prokurorluqda bu sahədə ardıcıl həyata keçirilən tədbirlər barədə məlumat vermişdir.

Məşğələdə iştirak etmiş Azərbaycan Respubikası FHN-in Mülki müdafiə idarəsinin Əhalinin mülki müdafiəyə hazırlığı şöbəsinin rəis əvəzi Elşən Yolçuyev və həmin idarənin mülki müdafiənin təşkili və planlaşdırılması şöbəsinin rəisi Rəşad Quliyev ölkəmizdə mülki müdafiə işinin təşkili, fövqəladə hadisələr nəticəsində yarana biləcək vəziyyət və real imkanlar nəzərə alınmaqla əhalinin mühafizəsi ilə bağlı həyata keçirilməli olan tədbirlər, fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılması üçün xilasetmə və digər təxirəsalınmaz işlərin yerinə yetirilməsi qaydası, habelə belə şəraitdə idarəetmənin təşkili barədə geniş məlumat vermişlər.

Məşğələdə FHN-in Mülki müdafiə idarəsi əməkdaşlarının keçirdikləri qəza-xilasetmə təlimlərinin gedişini əks etdirən slaydlar nümayiş etdirilmiş, məşğələ iştirakçılarının sualları idarənin əməkdaşları tərəfindən cavablandırılmışdır.

**Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi**



# Tovuz və Bərdə rayon prokurorluqlarında «Təqsirsizlik prezumpsiyası prinsipinə dair Avropa Məhkəməsinin presedent hüququ» mövzusunda seminar-məşğələlər keçirilmişdir.



Aprel, may aylarında Tovuz və Bərdə rayon prokurorluqlarında bölgə prokurorluqları əməkdaşlarının iştirakı ilə «Təqsirsizlik prezumpsiyası prinsipinə dair Avropa Məhkəməsinin presedent hüququ» mövzusunda seminar-məşğələ keçirilmişdir.

Tovuz rayonunda Baş Prokurorluğun Hüquqi təminat və informasiya idarəsinin böyük prokuroru Mahir Tağıyevin iştirakı ilə aprelin 15-də keçirilmiş seminar-məşğələdə Ağstafa, Qazax, Tovuz, Şəmkir, Gədəbəy, Goranboy, Daşkəsən, Göygöl, Samux rayon, Qazax hərbi prokurorluqlarının müvafiq əməkdaşları iştirak etmişlər.

Bərdə rayonunda eyni tədbir Baş Prokurorluğun Hüquqi təminat və informasiya idarəsinin prokuroru, ədliyyə müşaviri Malik Səlimovun iştirakı ilə mayın 15-də keçirilmişdir. Seminar-məşğələdə Ağdam, Ağcabədi, Ağdaş, Bərdə, Tərtər, Yevlax, Zərdab, Ucar, Göyçay, Goranboy rayon, Gəncə şəhər prokurorluqları, Gəncə, Tərtər, Qarabağ hərbi prokurorluqlarının müvafiq əməkdaşları iştirak etmişlər.

Seminar-məşğələlərdə milli qanunvericilikdə və beynəlxalq sənədlərdə təsbit olunmuş təqsirsizlik prezumpsiyası hüququnun mahiyyəti izah edilmiş, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Deeverin Belçikaya qarşı, Minellinin İsveçrəyə qarşı, Allen de Ribemonun Fransaya qarşı, Adolf Avstriyaya qarşı, Enqlert Almaniyaya qarşı, Lutz Almaniyaya qarşı, Lötşer Niderlanda qarşı, Qaritski Polşaya qarşı və digər işlər üzrə presedent hüququ dinləyicilərin diqqətinə çatdırılmışdır.

Tədbir iştirakçılarının sualları cavablandırılmış, təqsirsizlik prezumpsiyası hüququnun pozulmaması istiqamətində müvafiq tövsiyələr verilmişdir.

**Baş Prokurorluğun Hüquqi təminat və informasiya idarəsi**

# Naxçıvan şəhər prokurorluğunda "Hadisə yerinə baxış zamanı kriminalistika texnikasından istifadə qaydaları" mövzusunda seminar keçirilmişdir

Aprelin 15-də Naxçıvan şəhər prokurorluğunda Naxçıvan şəhər, Babək və Şahbuz rayon prokurorluqlarının əməkdaşlarının iştirakı ilə "Hadisə yerinə baxış zamanı kriminalistika texnikasından istifadə qaydaları" mövzusunda seminar-məşğələ keçirilmişdir.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Prokurorluğunun İstintaq şöbəsinin rəisi Elşad Ağayev qeyd etdi ki, cinayət işinin istintaqı müstəntiqin işinin düzgün təşlik edilməsindən, ilk növbədə, hadisə yerinə baxışın mükəmməl təşkilindən asılıdır.Hadisə yerinə baxışda bu və ya digər dəlilin aşkar edilməsi, götürülməsi, düzgün qablaşdırılması, tədqiqat üçün göndərilməsi sahəsində yetərli kriminalistik biliyin olmaması istintaqın nəticələrinə çox ciddi təsir göstərir. Hər bir cinayətin izlərinin böyük əksəriyyəti hadisə yerində qalır.

Elşad Ağayev hadisə yerinə baxışın ümumi qaydaları və hadisə yerinə baxış zamanı aydınlaşdırılması vacib olan məsələlər barədə məlumat verərək qeyd etdi ki, cinayəti törədənin şəxsiyyətini, eləcə də onun digər hallarını müəyyən etmək üçün orada olan izlərin aşkar edilməsi, qeydə alınması, təsbit olunub götürülməsi və qablaşdırılması müstəsna əhəmiyyətə malikdir. Hadisə yerində əldə olunan və sübuta çevrilən məlumatların şəxsin təqsirinin müəyyənləşdirilməsində və məhkəmədə sübuta yetirilməsində rolu əvəzsizdir.

Qeyd olundu ki, hadisə yerinə baxış zamanı müstəntiq ilkin olaraq vəziyyətin təhlilinə, həmçinin, şahidlərin, ictimaiyyətin nümayəndələrindən daxil olan bilgilərə və istintaq orqanlarından alınan əməliyyat xarakterli məlumatlara əsaslanaraq, baş vermiş hadisə, cinayəti törətmiş şəxslər və cinayətin ayrı-ayrı epizodları üzrə fərziyələr irəli sürür. Hadisə yerinə baxış zamanı müstəntiqin kirimnalistika texnikasından istifadə məsələlərini bilməsi olduqca mühüm əhəmiyyət kəsb edir.

Sonda iştirakçılara Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Məkəzi tərəfindən hazırlanmış "Hadisə yerinə baxış zamanı kriminalistika texnikasından istifadəyə dair" metodiki vəsaitdən geniş istifadə olunması tövsiyə olunmuş, suallar cavablandırılmışdır.

***

# Babək prokurorluğunda "Prokurorluq orqanlarında qanunvericiliyin sistemləşdirilməsi işinin aparılması qaydaları" mövzusunda seminar keçirilmişdir

Mayın 14-də Babək rayon prokurorluğunda Babək, Culfa və Ordubad rayon prokurorluqlarının əməkdaşlarının iştirakı ilə "Prokurorluq orqanlarında qanunvericiliyin sistemləşdirilməsi işinin aparılması qaydaları" mövzusunda seminar-məşğələ keçirilmişdir.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsinin rəisi Faiq Səfərov qeyd etmişdir ki, cəmiyyətimiz inkişaf etdikcə yeni ictimai münasibətlər yaranır və nəticədə yeni qanunlar qəbul olunur və ya qüvvədə olan qanunvericiliyə müvafiq əlavə və dəyişikliklər edilir. Yeni qanunvericiliyin və ya qanunvericiliyə edilmiş əlavə və dəyişikliklərin öyrənilərək düzgün tətbiq edilməsi üçün qanunvericiliyin sistemləşdirilməsi işinin davamlı və müntəzəm aparılmasının əhəmiyyəti olduqca böyükdür. Prokurorluq orqanlarında qanunvericiliyin sistemləşdirilməsi Azərbaycan Respublikası Milli Məclisinin 22.04.1994-cü il tarixli 802 №-li qərarı ilə təsdiq edilmiş "Qanunvericlik sahələrinin ümumhüquqi təsnifatı", Azərbaycan Respublikasının digər qanunvericlik aktları, Azərbaycan Respublikası Baş prokurorunun 27.02.2001-ci il tarixli 02/45 №-li "Prokurorluq orqanlarında hüquqi təminat və qanunvericiliyin sistemləşdirilməsi işinin əsaslı yaxşılaşdı-

rılması tədbirləri haqqında" əmrinə və "Prokurorluq orqanlarında qanunvericiliyin sistemləşdirilməsinin aparılması Qaydaları haqqında" Təlimata əsasən aparılır.

Qeyd olunmuşdur ki, Muxtar Respublika Prokurorluğu və tabe rayon (şəhər) prokurorluqlarında bu vəzifəni həyata keçirən prokurorluq işçiləri, normativ hüquqi aktların kartotekasını aparır, Azərbaycan Respublikasının məcəllələrini nəzarət vəziyyətində saxlayır, əməliyyat işçiləri tərəfindən yeni qanunvericiliyin öyrənilməsini, normativ hüquqi aktların və hüquq ədəbiyyatının uçotu və mühafizəsini təmin edir. Normativ hüquqi aktların sistematik kartotekasının aparılması qanunvericiliyin uçotu vasitəsi ilə sistemləşdirlməsinin vacib formalarından biridir. Sistematik kartotekada Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası konstitusiyalarının, referendumda qəbul edilmiş aktların, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası qanunlarının, Azərbaycan Respublikası Prezidentinin fərmanlarının, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarının, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarlarının, Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarlarının və Azərbaycan Respublikası Baş prokuroru tərəfindən imzalanmış əsas əmr, göstəriş, məlumat məktublarının və təsdiq edilmiş Təlimatların uçotu aparılır. Rayon prokurorluğunda Azərbaycan Respublikasının bütün məcəllələrinin, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi qərarlarının, Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarlarının, Azərbaycan Respublikası Baş prokuroru tərəfindən imzalanmış əsas əmr, göstəriş, məlumat məktublarının və təsdiq edilmiş Təlimatların nəzarət nüsxələri aparılır və nəzarət nüsxələrində qanunvericiliyə edilmiş əlavə və dəyişikliklər öz əksini vaxtında tapmalıdır.

Bir daha qeyd olunmuşdur ki, prokurorluq orqanlarında qanunvericiliyin sistemləşdirlməsi işi təşkil edilərkən normativ hüquqi aktların və hüquq ədəbiyyatının tam uçotu aparılmalı və etibarlı mühafizəsi təşkil edilməli, normativ hüquqi aktların sistemləşdiriməsinə cavabdeh olan işçi işdən çıxdıqda və ya iş yerini dəyişdikdə normativ hüquqi aktlar yeni təyin edilən işçiyə aktla təhvil verilməli, normativ hüquqi aktlara əlavə və dəyişikliklər vaxtında edilməli və yeni qanunvericiliyin işçilər tərəfindən dərindən və ətraflı öyrənilməsi təmin edilməlidir. Qanunvericiliyin sistemləşdirilməsi işinə nəzarəti rayon prokuroru həyata keçirir, normativ hüquqi aktların mühafizəsinə isə qanunvericiliyin sistemləşdirilməsini aparan işçi cavabdehdir.

Sonda iştirakçılara Baş Prokurorluğun Hüquqi təminat və informasiya idarəsi tərəfindən hazırlanmış "Prokurorluq orqanlarında qanunvericiliyin sistemləşdirilməsi işinin aparılması haqqında" metodiki vəsaitdən geniş istifadə olunması tövsiyə olunmuş, onları maraqlandıran suallar cavablandırılmışdır.

***

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Milli Qurtuluş Gününə həsr olunmuş tədbir keçirilmişdir

İyunun 13-də Milli Qurtuluş Günü münasibəti ilə keçirilən tədbirdə Muxtar Respublika prokuroru Səbuhi Şahverdiyev çıxış edərək qeyd etmişdir ki, Azərbaycan xalqının taleyində böyük əhəmiyyət daşıyan elə günlər vardır ki, həmin günlərdə onun gələcək həyatını müəyyən edən böyük başlanğıcların əsası qoyulmuşdur. Müxtəlif tarixi hadisələrlə əlamətdar olan belə günlərdən biri də 15 iyun günüdür. Tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş bu gün onu qiymətləndirənlər, dərindən dərk edənlər üçün çox əzizdir. Milli Qurtuluş Günü sadəcə təqvim bayramı deyil, böyük ictimai-siyasi və tarixi əhəmiyyətə malik bir gündür. Vətənini, xalqını sevən, həmin çətin, ağrılı günlərin dəhşətlərini yaşayan, hadisələri gözləri ilə görən insanlar üçün 15 iyun əsl qurtuluş tarixi, Azərbaycan xalqının ölüm-dirim mübarizəsinin tarixidir. Bu tarixi yaradan isə Azərbaycanın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqına arxa-dayaq olan bir insanulu öndər Heydər Əliyevdir.

Tale elə gətirmişdir ki, müstəqilliyimizin ilk illəri-1992-1993-cü illər müasir tariximizə hərc-mərclik, özbaşınalıq dövrü kimi daxil olub. O dövrkü iqtidarın səriştəsizliyi ucbatından xal-

qın arzuları puça çıxmaq təhlükəsi ilə üz-üzə qalmışdı. O zaman bütün ölkə vətəndaşlarının nəzəri Azərbaycanın dövlət müstəqilliyi üçün böyük işlər həyata keçirilən Naxçıvana yönəlmişdir. Azərbaycan xalqı Heydər Əliyevin Naxçıvanda başladığı milli qurtuluş savaşının zəfər yürüşünü səbirsizliklə gözləyirdi. Həmin illərdə Naxçıvan ulu öndər Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanın müstəqillik hərəkatında bayraqdar rolunu öz üzərinə götürərək bu vəzifənin öhdəsindən ləyaqətlə gəldi.

Qeyd olundu ki, dövlət müstəqilliyini qanı və canı bahasına bərpa etmiş müdrik xalqımızın 1991-ci ildən 1993-cü ilin iyun ayınadək böyük sarsıntı və fəlakətləri öz taleyində yaşamaq məcburiyyətində qalması, ümumilikdə, dövlətin özünün gələcəyinin sual altında olması ilə şərtlənirdi. Xalqının çağırışına heç vaxt biganə qalmayan ulu öndər 1993-cü il iyunun 9-da Naxçıvandan respublika paytaxtına gəldi və iyunun 15-də Azərbaycan Respublikasının Milli Məclisinin sessiyasında Ali Sovetin sədri seçildi. Ümummilli lider Heydər Əliyevin respublika rəhbərliyinə bu qayıdışı siyasi-iqtisadi böhran içində boğulan Azərbaycanı böyük fəlakətlərdən xilas etdi. Bəli, indi bu fəaliyyətin nəticələri artıq hər birimizə bəllidir. 1991-1993-cü illərdə ölkəmizdəki anarxiya və xaotik proseslər göstərdi ki, yalnız Heydər Əliyev kimi qətiyyətli, iradəli siyasi lider Azərbaycanı bu bəlalardan xilas edə, yenicə əldə edilmiş müstəqilliyimizi yaşada bilər. Dövlət idarəçiliyindəki kobud səhvlərin məntiqi nəticəsi olaraq, ağır sosial-iqtisadi gərginliyin son həddə çatdığı, ölkənin vətəndaş müharibəsi ilə üz-üzə qaldığı, torpaqlarımızın itirildiyi, Azərbaycanın məhv olmaq ərəfəsində olduğu bir dövrdə xalqımızın ulu öndər Heydər Əliyevə üz tutması təsadüfi deyildi.

Vurğulandı ki, 1993-cü ilin iyun ayını Azərbaycanın dövlətçiliyi tarixində dönüş nöqtəsi kimi xarakterizə etmək olar. Belə bir vaxtda xalqın tələbi, o vaxt hakimiyyətdə olanların xahişi ilə Bakıya gələn ulu öndər Heydər Əliyev respublikanı düşdüyü iflic vəziyyətdən, məhv olma təhlükəsindən xilas etmişdir. İyunun 4-dən başlayaraq cərəyan etmiş hadisələrin mahiyyətini təhlil edərkən, vəziyyətin son dərəcə idarəolunmaz hala düşdüyünü göz önünə gətirərkən o dövrkü hakimiyyətin bacarıqsızlığı və qətiyyətsizliyi açıq-aydın görünür. Qısa müddətdə xalqımızın böyük oğlu Heydər Əliyev bütün hadisələrə nəzarət etməklə hər şeyi öz axarına yönəltmişdir. Xalq əmin idi ki, ulu öndər Heydər Əliyev Azərbaycanı düşdüyü bu vəziyyətdən qurtaracaq, ölkəmizi parçalanmaqdan, dövlətimizi məhv olmaqdan xilas edəcək. İyun hadisələrini hər dəfə xatırlayanda bir həqiqəti dərindən dərk edirsən ki, əgər bu hadisələrin qarşısı alınmasaydı Azərbaycan öz dövlətçiliyini itirəcəkdi.

Ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi xilaskarlıq missiyası nəticəsində Azərbaycan bir dövlət kimi müstəqilliyini itirmək təhlükəsindən qurtulmuş, Milli Ordu yaradılmış, atəşkəs elan olunmuş, ölkəmiz sürətli inkişaf yoluna çıxmışdır. Xalqımızın azad və müstəqil dövlət yaratmaq arzusu həqiqətə çevrilmişdir. Qazanılan müstəqilliyin əbədi olmasına çalışan, bunun üçün var qüvvəsini dövlətimizin inkişaf və tərəqqisinə sərf edən görkəmli dövlət xadimi Heydər Əliyev deyirdi: “Respublikamızda hüquqi dövlət qurulması, demokratik, sivilizasiyalı cəmiyyət yaradılması, insan azadlığının, söz, vicdan azadlığının, müasir plüralizmin təmin edilməsi, çoxpartiyalı sistemin bərqərar olması bizim əvvəldən qəbul etdiyimiz prinsiplərdir”. Azərbaycana ikinci rəhbərliyi dövründə cəmi on il müddətində ümummilli liderimiz əsrlərə sığmayan, dünya durduqca dəyərini itirməyən nəhəng və son dərəcə böyük işlər görmüşdür.

Vurğulandı ki, bu gün müstəqil Azərbaycan ulu öndər Heydər Əliyevin yolu ilə inamla irəliləyir. Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə sosial-iqtisadi, siyasi, mədəni həyatın bütün sahələrində uğur qazanılır, ulu məmləkətimiz gündən-günə inkişaf edir. Ulu öndər Heydər Əliyevin strateji inkişaf kursunu müasir mərhələyə uyğun zənginləşdirən dövlət başçısının yürütdüyü məqsədyönlü siyasət müasir Azərbaycanın şanlı tarixinə çevrilir. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan qədim Naxçıvan da sürətli inkişaf yolundadır. Muxtar respublikamızda Heydər Əliyev yolunun bütün sahələrdə böyük uğurla davam etdirilməsi nəticəsində diyarımız gündən-günə çiçəklənir, həyata keçirilən nəhəng quruculuq tədbirləri Naxçıvanın hərtərəfli inkişafını təmin edir. Bütün bunlar onu göstərir ki, muxtar respublika əhalisi ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olan sabitliyə və quruculuq işlərinə öz layiqli töhvəsini verməyə, nailiyyətləri daha da artırmağa çalışır. Blokada şəraitində olsa da, Naxçıvan yaşayır, sürətlə inkişaf edir. Bütün bunlar zamanın dahisi, böyük xilaskar Heydər Əliyev siyasətinin təntənəsidir. Müstəqil Azərbaycanın bu gün əldə etdiyi bütün uğurlara görə xalqımız ulu öndərin 1993-cü ildə Naxçıvandan Bakıya, ali hakimiyyətə qayıdışına-Milli Qurtuluş Gününə borcludur. Prokurorluq işçiləri olaraq biz də Milli Qurtuluşun Azərbaycan xalqına bəxş etdiyi sabitliyi, inkişafı, azadlığı və ən nəhayət dövlət müstəqilliyini hər cür qəsdlərdən qorumağa borcluyuq.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi**

# Baş Prokurorluğun əməkdaşları beynəlxalq təlim seminarında iştirak etmişlər



31 mart - 1 aprel tarixlərində Aşqabad şəhərində BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin (BMTNCİ) təşkilatçılığı ilə Elektron pullar və virtual valyutalar vasitəsilə cinayət yolu ilə əldə edilmiş gəlirlərin leqallaşdırılması ilə bağlı cinayətlərin aşkar olunması və araşdırılması mövzusunda regional təlim seminarı keçirilmişdir.

Azərbaycan, Gürcüstan, Türkmənistan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Tacikistanın hüquq-mühafizə və digər aidiyyəti qurumlarının və beynəlxalq ekspertlərin iştirak etdiyi seminar BMTNCİ-nin Mərkəzi Asiya və Cənubi Qafqaz dövlətlərində transmilli mütəşəkkil cinayətkarlığın mənşəyi, tranziti və hərəkət etmə istiqamətinin qarşısının alınması məqsədilə prokuror və mərkəzi orqanlar şəbəkəsinin müəyyən edilməsi və gücləndirilməsi təşəbbüsü çərçivəsində təşkil olunmuşdur.

Tədbirdə Azərbaycan Respublikasının Baş Prokurorluğu Beynəlxalq əlaqələr idarəsinin rəisi Erkin Əlixanov və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin rəisi Orxan İsayev tərəfindən təmsil edilmişdir.

Mövzu ilə bağlı çıxışlar edilmiş, Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələrində istifadə olunan yeni ödəniş üsulları, o cümlədən elektron pullar və virtual valyutalar, onların yaratdığı təhdidlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

Nümayəndə heyətimizin üzvləri tərəfindən mövzular üzrə təqdimatlar keçirilərək ölkəmizdə bu sahədə görülmüş işlər, o cümlədən qəbul edilmiş normativ hüquqi baza və tətbiq olunan təcrübə barədə seminar iştirakçılarına ətraflı məlumat verilmişdir.

**Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsi**

# Baş Prokurorluğun nümayəndə heyəti beynəlxalq tədbirdə iştirak etmişdir




İyunun 24-də Daşkənddə Özbəkistan Respublikası Baş Prokurorluğunun, Ali Məclisinin və BMT-nin İnkişaf proqramının Özbəkistandakı nümayəndəliyi tərəfindən təşkil olunmuş "Qəbul edilmiş qanunların icraçılara və əhaliyə çatdırılmasının beynəlxalq təcrübəsi: hüquqi tənzimləmə və praktiki amillər" mövzusunda beynəlxalq tədbir keçirilmişdir.

Azərbaycan Respublikası Prokurorluğunu Baş Prokurorluğun Hüquqi təminat və informasiya idarəsinin rəisi Natiq Hüseynov və Beynəlxalq əlaqələr idarəsinin rəisi Erkin Əlixanov təmsil etmişlər.

İclasda qəbul edilmiş qanunların əhaliyə səmərəli çatdırılmasını, əhalinin hüquqtənzimləyici sahədə hüquqi şüuru və hüquqi mədəniyyətinin yüksəldilməsini təmin edən təşkilati-hüquqi mexanizmlərin gələcəkdə təkmilləşdirilməsi üzrə təcrübə mübadiləsi və təkliflərin hazırlanması məsələləri, həmçinin dövlət və qeyri-dövlət orqanları tərəfindən əhalinin hüquqi maarifləndirilməsinin rolu ətrafında geniş müzakirələr aparılmışdır.

Tədbirdə Özbəkistanın qanunverici palatasının deputatları və Ali Məclis Senatının üzvləri, Konstitusiya, Ali və yuxarı təsərrüfat məhkəmələrinin, insan hüquqları üzrə milli mərkəzin nümayəndələri, Özbəkistanda akkreditə olunmuş beynəlxalq təşkilatlar və diplomatik korpusun nümayəndələri, Baş Prokurorluq, nazirliklər və idarələrin nümayəndələri, o cümlədən Azərbaycan, Çin, Rusiya, ABŞ, Koreya, İspaniya, Latviya, Polşa və Vyetnamdan olan alim, mütəxəssis və ekspertlər iştirak etmişlər.

Baş Prokurorluğun idarə rəisi Erkin Əlixanov Azərbaycan Respublikasında normativ-hüquqi aktların müvafiq qaydada icrası məqsədilə rəsmi şəkildə ictimaiyyətə çatdırılmasının vacibliyi mövzusunda çıxış edərək ölkəmizdə bu sahədə görülmüş nəzəri və praktiki işlər barədə iştirakçılara geniş məlumat vermişdir.

İclas konstruktiv, qarşılıqlı maraq doğuran atmosferdə davam etdirilmiş, tədbirin sonunda qəbul edilmiş qanunların icraçılara və əhaliyə çatdırılmasının hüquqi tənzimlənməsinin gələcəkdə təkmilləşdirilməsinə yönəldilmiş mexanizmlər üzrə tövsiyələr nəzərdən keçirilmişdir.

Tədbir çərçivəsində iştirakçılar "Adolat" nəşriyyatı və "Tasviriy oyna" yaradıcılıq birliyinin informasiya materiallarının ekspozisiyası ilə yanaşı Əlişir Nəvai adına Özbəkistan Milli kitabxanasının kitab fondunun hüquqi ədəbiyyat sərgisi ilə tanış olmuşlar.

**Baş Prokurorluğun**
**Beynəlxalq əlaqələr idarəsi**

# Baş Prokurorluğun nümayəndə heyəti Xorvatiya prokurorluğunda olmuşlar



Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəis müavini Əli Nağıyevin rəhbərlik etdiyi nümayəndə heyəti Xorvatiya Respublikası Baş Prokurorluğunun Mütəşəkkil Cinayətkarlıq və Korrupsiyaya qarşı Mübarizə Departamentinin (USKOK) dəvəti ilə aprelin 8-dən 10-dək Xorvatiyada səfərdə olmuşdur.

Tədbirlərdə Əli Nağıyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində kompleks, sistemli və ardıcıl islahatların həyata keçirildiyini, bu sahədə respublikamızın bir çox beynəlxalq təşkilatlar, ixtisaslaşmış qurumlarla ikitərəfli və çoxtərəfli müqavilələr əsasında qarşılıqlı və səmərəli əməkdaşlıq etdiyini, həmçinin korrupsiyaya qarşı qətiyyətli və səmərəli mübarizədə ölkəmizin öz müsbət təcrübəsini bölüşməyə hazır olduğunu bildirmişdir. Səfər çərçivəsində Xorvatiya Respublikasının Baş prokuroru Dinco Svitan, USKOK-un rəisi Tamara Laptos, eləcə də Ədliyyə Nazirliyinin, Korrupsiya və Mütəşəkkil Cinayətkarlığa qarşı Mübarizə Milli Polis Mərkəzinin məsul əməkdaşları ilə görüşlər keçirilmişdir.

Azərbaycan nümayəndə heyəti "USKOK-un strukturu və iş metodları barədə", "Şikayətçilərin qorunması və yeni antikorrupsiya strategiyası" və "Xüsusi dəlillərin toplanmasında polisin fəaliyyəti" mövzusunda keçirilmiş konfranslarda fəal iştirak etmiş, mövzular ətrafında səmərəli fikir mübadiləsi aparmışlar.

**Baş prokuror yanında
Korrupsiyaya qarşı
Mübarizə Baş İdarəsi**

# Beynəlxalq Prokurorlar Assosiasiyası ilə əməkdaşlıq uğurla davam etdirilir



Azərbaycan Respublikası Baş Prokurorluğunun və Hərbi Prokurorluğunun təşkilati, çoxlu sayda prokurorluq əməkdaşının isə fərdi üzvü olduğu, dünya prokurorlarını bir qurumda birləşdirən ilk və yeganə təşkilat olan Beynəlxalq Prokurorlar Assosiasiyası ilə əməkdaşlıq uğurla davam etdirilir.

Bu qurumla əməkdaşlıq çərçivəsində Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralovun dəvəti ilə ölkəmizdə səfərdə olan Beynəlxalq Prokurorlar Assosiasiyasının icraçi direktoru xanım Yanne Holst Hübner və Böyük Britaniya Kral Prokurorluq Xidmətinin idarə rəisi Hari Len Balç aprelin 27-də Fəxri xiyabana gələrək müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoyublar.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn qonaqlar ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş həmvətənlərimizin məzarı üzərinə tər çiçək dəstələri düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Daha sonra Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında nümayəndə heyəti ilə görüş keçirilib.

Görüşdə qonaqları salamlayan Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin üzvü, baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev ölkəmizdə Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq, korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş tədbirlər, müsbət iş təcrübəsi barədə ətraflı məlumat verib. Kamran Əliyev Baş prokurorun təşəbbüsü ilə Assosiasiyanın Antikorrupsiya alt domeninin yaradılması və bununla bağlı görüləcək işlərin Böyük Britaniya Krallığı Prokurorluğu Xidməti və Braziliyanın Baş Prokurorluğu ilə birgə Baş İdarəyə həvalə edilməsinin beynəlxalq qurumlar tərəfindən korrupsiyaya qarşı mübarizə sahəsində ölkəmizə verilən böyük önəmin təcəssümü olduğunu bildirib.

Xanım Yanne Hübner quruma fərdi üzv qəbul edilmiş prokurorluq əməkdaşlarına Assosiasiyanın üzvlük vəsiqələrini təqdim edib. Təmsil olunduğu qurumla Azərbaycan Prokurorluğu arasında sıx əməkdaşlıqdan məmnunluğunu ifadə edən qonaq ölkəmizin Assosiasiyanın fəaliyyətinə verdiyi mühüm töhfələri və görülən digər səmərəli işləri yüksək qiymətləndirib.

Sonra qonaqlar Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin milli memarlıq üslubunda və qabaqcıl standartlar səviyyəsində inşa edilmiş inzibati binasında normativ hüquqi aktlarla zəngin və digər dövlət qurumlarının elektron kitabxanalarına çıxışla təmin edilmiş kitabxana, müasir proqram təminatı ilə təchiz edilmiş 161 saylı "Qaynar xətt" əlaqə mərkəzi, dövlət orqanlarının məlumat bazalarına çıxışı olan informasiya-kommunikasiya şəbəkəsi və əməliyyatların idarə edilməsi mərkəzi ilə yaxından tanış olublar.



**Azərbaycan Respublikası Baş Prokurorluğunun və Hərbi Prokurorluğun təşkilati üzvü və çoxsaylı prokurorluq əməkdaşının fərdi üzvü olduğu, dünya prokurorlarını bir qurumda birləşdirən ilk və yeganə təşkilat olan Beynəlxalq Prokurorlar Assosiasiyası ilə səmərəli əməkdaşlıq davam etdirilir.**

Bu qurumla əməkdaşlıq çərçivəsində aprelin 8-9-da Bəhreyn Krallığının Manama şəhərində Beynəlxalq Prokurorlar Assosiasiyasının növbəti İllik Yaz İclasının sessiyası keçirilmişdir.

Sessiyada Bəhreyn Krallığının Baş prokuroru cənab doktor Əli Əlbinyanın dəvəti ilə Assosiasiyanın İcraiyyə Komitəsinin üzvü, Azərbaycan Respublikası Baş Prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev iştirak etmişdir.

Tədbirdə Assosiasiyanın rəhbər orqanların, o cümlədən təşkilatın Prezidentinin, Baş Katibinin və Baş Müşavirinin, İcraiyyə Komitəsi üzvlərinin hesabatları dinlənilmiş, növbəti il üçün qarşıda duran məsələlər müzakirə edilmişdir.

Həmçinin, 2014-cü ilin aprelin 8-də Beynəlxalq Prokurorlar Assosiasiyasının prezidenti, Avstriya Baş prokurorunun müavini Gerhard Yaroşun ölkəmizə səfəri zamanı Azərbaycan Respublikasının Baş prokuroru cənab Zakir Qaralovla görüşdə Beynəlxalq Prokurorlar Assosiasiyasının saytının Antikorrupsiya alt domeninin yaradılması və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən həmin domenin aparılması barədə əldə edilmiş razılaşmaya uyğun olaraq yaradılmış alt domen ilə əlaqədar Baş prokurorun müavini-Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev təqdimatla çıxış etmiş və belə bir məsul işin Böyük Britaniya Krallığı Prokurorluğu Xidməti və Braziliyanın Baş Prokurorluğu ilə birgə aparılmasının ölkəmizə həvalə edilməsini beynəlxalq aləm tərəfindən Azərbaycanda korrupsiyaya qarşı aparılan mübarizəyə verilən qiymətin, beynəlxalq etimadın təcəssümü olduğunu bildirmişdir.

Tədbirdə təşkilati və digər məsələlər müzakirə edilmiş, korrupsiyaya qarşı mübarizə və çirkli pulların yuyulmasına həsr edilmiş növbəti 20-ci illik Konfrans və Assosoasiyanin ali orqanı olan İclasin 13-17 sentyabr 2015-ci il tarixlərdə İsveçrənin Sürix şəhərində keçirilməsi qərara alınmışdır.

***

# Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlıq uğurla davam etdirilir

Mayın 14-dən 15-dək Kiyev şəhərində GUAM-ın Korrupsiya və çirkli pulların yuyulması ilə mübarizə üzrə işçi qrupunun növbəti iclası keçirilmişdir.

Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşlarının qatıldığı tədbirdə iştirakçı dövlətlərin nümayəndələri çirkli pulların yuyulması və korrupsiyaya qarşı mübarizə sahəsində mövcud vəziyyət barədə statistik məlumatlar təqdim etmiş, bu sahədə müsbət və mənfi dinamikaları təhlil edərək müvafiq dövlət orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması üçün təkliflər irəli sürmüşlər. Çirkli pulların yuyulmasında elektron valyutaların istifadəsi, təşkilata daxil olan ölkələrin milli antikorrupsiya qurumlarında həyata keçirilən struktur islahatlar ətrafında müzakirələr aparılmışdır.

Bundan başqa, mayın 18-dən 19-dək Xorvatiyanın paytaxtı Zaqreb şəhərində həmin ölkənin Ədliyyə Nazirliyinin dəstəyi ilə ATƏT və Regional Antikorrupsiya Təşəbbüsü və Təhlükəsizlik üzrə Əməkdaşlıq Mərkəzi tərəfindən təşkil edilmiş "Korrupsiyanın qarşısının alınması sahəsində səmərəli tədbirlər" mövzusunda beynəlxalq görüş keçirilmişdir.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşının təmsil olunduğu tədbirdə milli antikorrupsiya strategiyası üzrə monitorinqin metodikası, Cənub-Şərqi Avropa, Şərqi Avropa və Mərkəzi Asiya ölkələrində korrupsiyanın qarşısının alınması sahəsində əldə edilmiş uğurlar, həll olunmamış problemlər, habelə Şərqi Avropa və Mərkəzi Asiya ölkələrinin dövlət sektorunda korrupsiyanın qarşısının alınması və digər məsələlər ətrafında çıxışlar edilmişdir.

Qeyd edilən hər iki tədbirdə Azərbaycan Prokurorluğunun nümayəndələri Prezident cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş tədbirlər, "ASAN" xidmət mərkəzlərin fəaliyyəti barədə tədbir iştirakçılarına ətraflı məlumat vermişlər.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

# Azərbaycan Prokurorluğu korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığa önəm verir




Mayın 11-dən 14-dək Honq Konq şəhərində Çin Xalq Respublikasının Honq Konq xüsusi regionunun Müstəqil Anti-korrupsiya Komissiyasinin təşkilatçılığı ilə "Korrupsiyasız gələcək: bir məqsəd müxtəlif yanaşmalar" mövzusunda konfrans keçirilmişdir.

Tədbirdə Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak etmişdir.

BMT-nin Narkotiklər və Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinin (UNODC), Avropa Şurasının Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupunun (GRECO), Avropa Komissiyasının Dələduzluqla mübarizə üzrə Avropa Bürosunun (OLAF) və digər beynəlxalq təşkilatların, dünyanın qabaqcıl ölkələrinin müstəqil antikorrupsiya qurumlarının rəhbərlərinin və ekspertlərinin iştirak etdiyi tədbirdə Kamran Əliyev çıxış edərək Azərbaycan Prezidenti cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş kompleks tədbirlər barədə ətraflı məlumat vermişdir.

Tədbir çərçivəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəis müavini Əli Nağıyevin də təmsil olunduğu Azərbaycan nümayəndə heyəti Honq Konq Müstəqil Antikorrupsiya Komissiyasinin rəhbəri Simon YL Peh, Sinqapurun Korrupsiya İstintaq Bürosunun direktoru Vonq Honq Kuan və digər məsul şəxslərlə görüşlər keçirmişdir.

Görüşlərdə Simon YL Peh Azərbaycanın Avropa Şurasının Nazirlər Komitəsinə sədrliyi dövründə 2014-cü il iyunun 30-dan iyulun 1-dək Bakıda keçilmiş "Korrupsiyaya qarşı mübarizə: beynəlxalq standartlar və milli təcrübələr" mövzusunda beynəlxalq konfransa Honq Konq nümayəndə heyətinin dəvət edilməsinə və yüksək təşkilatçılığa görə təşəkkürünü bildirmişdir.

Korrupsiyanın qarşısının alınması sahəsində ikitərəfli əməkdaşlıq və qabaqcıl təcrübənin öyrənilməsi məqsədilə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməliyyat qurumunun əməkdaşlarının Honq Konq və Sinqapura səfəri məsələləri müzakirə edilmişdir.

Tədbir iştirakçılarına ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş tədbirləri, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin və beynəlxalq aləmdə Azərbaycan brendi kimi tanınan "Asan" xidmət mərkəzlərinin fəaliyyətini əks etdirən kitabçalar paylanmışdır.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU

**ƏMR**

**№ 10/41**

**Bakı şəhəri** **6 may 2015-ci il**

**"Nümayəndə heyətlərinin səfərlərinə dair Azərbaycan Respublikası Prokurorluğunun Protokol Qaydaları"nın təsdiq edilməsi barədə**

Ölkəmizdə müstəqillik əldə edildikdən sonra prokurorluq orqanlarında aparılan islahatların nəticəsi olaraq Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən xarici ölkələrin prokurorluqları, müvafiq qurumları və beynəlxalq təşkilatlarla işgüzar və institusional əlaqələr qurularaq anlaşma memorandumları və əməkdaşlıq proqramlarının imzalanması təmin edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 28 iyul 2004-cü il tarixli 97 nömrəli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikası Dövlət Protokolunun Əsas Qaydalarına müvafiq olaraq, yaranmış əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyini və nümayəndə heyətlərinin səfərlərinin vahid qaydalarla həyata keçirilməsi zərurəti nəzərə alınmaqla, beynəlxalq təcrübəyə və milli adət-ənənələrə əsaslanaraq, "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 6 və 10-cu maddələrini rəhbər tutaraq,

Ə M R E D İ R Ə M:

1. "Nümayəndə heyətlərinin səfərlərinə dair Azərbaycan Respublikası Prokurorluğunun Protokol Qaydaları" təsdiq edilsin (əlavə olunur).
2. Azərbaycan Respublikasının Baş prokurorun müavinləri və bütün struktur qurumların rəhbərləri qeyd olunan Qaydaların öyrənilməsini və onun tələblərinə əməl olunmasını təmin etsinlər.
3. Əmrin icrasına nəzarəti öz üzərimə götürürəm.
4. Əmr və Qaydalar elan və icra edilməsi üçün bütün struktur qurumlara, tabe prokurorluqlara göndərilsin və "Azərbaycan Prokurorluğu" jurnalında dərc edilsin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri Zakir Qaralov**

**Nümayəndə heyətlərinin səfərlərinə dair Azərbaycan Respublikası Prokurorluğunun Protokol Qaydaları**

**1. Ümumi müddəalar**

1.1. Nümayəndə heyətlərinin səfərlərinə dair Azərbaycan Respublikası Prokurorluğunun Protokol Qaydaları (bundan sonra "Qaydalar") Azərbaycan Respublikası Prezidentinin 28 iyul 2004-cü il tarixli 97 nömrəli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikası Dövlət Protokolunun Əsas Qaydalarına müvafiq hazırlanmışdır.
1.2. Qaydalar Azərbaycan Respublikası Baş Prokurorluğunun xətti ilə təşkil edilmiş nümayəndə heyətlərinin səfərləri ilə bağlı tədbirlərin qanunvericiliyə, qəbul olunmuş beynəlxalq təcrübəyə və milli adət-ənənələrə əsaslanaraq hazırlanmasına və həyata keçirilməsinə xidmət edir.
1.3. Qaydalara uyğun olaraq qeyd edilən səfərlərlə bağlı Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, xarici dövlətlərin və beynəlxalq təşkilatların Azərbaycan Respublikasındakı və Azərbaycan Respublikasının xarici dövlətlərdə və beynəlxalq təşkilatlar yanındakı aidiyyəti nümayəndəlikləri, Azərbaycan Respublikasının müvafiq dövlət orqanları ilə qarşılıqlı fəaliyyət həyata keçirilir.
1.4. Nümayəndə heyətlərinin səfərləri zamanı əməkdaşlıq haqqında sənədlərin imzalanması nəzərdə tutulduqda prosedurlar qanunvericiliyə uyğun həll edilir.
1.5. Azərbaycan Respublikasının Baş prokuroru, onun müavinləri tərəfindən rəhbərlik edilən nümayəndə heyətlərinin xarici dövlətlərə və xarici dövlətlərin Baş prokurorları, onlara bərabər tutulan şəxslər və onların müavinləri, habelə beynəlxalq təşkilatların rəhbərləri və ya onların müavinləri tərəfindən rəhbərlik edilən nümayəndə heyətlərinin Azərbaycan Respublikasına etdiyi səfərlər (səfərin proqramı, nümayəndə heyətinin tərkibi və səfərin nəticələri) barədə Azərbaycan Respublikasının Prezidentinə rəsmi hesabat təqdim edilir.
1.6. Xarici dövlətə edilən səfər barədə hesabat nümayəndə heyətinə rəhbərlik edən şəxs tərəfindən təqdim edilir.
1.7. Səfərin nəticələri barədə hesabat səfər başa çatdıqdan sonra ən geci beş gün müddətində təqdim edilir.
1.8. Nümayəndə heyətlərinin ölkəmizə səfərləri və Azərbaycan Respublikası Prokurorluğunun məsul işçilərinin xarici ölkələrə səfərləri, onların nəticələri ilə bağlı müvafiq məlumatlar kütləvi informasiya vasitələrində, prokurorluğun mətbu orqanlarında, digər nəşrlərində və internet səhifəsində dərc edilə bilər.
1.9. Nümayəndə heyətləri ilə görüşlərə və digər tədbirlərə cəlb edilmiş əməkdaşlar bir qayda olaraq, mülki geyimdə olmalıdırlar.

**2. Rəsmi nümayəndə heyətlərinin (xarici dövlətlərin baş prokurorlarının və onlara bərabər tutulan şəxslərin, onların müavinlərinin və digər məsul şəxslərin, habelə müvafiq beynəlxalq təşkilatların rəhbər heyətlərinin və digər məsul nümayəndələrinin) Azərbaycan Respublikasına səfərləri**

2.1. Xarici dövlətlərin baş prokurorları, onlara bərabər tutulan şəxslər və beynəlxalq təşkilatların rəhbərləri yüksək qonaq hesab edilirlər.
2.2. Rəsmi nümayəndə heyətlərinin Azərbaycan Respublikasına səfərləri Azərbaycan Respublikası Baş Prokurorluğunun dəvəti ilə Xarici İşlər Nazirliyinə məlumat verilərək proqram əsasında həyata keçirilir. Proqram hazırlanarkən qonaq tərəfinin təklifləri nəzərə alınır.
2.3. Rəsmi nümayəndə heyətlərinin səfərlərinə dair proqramda göstərilən tədbirlərin təmin olunması üçün icraya məsul olan şəxslərin göstərilməsi ilə işçi proqram hazırlanır.

2.4. Səfərlər və tədbirlərlə bağlı loqistik təminat, qonaqların qarşılanması və yolasalınması, mehmanxanada yerləşdirilməsi, nəqliyyat vasitələrinin ayrılması və səfər proqramında nəzərdə tutulmuş digər tədbirlərin keçirilməsində maliyyə məsələlərinin həlli Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada Azərbaycan Respublikası Baş Prokurorluğunun Maddi-texniki təminat şöbəsi tərəfindən həyata keçirilir.

2.5. Rəsmi nümayəndə heyətlərinin səfər proqramına Fəxri Xiyabanın və Şəhidlər Xiyabanının ziyarəti, danışıqlar, görüşlər, mətbuat konfransı, mədəni proqram, regionlara səfər və digər tədbirlər daxil edilə bilər.

2.6. Səfər zamanı yüksək qonaq Azərbaycan Respublikasının Prezidenti tərəfindən qəbul edildikdə qonaq tərəfi Azərbaycan Respublikasının Baş prokuroru müşayiət edir.

2.7. Yüksək qonaq Azərbaycan Respublikası Baş prokurorunun müavini tərəfindən, yüksək qonağın müavini isə Azərbaycan Respublikası Baş prokurorunun müəyyən etdiyi şəxs (şəxslər) tərəfindən qarşılanır. Rəsmi nümayəndə heyətinin yolasalınması qaydaları qarşılanmada olduğu kimidir. Qarşılanma və yolasalınma zamanı xarici dövlətin Azərbaycan Respublikasındakı Səfirliyinin (ölkəmizdə mövcud olduğu təqdirdə) nümayəndələri dəvət oluna bilər.

2.8. Nümayəndə heyəti müvafiq səviyyəyə uyğun olduqda qarşılanma və yolasalınma hava, dəniz limanının və ya dəmir yolu vağzalının VİP salonundan həyata keçirilir, səfər zamanı heyətin Xüsusi Dövlət Mühafizə Xidməti tərəfindən mühafizəsi və Yol Patrul Xidməti tərəfindən müşayiəti təşkil olunur.

2.9. Nümayəndə heyəti xarici ölkənin silahlı mühafizəçisi (mühafizəçilər) tərəfindən müşayiət olunduğu təqdirdə Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada müvafiq qurumun icazəsi alınmalıdır.

2.10. Rəsmi nümayəndə heyətlərinin tərkibində qadınların olduğu təqdirdə qarşılanma və yolasalınma zamanı onlara gül dəstələri təqdim edilə bilər.

2.11. Birinci şəxslə təmsil olunan qonaq tərəfi xanımı ilə gəldikdə, xanım üçün xüsusi səfər proqramı hazırlanır.

2.12. Rəsmi nümayəndə heyəti ilə Azərbaycan Respublikası Baş Prokurorluğunda görüş keçirilir və danışıqlar aparılır. Danışıqlar Azərbaycan Respublikasının Baş prokuroru və ya onun tapşırığı ilə müəyyən edilən şəxs tərəfindən aparılır və görüşdə iştirak edəcək şəxsləri də Baş prokuror müəyyən edir. Danışıqlar masası üzərinə Azərbaycan Respublikasının dövlət bayrağı və qonaq tərəfinin müvafiq bayrağı yerləşdirilir.

2.13. Azərbaycan Respublikasının Baş Prokurorluğunda həyata keçirilən görüş zamanı foto və videoçəkiliş aparıla, həmçinin kütləvi informasiya vasitələrinin nümayəndələri dəvət oluna bilər.

2.14. Nəzərdə tutulduğu təqdirdə danışıqlardan sonra müvafiq sənədlərin imzalanması mərasimi keçirilir.

2.15. Sənədlərin imzalanması mərasimi protokol qaydalarına uyğun həyata keçirilir (danışıqlar masasının üzərinə tərəflərin bayraqları yerləşdirilir, mürəkkəbli qələmlər, press-papyelər qoyulur, imzalanma mərasimi Azərbaycan və qonaq tərəfinin istifadə etdiyi dillərdən birində elan edilir, sənədlər xüsusi qovluqlarda imzalanmaya təqdim olunur, foto və video çəkiliş aparılır).

2.16. Rəsmi nümayəndə heyətlərinin Fəxri Xiyabana və Şəhidlər Xiyabanına ziyarətləri zamanı əklillər və gül dəstələri təşkil olunur, foto və video çəkiliş aparılır.

2.17. Yüksək qonağın ölkəmizə səfəri zamanı Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən qonağın şərəfinə ziyafət verilir.

2.18. Ziyafətə dəvət olunanlar masa arxasında qəbul olunmuş ümumi protokol qaydaları əsasında yerləşdirilir.

2.19. Qonaq tərəfi ilə əvvəlcədən əldə edilmiş ikitərəfli razılıq əsasında səfər zamanı onun adından protokol tədbiri keçirilə bilər.

2.20. Mədəni proqram çərçivəsində tarixi və mədəni abidələrlə tanışlıq və digər mədəniyyət ocaqlarına (muzey, teatr, sərgi və s.) ziyarət təşkil edilə bilər.

2.21. Səfər zamanı nümayəndə heyətlərinə hədiyyələr və xatirə suvenirləri təqdim oluna bilər.

**3. Yüksək qonaqların Azərbaycan Respublikasına yolüstü səfəri**

Əvvəlcədən əldə edilmiş razılıq əsasında, yolüstü səfər zamanı yüksək qonaqların (dayanacaq vaxtı nəzərə alınaraq) Azərbaycan Respublikasının Baş prokuroru və ya onun müavini ilə görüşü və ya digər tədbir keçirilə bilər.

**4. Yüksək qonaqların Azərbaycan Respublikasına qeyri-rəsmi səfəri**

4.1. Yüksək qonaqların Azərbaycan Respublikasına şəxsi məqsədlərlə səfərləri (turizm, ictimai xətlə konfrans və ya seminar, sərgi, idman və s. tədbirlərdə iştirak) qeyri-rəsmi səfərlər kateqoriyasına aid edilir.

4.2. Qeyri-rəsmi səfər zamanı yüksək qonaqları Azərbaycan Respublikası Baş prokurorunun müəyyən etdiyi şəxs (şəxslər) qarşılayır və yola salır. Hava, dəniz limanına və ya dəmir yol vağzalına xarici dövlətin Azərbaycan Respublikasındakı səfirliyinin (ölkəmizdə mövcud olduğu təqdirdə) nümayəndələri dəvət oluna bilər.

**5. Azərbaycan Respublikası Baş prokurorunun, onun müavinlərinin və Azərbaycan Respublikası Prokurorluğunun digər məsul əməkdaşlarının xarici ölkələrə səfərləri**

5.1. Azərbaycan Respublikası Baş prokurorunun, onun müavinlərinin və Azərbaycan Respublikası Prokurorluğunun digər məsul əməkdaşlarının xarici ölkələrə səfərləri, o cümlədən səfər proqramının hazırlanması, görüşlərin keçirilməsi, pasport-viza təminatı məsələlərinin həlli ilə bağlı Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, dəvət edən xarici dövlətin baş prokurorluqları və müvafiq beynəlxalq təşkilatlar, onların ölkəmizdəki nümayəndəlikləri və səfirliklərlə məsləhətləşmələr aparılır. Bu əlaqələrin həyata keçirilməsində diplomatik kanallara üstünlük verilir.

5.2. Azərbaycan Respublikası Prokurorluğunun məsul əməkdaşlarının xidməti pasportlarla təmin olunması “Pasportlar haqqında” Azərbaycan Respublikası Qanununun müddəalarına əsasən yalnız xidməti səfərlərə ezam olunduqları təqdirdə həyata keçirilir.

5.3. Azərbaycan Respublikası Prokurorluğunun məsul əməkdaşlarının xarici ölkələrə xidməti səfərlərə ezam olunduqları təqdirdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə əvvəlcədən məlumat verilir.

5.4. Məsul əməkdaşların xarici ölkələrə edilən xidməti səfərləri Azərbaycan Respublikası Prokurorluğunun hesabına olduqda maliyyə məsələləri Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada Maddi-texniki təminat şöbəsi tərəfindən həll edilir.

5.5. Azərbaycan Respublikası Prokurorluğunun məsul əməkdaşları xarici dövlətlərə ezamiyyətlərinin nəticələri barədə Azərbaycan Respublikasının Baş prokuroruna ən geci beş gün müddətində hesabat verirlər.

5.6. Azərbaycan Respublikası Baş prokurorunun, onun müavinlərinin və Azərbaycan Respublikası Prokurorluğunun digər məsul əməkdaşlarının xarici ölkələrə səfərləri zamanı xarici dövlətlərin və beynəlxalq təşkilatların rəsmi nümayəndələrinə hədiyyə və xatirə suvenirləri təqdim oluna bilər.

5.7. Səfərlərin nəticələrinə dair qəbul edən tərəfə müvafiq məktub göndərilə bilər.

**Beynəlxalq əlaqələr idarəsi**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsini "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 20 iyun tarixli 1010-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alır:

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, (II kitab), maddə 585; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddə 233, № 8, maddə 463; 2003, № 6, maddə 276; 2004, № 5, maddə 321, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761, № 11, maddə 890; 2005, № 1, maddə 4, № 4, maddə 278, № 6, maddə 462, № 8, maddə 686, № 10, maddə 874, № 12, maddə 1079; 2006, № 1, maddə 3, № 2, maddə 64, № 5, maddə 390, № 10, maddə 847, № 11, maddə 929, № 12, maddə 1032; 2007, № 2, maddələr 65, 68, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddə 1221; 2008, № 6, maddə 462, № 7, maddələr 606, 607, № 12, maddələr 1045, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 966; 2010, № 3, maddələr 171, 173, 178, № 7, maddə 593, № 12, maddə 1058; 2011, № 6, maddə 480, № 7, maddələr 589, 599; 2012, № 7, maddə 674, № 11, maddə 1062, № 12, maddə 1215; 2013, № 2, maddə 77, № 6, maddələr 616, 626, № 7, maddə 786, № 11, maddə 1265, № 12, maddə 1493; 2014, № 2, maddələr 90, 102, № 4, maddələr 328, 344, № 6, maddə 600, № 11, maddələr 1354, 1362) aşağıdakı dəyişikliklər edilsin:

1. 7.0.12-ci maddədən "birinci instansiya məhkəməsinin andlı iclasçıların iştirakı ilə çıxarılmış və ya" sözləri çıxarılsın.

2. 7.0.14-cü maddədən "və ya andlı iclasçıların iştirakı ilə" sözləri çıxarılsın.

3. 7.0.15-7.0.17-ci, 7.0.44-cü, 24-cü, 79-cu, 81.3-cü, 82-ci, 83-cü, 84.6.6-cı, 91.5.26-cı, 92.9.13-cü, 110-cu, 111-ci, 125.9-cu, 192-ci, 197.1.3-cü maddələr, XLVI fəsil və 408.2.1 - 408.2.3-cü maddələr ləğv edilsin.

4. 25-ci maddənin adından və 25.4-cü maddədən "və andlı iclasçıların" sözləri, 25.1-25.3-cü maddələrdən "və andlı iclasçılar" sözləri, 25.5-ci maddədən ", andlı iclasçılardan" sözləri çıxarılsın.

5. 28.3-cü maddədən "və ya andlı iclasçı" sözləri çıxarılsın.

6. 33.1-ci maddədən "və andlı iclasçılar" sözləri, 33.4-cü maddədən "və andlı iclasçıların" sözləri çıxarılsın.

7. 41.5-ci maddənin ikinci cümləsi çıxarılsın.

8. 42.1.4-cü maddənin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və 42.1.5-ci maddə ləğv edilsin.

9. 73.2-ci maddədən "və andlılar məhkəməsi" sözləri çıxarılsın.

10. 78.3-cü maddədən "andlı iclasçıların iştirakı ilə və ya" sözləri, 78.6-cı maddədən "və ya andlı iclasçının" sözləri çıxarılsın.

11. 80.4-cü maddədə "Andlı iclasçıların iştirakı ilə, habelə hakimlər" sözləri "Hakimlər" sözü ilə əvəz edilsin.

12. 81.1-ci maddənin birinci cümləsi çıxarılsın.

13. 95.2.4-cü maddədən "andlı iclasçı," sözləri çıxarılsın.

14. 99.2-ci maddədən "andlı iclasçılar," sözləri çıxarılsın.

15. 107.2-ci maddədən "andlı iclasçının," sözləri və "110," rəqəmləri, 107.3.3-cü maddədən ", yaxud andlı iclasçıya" sözləri, 107.4-cü maddədən "və ya andlı iclasçıya" sözləri, 107.8-ci maddədən ", andlı iclasçı" sözləri, 107.9-cu maddədən isə "və bu halda andlı iclasçı hakimdən əvvəl kənarlaşdırılmalıdır" sözləri çıxarılsın.

16. 107.7-ci maddənin ikinci cümləsindən "və ya andlı iclasçıya" sözləri çıxarılsın və həmin maddədə "müvafiq olaraq hakimə, yaxud andlı iclasçıya" sözləri "hakimə" sözü ilə əvəz edilsin.

17. 109.3.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"109.3.1. birinci instansiya məhkəməsində cinayət işinə, yaxud cinayət təqibi ilə bağlı digər materiala hakim tərəfindən təkbaşına baxıldıqda, hakimin özü-özünə və ya ona edilmiş etirazı - həmin məhkəmənin sədri;".

18. 112.4.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"112.4.2. cinayət işinə və ya cinayət təqibi ilə bağlı digər materiala hakim tərəfindən təkbaşına baxılması zamanı - məhkəmə iclasında sədrlik edən;".

19. 114.1.1-ci maddədən "andlı iclasçı ilə," sözləri, 114.1.2-ci maddədən "andlı iclasçı," sözləri çıxarılsın.

20. 116.3.1-ci maddədən "və ya andlılar məhkəməsinin iştirakı ilə" sözləri çıxarılsın.

21. 117.3.3-cü maddədən "və ya andlı iclasçıların iştirakı ilə" sözləri çıxarılsın.

22. 118.3.2-ci maddədən "və ya andlı iclasçılar tərəfindən" sözləri çıxarılsın.

23. 145.2-ci maddədən "və ya andlı iclasçılar" sözləri çıxarılsın.

24. 299.3.5-ci maddənin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və 299.3.6-cı maddə ləğv edilsin.

25. 301.2.7-ci maddədən "və müvafiq hallarda andlı iclasçılar kollegiyasının seçilməsində iştirak etmək üçün çağırılmalı olan andlı iclasçılarının sayının müəyyən edilməsi" sözləri çıxarılsın.

26. 346.1.11-ci maddədən "güzəşt edilməsi, həmin cinayətə görə nəzərdə tutulmuş cəzadan daha yüngül cəzanın təyin edilməsi haqqında andlı iclasçıların verdikti," sözləri çıxarılsın.

27. 381.2.3-381.2.5-ci maddələrdən "andlılar məhkəməsinin çıxardığı hökmlər istisna olmaqla," sözləri çıxarılsın.

28. 408.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"408.1. Kassasiya şikayəti və ya kassasiya protesti bu Məcəllədə nəzərdə tutulmuş qaydada və hallarda

apellyasiya instansiyası məhkəmələri tərəfindən çıxarılmış hökm və qərarlardan verilə bilər.".

29. 412.1-ci maddənin ikinci cümləsindən, 414.2-ci və 416.0-cı maddələrdən "birinci və ya" sözləri çıxarılsın.

30. 414.4-cü maddənin ikinci cümləsindən "birinci, yaxud" sözləri çıxarılsın.

31. 414.7-ci maddədən "müvafiq olaraq birinci və ya" sözləri çıxarılsın.

32. 416.0.9-cu maddədən "və ya andlı iclasçıların verdiktinə uyğun olaraq güzəşt edib yolverilməz" sözləri çıxarılsın.

33. 416.0.17-ci maddədə "107-118" rəqəmləri "107-109, 112-118" rəqəmləri ilə əvəz edilsin.

34. 419.7-ci, 419.10.4-cü, 419.12-ci, 419.12.4-cü, 419.12.5-ci maddələrdən "müvafiq olaraq birinci və ya " sözləri çıxarılsın.

35. 419.10.1-ci maddədən "müvafiq olaraq birinci və" sözləri çıxarılsın.

36. 419.10.2-ci maddədən "andlı iclasçıların iştirakı ilə birinci instansiya məhkəməsində və ya" sözləri çıxarılsın.

37. 420-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"420.1. Məhkəmənin hökmü və ya qərarı kassasiya qaydasında ləğv edildikdən sonra apellyasiya instansiyası məhkəməsində cinayət işinin, məhkəməyədək sadələşdirilmiş icraat materiallarının və ya xüsusi ittiham qaydasında şikayətin yenidən baxılması bu Məcəllənin 381 - 407-ci maddələrinə müvafiq olaraq aparılır.

420.2. Cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət apellyasiya instansiyası məhkəməsinə yeni məhkəmə baxışına göndərilərkən məhkumun vəziyyətini pisləşdirən qərar yalnız hökmün dövlət ittihamçısının kassasiya protesti və ya zərər çəkmiş şəxsin, yaxud onun nümayəndəsinin kassasiya şikayəti əsasında ləğv edildiyi halda qəbul edilə bilər.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 13 fevral 2015-ci il
№ 1194-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq qərara alır:

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, II kitab, maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12, I kitab, maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 6, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622) aşağıdakı dəyişikliklər edilsin:

1. 284.1-ci maddənin sanksiyasında "iki ildən beş ilədək" sözləri "üç ildən altı ilədək" sözləri ilə əvəz edilsin.

2. 284.2-ci maddənin sanksiyasında "üç ildən yeddi ilədək" sözləri "dörd ildən səkkiz ilədək" sözləri ilə əvəz edilsin.

3. Aşağıdakı məzmunda 284-1-ci maddə əlavə edilsin:

"Maddə 284-1. Dövlət sirri təşkil edən məlumatların qanunsuz əldə edilməsi

Dövlət sirri təşkil edən məlumatların, məzmununda dövlət sirri olan sənədlərin, habelə barəsindəki məlumatlar dövlət sirri olan əşyaların zor tətbiq etmək hədəsi ilə və ya zor tətbiq etməklə, hədə-qorxu və ya digər məcburetmə vasitələri ilə, talama, aldatma yolu ilə, yaxud məxfi məlumatların gizli əldə edilməsi üçün nəzərdə tutulmuş xüsusi və ya digər texniki vasitələrdən istifadə etməklə qanunsuz əldə edilməsi, dövlətə xəyanət və ya casusluq əlamətləri olmadıqda –

iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 6 mart 2015-ci il
№ 1231-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alır:

"Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 16, maddə 694; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 3, maddələr 171, 226, № 4, maddə 287; 1998, № 1, maddə 16; 2001, № 12, maddə 736; 2002, № 6, maddə 328, № 12, maddə 692; 2003, № 1, maddə 16; 2005, № 8, maddə 684; 2009, № 5, maddə 314, № 7, maddələr 512, 517; 2011, № 2, maddə 71, № 7, maddə 604; 2013, № 3, maddə 217, № 4, maddə 355) 22-ci maddəsinə aşağıdakı məzmunda dördüncü, beşinci və altıncı hissələr əlavə edilsin:

"Nəzarət markasının forması, uçotu, istifadəsi və verilməsi qaydaları, habelə nəzarət markasının alınmasına görə ödənilən haqqın məbləği müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Nəzarət markalarının alınmasına görə ödənilən vəsaitlər dövlət büdcəsinə köçürülür. Həmin vəsaitlərin dövlət büdcəsinə daxil olmasına nəzarət edilməsi və uçotunun aparılması qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Müvafiq icra hakimiyyəti orqanı nəzarət markalarının hazırlanmasını təmin edir.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 6 mart 2015-ci il
№ 1227-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq qərara alır:

"Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 16, maddə 694; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 3, maddələr 171, 226, № 4, maddə 287; 1998, № 1, maddə 16; 2001, № 12, maddə 736; 2002, № 6, maddə 328, № 12, maddə 692; 2003, № 1, maddə 16; 2005, № 8, maddə 684; 2009, № 5, maddə 314, № 7, maddələr 512, 517; 2011, № 2, maddə 71, № 7, maddə 604; 2013, № 3, maddə 217, № 4, maddə 355) 12-1-ci maddəsinin ikinci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci bənddə "Azərbaycan Respublikası Konstitusiyasının, bu Qanunun və digər qanunların pozulması, yaxud həmin qurumun" sözləri "onun" sözü ilə əvəz edilsin;

2. 9-cu bənddə "təqdim edilməsi tələbinə təkrarən" sözləri "təqdim edilməsinə dair həmin orqanın bir il ərzində iki yazılı tələbinə" sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 6 mart 2015-ci il
№ 1230-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq qərara alır:

"Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 11, maddə 387, № 12, maddə 454; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 3, maddə 226; 2001, № 11, maddə 683; 2002, № 8, maddə 463; 2004, № 2, maddə 57, № 5, maddə 321, № 8, maddə 598; 2005, № 4, maddə 278, № 6, maddə 464; 2006, № 3, maddə 225; 2007, № 11, maddələr 1049, 1053; 2010, № 4, maddə 276; 2012, № 5, maddə 414; 2014, № 11, maddə 1332) 16.3-cü maddəsində "Siyasi" sözü "Bu Qanunun 4-cü maddəsinin dördüncü hissəsi istisna olmaqla, siyasi" sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 6 mart 2015-ci il
№ 1229-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq qərara alır:

Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, №8, maddə 478; 2001, №12, maddə 736; 2002, №5, maddələr 237, 241; 2003, №1, maddə 11, №6, maddə 256, № 8, maddə 423; 2004, №2, maddə 59, №6, maddə 415, №10, maddə 761; 2006, №2, maddə 67, №6, maddə 478, №8, maddə 657, №11, maddə 932; 2007, №1, maddə 3, №8, maddə 745; 2008, №5, maddə 348, №6, maddə 460, №8, maddə 707, №12, maddə 1048; 2009, №2, maddə 36; 2012, №6, maddə 497; 2013, №6, maddə 621) 9-cu maddəsinin 3-cü hissəsinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Akvakultura təsərrüfatlarına məxsus torpaqlar aid olduqları torpaq kateqoriyasında saxlanılır və digər kateqoriyaya keçirilmir.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 6 mart 2015-ci il
№ 1221-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Su Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq qərara alır:

Azərbaycan Respublikasının Su Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 135; 1999, № 8, maddə 476; 2002, № 5, maddə 237; 2003, № 1, maddə 10; 2004, № 2, maddə 57; 2006, № 11, maddə 923; 2007, № 5, maddə 436, № 10, maddə 938; 2008, № 2, maddə 47; Azərbaycan Respublikasının 2014-cü il 16 dekabr tarixli 1129-IVQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 35-ci maddənin onuncu abzasına "balıqçılıq" sözündən sonra ", o cümlədən akvakultura" sözləri əlavə edilsin.

2. 36-cı maddə üzrə:

2.1. birinci hissədə "həvəskar balıq ovu" sözləri "balıq və digər su bioresurslarının həvəskar ovu" sözləri ilə əvəz edilsin;

2.2. ikinci hissədə "təbiəti mühafizə" sözləri "ətraf mühitin mühafizəsini" sözləri ilə, "balıq ehtiyatlarını" sözləri "balıq və digər su bioresurslarını" sözləri ilə əvəz edilsin;

2.3. üçüncü hissədə "balıq" sözündən sonra "və digər su bioresurslarının" sözləri əlavə edilsin;

2.4. beşinci hissənin ikinci cümləsində "balıq tutmaq" sözləri "balıq və digər su bioresurslarının ovu" sözləri ilə əvəz edilsin.

3. 66-cı maddə üzrə:

3.1. birinci hissədə "Balıq ehtiyatlarının yetişdirilməsi, artırılması və ovlanması üçün vətəgə əhəmiyyətli" sözləri "Balıq və digər su bioresurslarının ovu, toplanması və akvakultura üçün balıqçılıq" sözləri ilə əvəz edilsin;

3.2. ikinci hissədə "Balıqçılıq əhəmiyyətli sututarlarından və ya onların ayrı-ayrı sahələrindən" sözləri "Balıqçılıq su obyektlərindən" sözləri ilə əvəz edilsin;

3.3. üçüncü hissədə "balıq ehtiyatlarının" sözləri "balıq və digər su bioresurslarının" sözləri ilə, "balıq təsərrüfatı meliorasiya" sözləri "balıqçılıq təsərrüfatı meliorasiyası" sözləri ilə əvəz edilsin.

4. 67-ci maddənin adında, birinci və ikinci hissələrində "balıq yetişdirilməsi və ovlanması" sözləri "balıq və digər su bioresurslarının ovu və akvakultura" sözləri ilə əvəz edilsin.

5. 68-ci maddə üzrə:

5.1. adında "İdman və həvəskar balıq ovu" sözləri "Balıq və digər su bioresurslarının idman və həvəskar ovu" sözləri ilə əvəz edilsin;

5.2. birinci hissə aşağıdakı redaksiyada verilsin:

"Xüsusi mühafizə olunan təbiət əraziləri və balıqartırma təsərrüfatları istisna olmaqla, digər balıqçılıq su obyektlərindən bu Məcəlləyə və su obyeklərindən istifadəyə dair digər normativ hüquqi aktlara uyğun olaraq balıq və digər su bioresurslarının idman və həvəskar ovu üçün istifadə edilə bilər.";

5.3. ikinci hissədə "sututarları" sözü "dövlət mülkiyyətində olan balıqçılıq su obyektlərini" sözləri ilə əvəz edilsin;

5.4. üçüncü hissədə "idman və həvəskar balıq ovu" sözləri "balıq və digər su bioresurslarının idman və həvəskar ovu" sözləri ilə əvəz edilsin.

6. 69-cu maddə üzrə:

6.1. adından "əhəmiyyətli sututarlarda" sözləri çıxarılsın;

6.2. birinci cümlədə "Qiymətli balıq növlərinin, su heyvanlarının və bitkilərinin" sözləri "Qiymətli növ balıq və digər su bioresurslarının" sözləri ilə, "əhəmiyyətli sututarlarda" sözləri "balıqçılıq su obyektlərində" sözləri ilə əvəz edilsin;

6.3. ikinci cümlədə "sututarların" sözü "su obyektlərinin" sözləri ilə əvəz edilsin.

7. 70-ci maddə üzrə:

7.1. adında və birinci hissədə "əhəmiyyətli sututarlarda" sözləri "su obyektlərində" sözləri ilə əvəz edilsin;

7.2. birinci hissədə "balıq ehtiyatlarının" sözləri "balıq və digər su bioresurslarının" sözləri ilə əvəz edilsin;

7.3. ikinci hissədə "əhəmiyyətli sututarlardan" sözləri "su obyektlərindən" sözləri ilə əvəz edilsin.

8. 71-ci maddə üzrə:

8.1. adında "əhəmiyyətli sututarların" sözləri "su obyektlərinin" sözləri ilə əvəz edilsin;

8.2. birinci abzasda "əhəmiyyətli sututarlarda" sözləri "su obyektlərində" sözləri ilə əvəz edilsin.

9. 75-ci maddənin ikinci hissəsində "balıq tutmaq, ov etmək, su bitkiləri yığmaq" sözləri "balıq və digər su bioresurslarını ovlamaq və toplamaq" sözləri ilə əvəz edilsin.

10. 81-ci maddənin birinci hissəsində "balıq ehtiyatlarının" sözləri "balıq və digər su bioresurslarının" sözləri ilə əvəz edilsin.

11. 94-cü maddənin ikinci hissəsində "əhəmiyyətli sututarlarda" sözləri "su obyektlərində" sözləri ilə, "balıqların, digər su heyvanları və bitkilərinin" sözləri "balıq və digər su bioresurslarının" sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 6 mart 2015-ci il
№ 1220-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq qərara alır:

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, I kitab, maddə 584; 2001, № 1, maddə 24, № 3, maddə 139, № 7, maddə 455, № 11, maddələr 680, 698, № 12, maddə 731; 2002, № 1, maddə 9, № 4, I kitab, maddə 165, № 5, maddələr 234, 237, 239, № 6, maddə 326, № 8, maddə 463, № 12, maddə 692; 2003, № 1, maddələr 3, 13, 23, № 4, maddələr 177, 178, № 5, maddə 228, № 6, maddələr 257, 276, 279, № 8, maddələr 407, 425, № 12, I kitab, maddələr 676, 696, II kitab, maddələr 713, 714; 2004, № 1, maddələr 6, 7, 10, 13, № 4, maddələr 200, 201, 204, № 5, maddələr 313, 314, 317, 321, № 6, maddə 397, № 8, maddələr 596, 597, № 10, maddələr 762, 779, № 11, maddə 900, № 12, maddə 973; 2005, № 1, maddələr 5, 6, № 2, maddə 61, № 4, maddələr 272, 273, 275, 278, № 6, maddələr 462, 466, № 7, maddə 576, № 8, maddələr 691, 692, № 10, maddələr 875, 877, 904, № 11, maddələr 993, 994, 995, № 12, maddələr 1083, 1085; 2006, № 2, maddələr 64, 68, № 3, maddələr 219, 220, 223, 225, № 5, maddə 385, № 6, maddə 478, № 11, maddələr 923, 924, 932, № 12, maddələr 1005, 1020, 1024; 2007, № 1, maddələr 3, 4, № 2, maddələr 65, 68, № 5, maddələr 397, 398, 401, 440, № 6, maddələr 560, 561, 562, 579, № 8, maddə 757, № 10, maddələr 935, 936, 938, 940, № 11, maddələr 1048, 1049, 1053, 1070, 1077, 1080, 1089, 1091, № 12, maddələr 1195, 1211, 1217, 1218, 1221; 2008, № 2, maddə 47, № 3, maddələr 146, 152, 159, № 4, maddə 249, № 5, maddə 340, № 6, maddələr 454, 460, 461, 464, № 7, maddələr 601, 602, 605, № 8, maddələr, 699, 701, 711, № 10, maddələr 884, 885, № 11, maddələr 956, 957, № 12, maddələr 1045, 1047, 1049; 2009, № 2, maddələr 36, 45, 49, 52, 53, № 5, maddələr 309, 315, № 6, maddələr 404, 405, № 7, maddələr 517, 518, 519, № 8, maddə 611, № 12, maddələr 953, 954, 966, 971; 2010, № 2, maddələr 70, 71, № 3, maddələr 167, 171, 178, № 4, maddələr 275, 276, № 5, maddələr 379, 380, № 6, maddə 483, № 7, maddələr 577, 591, 594, 595, 598, 600, № 10, maddə 838, № 11, maddələr 936, 938, 949, № 12, maddə 1059; 2011, № 2, maddələr 70, 71, № 3, maddələr 162, 164, 167, 168, 170, № 4, maddələr 246,

254, № 6, maddələr 470, 479, 487, № 7, maddələr 596, 614, № 10, maddə 881, № 11, maddə 981, № 12, maddələr 1094, 1095, 1099, 1103, 1106; 2012, № 1, maddə 3, № 2, maddə 50, № 3, maddə 194, № 4, maddə 271, № 5, maddə 404, № 6, maddə 499, № 7, maddələr 649, 665, 667, № 9, maddə 843, № 11, maddələr 1046, 1047, 1055, 1064, 1069; 2013, № 1, maddələr 12, 13, 23, № 2, maddələr 90, 100, № 3, maddələr 205, 218, 220, 225, № 4, maddələr 354, 361, № 5, maddələr 461, 473, 480, № 6, maddələr 601, 617, 627, 629, № 7, maddə 777, № 8, maddə 888, № 11, maddələr 1287, 1294, 1300, 1304, 1311, № 12, maddələr 1471, 1480, 1496; 2014, № 1, maddə 2, № 2, maddələr 80, 91, 93, № 3, maddə 236, № 4, maddələr 326, 345, № 5, maddə 466, № 6, maddələr 599, 619, 621, № 7, maddələr 765, 776, 781, № 10, maddə 1147, № 11, maddə 1363; Azərbaycan Respublikasının 2014-cü il 16 dekabr tarixli 1139-IVQD nömrəli, 30 dekabr tarixli 1162-IVQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 90-cı maddənin adında, 90.1-ci və 108.0.4-cü maddələrdə "ölçü" sözü "ölçmə" sözü ilə əvəz edilsin.

2. 228.0.1-ci maddədən ", ölçü vasitələrinin tədavülə buraxılması və saxlanması" sözləri çıxarılsın.

3. 228.0.10-cu və 228.0.11-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"228.0.10. ölçmələrin vəhdətinin təmin edilməsinin dövlət tənzimlənməsinə aid olan sahədə ölçmələrin üzərinə yararsızlıq nişanı vurulmuş ölçmə vasitələrindən istifadə edilməklə aparılmasına;

228.0.11. ölçülüb qablaşdırılmış malların miqdarının bağlamanın üzərində göstərilmiş miqdardan yol verilən kənarlaşmasına dair məcburi tələblərə riayət edilməməsinə;".

4. 228.0.12-ci maddə ləğv edilsin.

5. Aşağıdakı məzmunda 317-1-ci maddə əlavə edilsin:

"Maddə 317-1. Ölçmələrin vəhdətinin təmin edilməsi tələblərinin pozulması

317-1.1. Ölçmələrin vəhdətinin təmin edilməsinin dövlət tənzimlənməsinə aid olan sahədə ölçmələrin tipi təsdiq edilməmiş və (və ya) yoxlamadan keçirilməmiş ölçmə vasitələrindən istifadə edilməklə aparılmasına və (və ya) ölçmələrin attestasiya edilməmiş ölçmə metodikaları (metodları) ilə yerinə yetirilməsinə görə -

vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək miqdarda, hüquqi şəxslər üç min manatdan dörd min manatadək miqdarda cərimə edilir.

317-1.2. Ölçmələrin vəhdətinin təmin edilməsinin dövlət tənzimlənməsinə aid olan sahədə istifadə üçün nəzərdə tutulan standart nümunənin və ya ölçmə vasitəsinin tipi təsdiq olunmadan və (və ya) ölçmə vasitəsinin ilkin yoxlamadan keçmədən tədavülə buraxılmasına görə -

vəzifəli şəxslər min manatdan min beş yüz manatadək miqdarda, hüquqi şəxslər iki min manatdan üç min manatadək miqdarda cərimə edilir.

317-1.3. Ölçmə vasitələrinin ölçmələrin nəticələrinin təhrif olunmasına səbəb ola bilən icazəsiz sazlanmasına və (və ya) ölçmə vasitələrinə müdaxilə edilməsinə görə -

vəzifəli şəxslər min manatdan iki min manatadək miqdarda, hüquqi şəxslər üç min manatdan dörd min manatadək miqdarda cərimə edilir.

317-1.4. Ölçmələrin vəhdətinin təmin edilməsinin dövlət tənzimlənməsinə aid olan sahədə ölçmənin tələb olunan dəqiqliyini təmin etməyən ölçmə vasitələrindən istifadə olunmasına görə -

vəzifəli şəxslər min manatdan iki min manatadək miqdarda, hüquqi şəxslər üç min manatdan dörd min manatadək miqdarda cərimə edilir.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 24 fevral 2015-ci il
№ 1208-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq qərara alır:

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, I kitab, maddə 584; 2001, № 1, maddə 24, № 3, maddə 139, № 7, maddə 455, № 11, maddələr 680, 698, № 12, maddə 731; 2002, № 1, maddə 9, № 4, I kitab, maddə 165, № 5, maddələr 234, 237, 239, № 6, maddə 326, № 8, maddə 463, № 12, maddə 692; 2003, № 1, maddələr 3, 13, 23, № 4, maddələr 177, 178, № 5, maddə 228, № 6, maddələr 257, 276, 279, № 8, maddələr 407, 425, № 12, I kitab, maddələr 676, 696, II kitab, maddələr 713, 714; 2004, № 1, maddələr 6, 7, 10, 13, № 4, maddələr 200, 201, 204, № 5, maddələr 313, 314, 317, 321, № 6, maddə 397, № 8, maddələr 596, 597, № 10, maddələr 762, 779, № 11, maddə 900, № 12, maddə 973; 2005, № 1, maddələr 5, 6, № 2, maddə 61, № 4, maddələr 272, 273, 275, 278, № 6, maddələr 462, 466, № 7, maddə 576, № 8, maddələr 691, 692, № 10, maddələr 875, 877, 904, № 11, maddələr 993, 994, 995, № 12, maddələr 1083, 1085; 2006, № 2, maddələr 64, 68, № 3, maddələr 219, 220, 223, 225, № 5, maddə 385, № 6, maddə 478, № 11, maddələr 923, 924, 932, № 12, maddələr 1005, 1020, 1024; 2007, № 1, maddələr 3, 4, № 2, maddələr 65, 68, № 5, maddələr 397, 398, 401, 440, № 6, maddələr 560, 561, 562, 579, № 8, maddə 757, № 10, maddələr 935, 936, 938, 940, № 11, maddələr 1048, 1049, 1053, 1070, 1077, 1080, 1089, 1091, № 12, maddələr 1195, 1211, 1217, 1218, 1221; 2008, № 2, maddə 47, № 3, maddələr 146, 152, 159, № 4, maddə 249, № 5, maddə 340, № 6, maddələr 454, 460, 461, 464, № 7, maddələr 601, 602, 605, № 8, maddələr, 699, 701, 711, № 10, maddələr 884, 885, № 11, maddələr 956, 957, № 12, maddələr 1045, 1047, 1049; 2009, № 2, maddələr 36, 45, 49, 52, 53, № 5, maddələr 309, 315, № 6, maddələr 404, 405, № 7, maddələr 517, 518, 519, № 8, maddə 611, № 12, maddələr 953, 954, 966, 971; 2010, № 2, maddələr 70, 71, № 3, maddələr 167, 171, 178, № 4, maddələr 275, 276, № 5, maddələr 379, 380, № 6, maddə 483, № 7, maddələr 577, 591, 594, 595, 598, 600, № 10, maddə 838, № 11, maddələr 936,

938, 949, № 12, maddə 1059; 2011, № 2, maddələr 70, 71, № 3, maddələr 162, 164, 167, 168, 170, № 4, maddələr 246, 254, № 6, maddələr 470, 479, 487, № 7, maddələr 596, 614, № 10, maddə 881, № 11, maddə 981, № 12, maddələr 1094, 1095, 1099, 1103, 1106; 2012, № 1, maddə 3, № 2, maddə 50, № 3, maddə 194, № 4, maddə 271, № 5, maddə 404, № 6, maddə 499, № 7, maddələr 649, 665, 667, № 9, maddə 843, № 11, maddələr 1046, 1047, 1055, 1064, 1069; 2013, № 1, maddələr 12, 13, 23, № 2, maddələr 90, 100, № 3, maddələr 205, 218, 220, 225, № 4, maddələr 354, 361, № 5, maddələr 461, 473, 480, № 6, maddələr 601, 617, 627, 629, № 7, maddə 777, № 8, maddə 888, № 11, maddələr 1287, 1294, 1300, 1304, 1311, № 12, maddələr 1471, 1480, 1496; 2014, № 1, maddə 2, № 2, maddələr 80, 91, 93, № 3, maddə 236, № 4, maddələr 326, 345, № 5, maddə 466, № 6, maddələr 599, 619, 621, № 7, maddələr 765, 776, 781, № 10, maddə 1147, № 11, maddə 1363; Azərbaycan Respublikasının 2014-cü il 16 dekabr tarixli 1139-IVQD nömrəli, 30 dekabr tarixli 1162-IVQD nömrəli qanunları) 187-1-ci və 187-2-ci maddələrinin sanksiyalarında “üç yüz manatdan beş yüz manatadək” sözləri “min beş yüz manatdan iki min beş yüz manatadək” sözləri ilə, “min manatdan iki min manatadək” sözləri “beş min manatdan səkkiz min manatadək” sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 24 fevral 2015-ci il
№ 1212-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsini “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2014-cü il 20 iyun tarixli 1010-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alır:

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, I kitab, maddə 584; 2001, № 1, maddə 24, № 3, maddə 139, № 7, maddə 455, № 11, maddələr 680, 698, № 12, maddə 731; 2002, № 1, maddə 9, № 4, I kitab, maddə 165, № 5, maddələr 234, 237, 239, № 6, maddə 326, № 8, maddə 463, № 12, maddə 692; 2003, № 1, maddələr 3, 13, 23, № 4, maddələr 177, 178, № 5, maddə 228, № 6, maddələr 257, 276, 279, № 8, maddələr 407, 425, № 12, I kitab, maddələr 676, 696, II kitab, maddələr 713, 714; 2004, № 1, maddələr 6, 7, 10, 13, № 4, maddələr 200, 201, 204, № 5, maddələr 313, 314, 317, 321, № 6, maddə 397, № 8, maddələr 596, 597, № 10, maddələr 762, 779, № 11, maddə 900, № 12, maddə 973; 2005, № 1, maddələr 5, 6, № 2, maddə 61, № 4, maddələr 272, 273, 275, 278, № 6, maddələr 462, 466, № 7, maddə 576, № 8, maddələr 691, 692, № 10, maddələr 875, 877, 904, № 11, maddələr 993, 994, 995, № 12, maddələr 1083, 1085; 2006, № 2, maddələr 64, 68, № 3, maddələr 219, 220, 223, 225, № 5, maddə 385, № 6, maddə 478, № 11, maddələr 923, 924, 932, № 12, maddələr 1005, 1020, 1024; 2007, № 1, maddələr 3, 4, № 2, maddələr 65, 68, № 5, maddələr 397, 398, 401, 440, № 6, maddələr 560, 561, 562, 579, № 8, maddə 757, № 10, maddələr 935, 936, 938, 940, № 11, maddələr 1048, 1049, 1053, 1070, 1077, 1080, 1089, 1091, № 12, maddələr 1195, 1211, 1217, 1218, 1221; 2008, № 2, maddə 47, № 3, maddələr 146, 152, 159, № 4, maddə 249, № 5, maddə 340, № 6, maddələr 454, 460, 461, 464, № 7, maddələr 601, 602, 605, № 8, maddələr, 699, 701, 711, № 10, maddələr 884, 885, № 11, maddələr 956, 957, № 12, maddələr 1045, 1047, 1049; 2009, № 2, maddələr 36, 45, 49, 52, 53, № 5, maddələr 309, 315, № 6, maddələr 404, 405, № 7, maddələr 517, 518, 519, № 8, maddə 611, № 12, maddələr 953, 954, 966, 971; 2010, № 2, maddələr 70, 71, № 3, maddələr 167, 171, 178, № 4, maddələr 275, 276, № 5, maddələr 379, 380, № 6, maddə 483, № 7, maddələr 577, 591, 594, 595, 598, 600, № 10, maddə 838, № 11, maddələr 936, 938, 949, № 12, maddə 1059; 2011, № 2, maddələr 70, 71, № 3, maddələr 162, 164, 167, 168, 170, № 4, maddələr 246 və 254, № 6, maddələr 470, 479, 487, № 7, maddələr 596, 614, № 10, maddə 881, № 11, maddə 981, № 12, maddələr 1094, 1095, 1099, 1103, 1106; 2012, № 1, maddə 3, № 2, maddə 50, № 3, maddə 194, № 4, maddə 271, № 5, maddə 404, № 6, maddə 499, № 7, maddələr 649, 665, 667, № 9, maddə 843, № 11, maddələr 1046, 1047, 1055, 1064, 1069; 2013, № 1, maddələr 12, 13, 23, № 2, maddələr 90, 100, № 3, maddələr 205, 218, 220, 225, № 4, maddələr 354, 361, № 5, maddələr 461, 473, 480, № 6, maddələr 601, 617, 627, 629, № 7, maddə 777, № 8, maddə 888, № 11, maddələr 1287, 1294, 1300, 1304, 1311, № 12, maddələr 1471, 1480, 1496; 2014, № 1, maddə 2, № 2, maddələr 80, 91, 93, № 3, maddə 236, № 4, maddələr 326, 345, № 5, maddə 466, № 6, maddələr 599, 619, 621, № 7, maddələr 765, 776, 781, № 10, maddə 1147, № 11, maddə 1363; Azərbaycan Respublikasının 2014-cü il 16 dekabr tarixli 1139-IVQD nömrəli, 30 dekabr tarixli 1162-IVQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 312-ci maddə ləğv edilsin.
2. 360.1-ci maddədə “309-315” rəqəmləri “309-311, 313-315” rəqəmləri ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 13 fevral 2015-ci il
№ 1192-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının Qanununu "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 20 iyun tarixli 1010-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alır:

"Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, (II kitab), maddə 585) 2-ci maddəsində "andlı iclasçılarına, habelə zərər çəkmiş şəxsə kompensasiya verilməsinə dair müddəaları məhkəmə hüquq islahatı başa çatdıqdan və" sözləri "zərər çəkmiş şəxsə kompensasiya verilməsi ilə bağlı 87.6.18-ci maddəsinin və XX fəslinin müddəaları" sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 13 fevral 2015-ci il
№ 1193-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq, "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununu "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 20 iyun tarixli 1008-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alır:

"Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 1, maddə 8, № 8, maddə 686; 2006, № 1, maddə 4; 2007, № 4, maddə 321; 2010, № 7, maddə 596; 2011, № 2, maddə 71, № 6, maddə 484; 2012, № 12, maddə 1228; 2013, № 12, maddə 1467; 2014, № 7, maddə 783; Azərbaycan Respublikasının 2014-cü il 30 dekabr tarixli 1169-IVQD nömrəli qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 10.1.8-ci maddə aşağıdakı redaksiyada verilsin:

"10.1.8. əmək qabiliyyətinin fasiləsiz olaraq altı aydan çox müddətə tam itirilməsi ilə əlaqədar vəzifəsini yerinə yetirə bilmədikdə; ".

2. Aşağıdakı məzmunda 11.0.4-3-cü maddə əlavə edilsin:

"11.0.4-3. hakim vəzifəsindən öz arzusu ilə azad olunaraq ədliyyə orqanlarında inzibati vəzifədə və ya prokurorluq orqanlarında prokurorluq işçisi kimi işləyən şəxs yenidən hakim vəzifəsinə təyin edilmək arzusunu bildirdikdə, onu müsahibədən keçirmək;".

3. 12.0.10-cu maddə ləğv edilsin.

4. Aşağıdakı məzmunda 12.0.26-1-ci maddə əlavə edilsin:

"12.0.26-1. birinci instansiya məhkəmələrinin maliyyə təminatı üçün nəzərdə tutulan xərclər barədə müvafiq icra hakimiyyəti orqanının təkliflərinə rəy vermək;".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 24 fevral 2015-ci il
№ 1203-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq qərara alır:

“Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 413; 1999, № 5, maddə 284, № 7, maddə 396, № 10, maddə 570; 2001, № 5, maddə 292, № 6, maddə 379, № 7, maddə 455; 2002, № 1, maddə 4, № 12, maddə 706; 2003, № 6, maddə 278; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 199, № 8, maddələr 597, 598, № 9, maddə 669; 2005, № 1, maddə 7, № 8, maddə 686; 2006, № 1, maddə 4, № 12, maddə 1005; 2007, № 5, maddələr 439, 446, № 7, maddə 712, № 11, maddə 1078, № 12, maddə 1222; 2008, № 3, maddə 163, № 7, maddə 609; 2009, № 2, maddə 46, № 11, maddə 878; 2010, № 7, maddə 596, № 10, maddə 842; 2011, № 4, maddə 265; 2013, № 1, maddə 21; 2014, № 2, maddə 85, № 7, maddələr 782, 784) aşağıdakı məzmunda 23-1-ci, 34-1-ci və 45-1-ci maddələr əlavə edilsin:

“Maddə 23-1. Rayon (şəhər) məhkəməsi sədrinin müavininin səlahiyyətləri

Rayon (şəhər) məhkəməsi sədrinin müavini məhkəmə iclaslarına sədrlik edir, rayon (şəhər) məhkəməsinin sədri tərəfindən müəyyən edilmiş məsələləri həll edir, sədrin tapşırığı ilə onun ayrı-ayrı səlahiyyətlərini həyata keçirir, sədr olmadıqda və ya öz vəzifələrini yerinə yetirə bilmədiyi müddətdə onu əvəz edir.

Maddə 34-1. Hərbi məhkəmə sədrinin müavininin səlahiyyətləri

Hərbi məhkəmə sədrinin müavini məhkəmə iclaslarına sədrlik edir, hərbi məhkəmənin sədri tərəfindən müəyyən edilmiş məsələləri həll edir, sədrin tapşırığı ilə onun ayrı-ayrı səlahiyyətlərini həyata keçirir, sədr olmadıqda və ya öz vəzifələrini yerinə yetirə bilmədiyi müddətdə onu əvəz edir.

Maddə 45-1. İnzibati-iqtisadi məhkəmə sədrinin müavininin səlahiyyətləri

İnzibati-iqtisadi məhkəmə sədrinin müavini məhkəmə iclaslarına sədrlik edir, inzibati-iqtisadi məhkəmənin sədri tərəfindən müəyyən edilmiş məsələləri həll edir, sədrin tapşırığı ilə onun ayrı-ayrı səlahiyyətlərini həyata keçirir, sədr olmadıqda və ya öz vəzifələrini yerinə yetirə bilmədiyi müddətdə onu əvəz edir.”.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 24 fevral 2015-ci il
№ 1202-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Cinayət Məcəlləsini “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2014-cü il 20 iyun tarixli 1010-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alır:

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, II kitab, maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12, I kitab, maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 6, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə

364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622) aşağıdakı dəyişikliklər edilsin:

1. 287-ci maddədən "andlı iclasçıların," sözləri çıxarılsın.

2. 288.1-ci maddədə "andlı iclasçıları, habelə onların" sözləri "habelə onun" sözləri ilə əvəz edilsin.

3. 289.2-ci maddədən "və ya andlı iclasçılar" sözləri çıxarılsın.

4. 301.1-ci maddədən "andlı iclasçılar," sözləri çıxarılsın.

5. 308-ci maddənin "Qeyd" hissəsinin 7-ci bəndindən "andlı iclasçılar" sözlərindən əvvəl "və ya yerli" sözləri çıxarılsın.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 13 fevral 2015-ci il
№ 1191-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq qərara alır:

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, II kitab, maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12, I kitab, maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 6, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622) aşağıdakı dəyişikliklər edilsin:

1. 250.1-ci və 252.2-ci maddələrdə "balıq ehtiyatlarına" sözləri "balıq və digər su bioresurslarına" sözləri ilə əvəz edilsin.

2. 256-cı maddə üzrə:

2.1. adında "Balıqları və başqa su heyvanlarını" sözləri "Balıq və digər su bioresurslarını" sözləri ilə əvəz edilsin;

2.2. 256.1-ci maddədə "Balıqların və ya başqa su heyvanlarının" sözləri "Balıq və digər su bioresurslarının" sözləri ilə əvəz edilsin;

2.3. 256.2.2-ci maddədə "balıqların, yaxud başqa su heyvanlarının" sözləri "balıq və digər su bioresurslarının" sözləri ilə əvəz edilsin.

3. 257-ci maddə üzrə:

3.1. adında "Balıq ehtiyatlarının" sözləri "Balıq və digər su bioresurslarının" sözləri ilə əvəz edilsin;

3.2. dispozisiyada "balıq ehtiyatlarının" sözləri "balıq və digər su bioresurslarının" sözləri ilə, "balıqların və ya digər su heyvanlarının" sözləri "balıq və digər su bioresurslarının" sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 6 mart 2015-ci il
№ 1222-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin 1-ci hissəsinin 17-ci bəndini rəhbər tutaraq qərara alır:

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, I kitab, maddə 584; 2001, № 1, maddə 24, № 3, maddə 139, № 7, maddə 455, № 11, maddələr 680, 698, № 12, maddə 731; 2002, № 1, maddə 9, № 4, I kitab, maddə 165, № 5, maddələr 234, 237, 239, № 6, maddə 326, № 8, maddə 463, № 12, maddə 692; 2003, № 1, maddələr 3, 13, 23, № 4, maddələr 177, 178, № 5, maddə 228, № 6, maddələr 257, 276, 279, № 8, maddələr 407, 425, № 12, I kitab, maddələr 676, 696, II kitab,

maddələr 713, 714; 2004, № 1, maddələr 6, 7, 10, 13, № 4, maddələr 200, 201, 204, № 5, maddələr 313, 314, 317, 321, № 6, maddə 397, № 8, maddələr 596, 597, № 10, maddələr 762, 779, № 11, maddə 900, № 12, maddə 973; 2005, № 1, maddələr 5, 6, № 2, maddə 61, № 4, maddələr 272, 273, 275, 278, № 6, maddələr 462, 466, № 7, maddə 576, № 8, maddələr 691, 692, № 10, maddələr 875, 877, 904, № 11, maddələr 993, 994, 995, № 12, maddələr 1083, 1085; 2006, № 2, maddələr 64, 68, № 3, maddələr 219, 220, 223, 225, № 5, maddə 385, № 6, maddə 478, № 11, maddələr 923, 924, 932, № 12, maddələr 1005, 1020, 1024; 2007, № 1, maddələr 3, 4, № 2, maddələr 65, 68, № 5, maddələr 397, 398, 401, 440, № 6, maddələr 560, 561, 562, 579, № 8, maddə 757, № 10, maddələr 935, 936, 938, 940, № 11, maddələr 1048, 1049, 1053, 1070, 1077, 1080, 1089, 1091, № 12, maddələr 1195, 1211, 1217, 1218, 1221; 2008, № 2, maddə 47, № 3, maddələr 146, 152, 159, № 4, maddə 249, № 5, maddə 340, № 6, maddələr 454, 460, 461, 464, № 7, maddələr 601, 602, 605, № 8, maddələr, 699, 701, 711, № 10, maddələr 884, 885, № 11, maddələr 956, 957, № 12, maddələr 1045, 1047, 1049; 2009, № 2, maddələr 36, 45, 49, 52, 53, № 5, maddələr 309, 315, № 6, maddələr 404, 405, № 7, maddələr 517, 518, 519, № 8, maddə 611, № 12, maddələr 953, 954, 966, 971; 2010, № 2, maddələr 70, 71, № 3, maddələr 167, 171, 178, № 4, maddələr 275, 276, № 5, maddələr 379, 380, № 6, maddə 483, № 7, maddələr 577, 591, 594, 595, 598, 600, № 10, maddə 838, № 11, maddələr 936, 938, 949, № 12, maddə 1059; 2011, № 2, maddələr 70, 71, № 3, maddələr 162, 164, 167, 168, 170, № 4, maddələr 246 və 254, № 6, maddələr 470, 479, 487, № 7, maddələr 596, 614, № 10, maddə 881, № 11, maddə 981, № 12, maddələr 1094, 1095, 1099, 1103, 1106; 2012, № 1, maddə 3, № 2, maddə 50, № 3, maddə 194, № 4, maddə 271, № 5, maddə 404, № 6, maddə 499, № 7, maddələr 649, 665, 667, № 9, maddə 843, № 11, maddələr 1046, 1047, 1055, 1064, 1069; 2013, № 1, maddələr 12, 13, 23, № 2, maddələr 90, 100, № 3, maddələr 205, 218, 220, 225, № 4, maddələr 354, 361, № 5, maddələr 461, 473, 480, № 6, maddələr 601, 617, 627, 629, № 7, maddə 777, № 8, maddə 888, № 11, maddələr 1287, 1294, 1300, 1304, 1311, № 12, maddələr 1471, 1480, 1496; 2014, № 1, maddə 2, № 2, maddələr 80, 91, 93, № 3, maddə 236, № 4, maddələr 326, 345, № 5, maddə 466, № 6, maddələr 599, 619, 621, № 7, maddələr 765, 776, 781, № 10, maddə 1147, № 11, maddə 1363; Azərbaycan Respublikasının 2014-cü il 16 dekabr tarixli 1139-IVQD nömrəli, 30 dekabr tarixli 1162-IVQD nömrəli qanunları) aşağıdakı məzmunda 65-3-cü maddə əlavə edilsin:

"Maddə 65-3. Sağlamlığın qorunması sahəsində vətəndaşların hüquqlarının pozulması

65-3.1. Tibb fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən dövlət tibb müəssisələrinin nizamnamələrində və ya özəl tibb fəaliyyəti sahəsində onlara verilmiş xüsusi razılıqda (lisenziyada) göstərilən işlər və xidmətlərdən kənar tibb fəaliyyətinin həyata keçirilməsinə görə -

fiziki şəxslər üç yüz manatdan beş yüz manatadək, vəzifəli şəxslər səkkiz yüz manatdan bir min manatadək, hüquqi şəxslər altı min manatdan səkkiz min manatadək miqdarda cərimə edilir.

65-3.2. Tibb işçiləri öz vəzifələrini yerinə yetirərkən, ixtisaslaşdırılmış tibbi yardımın göstərilməsi tələb olunan şəxsləri bu yardımı göstərən tibb müəssisələrinə göndərmədiklərinə görə - fiziki şəxslər iki yüz manatdan üç yüz manatadək, vəzifəli şəxslər beş yüz manatdan səkkiz yüz manatadək miqdarda cərimə edilir.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 24 fevral 2015-ci il
№ 1200-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununu "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 30 may tarixli 973-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alır:

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 413; 1999, № 5, maddə 284, № 7, maddə 396, № 10, maddə 570; 2001, № 5, maddə 292, № 6, maddə 379, № 7, maddə 455; 2002, № 1, maddə 4, № 12, maddə 706; 2003, № 6, maddə 278; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 199, № 8, maddələr 597, 598, № 9, maddə 669; 2005, № 1, maddə 7, № 8, maddə 686; 2006, № 1, maddə 4, № 12, maddə 1005; 2007, № 5, maddələr 439, 446, № 7, maddə 712, № 11, maddə 1078, № 12, maddə 1222; 2008, № 3, maddə 163, № 7, maddə 609; 2009, № 2, maddə 46, № 11, maddə 878; 2010, № 7, maddə 596, № 10, maddə 842; 2011, № 4, maddə 265; 2013, № 1, maddə 21; 2014, № 2, maddə 85, № 7, maddələr 782, 784; Azərbaycan Respublikasının 2014-cü il 30 dekabr tarixli 1168-IVQD nömrəli Qanunu) 113-cü maddəsinin ikinci hissəsinin 8-ci bəndində "vətəndaşlığından çıxdıqda" sözləri "vətəndaşlığına xitam verildikdə" sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 aprel 2015-ci il
№ 1236-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq, “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununu “Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2014-cü il 30 may tarixli 973-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alır:

“Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 56; Azərbaycan Respublikasının 2014-cü il 30 dekabr tarixli 1159-IVQD nömrəli Qanunu) 42.0.5-ci maddəsində “vətəndaşlığını itirdikdə” sözləri “vətəndaşlığına xitam verildikdə” sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 aprel 2015-ci il
№ 1249-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## “Polis haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq, “Polis haqqında” Azərbaycan Respublikasının Qanununu “Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2014-cü il 30 may tarixli 973-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alır:

“Polis haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 11, maddə 611; 2001, № 11, maddə 699, № 12, maddə 731; 2002, № 3, maddə 118, № 6, maddə 328; 2003, № 1, maddə 22, № 8, maddə 424; 2004, № 2, maddə 57, № 3, maddə 133; 2006, № 2, maddələr 74, 75, № 11, maddə 927; 2007, № 8, maddə 756; 2008, № 4, maddə 251, № 7, maddə 602, № 8, maddə 696, № 10, maddə 883; 2009, № 6, maddələr 399, 401; 2010, № 2, maddə 74, № 3, maddə 171; 2014, № 2, maddə 87, № 11, maddə 1360) 34-cü maddəsinin I hissəsinin 8-ci bəndində “vətəndaşlığından çıxdıqda” sözləri “vətəndaşlığına xitam verildikdə” sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 aprel 2015-ci il
№ 1239-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## “Konstitusiya Məhkəməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq, “Konstitusiya Məhkəməsi haqqında” Azərbaycan Respublikasının Qanununu “Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər

edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 30 may tarixli 973-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alır:

"Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 1, maddə 9, № 8, maddə 598, № 9, maddə 668; 2007, № 4, maddə 320, № 5, maddə 446, № 7, maddə 712, № 11, maddə 1078; 2008, № 6, maddə 470, № 7, maddə 608; 2010, № 7, maddə 590; 2011, № 4, maddə 266, № 11, maddə 982; 2012, № 6, maddə 521; 2014, № 2, maddə 84) 23.1.3-cü maddəsində "vətəndaşlığından çıxdıqda" sözləri "vətəndaşlığına xitam verildikdə" sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 aprel 2015-ci il
№ 1244-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 20-ci bəndini rəhbər tutaraq, "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununu "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 30 may tarixli 973-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alır:

"Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 882; 2006, № 2, maddə 65, № 11, maddə 925; 2008, № 8, maddə 699; 2013, № 6, maddə 596; 2014, № 7, maddə 762) 23.1.6-cı maddəsinə "müraciət etməsi" sözlərindən sonra "və ya barəsində "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikası Qanununun 18-ci maddəsinin müddəalarının tətbiqi ilə bağlı icraata başlanılması" sözləri əlavə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 aprel 2015-ci il
№ 1245-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndinə əsasən qərara alır:

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, II kitab, maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12, I kitab, maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 6, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673; № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4 maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95; № 4, maddə 327; № 6, maddələr 618, 622; Azərbaycan Respublikasının 2015-ci il 13 fevral tarixli 1191-IVQD nömrəli, 6 mart

tarixli 1222-IVQD və 1231-IVQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 194.1-ci maddənin dispozisiyasından “xeyli miqdarda” sözləri, sanksiyasından “və ya dörd ilədək müddətə azadlıqdan məhrum etmə” sözləri çıxarılsın.

2. Aşağıdakı məzmunda 194.1-1-ci maddə əlavə edilsin:

“194.1-1. Eyni əməllər xeyli miqdarda törədildikdə -

beş min manatdan yeddi min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.”.

3. 194.2-ci maddədə “194.1-ci maddəsində” sözləri “194.1 və ya 194.1-1-ci maddələrində” sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 aprel 2015-ci il
№ 1272-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndinə əsasən qərara alır:

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, I kitab, maddə 584; 2001, № 1, maddə 24, № 3, maddə 139, № 7, maddə 455, № 11, maddələr 680, 698, № 12, maddə 731; 2002, № 1, maddə 9, № 4, I kitab, maddə 165, № 5, maddələr 234, 237, 239, № 6, maddə 326, № 8, maddə 463, № 12, maddə 692; 2003, № 1, maddələr 3, 13, 23, № 4, maddələr 177, 178, № 5, maddə 228, № 6, maddələr 257, 276, 279, № 8, maddələr 407, 425, № 12, I kitab, maddələr 676, 696, II kitab, maddələr 713, 714; 2004, № 1, maddələr 6, 7, 10, 13, № 4, maddələr 200, 201, 204, № 5, maddələr 313, 314, 317, 321, № 6, maddə 397, № 8, maddələr 596, 597, № 10, maddələr 762, 779, № 11, maddə 900, № 12, maddə 973; 2005, № 1, maddələr 5, 6, № 2, maddə 61, № 4, maddələr 272, 273, 275, 278, № 6, maddələr 462, 466, № 7, maddə 576, № 8, maddələr 691, 692, № 10, maddələr 875, 877, 904, № 11, maddələr 993, 994, 995, № 12, maddələr 1083, 1085; 2006, № 2, maddələr 64, 68, № 3, maddələr 219, 220, 223, 225, № 5, maddə 385, № 6, maddə 478, № 11, maddələr 923, 924, 932, № 12, maddələr 1005, 1020, 1024; 2007, № 1, maddələr 3, 4, № 2, maddələr 65, 68, № 5, maddələr 397, 398, 401, 440, № 6, maddələr 560, 561, 562, 579, № 8, maddə 757, № 10, maddələr 935, 936, 938, 940, № 11, maddələr 1048, 1049, 1053, 1070, 1077, 1080, 1089, 1091, № 12, maddələr 1195, 1211, 1217, 1218, 1221; 2008, № 2, maddə 47, № 3, maddələr 146, 152, 159, № 4, maddə 249, № 5, maddə 340, № 6, maddələr 454, 460, 461, 464, № 7, maddələr 601, 602, 605, № 8, maddələr, 699, 701, 711, № 10, maddələr 884, 885, № 11, maddələr 956, 957, № 12, maddələr 1045, 1047, 1049; 2009, № 2, maddələr 36, 45, 49, 52, 53, № 5, maddələr 309, 315, № 6, maddələr 404, 405, № 7, maddələr 517, 518, 519, № 8, maddə 611, № 12, maddələr 953, 954, 966, 971; 2010, № 2, maddələr 70, 71, № 3, maddələr 167, 171, 178, № 4, maddələr 275, 276, № 5, maddələr 379, 380, № 6, maddə 483, № 7, maddələr 577, 591, 594, 595, 598, 600, № 10, maddə 838, № 11, maddələr 936, 938, 949, № 12, maddə 1059; 2011, № 2, maddələr 70, 71, № 3, maddələr 162, 164, 167, 168, 170, № 4, maddələr 246 və 254, № 6, maddələr 470, 479, 487, № 7, maddələr 596, 614, № 10, maddə 881, № 11, maddə 981, № 12, maddələr 1094, 1095, 1099, 1103, 1106; 2012, № 1, maddə 3, № 2, maddə 50, № 3, maddə 194, № 4, maddə 271, № 5, maddə 404, № 6, maddə 499, № 7, maddələr 649, 665, 667, № 9, maddə 843, № 11, maddələr 1046, 1047, 1055, 1064, 1069; 2013, № 1, maddələr 12, 13, 23, № 2, maddələr 90, 100, № 3, maddələr 205, 218, 220, 225, № 4, maddələr 354, 361, № 5, maddələr 461, 473, 480, № 6, maddələr 601, 617, 627, 629, № 7, maddə 777, № 8, maddə 888, № 11, maddələr 1287, 1294, 1300, 1304, 1311, № 12, maddələr 1471, 1480, 1496; 2014, № 1, maddə 2, № 2, maddələr 80, 91, 93, № 3, maddə 236, № 4, maddələr 326, 345, № 5, maddə 466, № 6, maddələr 599, 619, 621, № 7, maddələr 765, 776, 781, № 10, maddə 1147, № 11, maddə 1363; Azərbaycan Respublikasının 2014-cü il 16 dekabr tarixli 1139-IVQD nömrəli, 30 dekabr tarixli 1162-IVQD nömrəli, 2015-ci il 13 fevral tarixli 1192-IVQD nömrəli, 24 fevral tarixli 1200-IVQD, 1208-IVQD, 1212-IVQD və 1215-IVQD nömrəli, 6 mart tarixli 1223 IVQD nömrəli qanunları) 234-cü maddəsi ləğv edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 aprel 2015-ci il
№ 1273-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alır:

"Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 564; 2001, № 5, maddə 298, № 11, maddələr 676, 698; 2002, № 1, maddə 9, № 8, maddə 463; 2003, № 8, maddə 424; 2004, № 2, maddə 57, № 11, maddə 901; 2005, № 4, maddə 277, № 10, maddə 874, № 11, maddə 993; 2006, № 12, maddə 1027; 2007, № 6, maddə 560, № 11, maddələr 1053, 1091; 2008, № 2, maddə 49, № 6, maddələr 453, 463, № 7, maddə 602; 2009, № 2, maddə 47, № 4, maddə 210, № 12, maddə 948; 2010, № 7, maddə 598; 2011, № 2, maddə 71, № 4, maddə 255, № 6, maddə 469, № 12, maddə 1097; 2012, № 5, maddə 402, № 7, maddə 671; 2013, № 4, maddələr 362, 363, № 7, maddə 795, № 11, maddələr 1295, 1298; 2014, № 4, maddələr 343, 346, № 5, maddə 467, № 11, maddə 1352; 2015, № 1, maddə 2, № 2, maddələr 76, 79, 105) aşağıdakı məzmunda 9-1-ci maddə əlavə edilsin:

"Maddə 9-1. Piyada keçidləri arasında məsafə və yerüstü və ya yeraltı keçidlərin tikilməsi

I. Avtomobil yollarında piyada keçidləri təhsil, səhiyyə, iri ticarət (xidmət, istehsalat) müəssisələrinin, nəqliyyatın dayanacaq məntəqələrinin, idman, istirahət və turizm obyektlərinin və insanların kütləvi toplaşdığı digər obyektlərin yaxınlığında olmalıdır. Piyada zolağında hərəkətin svetoforla nizamlanması vacib olan hallar müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

II. Avtomagistralların yaşayış məntəqələrindən keçən hissələrində yerüstü və ya yeraltı keçidlər arasında məsafə 400-800 metr, digər avtomobil yollarının yaşayış məntəqələrindən keçən hissələrində isə piyada keçidləri arasında məsafə 150-300 metr (yolayrıcıları arasında daha az məsafə olduğu hallar istisna olmaqla) olmalıdır.

III. Avtomobil yollarında yerüstü və ya yeraltı keçidlər aşağıdakı hallarda tikilməlidir:

1. avtomagistrallarda - bu Qanunun 9-1-ci maddəsinin I və II hissələri nəzərə alınmaqla;

2. digər avtomobil yollarında - nəqliyyat vasitələrinin hərəkət şiddəti 300 avtomobil/saatdan, piyadaların hərəkət şiddəti 3000 adam/saatdan və yolun hərəkət hissəsinin eni 14 metrdən çox olduqda.

IV. Bu Qanunun 9-1-ci maddəsinin III hissəsinin 2-ci bəndində nəzərdə tutulan avtomobil yollarında yerüstü və ya yeraltı keçidlərin tikilməsi vacib olan digər hallar müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 aprel 2015-ci il
№ 1261-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq qərara alır:

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, (II kitab), maddə 585; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddə 233, № 8, maddə 463; 2003, № 6, maddə 276; 2004, № 5, maddə 321, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761, № 11, maddə 890; 2005, № 1, maddə 4, № 4, maddə 278, № 6, maddə 462, № 8, maddə 686, № 10, maddə 874, № 12, maddə 1079; 2006, № 1, maddə 3, № 2, maddə 64, № 5, maddə 390, № 10, maddə 847, № 11, maddə 929, № 12, maddə 1032; 2007, № 2, maddələr 65, 68, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddə 1221; 2008, № 6, maddə 462, № 7, maddələr 606, 607, № 12, maddələr 1045, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 966; 2010, № 3, maddələr 171, 173, 178, № 7, maddə 593, № 12, maddə 1058; 2011, № 6, maddə 480, № 7, maddələr 589, 599; 2012, № 7, maddə 674, № 11, maddə 1062, № 12, maddə 1215; 2013, № 2, maddə 77, № 6, maddələr 616, 626, №7, maddə 786, № 11, maddə 1265, № 12, maddə 1493; 2014, № 2, maddələr 90, 102, № 4, maddələr 328, 344, № 6, maddə 600, № 11, maddə 1362; Azərbaycan Respublikasının 2015-ci il 13 fevral tarixli 1194-IVQD nömrəli Qanunu) 215.3.1-ci maddəsinə "318-1," rəqəmlərindən sonra "318-2," rəqəmləri əlavə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 aprel 2015-ci il
№ 1275-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq qərara alır:

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, №4, II kitab, maddə 251, №5, maddə 323, №12, maddə 835; 2001, №1, maddə 24, №7, maddə 455; 2002, №1, maddə 9, №5, maddələr 236, 248, 258, №6, maddə 326, №8, maddə 465; 2003, №6, maddələr 276, 279, № 8, maddələr 424, 425, №12, I kitab, maddə 676; 2004, №1, maddə 10, №4, maddə 200, №5, maddə 321, №8, maddə 598, №10, maddə 762, №11, maddə 900; 2005, №1, maddə 3, №6, maddə 462, №7, maddə 575, №10, maddə 904, №11, maddə 994; 2006, №2, maddələr 71, 72, 75, №5, maddə 390, №12, maddələr 1008, 1020, 1028; 2007, №2, maddə 68, №5, maddə 398, №6, maddələr 560, 562, 579, №8, maddə 757, №10, maddələr 937, 941, №11, maddələr 1049, 1080, 1090, №12, maddə 1221; 2008, №6, maddələr 454, 461, №7, maddə 602, №10, maddə 884, №12, maddələr 1047, 1049; 2009, №5, maddə 315, №7, maddə 517, №12, maddə 953; 2010, №2, maddə 70, №3, maddələr 171, 178, №4, maddələr 275, 276, №7, maddə 591; 2011, №4, maddə 253, №6, maddə 472, №7, maddələr 587, 601, 621, №11, maddə 980, №12, maddə 1093; 2012, №2, maddə 45, №3, maddələr 193, 196, №7, maddələr 666, 669, 673; №11, maddə 1068, №12, maddə 1223; 2013, №1, maddə 14, №2, maddə 102, №4 maddə 364, №5, maddələr 459, 479, 481, №6, maddələr 594, 600, №11, maddələr 1264, 1286, 1312, №12, maddə 1492; 2014, №2, maddələr 89, 95, №4, maddə 327, №6, maddələr 618, 622; Azərbaycan Respublikasının 2015-ci il 13 fevral tarixli 1191-IVQD nömrəli, 6 mart tarixli 1222-IVQD və 1231-IVQD nömrəli qanunları) aşağıdakı məzmunda 318-2-ci maddə əlavə edilsin:

"Maddə 318-2. Xarici dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan Respublikasının vətəndaşı tərəfindən bu barədə məlumatın verilməməsi

Xarici dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan Respublikasının vətəndaşı tərəfindən bu barədə müvafiq icra hakimiyyəti orqanına bir ay müddətində yazılı məlumatın verilməməsi -

üç min manatdan beş min manatadək miqdarda cərimə və ya üç yüz altmış saatdan dörd yüz səksən saatadək ictimai işlər ilə cəzalandırılır.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 aprel 2015-ci il
№ 1274-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 94-cü maddəsinin 1-ci hissəsinin 17-ci bəndini rəhbər tutaraq qərara alır:

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, №4, II kitab, maddə 251, №5, maddə 323, №12, maddə 835; 2001, №1, maddə 24, №7, maddə 455; 2002, №1, maddə 9, №5, maddələr 236, 248, 258, №6, maddə 326, №8, maddə 465; 2003, №6, maddələr 276, 279, №8, maddələr 424, 425, №12, I kitab, maddə 676; 2004, №1, maddə 10, №4, maddə 200, №5, maddə 321, №8, maddə 598, №10, maddə 762, № 11, maddə 900; 2005, №1, maddə 3, №6, maddə 462, №7, maddə 575, №10, maddə 904, №11, maddə 994; 2006, №2, maddələr 71, 72, 75, №5, maddə 390, №12, maddələr 1008, 1020, 1028; 2007, №2, maddə 68, №5, maddə 398, №6, maddələr 560, 562, 579, №8, maddə 757, №10, maddələr 937, 941, №11, maddələr 1049, 1080, 1090, №12, maddə 1221; 2008, №6, maddələr 454, 461, №7, maddə 602, №10, maddə 884, №12, maddələr 1047, 1049; 2009, №5, maddə 315, №7, maddə 517, №12, maddə 953; 2010, №2, maddə 70, №3, maddələr 171, 178, №4, maddələr 275, 276, №7, maddə 591; 2011, №4, maddə 253, №6, maddə 472, №7, maddələr 587, 601, 621, №11, maddə 980, №12, maddə 1093; 2012, №2, maddə 45, №3, maddələr 193, 196, №7, maddələr 666, 669, 673, №11, maddə 1068, №12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; Azərbaycan Respublikasının 2015-ci il 13 fevral tarixli 1191-IVQD nömrəli, 6 mart tarixli 1222-IVQD və 1231-IVQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 314-2-ci maddənin adında "Qanunvericiliklə" sözü "Qanunla" sözü ilə əvəz edilsin.

2. 314-2.1-ci və 314-2.2-ci maddələrin dispozisiyasında "Qanunvericiliklə müəyyən olunmuş qaydaları" sözləri "Ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl qaydaları və yaşayış məntəqələrində yanaşı sahələrdə tikinti aparılmasının əsas şərtlərini" sözləri ilə əvəz edilsin və həmin maddələrə "icazə vermə" sözlərindən sonra ", yaxud barəsində məlumatlandırma icraatı tətbiq edilən tikililərlə bağlı irad təqdim etməmə" sözləri əlavə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 aprel 2015-ci il
№ 1263-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 17-ci bəndlərini rəhbər tutaraq qərara alır:

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, №4, II kitab, maddə 251, №5, maddə 323, №12, maddə 835; 2001, №1, maddə 24, №7, maddə 455; 2002, №1, maddə 9, №5, maddələr 236, 248, 258, №6, maddə 326, №8, maddə 465; 2003, №6, maddələr 276, 279, № 8, maddələr 424, 425, №12, I kitab, maddə 676; 2004, №1, maddə 10, №4, maddə 200, №5, maddə 321, №8, maddə 598, №10, maddə 762, №11, maddə 900; 2005, №1, maddə 3, №6, maddə 462, №7, maddə 575, №10, maddə 904, №11, maddə 994; 2006, №2, maddələr 71, 72, 75, №5, maddə 390, №12, maddələr 1008, 1020, 1028; 2007, №2, maddə 68, №5, maddə 398, №6, maddələr 560, 562, 579, №8, maddə 757, №10, maddələr 937, 941, №11, maddələr 1049, 1080, 1090, №12, maddə 1221; 2008, №6, maddələr 454, 461, №7, maddə 602, №10, maddə 884, №12, maddələr 1047, 1049; 2009, №5, maddə 315, №7, maddə 517, №12, maddə 953; 2010, №2, maddə 70, №3, maddələr 171, 178, №4, maddələr 275, 276, №7, maddə 591; 2011, №4, maddə 253, №6, maddə 472, №7, maddələr 587, 601, 621, №11, maddə 980, №12, maddə 1093; 2012, №2, maddə 45, №3, maddələr 193, 196, №7, maddələr 666, 669, 673; №11, maddə 1068, №12, maddə 1223; 2013, №1, maddə 14, №2, maddə 102, №4, maddə 364, №5, maddələr 459, 479, 481, №6, maddələr 594, 600, №11, maddələr 1264, 1286, 1312, №12, maddə 1492; 2014, № 2, maddələr 89, 95; №4, maddə 327; №6, maddələr 618, 622; Azərbaycan Respublikasının 2015-ci il 13 fevral tarixli 1191-IVQD nömrəli, 6 mart tarixli 1222-IVQD və 1231-IVQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 151-ci maddənin sanksiyası aşağıdakı redaksiyada verilsin:

"bir ildən iki ilədək müddətə islah işləri və ya bir ildən üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.".

2. 152-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"152.1. On altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə —

üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

152.2. Eyni əməllər on dörd yaşına çatmayan şəxs barəsində törədildikdə —

üç ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

152.3. Bu Məcəllənin 152.1 və ya 152.2-ci maddələrində göstərilən əməllər yetkinlik yaşına çatmayanı tərbiyə etmək vəzifəsi daşıyan şəxslər və ya yetkinlik yaşına çatmayana nəzarəti həyata keçirmək vəzifəsini daşıyan təhsil, tərbiyə, tibbi və ya digər müəssisənin müəllimi və ya digər işçisi tərəfindən törədildikdə -

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə dörd ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Bu Məcəllənin 152 və ya 153-cü maddələrində nəzərdə tutulmuş cinayətlərə görə məsuliyyət həmin maddələrdə göstərilən əməlləri törətmiş şəxslə zərərçəkmiş şəxsin yaş fərqi iki ildən çox olduqda yaranır.".

3. 153-cü maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"153.1. On altı yaşına çatmayan şəxsə qarşı zor tətbiq etmədən əxlaqsız hərəkətlər törətmə —

iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

153.2. Eyni əməllər on dörd yaşına çatmayan şəxs barəsində törədildikdə —

bir ildən iki ilədək müddətə islah işləri və ya bir ildən üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

153.3. Bu Məcəllənin 153.1 və ya 153.2-ci maddələrində göstərilən əməllər yetkinlik yaşına çatmayanı tərbiyə etmək vəzifəsi daşıyan şəxslər və ya yetkinlik yaşına çatmayana nəzarəti həyata keçirmək vəzifəsini daşıyan təhsil, tərbiyə, tibbi və ya digər müəssisənin müəllimi və ya digər işçisi tərəfindən törədildikdə —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ildən dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.".

4. Aşağıdakı məzmunda 171.2.3-cü maddə əlavə edilsin:

"171.2.3. yetkinlik yaşına çatmayanın valideynləri və ya üzərinə qanunla yetkinlik yaşına çatmayanı tərbiyə etmək vəzifəsi qoyulmuş digər şəxslər və ya yetkinlik yaşına çatmayanlara nəzarəti həyata keçirmək vəzifəsini daşıyan təhsil, tərbiyə, tibbi və ya digər müəssisənin müəllimi və ya digər işçisi tərəfindən törədildikdə —".

5. 171-1.2.4-cü maddədə "vəzifəsi qoyulmuş" sözlərindən sonra "digər" sözü əlavə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 may 2015-ci il
№ 1296-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq qərara alır:

Maddə 1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, II kitab, maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12, I kitab, maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 6, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673; № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95; № 4, maddə 327; № 6, maddələr 618, 622; Azərbaycan Respublikasının 2015-ci il 13 fevral tarixli 1191-IVQD nömrəli, 6 mart tarixli 1222-IVQD və 1231-IVQD nömrəli qanunları) 240-cı maddəsinə aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

"Qeyd: Bu Məcəllədə göstərilən, narkotik vasitələrə və ya psixotrop maddələrə aid olmayan güclü təsir edən və zəhərli maddələr, habelə onların külli miqdarı qanunla müəyyən edilir.".

Maddə 2. Bu Qanun Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 240-cı maddəsinin "Qeyd" hissəsində nəzərdə tutulan qanunla eyni gündə qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 may 2015-ci il
№ 1298-IVQD

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 28 aprel tarixli 1274-IVQD nömrəli Qanununun tətbiqi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 28 aprel tarixli 1274-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 318-2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti həyata keçirirlər.

4. "Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 8 fevral tarixli 278 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, II kitab, maddə 257) 2-ci hissəsinə "orqanları" sözündən sonra ", 318-2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini isə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti" sözləri əlavə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 22 may 2015-ci il
№ 536

AZƏRBAYCAN RESPUBLIKASI ADINDAN

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun**

**QƏRARI**

**Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 449.2.3-cü maddəsinin şikayət vermək hüququ olan "digər şəxslər" müddəasının şərh edilməsinə dair**

**12 mart 2015-ci il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Südabə Həsənova, Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov (məruzəçi-hakim) və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Teymur Ocaqverdovun,

maraqlı subyektin nümayəndəsi Bakı Apellyasiya Məhkəməsinin hakimi Həsən Əhmədovun,

mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Cinayət Kollegiyasının sədri Şahin Yusifovun, Azərbaycan Respublikası Prokurorluğunun Daxili işlər orqanlarında istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin böyük prokuror-metodisti Munis Abuzərlinin,

ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət prosesi kafedrasının müdiri, hüquq elmləri doktoru, professor Firuzə Abbasovanın iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı üzrə açıq məhkəmə iclasında Bakı Apellyasiya Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası Cinayət- Prosessual Məcəlləsinin 449.2.3-cü maddəsinin şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim İ.Nəcəfovun məruzəsini, maraqlı subyektin nümayəndəsinin, ekspertin rəyini və mütəxəssislərin çıxışlarını, dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Bakı Apellyasiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra - Konstitusiya Məhkəməsi) ünvanladığı müraciətdə Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra - CPM) 449.2.3-cü maddəsinin şərh edilməsini xahiş etmişdir.

Müraciətdən və ona əlavə edilmiş sənədlərdən görünür ki, 20 may 2014-cü il tarixində "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununa (bundan sonra "İcbari sığortalar haqqında" Qanun) əsasən sığortalanmış "Mercedes" markalı avtomobil ilə "Nissan Juke" markalı avtomobil toqquşmuşdur. Bu barədə "Azsığorta" Açıq Səhmdar Cəmiyyətinin Sığorta Hadisələri Departamentinə (bundan sonra - "Azsığorta" ASC-nin SHD) məlumat verilmişdir.

Hadisə ilə əlaqədar Bakı şəhəri Nəsimi rayon Polis İdarəsinin Təhqiqat Şöbəsinin (bundan sonra - Nəsimi RPİ TŞ) baş təhqiqatçısı tərəfindən araşdırma aparılaraq belə nəticəyə gəlinmişdir ki, "Mercedes" markalı sığortalı avtomobili sahibi deyil, digər şəxs idarə etmiş, yol nəqliyyat hadisəsi də onun yol hərəkəti qaydalarını pozması nəticəsində baş vermişdir. Həmin şəxsin əməlində isə cinayət tərkibi olmadığına görə toplanmış material üzrə təhqiqatçının 05 iyun 2014-cü il tarixli qərarı ilə cinayət işinin başlanması rədd edilmiş, onun əməlində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (bundan sonra-İXM) 151.2-ci maddəsində nəzərdə tutulan inzibati xətanın tərkibinin olması qənaətinə gəlinmiş, material baxılıb tədbir görülməsi üçün aidiyyəti üzrə Bakı şəhəri Nəsimi rayon Polis İdarəsinin Dövlət Yol Polis Şöbəsinə göndərilmişdir.

Sığortaçının nümayəndəsi CPM-in 449.1 və 449.2.3-cü maddələrini rəhbər tutaraq, material üzrə cinayət işinin başlanmasının rədd edilməsi barədə təhqiqatçının 05 iyun 2014-cü il tarixli qərarının onun subroqasiya hüququnu pozduğunu əsas götürərək, həmin qərarın ləğv edilməsi və materialın təkrar araşdırılması üçün geri qaytarılması barədə Bakı şəhəri Nəsimi rayon Məhkəməsinə məhkəmə nəzarəti qaydasında şikayət vermişdir.

Nəsimi rayon Məhkəməsinin 30 iyul 2014-cü il tarixli qərarı ilə şikayətin icraata qəbul edilməsindən imtina edilmiş və imtina onunla əsaslandırılmışdır ki, şikayət mübahisə olunan qərardan şikayət vermək hüququ olmayan şəxs tərəfindən verilmişdir.

Nəsimi rayon Məhkəməsinin həmin qərarı ilə razılaşmayan sığortaçının nümayəndəsi apellyasiya şikayəti vermiş və Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının 19 avqust 2014-cü il tarixli qərarı ilə şikayət təmin edilərək, qərar ləğv edilmiş və iş yenidən baxılması üçün həmin məhkəməyə qaytarılmışdır.

İşə baxan Bakı şəhəri Nəsimi rayon Məhkəməsi əvvəlki nəticəyə gələrək bildirmişdir ki, yol nəqliyyat hadisəsi üzrə ilkin araşdırma aparan təhqiqatçının qəbul etdiyi "cinayət işinin başlanmasının rədd edilməsi barədə" qərardan "Azsığorta" ASC SHD-nin məhkəmə nəzarəti qaydasında şikayət vermək hüququ yoxdur.

Məhkəmənin qərarı ilə razılaşmayan sığortaçının nümayəndəsi yenidən apellyasiya şikayəti verərək, Nəsimi rayon Məhkəməsinin 12 sentyabr 2014-cü il tarixli qərarının ləğv edilməsi və işin yenidən baxılması üçün həmin məhkəməyə qaytarılması barədə qərar qəbul edilməsini xahiş etmişdir.

Apellyasiya şikayətinə baxan Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyası "Azsığorta" ASC-ni maraqlarına toxunulan şəxs kimi qəbul edərək, təhqiqat orqanının "cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarı"ndan şikayət verə bilmə imkanı

barədə birinci və apellyasiya instansiyası məhkəmələrində yaranmış yanaşma müxtəlifliyi baxımından CPM-in 449.2.3-cü maddəsinə şərh verilməsinin zəruriliyi qənaətinə gəlmişdir.

Müraciətlə əlaqədar Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakıları qeyd etməyi zəruri hesab edir.

Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra - Konstitusiya) 60-cı maddəsinin I hissəsinə əsasən hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir. Həmin maddənin II hissəsində göstərilir ki, hər kəs dövlət orqanlarının, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, vəzifəli şəxslərin qərar və hərəkətlərindən (hərəkətsizliyindən) məhkəməyə şikayət edə bilər.

Konstitusiyanın bu maddəsi ilə vətəndaşların həm Konstitusiya ilə təsbit edilmiş hüquqlarının və azadlıqlarının, həm də Azərbaycan Respublikasının qanunlarında və digər normativ hüquqi aktlarında nəzərdə tutulmuş hüquqlarının və azadlıqlarının məhkəmələrin müdafiəsi altında olduğuna təminat verilir. Məhkəmə təminatı bir tərəfdən hər kəsin pozulmuş hüquqlarının və azadlıqlarının bərpası məqsədi ilə məhkəməyə müraciət etmək hüququnu, digər tərəfdən isə məhkəmələrin həmin müraciətlərə baxmaq və onlara dair ədalətli qərar qəbul etmək vəzifəsini müəyyən edir.

Konstitusiyanın 71-ci maddəsinin I hissəsinə əsasən Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur. Həmin maddənin II hissəsində göstərilir ki, insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini heç kəs məhdudlaşdıra bilməz.

“Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun 90.2-ci maddəsinə görə normativ hüquqi akt şərh edildikdə onun normalarının məzmunu izah edilir və dəqiqləşdirilir, onların qanunvericilikdə yeri, habelə ictimai münasibətlərin eyni növünün müxtəlif aspektlərini tənzimləyən digər normalar ilə funksional və başqa əlaqələri müəyyən edilir.

Şikayət vermək hüququ şəxsin hüquqi statusunu təşkil edən hüquq və vəzifələrin ayrılmaz hissəsi olmaqla, qanunvericilikdə birbaşa nəzərdə tutulan hallar istisna olmaqla məhdudlaşdırılmamalı və hər bir şəxs üçün təmin olunmalıdır.

Məhkəməyədək araşdırma mərhələsində şikayət dedikdə, cinayət barədə ərizə və müraciətlərin yoxlanılması, həmçinin cinayət işlərinin istintaqı prosesində cinayət mühakimə icraatında iştirak edən şəxslərin prokuror, müstəntiq, təhqiqat orqanı (təhqiqatçı) tərəfindən həqiqətən pozulmuş və ya pozulması ehtimal edilən hüquq və qanuni mənafelərinin bərpa edilməsi barədə tələbi başa düşülür.

Prosesin məhkəməyədək mərhələsində icraatı aparan orqanların qərar və hərəkətlərindən şikayət verilməsi və bu şikayətlərə baxılması zamanı əmələ gələn münasibətlər öz hüquqi təbiətinə görə cinayət-prosessual xarakterlidir və şikayət- etmə sahədaxili cinayət-prosessual normalarla tənzimlənir. Belə münasibətlərin əmələ gəlməsinə səbəb olan hüquqi fakt kimi, yalnız səlahiyyətli dövlət orqanlarının məhkəməyədək icraat zamanı prosessual hərəkət və ya qərarlarından verilən şikayət çıxış edir.

Məhkəməyədək cinayət-prosessual icraatda şikayətin predmetini maraqlı şəxslərin fikrincə təhqiqat, istintaq orqanlarının və ya prokurorun onların hüquqlarını pozan və ya təhlükə altına qoyan hərəkətsizliyi və ya qanunla nəzərdə tutulmuş prosessual vəzifələrin icra olunmamasında ifadə olunan prosessual hərəkət və ya qərarlar təşkil edir.

Cinayət prosesi iştirakçılarının hüquqlarını və qanuni maraqlarını təmin etmək təhqiqat və istintaq orqanlarının, prokurorun və məhkəmələrin ən mühüm vəzifələrindən birini təşkil edir. Şəxsiyyətin, xüsusilə də cinayət prosesi iştirakçılarının hüquqlarına zəruri diqqət yetirmədən həqiqi ədalət mühakiməsini həyata keçirmək mümkün deyil.

Cinayət prosesində iştirak edən hər bir şəxsin hüquqlarının və qanuni maraqlarının müdafiə və təmin edilməsi hüquqi dövlətin mühakimə icraatında yeritdiyi ədalət siyasətinin ana xəttidir və məhkəmə hakimiyyətinin həyata keçirilməsinin yeganə yoludur. Belə şəxslərin hüquqlarının və qanuni maraqlarının təminatlarının artırılması nəinki şəxsiyyətin, həm də ümumiyyətlə cəmiyyətin mənafelərinə tam uyğundur.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, şərh olunan normanın təhlili üçün CPM-də insan və vətəndaş hüquq və azadlıqlarını təmin edən, cinayət prosesi iştirakçılarının statusuna aid olan bəzi maddələr nəzərdən keçirilməlidir.

Belə ki, CPM-in 9-cu maddəsinə uyğun olaraq cinayət mühakimə icraatının əsas prinsipləri və şərtlərindən biri insan və vətəndaş hüquq və azadlıqlarının qanunsuz məhdudlaşdırılması hallarından onun müdafiəsini təmin etməkdir. Həmin Məcəllənin 12.1-ci maddəsinə əsasən cinayət prosesini həyata keçirən orqanlar cinayət prosesində iştirak edən bütün şəxslərin Konstitusiya ilə təsbit edilmiş insan və vətəndaş hüquq və azadlıqlarına riayət olunmasını təmin etməlidirlər.

Cinayət prosesi gedişində hər kəsin özünün Konstitusiya ilə təsbit edilmiş hüquq və azadlıqlarını qanunla qadağan edilməyən bütün üsul və vasitələrlə müdafiə etməyə hüququ vardır (CPM-in 12.3-cü maddəsi).

CPM-in 122.1-ci maddəsinə görə cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərindən və ya qərarlarından cinayət prosesinin iştirakçıları, habelə bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada cinayət prosesində iştirak edən digər şəxslər tərəfindən şikayət verilə bilər.

Təhqiqatçının cinayət işinin başlanmasının rədd edilməsi barədə qərarından şikayət verilməsi CPM-in 212.3-cü maddəsində nəzərdə tutulmuşdur. Bu normada göstərilir ki, təhqiqatçının, müstəntiqin və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun cinayət işinin başlanmasının rədd edilməsi barədə qərarından müvafiq olaraq ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora, yuxarı prokurora, yaxud məhkəməyə şikayət verilə bilər.

Cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərindən və ya qərarlarından məhkəməyə şikayət vermək hüququ olan şəxslərin dairəsi isə CPM-in 449.2-ci maddəsində nəzərdə tutulmuşdur. CPM-in 449.2.3-cü maddəsində qeyd edilir ki, qərarın qəbul edilməsi və ya hərəkətin aparılması nəticəsində hüquq və azadlıqları pozulan digər şəxslər təhqiqatçının (onun səlahiyyətlərini həyata keçirən şəxsin) prosessual hərəkətlərindən və ya qərarlarından məhkəmə nəzarəti qaydasında şikayət verə bilərlər.

Şikayət etmək hüququ olan şəxslər məhkəmə nəzarəti qaydasında təhqiqatçı, müstəntiq və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun məhkəməyədək icraat zamanı bütün prosessual qərar və hərəkətlərindən (hərəkətsizliyindən) deyil, yalnız qanunda nəzərdə tutulan aşağıdakı prosessual hərəkət və qərarlarından şikayət verə bilərlər:

- cinayət haqqında ərizənin qəbul edilməsindən imtina edilməsi;
- tutulma və həbsdə saxlanması;
- tutulmuş şəxslərin hüquqlarının pozulması;
- həbsdə saxlanılan şəxsə işgəncə verilməsi və ya digər amansız rəftar edilməsi;
- cinayət işinin başlanmasının rədd edilməsi, cinayət işi üzrə icraatın dayandırılması və ya ona xitam verilməsi;
- məhkəmənin qərarı olmadan istintaq hərəkətlərinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi;

- təqsirləndirilən (şübhəli) şəxsin müdafiəçisinin cinayət prosesindən kənarlaşdırılması (CPM-in 449.3.1-449.3.7-ci maddələri).

Qanunla nəzərdə tutulmuş məhkəmə nəzarəti qaydasında şikayət verilə bilən bu prosessual hərəkət və qərarların dairəsi qətidir və cinayət prosesini həyata keçirən orqanın digər prosessual hərəkət və qərarlarından şikayət verilməsi yolverilməzdir.

CPM-in 449.2.3-cü maddəsindən göründüyü kimi, qanunverici məhkəmə nəzarəti qaydasında təhqiqatçının, müstəntiqin və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun prosessual hərəkətlərindən və ya qərarlarından şikayət vermək hüququ olan şəxslərin dairəsini müəyyən edərkən yalnız prosessual qaydada proses iştirakçısı və ya tərəf kimi tanınmış şəxslərlə kifayətlənməmiş, bu şəxslərin proses iştirakçısı və ya tərəf kimi qanunla müəyyən edilmiş qaydada tanınmasını əsas götürməmiş, eləcə də bu qərarların qəbulu və ya hərəkətin edilməsi (edilməməsi) ilə digər şəxslərin hüquq və azadlıqlarının pozulmuş hesab edilməsini əsas götürmüşdür.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, CPM-in 449.2.3-cü maddəsinin tulan "digər şəxslər" müddəası elə şəxsləri nəzərdə tutur ki, onlar prosesdə iştirakçı və tərəf deyildir. Buna ilk növbədə, CPM-in X Fəslində nəzərdə tutulan cinayət prosesində iştirak edən digər şəxslər; hal şahidi; şahid; mütəxəssis; ekspert; tərcüməçi və sair aiddir. CPM-in X Fəslində nəzərdə tutulan cinayət prosesində iştirak edən digər şəxslərin siyahısını qəti siyahı hesab etmək olmaz. "Digər şəxslər"ə həmçinin törədilmiş və ya hazırlanan cinayət barədə məlumat verən şəxs (CPM-in 204.3-cü maddəsi); cinayət əməlinin həmin şəxs tərəfindən törədilməsini birbaşa göstərən şəxs (zərərçəkmiş şəxsdən başqa) (CPM-in 148.2.2-ci maddəsi); meyitin müayinəsində iştirak edən həkim (CPM-in 238.4-cü maddəsi); eksqumasiya olunmalı olan şəxsin yaxın qohumları və ya onun qanuni nümayəndələri (CPM-in 237.2-ci maddəsi); şahidin nümayəndəsi (vəkili) (CPM-in 95.6.11-ci maddəsi); yetkinlik yaşına çatmamış şahidin qanuni nümayəndəsi (CPM-in 228.2-ci maddəsi); yetkinlik yaşına çatmayan şahidin, şübhəli və ya təqsirləndirilən şəxsin dindirilməsində iştirak edən müəllim, həkim (psixoloq) (CPM-in 228.2-ci maddəsi); hərbi hissə komandiri (CPM-in 171-ci maddəsi); yetkinlik yaşına çatmayan şübhəli, təqsirləndirilən şəxsin himayəsinə verildiyi etibar edilmiş şəxs (şəxsi zamin) (CPM-in 166.2-ci maddəsi); girov qoyan şəxs (təqsirləndirilən şəxsdən başqa) (CPM-in 164.3-cü maddəsi); tanınmaya təqdim olunan şəxs (CPM-in 239.5-ci maddəsi), həmçinin hər hansı bir formada özünün prosessual hüquq və ya vəzifəsini həyata keçirən bütün digər şəxslər aid edilir.

Vətəndaşların konstitusiya ilə təmin edilən hüquq və azadlıqlarının pozulması faktı xüsusi əhəmiyyət kəsb etdiyinə görə, məhkəməyədək icraat zamanı məhkəməyə müraciət etmək üçün kifayət qədər əsas verir.

Göstərilən xüsusiyyətlər(meyarlar) nəzərə alınmaqla qanunda şikayət vermək hüququ dəqiq qeyd edilmiş şəxslərlə yanaşı, şikayət vermək hüququ olan şəxslərə həmçinin cinayət-prosessual fəaliyyətin o iştirakçıları da aid edilmişdir ki, onların hüquqi statusu qanunda qismən tənzimlənmişdir.Yaxud da ki, qanunda onların adı çəkilsə də, hüquqi vəziyyətləri ümumiyyətlə müəyyən edilməmişdir. Göstərilən şəxslər ibtidai araşdırma orqanının hərəkəti və ya qərarları ilə faktiki olaraq cinayət-prosessual münasibətlərinin subyekti vəziyyətinə düşürlər və bu münasibətlər gedişində onların hüquq və mənafeləri pozulur və ya pozula bilər.

Bununla belə, "İcbari sığortalar haqqında" Qanunun 22.2.7-ci maddəsinə görə, sığortalı Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra - MM) 925.5-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, sığorta hadisəsi hesab edilə bilən halın baş verdiyi yerdə və ya zərər dəymiş əmlakda sığortaçı və ya onun nümayəndəsi və (və ya) digər səlahiyyətli şəxslər onlara baxış keçirənədək heç bir dəyişiklik etməməlidir.

Sığortaçının sığorta ödənişini verdikdən sonra müvafiq şəxslərə qarşı Azərbaycan Respublikası MM-in 936-cı maddəsində və "İcbari sığortalar haqqında" Qanunun 25-ci maddəsində nəzərdə tutulmuş qaydada subroqasiya hüququndan istifadə etmək hüququ vardır ("İcbari sığortalar haqqında" Qanunun 23.1.6-cı maddəsi).

"İcbari sığortalar haqqında" Qanunun 63.1-ci maddəsinə əsasən bu Qanunun 63.2-ci maddəsi nəzərə alınmaqla, avtonəqliyyat vasitələrinin sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə baş vermiş sığorta hadisəsi zamanı sürücü hadisə yerindən yayınmış olduqda da sığorta ödənişi vermiş sığortaçının hadisəni törətmiş şəxsə qarşı verilmiş sığorta ödənişi məbləğində subroqasiya hüququ yaranır.

Qanunverici "İcbari sığortalar haqqında" Qanuna əsasən sığortaçıya, sığorta hadisəsi ilə bağlı həqiqəti müəyyən etmək üçün hadisə yerinə gəlib bütün halların araşdırılması imkanını verməklə, faktiki olaraq onu cinayət-prosessual fəaliyyətin epizodik iştirakçısına çevirmişdir.

Bununla da, qanunverici digər tərəfdən sığortaçıya cinayət prosesində subroqasiya hüququnu reallaşdırmaq üçün təminat vermişdir.

Beləliklə, Konstitusiya Məhkəməsinin Plenumu yuxarıda göstərilənləri nəzərə alaraq qeyd edir ki, CPM-in 449.2.3-cü maddəsinin "qərarın qəbul edilməsi və ya hərəkətin aparılması nəticəsində hüquq və azadlıqları pozulan digər şəxslər" müddəası cinayət prosesinin iştirakçıları və tərəfləri olmayan, lakin cinayət prosesində iştirak edən və ya hər hansı bir formada cinayət-prosessual hüquq və ya vəzifələri həyata keçirən şəxslərin Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə təsbit olunmuş hüquq və azadlıqları prosessual qərar və ya hərəkətlər ilə pozulduğu təqdirdə bu qərar və ya hərəkətlərdən şikayət vermək hüququnu istisna etmir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq,

**QƏRARA ALDI:**

1. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 449.2.3-cü maddəsinin "qərarın qəbul edilməsi və ya hərəkətin aparılması nəticəsində hüquq və azadlıqları pozulan digər şəxslər" müddəası cinayət prosesinin iştirakçıları və tərəfləri olmayan, lakin cinayət prosesində iştirak edən və ya hər hansı bir formada cinayət-prosessual hüquq və ya vəzifələri həyata keçirən şəxslərin Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə təsbit olunmuş hüquq və azadlıqları prosessual qərar və ya hərəkətlər ilə pozulduğu təqdirdə, bu qərar və ya hərəkətlərdən şikayət vermək hüququnu istisna etmir.
2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.
3. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.
4. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr: Fərhad Abdullayev**

AZƏRBAYCAN RESPUBLIKASI ADINDAN

**Azərbaycan Respublikası**
**Konstitusiya Məhkəməsi Plenumunun**

**QƏRARI**

**Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 332.1-ci maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair**

**5 mart 2015-ci il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Südabə Həsənova, Rövşən İsmayılov, Ceyhun Qaracayev (məruzəçi-hakim), Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Elməddin Hüseynovun, maraqlı subyektlərin nümayəndələri Bakı şəhəri Nərimanov rayon Məhkəməsinin hakimi Ramin Quliyevin, Azərbaycan Respublikası Milli Məclisi Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin baş məsləhətçisi Eldar Əsgərovun,

ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının baş müəllimi Elşad Nəsirovun, mütəxəssis Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Əhməd Nurməmmədovun iştirakı ilə,Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı üzrə açıq məhkəmə iclasında Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 332.1-ci maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair Bakı şəhəri Nərimanov rayon Məhkəməsinin müraciəti ilə bağlı konstitusiya işinə baxdı.

İş üzrə hakim C.Qaracayevin məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssisin çıxışlarını, ekspertin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Bakı şəhəri Nərimanov rayon Məhkəməsi (bundan sonra – Nərimanov rayon Məhkəməsi) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) müraciət edərək, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (bundan sonra – İXM) 332.1-ci maddəsinin bəzi müddəalarının şərh edilməsini xahiş etmişdir.

Müraciətdə göstərilir ki, F.Ələkbərov Nərimanov rayon Məhkəməsinə müraciət edərək "Bakıelektrikşəbəkə" Açıq Səhmdar Cəmiyyətinin 1 saylı Müştəri Xidmətləri Mərkəzində (bundan sonra – "Bakıelektrikşəbəkə" ASC-nin 1 saylı MXM) xidmətdə olan "TRUST" mühafizə şirkətinin əməkdaşı barəsində inzibati xəta haqqında iş üzrə icraatın başlanılmasını və İXM-in 332.1-ci maddəsində nəzərdə tutulmuş məsuliyyətə cəlb edilməsini xahiş etmişdir.

F.Ələkbərov öz şikayətini onunla əsaslandırmışdır ki, elektrik enerjisinin istifadəsinə görə borcunu ödəmək üçün "Bakıelektrikşəbəkə" ASC-nin 1 saylı MXM-nə gəldikdə binanın mühafizəsini təmin edən "TRUST" şirkətinin əməkdaşı onun şəxsiyyət vəsiqəsini girov məqsədi ilə tələb etmişdir. F.Ələkbərov mühafizə xidməti əməkdaşının hərəkətlərini qanunsuz hesab etsə də, məcburiyyət qarşısında qalaraq şəxsiyyət vəsiqəsini həmin şəxsə təqdim etmiş və binaya daxil olub elektrik enerjisinin istifadəsinə görə borcunu ödəmişdir. Sonradan isə mühafizə xidməti əməkdaşının hərəkətini qanunsuz hesab edən F.Ələkbərov həmin şəxsin inzibati məsuliyyətə cəlb edilməsi məqsədi ilə polis və prokurorluq orqanlarına şikayətlə müraciət etmişdir. Həmin orqanlar İXM-in 332.1-ci maddəsi ilə əlaqədar olan işlərin onların səlahiyyətlərinə aid olmadığını bildirdikdən sonra F.Ələkbərov şikayətlə Nərimanov rayon Məhkəməsinə müraciət etmişdir.

Nərimanov rayon Məhkəməsi müraciətdə göstərmişdir ki, şəxsiyyət vəsiqəsinin qanunsuz alınması və ya girov götürülməsi İXM-in 332.1-ci maddəsinə əsasən inzibati xəta kimi tövsif olunur və bu inzibati xətalar haqqında işlərə baxmaq İXM-in 360-cı maddəsinə müvafiq olaraq rayon (şəhər) məhkəmələrinin səlahiyyətlərinə aid edilmişdir. Lakin inzibati xətalar haqqında qanunvericilikdə həmin xətanın törədilməsinə görə protokolu tərtib edən və ittihamı irəli sürən səlahiyyətli orqan müəyyən edilmədiyindən, Nərimanov rayon Məhkəməsi aşağıdakı məsələlərə aydınlıq gətirilməsini Konstitusiya Məhkəməsindən xahiş etmişdir:

• İXM-in 332.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xəta törədildiyi halda inzibati xəta haqqında protokol tərtib edilmədən icraatın başlanılması üçün həmin Məcəllənin 360-cı maddəsinin tələblərinə müvafiq olaraq birbaşa rayon (şəhər) məhkəməsinə müraciət edilməsinin mümkünlüyü məsələsi;

• İXM-in 332.1-ci maddəsinin subyektinin İXM-in 16-cı maddəsi baxımından vəzifəli şəxs (xüsusi subyekt) və ya həmin Məcəllənin 15-ci maddəsi baxımından fiziki şəxs (ümumi subyekt) hesab edilməsi məsələsi;

• İXM-in 332.1-ci maddəsində nəzərdə tutulan inzibati xəta törədildiyi halda, hansı orqanın (vəzifəli şəxsin) inzibati xəta haqqında protokol tərtib etmək səlahiyyətinə malik olması.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə əlaqədar aşağıdakıları qeyd etməyi zəruri hesab edir.

Azərbaycan Respublikasının Konstitusiyasına (bundan sonra – Konstitusiya) əsasən insan hüquq və azadlıqları prioritet dəyərdir. Onların təminatı dövlətin əsas vəzifəsidir. Konstitusiyanın 12-ci maddəsində insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi kimi müəyyən edilmişdir.

Dövlət orqanları insan hüquq və azadlıqlarının qanunsuz məhdudlaşdırmasından çəkinməklə yanaşı cəmiyyətdə qanunçuluğun təmin edilməsini həyata keçirirlər. Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur (Konstitusiyanın 71-ci maddəsinin I hissəsi).

Qeyd edilən Konstitusiya norması insan hüquq və azadlıqlarının müdafiə vasitələri ilə yanaşı, həmin hüquqların təminatı kimi cinayət, inzibati və digər repressiv və preventiv hüquq sahələrinin qoruyucu normalarının mövcudluğunu da nəzərdə tutur. Belə ki, hər bir dövlət orqanı öz səlahiyyətləri çərçivəsində insan hüquq və azadlıqlarını qorumaq şərti ilə qanunçuluğu təmin etməlidir.

İnzibati idarəçilik sahəsində inzibati münasibətlərin qoruyucu normaları İXM-də əks olunmuşdur. İXM-in maddi normaları xəta növünü müəyyən etməklə inzibati idarəçilik sahəsində hər bir subyektin hüquq və qanuni maraqlarını təmin edir. İnzibati xətalar (inzibati-delikt) qanunvericiliyi səlahiyyətli orqanla fiziki və hüquqi şəxslər arasında inzibati xətalarla bağlı yaranan mübahisələri tənzimləyir və bu münasibətlərdə əsas subyekt kimi səlahiyyətli dövlət orqanı çıxış edir.

Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyinin vəzifələri insan və vətəndaş hüquqlarını və azadlıqlarını, onların sağlamlığını, əhalinin sanitariya-epidemioloji salamatlığını, ictimai mənəviyyatı, mülkiyyəti, şəxslərin iqtisadi maraqlarını, ictimai qaydanı və ictimai təhlükəsizliyi, ətraf mühiti, idarəçilik qaydalarını qorumaqdan, qanunçuluğu möhkəmləndirməkdən və inzibati xətaların qarşısını almaqdan ibarətdir (İXM-in 2-ci maddəsi).

İnzibati xətalar sahəsində yaranan münasibətlər təbiətinə görə repressiv və preventiv xarakter daşıyır. İlk növbədə ona görə ki, səlahiyyətli orqan (vəzifəli şəxs) xəta törətmiş subyektə qarşı məsuliyyət tədbirlərini tətbiq edərkən inzibati xarakterli məcburetmə səlahiyyətlərinə malikdir.

İnzibati xətalar qanunvericiliyi (inzibati-delikt hüququ) təbiətinə görə cinayət qanunvericiliyinə daha yaxındır. Bu hüquq sahələri müəyyən etdikləri qanun pozuntularının ictimai təhlükəlilik dərəcəsinə görə fərqlənir. İnzibati-delikt normalarının cinayət qanunvericiliyi normalarından fərqi birincinin nisbətən yüngül ictimai təhlükəli əməlləri qadağan etməsi ilə əlaqədardır.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsi (bundan sonra – Avropa Məhkəməsi) inzibati xəta və ya intizam pozuntusu ilə bağlı tətbiq olunan müəyyən tənbeh növlərini onların ağırlıq dərəcəsinə görə cinayət məsuliyyəti ilə eyniləşdirir.

Avropa Məhkəməsi Engel və digərləri Niderlanda qarşı iş üzrə 8 iyun 1976-cı il tarixli Qərarında hər hansı bir cəzanın cinayət cəzası sayıla bilməsinə dair üç ünsürlü yanaşma tələbini müəyyən etmişdir. Lutz Almaniyaya qarşı iş üzrə 25 avqust 1987-ci il tarixli Qərarda isə qeyd edilmişdir ki, məhkəmə cəzanın xarakteri (ağırlığı) və növünə görə onun cinayət məsuliyyətli olub-olmamasını müəyyən edə bilər. Avropa Məhkəməsi bu qərarlarında cəzanın ağırlığına görə inzibati və ya cinayət məsuliyyəti olduğunu göstərərkən xəta ilə cinayətin oxşarlığını qeyd edir.

Cinayət və ya inzibati xəta ilə əlaqədar təqibi həyata keçirən səlahiyyətli orqanlar müvafiq qaydada cinayət və ya inzibati xətalar haqqında işlər üzrə ittiham tərəfi hesab edilirlər.

Səlahiyyətli orqanlar inzibati xəta törədən şəxsləri inzibati məsuliyyətə cəlb etməklə ictimai (publik) maraqların qorunmasına xidmət edirlər. İctimai (publik) maraqların təmin edilməsi isə digər şəxslərin hüquq və azadlıqlarının müdafiəsi deməkdir. Məhz bu baxımdan səlahiyyətli dövlət orqanları ictimai (publik) maraqların qorunması məqsədilə qanuni tədbirlər görmək və inzibati tənbeh tətbiq etmək səlahiyyətinə malikdirlər.

İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan orqanlar (vəzifəli şəxslər) İXM-in 357-ci maddəsində göstərilmişdir. Həmin maddəyə əsasən inzibati xətalar haqqında işlərə rayon (şəhər) məhkəmələri, yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar (kollegial orqan), habelə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları, Mərkəzi Bankı, Mərkəzi Bank yanında Maliyyə Monitorinqi Xidməti (vəzifəli şəxslər) baxırlar.

İXM-in həmin maddəsində göstərilən orqanlar və vəzifəli şəxslərdən fərqli olaraq, rayon (şəhər) məhkəmələri tərəfindən nisbətən ağır sanksiya (tənbeh) ilə nəticələnən inzibati xətalara dair işlərə baxılır. İXM-in 360.1-ci maddəsi rayon (şəhər) məhkəmələri tərəfindən baxılan inzibati xətalar haqqında işləri nəzərdə tutan normaları göstərir. Həmin maddədə nəzərdə tutulmuş hallarda inzibati xətalar haqqında işlərə baxmaq hüququ təkcə səlahiyyətli orqanlara (vəzifəli şəxslərə) deyil, habelə məhkəmələrə də aid olduqda icraatına inzibati xətalar haqqında işlər daxil olmuş səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xətalar haqqında işlər baxılması üçün məhkəməyə göndərildikdə, bu işlərə məhkəmələr tərəfindən baxılır (İXM-in 360.2-ci maddəsi). İnzibati xətalar haqqında işlər üzrə qərarlarla bağlı məsələlər məhkəmədə həll olunduğu halda inzibati tənbehin tətbiqi və ya hər hansı inzibati protokolun tələbləri əsassız sayılaraq inzibati icraata xitam verilə və inzibati qaydada ittiham olunan şəxsə bəraət qazandırıla bilər.

İnzibati xətalar haqqında işlər üzrə icraat ümumi qaydada xüsusi mərhələlərlə aparılır. Bu mərhələlərə aşağıdakıları aid etmək olar:

• inzibati xətalar haqqında işlər üzrə icraata başlanılması;
• inzibati araşdırma;
• protokola (prokurorun qərarına) baxılması;
• inzibati xətalar haqqında işlərə apellyasiya qaydasında baxılması;
• qərarın icrası (inzibati tənbehin tətbiqinə dair icraat).

Nəzərə alınmalıdır ki, qeyd edilən təsnifat ümumi xarakter daşıyır və bu mərhələlər sadələşdirilmiş icraata mütləq (tam) qaydada şamil edilmir.

İnzibati xətalar haqqında işlər üzrə icraatın başlanmasının səbəbləri və əsasları İXM-in 409-cu maddəsində müəyyən edilmişdir. Bu səbəblər sırasında fiziki şəxsin ərizəsi də nəzərdə tutulur (İXM-in 409.1.3-cü maddəsi). İXM-in 409.2-ci maddəsində isə qeyd edilir ki, ərizələrdə inzibati xətanın əlamətlərini göstərən faktiki məlumatların olması və inzibati xəta haqqında iş üzrə icraatı rədd edən halların olmaması inzibati xəta haqqında işlərin başlanmasına əsasdır.

İXM-in 409.4-cü maddəsi inzibati xəta haqqında iş üzrə icraatın başlanmasının mütləq olan şərtlərini müəyyən edir. Bunlara aşağıdakılar aiddir:

• İXM-in 396-cı maddəsində nəzərdə tutulan tədbirləri tətbiq etmə haqqında ilk protokolun tərtib edilməsi;

• inzibati xəta haqqında protokolun tərtib edilməsi, yaxud inzibati xəta haqqında iş üzrə icraata başlama haqqında prokuror tərəfindən qərarın qəbul edilməsi;

• inzibati xəta haqqında iş üzrə icraatın inzibati araşdırılması zəruri hesab edildiyi hallarda inzibati xəta haqqında iş üzrə icraata başlama haqqında qərardadın qəbul edilməsi.

Beləliklə, inzibati xəta haqqında iş üzrə icraatın başlanmasının əsas şərti səlahiyyətli orqan tərəfindən protokolun tərtib edilməsi və ya prokuror tərəfindən qərar qəbul edilməsidir. İXM-in 410.1-ci maddəsində birbaşa qeyd edilir ki, İXM-in 368-ci maddəsi istisna

olmaqla, digər hallarda inzibati xətanın törədildiyi halda protokol tərtib edilir. Bu norma ilə inzibati xətalar haqqında qanunvericilik istisna hal kimi prokuror nəzarəti qaydasında prokurora ittiham tərəfi qismində inzibati xətalar haqqında iş üzrə icraatın başlanması haqqında qərar qəbul etmək səlahiyyətini verir. Belə ki, İXM-in 368.2-ci maddəsinə əsasən prokuror inzibati xətalar haqqında işlər üzrə icraatın başlanması haqqında qərar qəbul etmək, inzibati xətalar haqqında işlərin baxılmasında iştirak etmək, işin baxılması zamanı baş verən məsələlər üzrə rəy və ya vəsatət vermək, inzibati xəta haqqında iş üzrə qəbul edilən qərardan və ya qərardaddan protest vermək hüququna malikdir.

İXM-in 414-cü maddəsinə görə inzibati xəta haqqında protokol (prokurorun qərarı) tərtib edildiyi vaxtdan 48 saatadək müddətində hakimə, səlahiyyətli orqana (vəzifəli şəxsə), inzibati həbs nəzərdə tutan inzibati xəta haqqında işlərdə isə dərhal baxılması üçün yalnız hakimə göndərilir.

Beləliklə, inzibati xətalar haqqında işlər üzrə icraatın başlanmasını və inzibati araşdırmanın keçirilməsini təsdiqləyən əsas element inzibati protokolun mövcudluğudur. İXM-in 410-cu maddəsinə əsasən protokolda bu sənədin tərtib edildiyi tarix və yer; protokolu tərtib etmiş şəxsin vəzifəsi, soyadı, adı, atasının adı; barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs haqqında məlumat; inzibati xətanın törədildiyi yer, vaxt və bu xətanın mahiyyəti; inzibati xətaya görə məsuliyyət nəzərdə tutan İXM-in müvafiq maddəsi və s. məlumatlar göstərilir. İnzibati xətalar haqqında işlər üzrə icraat prosesində inzibati protokol (prokurorun qərarı) vacib prosessual sənəddir. Belə ki, xəta törədilməsi ilə əlaqədar inzibati məsuliyyətə cəlb edilməsinə dair ittiham məhz inzibati protokol (prokurorun qərarı) əsasında yaranır. Bu prosessual sənəd olmadıqda inzibati xətalar haqqında işlər üzrə icraatın növbəti, yəni inzibati xətaya dair işə baxılması mərhələsinə keçmək mümkün deyil.

İnzibati xətalar haqqında işlər üzrə icraatın mərhələləri hər bir xəta üzrə subyektin inzibati məsuliyyətə cəlb edilməsi prosesinə aiddir. Buna əsaslanaraq qeyd etmək lazımdır ki, İXM-in 332.1-ci maddəsində nəzərdə tutulan inzibati xəta törədildiyi halda, inzibati xəta haqqında protokol tərtib edilmədən icraatın başlanılması üçün həmin Məcəllənin 360-cı maddəsinin tələblərinə müvafiq olaraq birbaşa rayon (şəhər) məhkəməsinə müraciət edilə bilməz.

İXM-in 332.1-ci maddəsinə əsasən vətəndaşlara onların şəxsiyyət vəsiqələrinin və ya pasportların verilməsindən əsassız imtina edilməsinə, verilməsi üçün qanunla nəzərdə tutulmayan əlavə sənədlər tələb edilməsinə və ya onların verilməsində (dəyişdirilməsində), habelə vətəndaşın şəxsiyyət vəsiqəsinin elektron daşıyıcısındakı məlumatların dəyişdirilməsində süründürməçiliyə yol verilməsinə, qanunsuz alınmasına və ya girov götürülməsinə görə səksən beş manatdan doxsan manatadək miqdarda cərimə nəzərdə tutulur.

İXM-in qeyd edilən maddəsinin məzmunundan aydın olur ki, xətanın obyektiv tərəfi şəxsiyyət vəsiqələrinin və ya pasportlarının verilməsindən əsassız imtina edilməsi, verilməsi üçün qanunla nəzərdə tutulmayan əlavə sənədlər tələb edilməsi və ya onların verilməsində (dəyişdirilməsində), habelə vətəndaşın şəxsiyyət vəsiqəsinin elektron daşıyıcısındakı məlumatların dəyişdirilməsində süründürməçiliyə yol verilməsi, qanunsuz alınması və ya girov götürülməsində ifadə olunur. Bu xətanın subyektiv tərəfi isə əməlin qəsdən törədilməsində ifadə olunur. Həmin maddənin dispozisiyasından aydın görünür ki, qeyd edilən hərəkət və ya hərəkətsizlik yalnız vəzifəli şəxs tərəfindən törədildiyi halda məsuliyyət yaranır. Məhz buna əsaslanaraq İXM-in 332.1-ci maddəsinin subyekti xüsusi subyekt olaraq həmin Məcəllənin 16-cı maddəsi baxımından vəzifəli şəxs hesab edilir.

Məsələn, "Pasportlar haqqında" Azərbaycan Respublikasının 1994-cü il 14 iyun tarixli Qanununun 3-cü maddəsinin dördüncü hissəsində qeyd edilir ki, pasport Azərbaycan Respublikasının mülkiyyətidir, onun vətəndaşdan alınması və ya girov götürülməsi Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan hallar istisna olunmaqla qəti qadağandır.

Həmin Qanunun 16-cı maddəsində isə pasportların qorunması məqsədi ilə məsuliyyətin ümumi şərtləri müəyyən edilərək qeyd edilir ki, pasporta yalan məlumatlar daxil edildikdə, pasport itirildikdə, qəsdən korlandıqda, oğurlandıqda, saxtalaşdırıldıqda, satıldıqda, qanunsuz hazırlandıqda və ya istifadə edildikdə təqsirli şəxslər Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada inzibati və cinayət məsuliyyəti daşıyırlar. Bu tələb isə ümumi subyektə aid edilir və müvafiq qanunvericiliklə təmin edilir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (bundan sonra – CM) və İXM-də şəxsiyyət vəsiqəsinin, pasportun və ya şəxsiyyəti təsdiq edən digər rəsmi sənədin itirilməsinə, qəsdən korlanmasına, girov götürülməsinə, saxlanmasına, oğurlanmasına və ya sənədlərlə bağlı digər qanunsuz hərəkətləri törətməyə görə ümumi subyekti nəzərdə tutan müvafiq olaraq inzibati xəta və cinayət növləri mövcuddur. Məsələn, CM-in 144-3.4 və 326.2-ci və İXM-in 331-ci maddələrində nəzərdə tutulan qanuna zidd əməllərə görə hüquqi məsuliyyəti müvafiq yaş həddinə çatmış, anlaqlı olan ümumi subyekt daşıyır. Bu inzibati xəta və cinayət növlərinin dispozisiyaları qanunsuz əməlin törədilməsində ümumi subyekti nəzərdə tutur və onlara dair işlərə baxmağa səlahiyyətli olan dövlət orqanları (vəzifəli şəxslər) müvafiq qanunvericiliklə tənzimlənir.

"Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 avqust tarixli Fərmanının 3.54-cü bəndində səlahiyyət bölgüsü aparılaraq müəyyən edilmişdir ki, İXM-in 331-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi (şəxsiyyət vəsiqəsi, pasport və Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsinə aid hissədə), Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi (pasport və Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsinə aid hissədə), Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti (Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılmasına dair qərar və Azərbaycan Respublikasının ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün sənədlərə aid hissədə) və Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası (dənizçinin şəxsiyyət sənədinə aid hissədə) baxırlar.

"İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 sentyabr tarixli Fərmanının 2.5-1-ci bəndində isə qeyd edilmişdir ki, İXM-in 331-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə - şəhər, rayon polis idarələrinin (şöbələrinin) və ərazi polis bölmələrinin rəisləri, onların müavinləri, pasport, qeydiyyat və şəxsiyyət vəsiqəsi şöbələrinin, bölmələrinin, qruplarının rəisləri, baş inspektorları və inspektorları baxırlar.

Göründüyü kimi, Azərbaycan Respublikası Prezidentinin yuxarıda qeyd edilən Fərmanlarında İXM-də nəzərdə tutulan inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan dövlət orqanlarının və vəzifəli şəxslərin dairəsi müəyyən edilmişdir. Hər iki Fərmanda İXM-in 332-ci maddəsinə aid səlahiyyət bölgüsü nəzərdə tutulmamışdır. Yalnız İXM-in 360.1-ci maddəsində rayon (şəhər) məhkəmələri tərəfindən baxılan inzibati xətalar haqqında işlərin sırasında İXM-in 332-ci maddəsi nəzərdə tutulmuşdur.

Qeyd edildiyi kimi, İXM-in 368.2-ci maddəsinə əsasən prokuror inzibati xətalar haqqında işlər üzrə icraatın başlanması haqqında qərar qəbul etmək, inzibati xətalar haqqında işlərin baxılmasında iştirak etmək, işin baxılması zamanı baş verən məsələlər üzrə

rəy və ya vəsatət vermək, inzibati xəta haqqında iş üzrə qəbul edilən qərardan və ya qərardaddan protest vermək hüququna malikdir. Prokuror tərəfindən inzibati xətalar haqqında işlər üzrə icraatın başlanması haqqında qərar İXM-in 411-ci maddəsində müəyyən edilmiş müddətdə qəbul edilir və qərarda həmin Məcəllənin 410-cu maddəsində olan məlumatlar göstərilir (İXM-in 368.3-cü maddəsi). Bununla da, İXM-in 368.3-cü maddəsi inzibati xətalar haqqında işlər üzrə icraatın başlanması haqqında prokurorun qərarına İXM-in 410 və 411-ci maddələrinə müvafiq inzibati xəta haqqında protokola qoyulan tələbləri və həmin protokolun tərtib edilməsi müddətlərini şamil edir.

Beləliklə, Konstitusiya Məhkəməsinin Plenumu inzibati xətalar haqqında qanunvericiliyə əsaslanaraq qeyd edir ki, İXM-in 332.1-ci maddəsi üzrə inzibati xətalar haqqında işlər üzrə icraatın başlanması prokurorun səlahiyyətinə aiddir.

Qeyd olunanları nəzərə alaraq, Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

- İXM-in 332.1-ci maddəsinin məzmununa və mənasına uyğun olaraq, bu maddədə nəzərdə tutulmuş inzibati xətanın subyekti vəzifəli şəxs hesab edilir;
- İXM-in 332.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə şikayət əsasında icraatın başlanması prokurorun səlahiyyətinə aiddir;
- İXM-in 332.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xəta törədildiyi halda, inzibati xəta haqqında prokurorun qərarı olmadan həmin Məcəllənin 360-cı maddəsinin tələblərinə müvafiq olaraq birbaşa rayon (şəhər) məhkəməsinə şikayət verilə bilməz.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini və "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 332.1-ci maddəsinin məzmununa və mənasına uyğun olaraq, bu maddədə nəzərdə tutulmuş inzibati xətanın subyekti vəzifəli şəxs hesab edilir.
2. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 332.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə şikayət əsasında icraatın başlanması prokurorun səlahiyyətinə aiddir.
3. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 332.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xəta törədildiyi halda, inzibati xəta haqqında prokurorun qərarı olmadan həmin Məcəllənin 360-cı maddəsinin tələblərinə müvafiq olaraq birbaşa rayon (şəhər) məhkəməsinə şikayət verilə bilməz.
4. Qərar dərc edildiyi gündən qüvvəyə minir.
5. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində, "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.
6. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr Fərhad Abdullayev**

AZƏRBAYCAN RESPUBLIKASI ADINDAN

**Azərbaycan Respublikası**
**Konstitusiya Məhkəməsi Plenumunun**

**QƏRARI**

**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin**
**188-ci maddəsinin şərh edilməsinə dair**

**30 mart 2015-ci il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Südabə Həsənova, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən (məruzəçi-hakim) ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin,

maraqlı subyektlərin nümayəndələri Astara rayon Məhkəməsinin hakimi Mübariz Məmmədovun, Azərbaycan Respublikası Milli Məclisi Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin İnzibati qanunvericilik sektorunun müdiri Fuad Məmmədovun,

ekspert Bakı Dövlət Universitetinin Cinayət hüququ və kriminologiya kafedrasının müdiri, hüquq elmləri doktoru, professor Firudin Səməndərovun,

mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri Şahin Yusifovun, Azərbaycan Respublikası Baş Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Ağır cinayətlər məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin böyük prokuror-metodisti Fərid Nağıyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı üzrə açıq məhkəmə iclasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 188-ci maddəsinin şərh edilməsinə dair Astara rayon Məhkəməsinin müraciəti əsasında konstitusiya işinə baxdı.

İş üzrə hakim K.Şəfiyevin məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssislərin çıxışlarını, ekspertin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Astara rayon Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) müraciət edərək, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – Cinayət Məcəlləsi) 188-ci maddəsinin Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (bundan sonra – İnzibati Xətalar Məcəlləsi) 70-ci maddəsi baxımından şərh olunmasını xahiş etmişdir.

Müraciətdə göstərilir ki, məhkəmənin icraatında Z.Cabbarovun meşə fonduna aid 0,6 ha torpaq sahəsini qanunsuz zəbt edib özbaşına fərdi yaşayış evi tikərək torpaq üzərində mülkiyyət hüququnu pozması ilə bağlı Cinayət Məcəlləsinin 188-ci maddəsi ilə təqsirləndirilməsinə dair cinayət işi vardır.

Müraciətedən hesab edir ki, qanunvericilikdə eyni əmələ görə iki növ məsuliyyət nəzərdə tutulduğundan, meşə fonduna aid torpağın zəbt edilməsində təqsirli olan şəxsin cinayət və ya inzibati məsuliyyətə cəlb edilməsi məsələsində məhkəmə təcrübəsində qeyri-müəyyənliyin aradan qaldırılması məqsədi ilə Cinayət Məcəlləsinin 188-ci maddəsinin İnzibati Xətalar Məcəlləsinin 70-ci maddəsi baxımından şərh edilməsinə ehtiyac vardır.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə bağlı aşağıdakıların qeyd olunmasını zəruri hesab edir.

Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya) 13-cü maddəsinin I hissəsinə əsasən Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur.

Mülkiyyət hüququ hamılıqla qəbul edilmiş ali insani dəyərləri özündə əks etdirən demokratik cəmiyyətin, hüquqi dövlətin təməllərindən biri hesab edilir.

Torpaq münasibətlərinin tənzimlənməsi, eləcə də, torpaq üzərində mülkiyyət hüququnun və onun ayrı-ayrı elementlərinin yaranması qaydası Konstitusiya və Azərbaycan Respublikasının torpaq, mülki və digər qanunvericilikləri ilə müəyyən olunur. Azərbaycan Respublikasının Torpaq Məcəlləsi (bundan sonra – Torpaq Məcəlləsi) Azərbaycan Respublikasında torpaq üzərində mülkiyyətin müxtəlif növlərinin tətbiqi əsasında yaranan torpaq münasibətlərinin tənzimlənməsinə, torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçilərinin torpaqla bağlı vəzifələrinin yerinə yetirilməsinə və torpaq üzərində hüquqlarının müdafiəsinə, torpaqlardan səmərəli istifadə və onların mühafizəsi üçün şərait yaradılmasına, torpağın münbitliyinin bərpasına və artırılmasına, texnogen çirklənmə və dağılmadan korlanmış torpaqların rekultivasiyasına, təbii mühitin qorunub saxlanmasına və yaxşılaşdırılmasına yönəlmişdir (Torpaq Məcəlləsinin 2-ci maddəsi).

Azərbaycan Respublikasının torpaq qanunvericiliyinə görə torpaq sahəsi dedikdə, dövlət torpaq kadastrında və torpaq üzərində hüquqların dövlət qeydiyyatı sənədlərində sərhədləri, ölçüləri, coğrafi mövqeyi, hüquqi statusu, rejimi, təyinatı və digər göstəriciləri əks etdirilmiş yer səthinin bir hissəsi başa düşülür.

Torpaq Məcəlləsinin 5-ci maddəsinə əsasən Azərbaycan Respublikasında torpaq sahəsi üzərində dövlət, bələdiyyə və xüsusi mülkiyyət növləri mövcuddur. Bütün mülkiyyət növləri bərabər hüquqludur və dövlət tərəfindən qorunur. Mülkiyyət hüququnun subyektləri — dövlət mülkiyyətində olan torpaq sahələri üzərində — Azərbaycan dövləti, bələdiyyə mülkiyyətində olan torpaq sahələri üzərində — bələdiyyələr, xüsusi mülkiyyətdə olan torpaq sahələri üzərində — Azərbaycan Respublikasının vətəndaşları və hüquqi şəxslərdir. Torpaq sahəsi üzərində mülkiyyət hüququ mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə torpaq sahəsinə sahib olmaq, torpaq sahəsindən istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarından ibarətdir.

Eyni zamanda, Torpaq Məcəlləsinin 9-cu maddəsində Azərbaycan Respublikasının vahid torpaq fondu və onun tərkibi əhəmiyyətinə görə dəqiq və ardıcıllıqla müəyyən edilmişdir. Belə ki, Azərbaycan Respublikasının hüdudları daxilində yerləşən bütün torpaqlar onun vahid torpaq fondunu təşkil edir. Məqsədli təyinatına və hüquqi rejiminə uyğun olaraq, Azərbaycan Respublikasının torpaqları aşağıdakı kateqoriyalara bölünür: kənd təsərrüfatı təyinatlı torpaqlar; yaşayış məntəqələrinin (şəhərlərin, qəsəbələrin və kənd yaşayış məntəqələrinin) torpaqları; sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı torpaqlar; xüsusi qorunan ərazilərin torpaqları; meşə fondu torpaqları; su fondu torpaqları; ehtiyat fondu torpaqları.

Bununla yanaşı, Torpaq Məcəlləsində torpaq qanunvericiliyinin pozulmasına görə məsuliyyət yaradan hərəkətlər dəqiq müəyyən olunmuşdur. Belə ki, həmin Məcəllənin 110-cu maddəsinə görə aşağıdakı hərəkətlərin törədilməsində təqsiri olan şəxslər qanunvericilikdə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar:

torpaq sahələrinin özbaşına tutulması;

torpaq sahələrində qanunsuz tikinti aparılması;

torpaqların kateqoriyalarının qanunvericiliyə riayət edilmədən dəyişdirilməsi və s.

Torpaq Məcəlləsinin 111 və 112-ci maddələrində isə Azərbaycan Respublikasında özbaşına tutulmuş (zəbt edilmiş) torpaqların qaytarılması və vurulan zərərin ödənilməsi tənzimlənir. Özbaşına tutulmuş (zəbt edilmiş) torpaq sahələri qanunsuz istifadə zamanı çəkilən xərclərin əvəzi ödənilmədən aidiyyəti üzrə geri qaytarılmalıdır. Torpaqların əvvəlki vəziyyətinə gətirilməsi (orada olan binaların, tikililər və qurğuların sökülməsi də daxil olmaqla) torpaqları zəbt etmiş hüquqi və fiziki şəxslər tərəfindən və ya onların hesabına həyata keçirilir. Hüquqi və fiziki şəxslər torpaq qanunvericiliyini pozmaq nəticəsində vurduqları zərəri ödəməyə borcludurlar.

Azərbaycan Respublikasının Meşə Məcəlləsi (bundan sonra – Meşə Məcəlləsi) Azərbaycan Respublikasının ərazisində meşə münasibətlərinin tənzimlənməsinin, meşələrdən istifadənin, onların mühafizəsinin, qorunmasının, bərpasının, ekoloji və ehtiyat potensialının yüksəldilməsinin hüquqi əsaslarını müəyyən edir. Meşə münasibətlərinin tənzimlənməsi meşə bitkilərinin, torpağın, heyvanat aləminin və ətraf mühitin mühüm ekoloji, iqtisadi və sosial əhəmiyyət kəsb edən digər komponentlərinin vəhdəti olan meşə anlayışı nəzərə alınmaqla həyata keçirilir.

Meşələrin, meşə fondu torpaqlarının istifadəsi, mühafizəsi, qorunması və bərpası sahəsində münasibətlər (meşə münasibətləri) Azərbaycan Respublikasının meşə qanunvericiliyinin və torpaq qanunvericiliyinin müvafiq normaları ilə tənzimlənir (Meşə Məcəlləsinin 4-cü maddəsi).

Meşə Məcəlləsinin 6-cı maddəsinə görə Azərbaycan Respublikasının ərazisindəki bütün meşələr, habelə meşə bitkiləri ilə örtülü olmayan meşə fondunun torpaqları (meşə və qeyri-meşə torpaqları) Azərbaycan Respublikasının meşə fondunu təşkil edir.

Azərbaycan Respublikasında meşə fondu dövlətə mənsubdur və onun mülkiyyətidir. Meşələr və meşə fondunun torpaqları özəlləşdirilmir (Meşə Məcəlləsinin 11-ci maddəsi).

Eyni zamanda, meşə qanunvericiliyinin pozulmasında təqsiri olan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun intizam, inzibati, mülki və cinayət məsuliyyəti daşıyırlar. Meşə fondu sahələrinin özbaşına tutulmasına (zəbt edilməsinə) görə inzibati və cinayət məsuliyyətinə cəlb edilmiş şəxslər həmin torpaqları müəyyən edilmiş müddətdə azad etməlidirlər (Meşə Məcəlləsinin 79-cu maddəsi).

Beləliklə, torpaq və meşə qanunvericiliklərinin qeyd olunan normalarından görünür ki, mülkiyyət formasından və hüquqi rejimindən asılı olmayaraq, Azərbaycan Respublikasının vahid torpaq fondunu təşkil edən bütün torpaq kateqoriyaları dövlət tərəfindən müdafiə olunur.

Belə müdafiə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq intizam, inzibati, mülki və cinayət məsuliyyəti növlərində müəyyən olunmuşdur.

Cinayət Məcəlləsinin 188-ci maddəsinə əsasən torpaq üzərində qanunla müəyyən edilmiş mülkiyyət hüququnu pozma, yəni torpaq sahəsini özbaşına tutma, dəyişdirmə və ya becərmə - yüz manatdan beş yüz manatadək miqdarda cərimə və ya iki yüz qırx saatdan dörd yüz saatadək ictimai işlər və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır.

İlk növbədə qeyd olunmalıdır ki, Cinayət Məcəlləsinin bu normasında müəyyən olunan cinayətin ictimai təhlükəliliyi ondan ibarətdir ki, maddədə nəzərdə tutulan əməllərin törədilməsi iqtisadi sistemdə və ekoloji potensialın yüksəldilməsində çox mühüm rol oynayan torpaqdan qanuni istifadə, ona sahiblik və onun barəsində sərəncam vermənin qaydalarını pozur, torpaqların təyinatının dəyişməsinə səbəb olur.

Qanunverici Cinayət Məcəlləsinin bu maddəsində torpaq üzərində mülkiyyət hüququnun pozulmasını torpağın mülkiyyət formasından və hüquqi rejimindən asılı olmayaraq, Azərbaycan Respublikasının vahid torpaq fonduna daxil edilən torpaqların bütün kateqoriyalarına aid etmişdir. Eyni zamanda, qeyd olunan normanın dispozisiyasında nəzərdə tutulmuş torpaq üzərində mülkiyyət hüququnun pozulması mülkiyyət hüququnun hər bir elementinin - torpağa sahiblik, ondan istifadə və onun barəsində sərəncam vermə hüququnun pozulması kimi başa düşülməlidir. Beləliklə, Cinayət Məcəlləsinin həmin maddəsində göstərilən cinayətin obyekti torpaq üzərində mülkiyyət hüququnun həyata keçirilməsi ilə əlaqədar yaranan ictimai münasibətlərdir.

Cinayət Məcəlləsinin qeyd olunan normasında nəzərdə tutulan torpaq üzərində qanunla müəyyən edilmiş mülkiyyət hüququnun pozulmasına görə cinayət məsuliyyəti yaradan əməllər isə torpaq sahəsini özbaşına tutma, dəyişdirmə və becərmədə ifadə edilmişdir. Bu əməllər öz növbəsində qeyd olunan cinayətin obyektiv cəhəti hesab edilir.

Cinayət hüququnda torpaq sahəsini özbaşına tutma dedikdə, torpağın mülkiyyətçisinin və ya digər qanuni sahibinin razılığı, yaxud dövlət və ya bələdiyyə torpağının istifadəyə ayrılması haqqında qanunvericilikdə nəzərdə tutulmuş qaydada rəsmiləşdirilmiş sərəncam olmadan torpaq sahəsini ələ keçirmə başa düşülür. Bu zaman əməli törətmiş şəxs qanunsuz ələ keçirdiyi torpaq sahəsinə faktiki sahiblik etməyə və ya ondan faktiki istifadə etməyə başlamış olur (torpaq sahəsinin hüdudlarını müəyyən edən hasar çəkir, orada tikinti, abadlaşdırma və s. təsərrüfat-məişət təyinatlı fəaliyyəti həyata keçirməyə başlayır).

Torpaq sahəsini özbaşına dəyişdirmə şəxsin öz mülkiyyətində (sahibliyində, istifadəsində) olan torpaq sahəsini başqa mülkiyyətçiyə məxsus torpaq sahəsi ilə onun razılığı olmadan əvəz etməsidir. Qanunvericiliyə müvafiq qaydada şəxsin istifadəsinə ayrılmış torpaq sahəsi əvəzinə başqa torpaq sahəsini ələ keçirmə də torpaq sahəsini özbaşına dəyişdirmə hesab edilməlidir.

Özbaşına becərmə dedikdə isə, hər hansı torpaq sahəsində onun mülkiyyətçisinin və ya başqa qanuni sahibinin icazəsi olmadan bitkilərin əkilməsindən, onlara qulluq edilməsindən və onların yetişdirilməsindən ibarət fəaliyyət başa düşülməlidir. Torpağın becərilməsi həmin torpaq sahəsinin əkin üçün yararlı vəziyyətə gətirilməsi (kollardan, daşlardan təmizləmə və s.), şumlanması, toxum səpilməsi və s. bu kimi hərəkətlərin məcmusudur.

Beləliklə, Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, cinayət qanunvericiliyi mülkiyyət formasından asılı olmayaraq, torpaq üzərində mülkiyyət hüququnun hər bir elementini müdafiə edir və Azərbaycan Respublikasının vahid torpaq fondunu təşkil edən bütün kateqoriya torpaqlar Cinayət Məcəlləsinin qeyd olunan maddəsinin təsiri altına düşür.

Bununla yanaşı, torpaq və meşə qanunvericiliyinin pozulmasına görə Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyində də məsuliyyət nəzərdə tutulmuşdur.

İnzibati Xətalar Məcəlləsinin 70-ci maddəsinə əsasən meşə fondu torpaqlarının özbaşına tutulmasına və ya istifadə barəsində lazımi icazə olmadan həmin torpaq sahələrində tikinti işlərinin aparılmasına və ya digər işlərin görülməsinə görə - fiziki şəxslər yeddi yüz manatdan min manatadək miqdarda, vəzifəli şəxslər üç min beş yüz manatdan beş min manatadək miqdarda, hüquqi şəxslər altı min beş yüz manatdan səkkiz min manatadək miqdarda cərimə edilir.

Cinayət Məcəlləsinin 188-ci maddəsindən fərqli olaraq, İnzibati Xətalar Məcəlləsinin 70-ci maddəsində nəzərdə tutulan inzibati xətanın obyekti Azərbaycan Respublikasının vahid torpaq fondunu təşkil edən bütün kateqoriya torpaqlar deyil, yalnız meşə fondu torpaqlarının mühafizəsi və onlardan səmərəli istifadə olunması sahəsində yaranan ictimai münasibətlərdir.

İnzibati Xətalar Məcəlləsinin göstərilən maddəsi ilə inzibati məsuliyyəti yaradan əməllər - meşə fondu torpaqlarının özbaşına tutulması, istifadə barəsində lazımi icazə olmadan həmin torpaq sahələrində tikinti işlərinin aparılması və ya digər işlərin görülməsi bu xətanın obyektiv cəhətidir.

Cinayət və inzibati xətalar qanunvericiliyinin təhlil olunan normalarından görünür ki, hər iki Məcəllə ilə qorunan obyekt Azərbaycan Respublikasının vahid torpaq fondunu təşkil edən torpaqlarla bağlı yaranan ictimai münasibətlərdir. Cinayət qanunvericiliyində bu obyektə bütün kateqoriya torpaqlar, inzibati xətalar qanunvericiliyində isə yalnız meşə fondu torpaqları aid edilmişdir. Beləliklə, hər iki norma (Cinayət Məcəlləsinin 188-ci və İnzibati Xətalar Məcəlləsinin 70-ci maddələri) mahiyyət etibarı ilə meşə fondu torpaqlarını hüquqazidd qəsdlərdən mühafizə edir.

Bununla yanaşı, Cinayət Məcəlləsinin 188-ci maddəsində və İnzibati Xətalar Məcəlləsinin 70-ci maddəsində hüquqazidd əməllərin bəzi obyektiv cəhəti də üst-üstə düşür. Qeyd olunduğu kimi, Cinayət Məcəlləsinin həmin maddəsində nəzərdə tutulan torpaq üzərində qanunla müəyyən edilmiş mülkiyyət hüququnun pozulması, yəni cinayətin obyektiv cəhəti, torpaq sahəsini özbaşına tutmada, dəyişdirmədə və becərmədə ifadə edilmişdir. İnzibati Xətalar Məcəlləsinin qeyd olunan maddəsində də meşə fondu torpaqlarının özbaşına tutulması, istifadə barəsində lazımi icazə olmadan həmin torpaq sahələrində tikinti işlərinin aparılması və ya digər işlərin görülməsi bu xətanın obyektiv cəhəti hesab edilir.

Qeyd edilməlidir ki, cinayət və inzibati xətalar qanunvericiliyi ilə qorunan obyektə yönələn hüquqazidd əməllərin obyektiv cəhətlərinin üst-üstə düşməsi həmin əməllərin tövsifində qeyri-müəyyənliyə səbəb olur və hüquqtətbiqetmə təcrübəsində çətinliklər yaradır.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, cinayət və inzibati xətalar qanunvericiliklərinin məsuliyyət nəzərdə tutan normaları birmənalı, aydın, ardıcıl və başadüşülən olmalı, eyni hüquqazidd əmələ görə məsuliyyət nəzərdə tutan hüquq normalarının tərkibi qanunverici tərəfindən dəqiq və bir-birindən fərqli müəyyən olunmalıdır. Əks hal hər kəsin hüquq və azadlıqlarının müdafiə

olunmasını, hüquqtətbiq edənin hərəkətlərinin proqnozlaşdırıla bilən olmasını çətinləşdirə və şəxsin qabaqcadan öz hüquqazidd əməlinin nəticəsini bilməsini şübhə altına ala bilər. Belə hal şəxsin əsassız olaraq cinayət məsuliyyətinə cəlb edilməsinə və ya əksinə təqsirli şəxsin törətdiyi əmələ görə cəzasız qalmasına gətirib çıxara bilər. Eyni zamanda, bu şəxsin bir hüquqazidd əmələ görə iki dəfə məsuliyyətə cəlb olunmasına şərait yarada bilər.

Bununla yanaşı, Konstitusiya Məhkəməsinin Plenumu "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 264-cü maddəsinin şərh edilməsinə dair" 10 aprel 2012-ci il tarixli Qərarında qeyd etmişdir ki, məsuliyyətin yaranması hüquqi, eləcə də cinayət-hüquqi nəticələr törətdiyi üçün buna səbəb olan hansı hərəkətin (və ya hərəkətsizliyin) edilməsi, o cümlədən məhz hansı vəzifənin yerinə yetirilməməsi hüquqi müəyyənlik prinsipinə uyğun olaraq, qanunda dəqiq və aydın göstərilməlidir. Eyni zamanda, cinayət qanunvericiliyi sahəsində hüquqi müəyyənlik prinsipi Konstitusiyanın 71-ci maddəsinin VIII hissəsindən və "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 7-ci maddəsindən irəli gəlir. Konstitusiyanın 71-ci maddəsinin VIII hissəsindəki müddəa Əsas Qanunda qanunçuluq prinsipini ifadə edərək, cinayət və cəzanın qanuna əsaslanmasını tələb etməklə yanaşı (nullum crimen sine lege və nulla poena sine lege prinsipləri), cinayət qanununun genişləndirici təfsirinin qadağan edilməsi (lex stricta) və cinayət qanunvericiliyinin aydın və müəyyən olmasını da (lex certa) tələb edir.

Konstitusiyanın 94-cü maddəsi qanunvericilik sahəsində Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyətlərini müəyyən etmişdir. Konstitusiyanın 94-cü maddəsinin I hissəsinin 17-ci bəndinə əsasən cinayətlərin və başqa hüquq pozuntularının müəyyən edilməsi, onların törədilməsinə görə məsuliyyətin təyin edilməsi qanunvericilik hakimiyyəti orqanının müstəsna səlahiyyətinə aid edilmişdir.

Qeyd olunmalıdır ki, qanunverici meşə fondu torpaqlarının cinayət və inzibati hüquq-müdafiə tədbirlərini tənzimləyərkən bu hüquq müdafiə tədbirlərinin doğurduğu nəticələrlə hüquq pozuntusu nəticəsində dəymiş zərər arasında mütənasiblik tələbini nəzərə almalıdır. Bu, cinayət tərkiblərinin müəyyən edilməsi zamanı konstitusiyaya əsaslanan məqsədəmüvafiqliyi istisna etmir, habelə vətəndaşların bu və ya digər hüquqlarının və qanuni maraqlarının daha səmərəli müdafiəsini zəruri edən konkret şəraitdə ictimai münasibətlərin faktiki vəziyyətinin nəzərə alınmasına, bərabərlik və ədalət konstitusiya prinsiplərinə riayət edilməklə, cinayət məsuliyyətinin cinayət qanunu ilə qorunan dəyərlərə mütənasibliyinin təmin olunmasına əsaslanır.

Qeyd olunanları nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Cinayət Məcəlləsinin 188-ci və İnzibati Xətalar Məcəlləsinin 70-ci maddələrinin tərkiblərinin dəqiq və bir-birindən fərqli müəyyən olunması Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilməlidir.

Bununla yanaşı, Azərbaycan Respublikasının vahid torpaq fondunu təşkil edən meşə fondu torpaqlarına qarşı yönələn hüquqazidd əmələ görə inzibati və ya cinayət məsuliyyətinə cəlb edilməsi zamanı mülkiyyətçiyə, ətraf mühitə və s. dəyən zərərdən asılı olaraq, vurulmuş zərərin miqdarı baxımından əməlin və onun doğurduğu nəticələrin ictimai təhlükəliliyi nəzərə alınmalıdır. Əks hal bərabərlik və ədalət konstitusiya prinsiplərinin pozulmasına, mülkiyyət hüququnun, ətraf mühitin cinayət və inzibati hüquqi müdafiəsinin zəifləməsinə, cinayət əməlindən zərər çəkmiş şəxslərə münasibətdə diskriminasiyaya səbəb olar.

Konstitusiya Məhkəməsinin Plenumu vurğulayır ki, cinayət qanunu öz hüquqi təbiəti baxımından dövlətin hüquqazidd əmələ reaksiyasının ən son vasitəsi olaraq öz təsirini ictimai münasibətlərə yalnız o halda göstərir ki, digər sahəvi, o cümlədən inzibati məsuliyyəti müəyyən edən hüquq normaları vasitəsilə onların tənzimlənməsi kifayət etmir. Belə ki, Cinayət Məcəlləsinin 14.2-ci maddəsinə əsasən cinayət qanununda nəzərdə tutulmuş hər hansı əməlin (hərəkət və ya hərəkətsizliyin) əlamətləri formal cəhətdən mövcud olsa da, lakin az əhəmiyyətli olduğuna görə ictimai təhlükəli sayılmayan, yəni şəxsiyyətə, cəmiyyətə və yaxud dövlətə zərər yetirməyən və ya zərər yetirmək təhlükəsi yaratmayan əməl (hərəkət və ya hərəkətsizlik) cinayət hesab edilmir.

Bu baxımdan Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, cinayət və inzibati xətalar qanunvericiliklərinin müvafiq normalarının təkmilləşdirilməsi həyata keçirilənədək, hüquqtətbiqedici orqanlar meşə fondu torpaqlarına qarşı yönələn hüquqazidd əmələ görə təqsiri olan şəxsi inzibati və ya cinayət məsuliyyətinə cəlb edərkən, əməlin ictimai təhlükəlilik dərəcəsini, mülkiyyətçiyə, ətraf mühitə və s. vurulmuş zərərin ağırlıq dərəcəsini nəzərə almaqla, onun hərəkətlərini Cinayət Məcəlləsinin 188-ci maddəsi və ya İnzibati Xətalar Məcəlləsinin 70-ci maddəsi ilə tövsif etməlidirlər.

Yuxarıda qeyd edilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlir:

- Cinayət Məcəlləsinin 188-ci və İnzibati Xətalar Məcəlləsinin 70-ci maddələrinin bu Qərarda formalaşmış hüquqi mövqeyə uyğun olaraq, hüquqi müəyyənlik və mütənasiblik prinsipləri baxımından təkmilləşdirilməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilməlidir;
- cinayət və inzibati xətalar qanunvericiliklərinin müvafiq normalarının təkmilləşdirilməsi həyata keçirilənədək, hüquqtətbiqedici orqanlar meşə fondu torpaqlarına qarşı yönələn hüquqazidd əmələ görə təqsiri olan şəxsi inzibati və ya cinayət məsuliyyətinə cəlb edərkən, əməlin ictimai təhlükəlilik dərəcəsini, mülkiyyətçiyə, ətraf mühitə və s. vurulmuş zərərin ağırlıq dərəcəsini nəzərə almaqla, onun hərəkətlərini müvafiq olaraq Cinayət Məcəlləsinin 188-ci maddəsi və ya İnzibati Xətalar Məcəlləsinin 70-ci maddəsi ilə tövsif etməlidirlər.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 188-ci və Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 70-ci maddələrinin bu Qərarda formalaşmış hüquqi mövqeyə uyğun olaraq, hüquqi müəyyənlik və mütənasiblik prinsipləri baxımından təkmilləşdirilməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilsin.
2. Cinayət və inzibati xətalar qanunvericiliklərinin müvafiq normalarının təkmilləşdirilməsi həyata keçirilənədək, hüquqtətbiqedici orqanlar meşə fondu torpaqlarına qarşı yönələn hüquqazidd əmələ görə təqsiri olan şəxsi inzibati və ya cinayət məsuliyyətinə cəlb edərkən, əməlin ictimai təhlükəlilik dərəcəsini, mülkiyyətçiyə, ətraf mühitə və s. vurulmuş zərərin ağırlıq dərəcəsini nəzərə almaqla, onun hərəkətlərini müvafiq olaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 188-ci maddəsi və ya Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 70-ci maddəsi ilə tövsif etməlidirlər.
3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.
4. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində, "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.
5. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr Fərhad Abdullayev**